# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## QIRX BİRİNCİ KİTAB

## MAY 2010 - İYUL 2010

AZƏRNƏŞR
BAKI - 2017

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR ✵ NİTQLƏR

BƏYANATLAR ✵ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✵ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya, Türkiyə, Ukrayna və Gürcüstan respublikalarına rəsmi səfərləri, həmçinin Serbiya, İordaniya, Türkiyə, Belarus və Bolqarıstan prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına dair danışıqlarından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən bəhs olunur. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarında Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Bu cilddə, həmçinin dövlət başçısının bölgələrə səfəri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsinə həsr olunmuş çıxışları, nitqləri, ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşlərinə dair materiallar da dərc olunmuşdur.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2017}}$ **BBK - 32**

© Azərnəşr, 2017

## «İNTİZAR» OPERASININ YENİ QURULUŞDA PREMYERASINA BAXIŞ

*11 may 2010-cu il*

*Mayın 11-də Heydər Əliyev sarayında Heydər Əliyev Fondunun Beynəlxalq musiqi layihəsi çərçivəsində Xalq artisti Firəngiz Əlizadənin «İntizar» operasının yeni quruluşda premyerası olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva premyeraya tamaşa etmişlər.*

*Saraya toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətli alqışlarla qarşılamışlar.*

*Heydər Əliyev Fondu yeni Beynəlxalq musiqi layihəsini – çağdaş Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Firəngiz Əlizadənin «İntizar» operasının yeni quruluşda premyerasını təqdim etmişdir.*

*Opera Azərbaycan tarixinin yaxın keçmişində baş verən faciəli hadisələr, xeyirlə şərin əbədi mübarizəsi kimi ümumbəşəri mövzu kontekstində açılır. Xəyanət və hiylə ilə qonaqpərvər diyara gələn şər qüvvələr zorakılıqla səfalı bir diyarı viran qoyur, insanları amansızcasına qətlə yetirir. Hadisələrin faciəli axarına baxmayaraq, əsər əmin-amanlıq, xoşbəxtlik və ədalətin intizarında olan, gələcəyə inam və ümidlərini, mübarizə əhval-ruhiyyəsini əks etdirən təsirli finalla bitir. Səmada «Ağ atlı»nın peyda olması qazanılacaq qələbənin intizarında olan bütün insanlara ümid işarəsidir.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB DEVİD KAMERONA

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. Ölkələrimizi birləşdirən dostluq əlaqələri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız öz inkişaf dinamikası ilə səciyyələnir.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənməsi, enerji daşıyıcılarının hasilatı və dünya bazarlarına nəqli sahəsində transmilli layihələrin gerçəkləşməsində birgə səmərəli fəaliyyətimiz qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimiz, dostluq və əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Cənab Baş nazir, bir daha Sizə təbriklərimi və ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2010-cu il*

**LİVİYA İNQİLABININ RƏHBƏRİ,**
**BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST**
**XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ**

Zati-aliləri!

Tripoli Beynəlxalq Aeroportunda baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Liviya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2010-cu il*

# ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ABŞ Dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanounu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

**NİDERLAND KRALİÇASI**
**ÜLYAHƏZRƏT BEATRİKSƏ**

Ülyahəzrət!

Tripoli şəhərinin hava limanında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni son dərəcə sarsıtdı.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 may 2010-cu il*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ BORİS TADİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 may 2010-cu il*

*Mayın 13-də Serbiya Respublikasının Prezidenti Boris Tadiç Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Serbiya prezidenti Boris Tadiçi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Serbiya prezidenti Boris Tadiçə raport verdi.*

*Serbiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Serbiya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Boris Tadiçə, Serbiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SERBİYA PREZİDENTİ BORİS TADİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*13 may 2010-cu il*

*Mayın 13-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün potensial imkanların olduğu vurğulandı. İkitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Serbiya prezidenti Boris Tadiçin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi. İkitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ SERBİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*13 may 2010-cu il*

*Mayın 13-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Serbiya prezidenti Boris Tadiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

**İ l h a m Ə l i y e v**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Sizi ölkəmizdə bir daha salamlamaq istəyirəm. Uğurla inkişaf edən ikitərəfli münasibətlərimizə dair dünən və bu gün müzakirələrimiz oldu. Əminəm ki, Sizin ölkəmizə səfəriniz ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə və bir çox sahələri əhatə edən münasibətlərimizin genişləndirilməsinə doğru atılan mühüm addım olacaqdır. Bizim çox güclü siyasi əlaqələrimiz vardır. Ümidvaram ki, iqtisadi əməkdaşlığımız da həmin strateji xəttə uyğun olacaqdır. Serbiya ilə münasibətlər bizim üçün böyük əhəmiyyət kəsb edir. Güclü ikitərəfli əlaqələrimiz Balkan və Qafqaz regionları arasında əməkdaşlıq üçün geniş imkanlar açacaq və biz irəliyə doğru gedəcəyik.

Səfəriniz münasibətlərimizin tarixində Serbiya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Biz bunu yüksək qiymətləndiririk və dəvətimizi qəbul etdiyinizə görə təşəkkürümüzü bildiririk.

İnanıram ki, bu gün apardığımız müzakirələr və imzalanacaq sənədlər ölkələrimiz arasında uzunmüddətli strateji münasibətlər üçün olduqca möhkəm zəmin yaradacaqdır.

Bir daha xoş gəlmisiniz! Əminəm ki, Azərbaycana səfərinizdən məmnun qalacaqsınız.

**B o r i s  T a d i ç:** Sağ olun, cənab Prezident! Səmimi qəbul üçün təşəkkür edirəm.

Burada olmağımdan şərəf hissi duyuram. Sizin də qeyd etdiyiniz kimi, bu, Azərbaycana prezident səviyyəsində bizim ilk səfərimizdir. Ümidvaram ki, biz münasibətlərimizi gələcəkdə əsl dostlar kimi inkişaf etdirəcəyik. Mən yaşadığımız inkişaf edən regionlarda – Balkan və Qafqaz arasında bir çox oxşarlıqları görürəm. Qarşımızda eyni çətinliklər durur.

Biz ikitərəfli münasibətlərin inkişaf etdirilməsində çox maraqlıyıq. Lakin ölkələrimizin üzləşdiyi bəzi çətinliklər və problemlərin həlli ilə bağlı bir-birimizlə fikir mübadiləsi aparırıq. Bakıda, Azərbaycanda olarkən bir çox oxşarlıqların şahidi oldum. Onu deməliyəm ki, xalqlarımızı və ölkələrimizi birləşdirən oxşarlıqlar vardır. Fikrimcə, Siz də ölkəmizə səfər etsəniz, bunların şahidi olarsınız.

Cənab Prezident, hesab edirəm ki, ərazi bütövlüyümüzün qorunmasında ümumi maraqlarımız vardır. Biz fikirlərimizlə bölüşdük və bu cür məsələlər bizim üçün prinsipial xarakter daşıyır. Serbiya bütün dünya ölkələrinin ərazi bütövlüyünün qorunmasının tərəfdarıdır. Bu baxımdan Siz bizə arxalana bilərsiniz.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 may 2010-cu il*

*Mayın 13-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan–Serbiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Serbiya prezidenti Boris Tadiç «Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Serbiya Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın Xarici İşlər naziri Vuk Yeremiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizanın ləğv edilməsi haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın Xarici İşlər naziri Vuk Yeremiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya»nı Azərbaycanın Vergilər naziri Fazil Məmmədov və Serbiyanın Xarici İşlər naziri Vuk Yeremiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Serbiyanın Baş nazirinin birinci müavini, Daxili İşlər naziri İvika Daciç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və Serbiyanın Baş nazirinin müavini, İqtisadiyyat və Regionların İnkişafı naziri Mladjan Dinkiç imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*13 may 2010-cu il*

*Mayın 13-də Azərbaycan–Serbiya sənədlərinin imzalanma mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Boris Tadiç mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Əziz dostlar!

Sizi ölkəmizdə bir daha salamlamaq istəyirəm. Mən Sizin Azərbaycana ilk dəfə səfər etməyinizdən çox şadam. Bu, ikitərəfli münasibətlərimiz tarixində Serbiya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər ikitərəfli münasibətlərimizin bundan sonra da sürətlə inkişaf etməsi üçün əlverişli imkanlar yaradacaq, bu gün ikitərəfli münasibətlərimizlə bağlı müzakirə etdiyimiz bütün məsələlər, qəbul etdiyimiz qərarlar və imzaladığımız sənədlər tezliklə icra ediləcəkdir. Bu, ölkələrimizə indikindən də daha yaxın olmağa imkan verəcəkdir.

Bu gün biz ikitərəfli münasibətlərlə bağlı geniş əhatə dairəsi olan məsələləri, beynəlxalq münasibətlərlə və beynəlxalq vəziyyətlə bağlı məsələləri müzakirə etdik. Bir daha xatırlatmaq istərdim ki, ölkələrimiz beynəlxalq miqyasda bir-birini dəstəkləyir. Bu dəstək çox güclüdür və əminəm ki, bu, gələcəkdə də davam etdiriləcəkdir. Biz Serbiyanın ərazi bütövlüyünü tam dəstəkləyirik. Biz bir ölkənin razılığı olmadan onun sərhədlərinin dəyişdirilməsini tam yolverilməz hesab edirik və Kosovonun birtərəfli qaydada müstəqilliyini bəyan etməsi qeyri-qanuni bir addımdır. Əfsuslar olsun ki,

bəzi ölkələr onu tanıyıb. Lakin mən əminəm ki, beynəlxalq hüququn norma və prinsiplərinə bütün ölkələr tərəfindən riayət edilməlidir. Biz həmin təşkilatlara beynəlxalq birliyin üzvü olmaq, bu təşkilatların norma və prinsiplərini, suveren hüquqlarımızı müdafiə etmək imkanına qadir olmaq məqsədi ilə daxil olmuşuq.

Bu gün biz, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqlar prosesini də müzakirə etdik. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış Dağlıq Qarabağ bölgəsi və Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonumuz 15 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti nəticəsində 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Torpaqlarımızın 20 faizi işğal altındadır və bu işğal uzun illərdir ki, davam edir. Ermənistan BMT Təhlükəsizlik Şurasının işğal olunan ərazilərimizdən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə əməl etmir. Bu münaqişə yalnız beynəlxalq səviyyədə qəbul edilən normalar, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll edilməlidir.

Millətlərin öz müqəddəratını təyin etmək məsələsinə gəldikdə, qeyd etmək istərdim ki, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların Ermənistan dövləti vardır və ermənilərin məntiqi ilə onlar yaşadıqları bütün yerlərdə öz müqəddəratlarını təyin etməyə cəhd etsələr, o zaman dünyada çoxlu erməni dövləti olar. Hazırda Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlı əhali üçün suveren Azərbaycan dövləti çərçivəsində özünüidarəetmə uğurla təşkil edilə bilər.

Azərbaycan müxtəlif mədəniyyətlərin qovuşduğu çoxkonfessiyalı və çoxmillətli ölkədir. Müxtəlif etnik qrupların nümayəndələri, müxtəlif dini köklərə malik olan insanların hamısı ölkəmizdə eyni hüquq və azadlıqlara malikdirlər.

Bu gün biz, həmçinin ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı məsələləri də müzakirə etdik. Bu əməkdaşlığı genişləndirmək və mümkün olduqca daha geniş sahələri əhatə etmək üçün qarşılıqlı istək mövcuddur. Əsas diqqət yönəltdiyimiz məsələlər sırasında enerji sahəsində əməkdaşlığı qeyd etmək istərdim. Düşünürəm ki, bu sahədə uzunmüddətli və geniş əməkdaşlığımız üçün çox yaxşı imkanlar vardır. Azərbaycanın enerji ehtiyatları – neft və qaz dünya bazarlarına şaxələndirilmiş marşrutlar üzrə nəql olunur. Biz şaxələndirmənin yeni istiqamətləri üzərində işləyirik. Azərbaycan artıq regionumuzda enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayır. Ümidvaram ki, yaxın gələcəkdə Avropanın da enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayacaqdır. Düşünürəm ki, bu baxımdan ölkələrimiz arasında əməkdaşlıq qarşılıqlı, faydalı və çox səmərəli ola bilər.

Cənab Prezident, çox məmnunam ki, Sizi çoxlu iş adamları müşayiət edir və onlar ölkəmizdəki tərəfdaşları ilə görüşmək imkanı əldə edirlər. Əminəm ki, bu tərəfdaşlığın uğurlu nəticələrini yaxın zamanlarda görəcəyik. Biz Serbiyada, Azərbaycanda, ola bilər ki, digər ölkələrdə qarşılıqlı investisiya layihələrində maraqlıyıq. Biz iş adamlarımızın ölkələrimizdə, yerləşdiyimiz regionda biznes fəaliyyətləri üçün daha yaxşı imkan yaratmaqdan ötrü səylərimizi birləşdirə, yerləşdiyimiz coğrafi mövqedən istifadə edə bilərik. Ümid edirəm ki, Azərbaycan ilə Serbiya arasında olan güclü münasibətlər ölkələrimiz və xalqlarımız üçün faydalı olmaqla yanaşı, regional səviyyədə daha yaxşı anlaşmaya da xidmət edəcəkdir. Balkanlar, Xəzər dənizi, Qara dəniz, Qafqaz – biz hazırda bu coğrafi bölgələrdə daha yaxşı anlaşmanın necə əldə olunması üzərində işləyirik.

Biz çox sahələri müzakirə etdik. Əlbəttə ki, mədəniyyət və humanitar sahələr də çox önəmlidir. Biz bir-birimizi daha yaxından tanımalı, qarşılıqlı səfərləri intensivləşdirməliyik və artıq gələcək təmaslarımızın proqramını razılaşdırmışıq.

Cənab Prezident, bir daha Sizi və Sizi müşayiət edən nümayəndə heyətini ölkəmizdə salamlamaq istəyirəm. Ümidvaram ki, Azərbaycana səfəriniz faydalı olacaq və bu səfərdən məmnun qalacaqsınız. Sağ olun!

## Serbiya prezidenti Boris Tadiçin bəyanatı

Çox sağ olun, cənab Prezident!

Həqiqətən Serbiya hökumətinin nümayəndə heyəti ilə Bakıda – Azərbaycanda olmağımdan, Sizinlə və Sizin nümayəndə heyəti ilə ikitərəfli münasibətlərimiz və tarixi imkanlarımız barədə danışıqlar aparmaqdan, üzləşdiyimiz problem və çağırışları müzakirə etməkdən şərəf hissi duyuram.

Görürəm ki, bizim ümumi problem və çağırışlarımız vardır. Ərazi bütövlüyümüzü, ölkələrimizi qorumaq məsələləri ilə yanaşı, həmçinin mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə kimi çağırışları, ümumiyyətlə, ölkələrimizin gələcək inkişafı ilə bağlı məsələləri qeyd etmək istərdim. Bunlar özləri də hər iki tərəf üçün bir çağırışdır. Siz çoxtərəfli təsisatlarda beynəlxalq hüququn prinsiplərinin müdafiə edilməsində bizə arxayın ola bilərsiniz.

Biz Birləşmiş Millətlər Təşkilatına üzv olan ölkələrdə separatçılıq etmək məqsədi ilə etnik bəhanələrdən istifadə edən separatçıların tamamilə əleyhinəyik. Bu səbəbdən də biz Serbiyanın cənub əyaləti olan Kosovoya dair ölkəmizin ərazi bütövlüyü ilə bağlı maraqlarımızdan imtina etmirik.

Cənab Prezident, biz iqtisadi sahədə, enerji sektorunda əməkdaşlığımızdan, iqtisadiyyatımızın digər sahələri ilə bağlı əlaqələrimizdən danışdıq. Mən tam əminəm ki, biz iş adamlarımız, xalqlarımız və ümumiyyətlə, ölkələrimiz üçün həqiqətən də yaxşı imkanlar yarada bilərik. Qlobal enerji siyasətində Azərbaycan enerji sektorunun əsas iştirakçılarından biridir. Enerji təhlükəsizliyi baxımından Azərbaycanın rolu çox əhəmiyyətlidir. Biz Azərbaycanın enerji planla-

rına qoşulmaqda çox maraqlıyıq. Azərbaycan, Gürcüstan və Rumıniya marşrutu ilə sıxılmış qazın nəqlinə dair layihə və Azərbaycanın digər planları da Serbiya üçün olduqca maraqlıdır. Serbiyanın neft şirkətləri ölkənizin işgüzar dairələri ilə enerji sektorunda daha yaxşı mühitin yaradılması imkanlarını müzakirə edəcəklər.

Cənab Prezident, ölkənizin şirkətləri də Serbiya iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoya bilərlər. Biz bu haqda danışmışıq. Mən tam əminəm ki, bu səfərdən sonra biz işgüzar dairələrimiz üçün daha yaxşı imkanlar və şərait yaratmağa, ölkələrimizdə yeni iş yerlərinin açılmasına hazır olacağıq.

Cənab Prezident, danışıqlarımızın əvvəlində Siz bildirmişdiniz ki, çətinliklər və çağırışlar bir-birimizi daha yaxşı anlamaq üçün münbit şərait yaradır. Sizin də, bizim də qaçqınlarımız vardır. Hazırda Serbiyada yarım milyon məcburi köçkün yaşayır. Biz onların aqibəti üçün məsuliyyət daşıyırıq. Lakin biz prinsipial məsələlərdə öz mövqeyimizi, beynəlxalq qanunları, Helsinki Yekun Aktını, BMT Nizamnaməsini müdafiə etmək üçün səylərimizi davam etdirəcəyik. Bu məsələdə Siz bizə arxayın ola bilərsiniz.

Cənab Prezident, Bakıda – Azərbaycanda bizə göstərilən çox səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm və Sizi ölkəmizə səfərə dəvət edirəm. Sağ olun.

## ÇEXİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ YAN KOHOUTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Çexiya Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Yan Kohoutun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Avropa İttifaqı–Azərbaycan əlaqələrinin, regional əməkdaşlığın dövlətlərimiz üçün qarşılıqlı maraq doğuran məsələlərdən olduğunu vurğulamışdır. Prezident İlham Əliyev ümidvar olduğunu bildirmişdir ki, Çexiya Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Yan Kohoutun Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəkdir. Çexiya Respublikasının ölkəmizdə səfirliyinin açılmasının önəmini qeyd edən dövlətimizin başçısı bu hadisəni ikitərəfli münasibətlərimizin mühüm elementi kimi dəyərləndirmişdir.*

*Çexiya Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Yan Kohout bu səfərin Çexiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərə dair məsələlərin müzakirə edilməsi üçün yaxşı imkan yaratdığını bildirmişdir. O, Azərbaycan ilə əlaqələrin Çexiya üçün strateji xarakter daşıdığını vurğulamışdır. Yan Kohout 2009-cu ildə Azərbaycanın dövlət başçısının Çexiya Respublikasına səfərinin ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsi işində xüsusi rolunu qeyd etmişdir.*

## İORDANİYA KRALI II ABDULLAHIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*16 may 2010-cu il*

*Mayın 16-da İordaniya kralı II Abdullah Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya kralı II Abdullahı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İordaniya kralına raport verdi.*

*İordaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İordaniya kralı Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*16 may 2010-cu il*

*Mayın 16-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İordaniya kralı II Abdullahın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, bu səfərin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyi bildirilmişdir.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN VƏ İORDANİYA RƏHBƏRLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*16 may 2010-cu il*

*Mayın 16-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və İordaniya kralı II Abdullahın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

**İ l h a m  Ə l i y e v**: Əlahəzrət! Hörmətli dostlar!

Mən Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi görməkdən çox şadam. Ölkələrimiz arasında əlaqələrin inkişafından çox məmnunam. Bu, əsl qardaşlıq əlaqələridir. Əminəm ki, ölkəmizə Sizin səfəriniz ikitərəfli münasibətlərin gələcək inkişafında xüsusi rol oynayacaqdır. Biz ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət veririk. Gözəl siyasi təmaslarımız vardır, tez-tez qarşılıqlı səfərlərimiz baş tutur. İnanıram ki, bütün sahələrdə yaxşı irəliləyişin şahidi olacağıq.

Biz bütün ikitərəfli məsələləri geniş şəkildə müzakirə etdik və mövqelərimiz üst-üstə düşür. Regional inkişaf, əməkdaşlıq kimi məsələlər də müzakirə edildi. Əminəm ki, nümayəndə heyətlərimizin üzvləri öz vaxtlarını səmərəli keçirəcəklər ki, ikitərəfli əlaqələrin inkişafı üçün əlavə hansı işlərin görülməsi də müəyyən edilsin. Beynəlxalq təşkilatlar çərçivəsində bizə verdiyiniz dəstəyə görə olduqca minnətdarıq. Bu bizim üçün çox vacibdir. Ümidvarıq ki, həm bizim üçün, həm də region üçün vacib olan dostluq, qardaşlıq əlaqələrimiz davam edəcəkdir.

**II A b d u l l a h**: Zati-aliləri!

Məni nümayəndə heyətimlə birgə Azərbaycana səfərə dəvət etdiyinizə görə, əziz qardaşım, Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Siz də qeyd etdiniz ki, ikitərəfli münasibətlərimiz bütün səviyyələrdə olduqca güclüdür. Ümidvaram ki, bu səfər əvvəlki müzakirələrin nəticələri əsasında növbəti işləri görmək imkanını yaradacaqdır.

Bir daha qeyd edirəm ki, məlumat mübadiləsi, ölkələrimiz arasında təmaslar əla nümunədir. Bu işlərə rəhbərlik etdiyinizə, o cümlədən İordaniya tərəfi ilə əlaqələndirməni aparmaq üçün Azərbaycan hökumətinə verdiyiniz göstərişlərə görə Sizə minnətdarıq. Biz də İordaniyada əlaqələndirmə işlərini aparırıq. Gələcəkdə görüləcək işlər çoxdur. Aramızda bir çox oxşarlıqlar vardır. Fikrimcə, biz bunlardan istifadə etməliyik. Ən vacib amil isə ondan ibarətdir ki, dövlətlərimiz arasında əlaqələrlə yanaşı, regional müstəvidə münasibətlər də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Siz və ölkəniz İordaniya üçün çox vacibsiniz. Üzləşdiyiniz çətinliklərə gəldikdə, biz hər zaman sizin tərəfinizdə olmuşuq.

Cənab Prezident, mən şəxsən Sizdən eşitmişəm ki, Siz də İordaniyaya eyni münasibət bəsləyirsiniz. İkitərəfin həmkarları arasında qurulmuş əlaqələrə əminik. Burada, Bakıda yenidən olmağımdan şərəf duyuram. Ümidvaram ki, təmaslarımız nəinki dövlət, o cümlədən şəxsi əlaqələr səviyyəsində davam edəcəkdir.

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*16 may 2010-cu il*

*Mayın 16-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İordaniya kralı II Abdullah mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Əlahəzrət!

Hörmətli dostlar!

Hörmətli qonaqlar!

Sizi bir daha ölkəmizdə salamlamaq istəyirəm. Çox şadam ki, bizim bu qədər yaxşı müzakirələrimiz oldu, ikitərəfli münasibətlərə aid bir çox məsələləri əhatə etdik. Əlaqələrimiz çox yaxşıdır. Artıq bir neçə ildir ki, biz çox fəal əməkdaşlıq edirik və bu əməkdaşlığın yaxşı nəticələri vardır. Siyasi dialoqumuz çox fəal və dinamikdir. Biz mütəmadi olaraq görüşürük və dövlət liderlərinin qarşılıqlı səfərləri münasibətlərimizi daha da gücləndirir. Ümidvaram ki, biz gələn illər ərzində iqtisadi əməkdaşlığa daha çox diqqət yetirəcəyik. Çünki daha çox işlər görməliyik. İşgüzar dairələrimizin nümayəndələri arasında artıq ilkin təmaslar vardır. Hesab edirəm ki, potensialımızdan daha geniş şəkildə istifadə etməliyik. Biz bu səfər çərçivəsində iqtisadi əməkdaşlığımızın praktiki aspektlərini, müxtəlif investisiya layihələrini müzakirə etdik və onları yaxın gələcəkdə həyata keçirmək niyyətindəyik.

Ölkələrimiz arasında möhkəm mədəni əlaqələr də vardır. Münasibətlərimizin uzun tarixi mövcuddur. İndi biz ikitərəfli məsələlərə aid gündəliyin daha da genişləndirilməsi üçün görülməli işlər üzərində düşünməliyik.

Əlahəzrət!

Sizin və ölkənizin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hər zaman açıq və birmənalı mövqeyinə görə olduqca minnətdarıq. Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Azərbaycana verdiyiniz dəstəyə görə dərin minnətdarlığımızı bildiririk. Bu bizim üçün çox vacib idi. Bilirsiniz ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan torpaqları uzun illərdir Ermənistanın işğalı altındadır. Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beynəlxalq təşkilatlar torpaqlarımızın azad edilməsi ilə bağlı bir sıra qətnamələr qəbul ediblər. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, onlar hələ də yerinə yetirilməyib. İslam Konfransı Təşkilatı qətnamələr qəbul edib. Həmçinin ATƏT və Avropa Şurasının qərarları Azərbaycanın ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir. Təəssüflər olsun ki, Ermənistan tərəfi həmin qətnamələrə məhəl qoymur. Biz məsələni sülh yolu ilə həll etməyə çalışırıq. Danışıqları konstruktiv tərzdə aparırıq və bu baxımdan Ermənistan tərəfindən də eyni yanaşmanı gözləyirik.

Əlahəzrət!

Mən Sizə və hökumətinizə Azərbaycanı bu məsələdə daim dəstəklədiyinizə görə minnətdarlığımı bildirirəm. Biz isə öz növbəmizdə İordaniyaya beynəlxalq təşkilatlarda dəstəyimizi veririk. Ölkənizi dəstəkləməkdə davam edəcəyik. Nümayəndə heyətlərimiz arasındakı münasibətlər də arzuolunan səviyyədədir. Fikrimcə, nümayəndə heyətlərinin üzv-

ləri də bizdən, bizim münasibətlərdən yaxşı nümunə götürəcəklər və yaxşı əlaqələr yaradacaqlar.

Sizi ölkəmizdə qəbul etməkdən bir daha məmnun olduğumu bildirirəm. Mən Sizə və İordaniya xalqına sülh və rifah arzulayıram. Ümidvaram ki, ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətləri gələcəkdə də uğurla davam edəcəkdir.

**İordaniya kralı II Abdullahın bəyanatı**

Çox sağ olun, Zati-aliləri!

Xanımlar və cənablar!

Bakıda yenidən olmağımdan çox məmnunam. Ölkələrimiz arasında bu cür xüsusi münasibətlərdə irəliləyişi görməkdən çox şadam. Əminəm ki, bu gün apardığımız konstruktiv müzakirələr və bu səfər çərçivəsində imzalanacaq sənədlər əməkdaşlığımızı daha da gücləndirəcəkdir. İnanıram ki, biz nəqliyyat, kənd təsərrüfatı, enerji və xidmətlər sektorunda xüsusi əməkdaşlıq sahələrini müəyyən edə biləcəyik.

Zati-aliləri!

Sizinlə digər beynəlxalq və regional, xüsusən də Yaxın Şərqdə hərtərəfli sülhün bərqərar olması üçün zəruri hesab edilən məsələlərlə bağlı müzakirələr aparmaqdan çox şad oldum. İsrail–Fələstin münaqişəsinin iki dövlət variantı əsasında həllinə yönələn səylərimizdə irəliləyişin əldə olunması hamı üçün təxirəsalınmaz xarakter daşıyır. Bu, İsrail dövləti ilə sülh və təhlükəsizlik şəraitində yanaşı yaşayan suveren və möhkəm Fələstin dövlətinin qurulmasına xidmət etməlidir. Bu münaqişənin həlli sabitliyin və təhlükəsizliyin bərpası üçün xüsusi əhəmiyyət kəsb edir. Biz bu məsələni Bakıda qardaşlarımızla müzakirə etdik.

Biz beynəlxalq səviyyədə bir-birimizi hər zaman dəstəkləyirik. Biz uzun illərdir ki, bir-birimizi tanıyırıq. Aramızda olan qardaşlıq münasibətləri hökumətlərimiz və xalqlarımız

arasında olan əlaqələrdə də öz əksini tapıb. İnanıram ki, biz İordaniya ilə Azərbaycan arasında xüsusi münasibətlərimizi gələcəkdə daha da gücləndirəcəyik.

Zati-aliləri, Sizi burada və beynəlxalq tədbirlərdə görməkdən hər zaman məmnun oluram. Yaxın vaxtlarda Sizi yenidən görməyi səmimiyyətlə arzulayıram və dostluğumuz münasibətlərimizi bundan sonra daha da sıx edəcəkdir. Çox sağ olun və göstərilmiş çox səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm.

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*17 may 2010-cu il*

*Mayın 17-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.*

*Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*17 may 2010-cu il*

*Mayın 17-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişafından məmnunluq ifadə olundu. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*17 may 2010-cu il*

*Mayın 17-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar!

Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Biz indi təkbətək görüşdə çox geniş fikir mübadiləsi apardıq. İkitərəfli münasibətlərin bütün sahələri təkrar nəzərdən keçirildi. Bir daha gördük ki, Türkiyə–Azərbaycan dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, xalqlarımız bir-biri ilə sıx əməkdaşlıq edir, birgə təşəbbüslərimiz, layihələrimiz uğurla icra edilir. Sizin səfəriniz ikitərəfli əlaqələrin inkişafı üçün çox vacib addım olacaq və səfərin çox gözəl nəticələri olacaqdır. Əminəm ki, bu gözəl ənənələr gələcəkdə də davam edəcək və xalqlarımız bir-birinə daha da yaxın olacaqlar!

Əziz qardaşım, Sizi Azərbaycanda bir daha salamlayıram, xoş gəlmisiniz.

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Çox təşəkkür edirəm. Dəyərli qardaşımla Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətləri, bölgədəki vəziyyəti, dünyada gedən

inkişaf proseslərini qiymətləndirmək fürsətimiz oldu. Nazir dostlarımız bir-biriləri ilə görüşmək fürsəti tapa bildilər.

Türkiyə–Azərbaycan ayrılmaz iki qardaşdır. Bizlər bir ailənin iki üzvüyük. Təbii ki, ulu öndər Heydər Əliyevin ifadə etdiyi kimi, «Biz bir millət, iki dövlətik». Biz bu kəlamı hər zaman söyləyirik. Bu, təbii ki, sözdə deyil, əməldə də özünü göstərir və göstərəcəkdir. Biz bir-birimizə güc verməklə gələcəyini hazırlayan iki ölkəyik. İnanıram ki, birgə səylərimiz, çalışmalarımız bəhrəsini hər sahədə verir.

Azərbaycana hər səfərimdə ölkənizi daha da irəliləmiş, inkişaf etmiş görəndə sevinc içində oluram. Bu gəlişimdə də Azərbaycanın daha da inkişaf etdiyini və etməkdə olduğunu gördüm. Buna görə də çox şadam. Bu bizləri sevindirir. Azərbaycanın inkişaf etməsi, zənginləşməsi bizim zənginliyimizdir. İnanıram ki, bizim zənginliyimiz də eyni şəkildə Azərbaycanın zənginliyidir. Daxildəki rahatlığımız eyni şəkildə bir-birimizin rahatlığıdır. Mən də bu səbəbdən yenə də birlikdə olmağımızın sevincini yaşayıram. Təbii ki, qarşıda yenə beynəlxalq toplantılarımız vardır. Yenə də bir yerdə olacağıq. Bu səbəbdən çox təşəkkür edirəm. Xeyirli olsun! – deyirəm.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*17 may 2010-cu il*

*Mayın 17-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat konfransı olmuşdur.*

*Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Əziz qardaşım, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Biz bu səfərə çox böyük önəm veririk. Çünki bu səfərin nəticələri iki ölkə arasında əlaqələrin inkişafı üçün çox önəmlidir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Bu əlaqələr dostluq-qardaşlıq əsasında qurulubdur. Bizim çox zəngin birgə tariximiz, ortaq dəyərlərimiz vardır. Son 20 ilə yaxın müddətdə Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim yüksək səviyyədə olmuşdur. Bütün məsələlərdə əməkdaşlığımız yaxşı nəticələr verməkdədir.

Siyasi əlaqələr çox yüksək səviyyədədir. Baxmayaraq, iqtisadi sahədə hələ çox iş görülməlidir. Energetika sahəsindəki əlaqələrimiz təkcə ölkələrimiz üçün deyil, bölgə üçün çox böyük əhəmiyyətə malikdir. Bizim birgə həyata keçirdiyimiz layihələr – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələri bu gün Azərbaycanın, Türkiyənin və digər

ölkələrin enerji təhlükəsizliyini təmin edir. Şübhə yoxdur ki, biz enerji sahəsində əməkdaşlığı gələcəkdə bu gözəl təməl əsasında daha da gücləndirəcəyik. Bunu etmək üçün bütün imkanlar vardır. Türkiyə–Azərbaycan əlaqələri bütün türk dünyası üçün mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk.

Keçən il Naxçıvanda türkdilli dövlətlərin başçılarının zirvə görüşünün keçirilməsi və görüşün nəticələri türk dünyasının birləşməsinə xidmət göstərmişdir. Bu gün Bakıda biz həyatımızda çox əlamətdar hadisə kimi yadda qalacaq gözəl mərasimdə iştirak edəcəyik. Biz türk dünyasının böyük oğlu, böyük öndər Mustafa Kamal Atatürkün abidəsinin açılışında bərabər iştirak edəcəyik. Bu abidənin açılışı böyük öndərin xatirəsinə verilən qiymətdir. Azərbaycan xalqının onun xatirəsinə göstərdiyi hörmətdir. Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı, xalqlarımız arasında dostluq-qardaşlıq münasibətlərinin gücləndirilməsi üçün də bunun böyük əhəmiyyəti vardır.

Bu gün biz regional məsələləri geniş şəkildə müzakirə etdik. Xüsusilə bölgədə təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını bir daha müzakirə etdik. Mən hörmətli cənab Baş naziri danışıqların son vəziyyəti ilə bağlı məlumatlandırdım. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri uzun illərdir ki, pozulubdur. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Etnik təmizləmə siyasəti nəticəsində bir milyon Azərbaycan vətəndaşı öz torpağında qaçqın-köçkün vəziyyətindədir. Bu, böyük ədalətsizlikdir. Beynəlxalq hüquq normalarının kobudcasına pozulmasıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasına dair 4 qətnamə qəbul edibdir. Ermənistan tərəfi bu qətnamələrə məhəl qoymur. Beynəlxalq təşkilatlar Azərbay-

canın ərazi bütövlüyünü dəstəkləyən qərarlar qəbul edibdir. Ancaq əfsuslar olsun ki, danışıqlar prosesində heç bir müsbət irəliləyiş yoxdur. Azərbaycan bütün dövrlərdə özünü danışıqlar prosesində konstruktiv aparıb. Eyni yanaşmanı biz Ermənistan tərəfindən gözləyirik ki, işğala son qoyulsun, Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıda bilsinlər və ondan sonra bölgədə genişmiqyaslı sülh yarana bilər.

Bir daha demək istəyirəm ki, bizim bugünkü görüşümüz həmişə olduğu kimi, dostluq-qardaşlıq şəraitində keçirilib. Nümayəndə heyətlərinin bütün üzvləri bir-biri ilə sıx əlaqədədirlər. Türkiyə–Azərbaycan əlaqələri möhkəm təməl üzərində qurulubdur. Bu əlaqələrin inkişafı üçün biz bundan sonra da çalışacağıq. Hörmətli Baş nazirin, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın Azərbaycana bugünkü səfəri bu əlaqələrin inkişafı üçün çox önəmli addım olacaqdır.

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Mən də çox təşəkkür edirəm. Azərbaycana reallaşdırdığımız bu səfərdə yenə öz evimizdə, öz ailə şəraitimizdə ikitərəfli münasibətlərimizi istər təkbətək, istərsə də heyətlərarası görüşlər şəklində həyata keçirmiş olduq.

Uzun müddətdən sonra Bakıya belə bir səfər baş tutdu. Amma bundan sonra daha da tez-tez görüşlər olacaqdır. Çünki iyunun 7-8-də hörmətli Prezidentinizi İstanbulda qəbul edəcəyik. Daha sonra təbii ki, yenə gələcəkdir. Biz yenə gələcəyik, nazirlərimiz gələcəklər. Təbii ki, aramızdakı əlaqələr fərqlidir. Siyasi, hərbi, ticari, iqtisadi, mədəni və bütün sahələrdə bu səfərlərin davamı mütləqdir.

Təbii ki, bu gün keçirdiyimiz görüşlərdə, xüsusilə də hörmətli Prezidentlə keçirdiyim görüşdə ən önəmli addımlardan biri yüksək səviyyədə strateji Əməkdaşlıq Şurasının qurulması istiqamətində verdiyimiz qərardır. Arzu edirəm

ki, İstanbul səfərində bunun imzalarını da birlikdə atmaq imkanımız olsun. Bu təbii ki, çox geniş, hərtərəfli bir işdir və Türkiyə ilə Azərbaycan arasında gələcəyi əhatə edən ən mühüm addım olacaqdır. Xüsusilə iqtisadi sahədə fərqli addımlar atmaqla aramızdakı mövcud münasibəti əldə etdiyimiz indiki nöqtədən daha da irəliyə aparmaq lazımdır. Bilirəm ki, dünyada hökm sürən iqtisadi böhrandan Azərbaycan da uğurla çıxan ölkələrdən biri olmuşdur. Türkiyə də böhrandan ən az zərərlə çıxan ölkələrdən biri oldu. Bu həmrəyliyimizin bizi gələcəyə daha da qətiyyətlə aparacağına inanıram.

Hörmətli Prezident bizi Dağlıq Qarabağ mövzusunda məlumatlandırdı. Ötən dövr ərzində Azərbaycan münaqişənin həllinə konstruktiv yanaşmışdır və bu mövqeyini davam etdirir. Xüsusilə, Minsk qrupu həmsədrlərinin son təklifi Azərbaycan tərəfdən müsbət qarşılanarkən, Ermənistanın hələ də məsələyə münasibət bildirməməsi Azərbaycanın bu işə konstruktiv yanaşmasını ortaya qoyur. Biz də nüvə təhlükəsizliyi ilə bağlı zirvə görüşündə bu mövzuda bəzi görüşlər keçirdik. Çox təəssüflər olsun ki, görüşlərdə eyni vəziyyəti gördük. Bu təbii ki, bizim üçün də arzuolunmazdır. Biz qətiyyətli addımlarımızı eyni şəkildə davam etdirəcəyik. Amma Minsk qrupu da bu dövr ərzində qətiyyətini ortaya qoymalıdır. Necə ki, mayın 12-13-də hörmətli Medvedevin Türkiyəyə səfərində də onunla bu mövzunu müzakirə etdik. Amerikada da istər hörmətli Obama ilə, istərsə də hörmətli Medvedevlə bu mövzunu müzakirə etmək imkanımız olmuşdu. Bundan bir həftə əvvəl də hörmətli Sarkozi ilə Fransada bu mövzunu müzakirə etdik. Biz bu mövzu ilə əlaqədar həssaslığımızı eyni şəkildə davam etdiririk. Çünki Azərbaycanın bu probleminə bizim əhəmiyyət verməməyimiz mümkün deyildir.

Təbii, bu səfər çərçivəsində hörmətli Prezidentin tapşırığı və razılığı ilə inşası tamamlanan Atatürk abidəsinin açılışında birlikdə iştirak edəcəyik. Buna görə də şəxsən öz

adımdan və millətim adından Prezidentə çox-çox təşəkkür edirəm. Həmin abidənin açılışı həm səfərimizi, həm də Türkiyə–Azərbaycan birliyini daha da möhkəmlədən yeni bir addım olacaqdır.

* * *

*Sonra dövlət başçıları mətbuat konfransında jurnalistlərin suallarına cavab verdilər.*

**D u y ğ u  G ü v ə n c (*Türkiyə*): Hörmətli Əliyev, əgər Ermənistan yenilənmiş Madrid sənədinə razılıq verərsə, Türkiyə və Azərbaycan eyni anda Ermənistanla sərhədləri açacaqmı? İkinci sualım isə budur ki, Azərbaycan qazını Nabukkoda görə biləcəyikmi?**

**İ l h a m  Ə l i y e v:** Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün uzun illərdir ki, səylər göstərilir. Azərbaycan bütün dövrlərdə məsələnin ədalətli, beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə həllinin tərəfdarı olmuşdur. 1994-cü ildə atəşkəs rejimi imzalandı. Danışıqlar 16 ildir nəticəsiz davam edir. Buna baxmayaraq, Azərbaycan hələ də sülh prosesinə sadiqdir. O ki qaldı yenilənmiş Madrid prinsiplərinin əsasında verilən təklifə, bir daha demək istəyirəm ki, Azərbaycan tərəfi prinsip etibarilə çox kiçik istisnalarla bu təklifi qəbul etdi. Biz eyni yanaşmanı Ermənistan tərəfindən də gözləyirik. Təklifin verilməsindən təxminən 6 ay vaxt keçibdir və Ermənistan tərəfindən müsbət cavab verilməyibdir. Ermənistan tərəfi çalışır ki, vaxtı uzatsın. Məsələnin həlli üçün önəmli addımlar atmasın və beləliklə, bu danışıqlar prosesini daimi prosesə çevirsin. Biz buna heç cür razılıq verə bilmərik. Danışıqlar prosesinin vaxt çərçivələri olmalıdır. Minsk qrupu 1992-ci ildə yaradılıbdır. 20 ilə yaxındır ki, danışıqlar gedir. Bütün dövrlərdə danışıqların həlledici məqamlarında Ermənistan tərəfi addımlar atıb ki, danışıqları pozsun. Əfsuslar olsun ki, bu gün də biz eyni mənzərəni müşahidə edirik.

Ermənistan tərəfi öz mövqeyini bildirməlidir. Ya Rusiya, Fransa, Amerika tərəfindən verilmiş təklifə müsbət cavab verəcək və o təqdirdə biz məsələnin həllinə yaxınlaşacağıq. Ya da ki, mənfi cavab veriləcək, beləliklə, danışıqlar prosesi pozulacaq və Ermənistan ilə Azərbaycan arasında yeni dövr başlaya bilər. Əgər Ermənistan tərəfi verilən təklifə müsbət cavab verərsə və bunun əsasında Azərbaycan torpaqlarından Ermənistanın işğalçı qüvvələrinin çıxması prosesi başlanarsa, Azərbaycan, təbii ki, Ermənistanla bütün sərhədləri açacaqdır. Bütün kommunikasiyalar açılacaqdır və bölgədə tammiqyaslı sülh və təhlükəsizlik tədbirləri təmin oluna biləcəkdir.

O ki qaldı Azərbaycan qazının ixracına, bilirsiniz ki, bu gün Azərbaycan qazı mövcud olan və tikintisi nəzərdə tutulan kəmərlərin əsas mənbəyidir. Bizim neft-qaz imkanlarımız çox genişdir. Bu gün Azərbaycan qazı müxtəlif istiqamətlərdə qonşu ölkələrə nəql edilir. Çalışırıq ki, bu coğrafiyanı genişləndirək. Əgər bizə məqbul şərtlər verilərsə, əlbəttə ki, biz istənilən qaz layihəsinə qoşula bilərik. Keçən ay Türkiyə ilə Azərbaycan arasında qaz satışı və nəqli ilə bağlı bütün məsələlər öz həllini tapıbdır. Yəni prinsip etibarilə biz bütün məsələləri razılaşdırdıq. İndi konkret texniki işlər aparılır ki, artıq saziş imzalanmaya hazırlansın.

Bizim enerji siyasətimiz həmişə açıq və aydın olmuşdur. Azərbaycan ixracın şaxələndirilməsi işində öz rolunu oynayır. Bizim təbii ehtiyatlarımızı nəzərə alıb demək olar ki, növbəti onilliklər ərzində Azərbaycan çox etibarlı qaz ixrac edən ölkə kimi, özünü dünyada daha da geniş mənada təqdim edəcəkdir.

**Qənirə Ataşova (*ANS, Azərbaycan*): Mənim sualım Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanadır. Türkiyə ilə Ermənistan arasında imzalanan protokolların ratifikasiyasının gələcəyi ilə bağlı konkret fikrinizi bilmək istərdim. Bildiyimiz kimi, protokollarda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konkret məsələ nəzərdə tutulmur. Bu o demək-**

**dirmi ki, münaqişənin nizamlanmasında ciddi irəliləyişə nail olunmayınca, protokollar ratifikasiya oluna bilər?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n :** İsveçrədə Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi adlandırdığımız anlaşmaların imzalanması hazırda məhz Ermənistan tərəfindən dondurulmuş vəziyyətdədir. Bizdə isə bu iş bildiyiniz kimi, parlamentə həvalə edilmişdir. Bizim parlamentə həvalə edilmiş bu normallaşma prosesi istiqamətindəki protokolla əlaqədar çox açıq və dəqiq bir ifadəmiz vardır. O da nədir?! Dağlıq Qarabağ mövzusu, rayonlar məsələsi, Ermənistan–Azərbaycan arasındakı problem öz həllini tapmadan Türkiyə Böyük Millət Məclisindən müsbət bir qərarın çıxması mümkün deyildir. Bu çox açıq və dəqiq surətdə göz qabağındadır. Bunu Minsk qrupu həmsədrlərinin üçünə də söylədik. Onlar bu istiqamətdə daha fəal olmalı və Ermənistana da bu işin əhəmiyyətini, önəmini izah etməlidirlər. Madrid məsələsini də bunun üçün fəal şəkildə gündəmə gətirdik. Ermənistanın hələ də bu məsələdə həssaslığının olmadığını görürük. Soçi görüşündən 4 ay vaxt keçməsinə baxmayaraq, hər hansı irəliləyiş yoxdur.

**S e ç i l  Ö z e r (*Türkiyə*): Cənab Ərdoğana bir sualım olacaq. Bu gün Tehranda tarixi bir addım atıldı. Uzun müddət Türkiyənin can atdığı bir məsələ idi. Nələr yaşandı və bu nöqtəyə gəlindi? Bir də məlum olduğu kimi, Qərb dövlətlərinin sanksiyaları ilə bağlı bəzi fəaliyyətləri vardır. Bu addım həmin sanksiya çalışmalarına son qoyacaqmı? Sizin bu mənada Qərb ölkələrinə, BMT-yə bir mesajınız varmı?**

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n :** Çox təşəkkür edirəm. Xarici İşlər nazirimiz Davudoğlu, Braziliya Xarici İşlər naziri Amorim və İran Xarici İşlər naziri Muttəki, İranın uran ilə bağlı bu prosesə rəhbərlik edən naziri hörmətli Cəlilinin sədrliyi ilə həqiqətən 18 saatlıq gərgin fəaliyyət göstərdilər. Mən Tehrana gecə saat bir radələrində enərkən toplantını yenicə bitirmişdilər və orada onlardan nəticələri aldıq.

Məsələ ilə bağlı bəyanat yayımlandı. Bu bəyanatda istər Türkiyədə az zənginləşdirilmiş uranın təhlükəsizliyinin təminatı, yəni əminliklə Türkiyədə saxlanması, qalması və haradan gətirilməsi məsələləri əksini tapmışdır. Beynəlxalq Atom Enerji Agentliyi bu işin əlaqələndiricisi olacaqdır. Amma ABŞ, Rusiya, Fransa bu işdə öz yerlərini əhəmiyyətli şəkildə qoruyurlar. Burada məlum 120 kiloqramlıq yanacağın İrana verilməsi məsələsi vardır.

Bir ay ərzində İranın 1200 kiloqramlıq az zənginləşdirilmiş uranı Türkiyəyə təhvil verməsi və ondan sonra da bir il ərzində 120 kiloqramlıq yanacağın İrana verilməsi məsələsi vardır. Türkiyə bu 120 kiloqramlıq yanacağı haradan gəlibsə oraya təhvil verəcəkdir.

Təbii ki, burada Türkiyəyə olan inam çox mühüm əhəmiyyət kəsb edir. İranın Türkiyəyə etimadı çox əhəmiyyətlidir. Buradan Braziliyanın prezidenti cənab Lulaya da çox təşəkkür edirəm. Çünki biz prosesi necə yaxından izlədiksə, onlar da bizim qədər yaxından izlədilər. Beləliklə də bu anlaşma orada dünyaya bəyan edildi.

Sanksiyalara gəldikdə isə əgər dünya ölkələri bu səylərə müsbət mövqedən yanaşarlarsa, sanksiyadan söhbət gedə bilməz. Türkiyə ilk mərhələdən öz səmimi niyyətini göstərmişdir. BMT-nin Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvlərinin hər biri ilə görüşlər keçirmişik. İstər mən, istər Xarici İşlər nazirimiz, istər hörmətli Lula BMT Təhlükəsizlik Şurasının daimi üzvlərini və digərlərini tez bir zamanda məlumatlandırmağa başlayacağıq. Biz bu işə başlamışıq və bunu davam etdirəcəyik.

**C e y h u n Q u l i y e v (*Azərbaycan Televiziyası*): Hörmətli cənab Baş nazir, bildiyiniz kimi, Bakı–Tbilisi–Qars dəmir yolu tikilməkdədir və Azərbaycan tərəfi məsələ qaldırmışdır ki, bu yol Naxçıvana qədər də uzansın. Türkiyənin hazırda bu məsələ ilə bağlı mövqeyi necədir?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Planlaşdırdığımız kimi, qətiyyətli şəkildə bu fəaliyyəti davam etdiririk və

etdirəcəyik. Bundan kimsə narahat olmasın. Çünki Naxçıvanın bu problemini həll etmək bizim əsas vəzifəmizdir. Bildiyiniz kimi, iyunun 17-də hava yolu ilə daşınmalara başlayacağıq və böyük ehtimalla xarici işlər nazirlərimiz, inşallah, açılış mərasimində iştirak edəcəklər. Türk Hava Yolları həftədə 3 dəfə İstanbuldan Naxçıvana səfərlər həyata keçirəcəkdir.

## BAKIDA TÜRKİYƏ RESPUBLİKASININ BANİSİ QAZİ MUSTAFA KAMAL ATATÜRKÜN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*17 may 2010-cu il*

*Mayın 17-də Bakının Nəsimi rayonunda Türkiyənin Azərbaycandakı səfirliyinin qarşısındakı parkda Türkiyə Cümhuriyyətinin qurucusu Qazi Mustafa Kamal Atatürkün abidəsi açılmışdır.*

*Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etmişlər.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş parkda bu əlamətdar hadisə münasibətilə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Məlumat verildi ki, abidənin müəllifi Xalq rəssamı, heykəltəraş Ömər Eldarovdur. Türkiyə Cümhuriyyətinin banisi Qazi Mustafa Kamal Atatürkün abidəsinin ucaldığı park bundan sonra paytaxt sakinlərinin istirahət yerinə çevriləcəkdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mərasimdə nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli Əminə xanım! Əziz qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Bakının mərkəzində türk dünyasının böyük oğlu, böyük öndər Qazi Mustafa Kamal Atatürkün abidəsinin açılışı münasibətilə

sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, bizim üçün bu əlamətdar gündə mənim əziz dostum, qardaşım, Türkiyənin Baş naziri böyük heyətlə iştirak edir. Bu tarixi günü biz birlikdə qeyd edirik.

Böyük dövlət xadimi, böyük sərkərdə, böyük siyasətçi Qazi Mustafa Kamal Atatürk Azərbaycan xalqının qəlbində silinməz iz buraxmışdır. Azərbaycan xalqı böyük öndərin xatirəsini həmişə öz qəlbində saxlayıb və bu gün də saxlayır.

Mustafa Kamal Atatürk Azərbaycanı çox sevirdi, Azərbaycana xüsusi münasibət bəsləyirdi. Onun «Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimizdir» tarixi kəlamı bizim üçün həmişə olduğu kimi, çox vacibdir. Bu bir yoldur, o bu yolu göstərib. İki qardaş xalq bu yolda bərabər addımlayır.

Tarix belə gətirdi ki, müəyyən dövr ərzində bizi tarixi hadisələr ayırdı. Azərbaycan müstəqil ölkə kimi yalnız 20 ilə yaxındır yaşayır, bundan əvvəlki dövrlərdə də bizim qəlbimiz, duyğularımız bir döyünürdü. Bir-birimizə olan dostluq, qardaşlıq münasibətlərini heç bir siyasi quruluş, yaxud da ki, siyasi təşəbbüs dəyişdirə bilməzdi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqilliyimizi ilk tanıyan qardaş Türkiyə olmuşdur. O gündən bu günə qədər biz bütün dövrlərdə və bütün istiqamətlərdə birlikdə fəaliyyət göstəririk. Bizim aramızda dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir.

Biz elə etməliyik ki, bundan sonrakı illərdə, əsrlər boyu həmişə bir yerdə olaq. Türk dünyasının böyük liderləri bizə bunu vəsiyyət etmişlər. XX əsrin əvvəllərində böyük Atatürkün məşhur kəlamları bu gün də öz aktuallığını saxlayır. XX əsrdə Azərbaycan xalqının böyük lideri Heydər Əliyevin kəlamları da bizim üçün həmişə yol göstərir. O demişdir ki, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Biz bu tarixi şəxsiyyətlərin sözlərinə sadiqik. Elə etməliyik ki, gələcək nəsillər də bu dostluq, qardaşlıq şəraitində yaşasınlar, daim

bir-birinə kömək etsinlər, daim bir-birinin qayğıları ilə yaşasınlar. Bu iki tarixi ifadə sadəcə olaraq, sözlər deyildir. Onun arxasında çox dərin məna dayanır. Bu tarixi kəlamlar bizim yolumuzu işıqlandırır. Bizim yolumuz həmişə açıq olmalıdır, nurlu olmalıdır. Bunu təmin etmək üçün biz həmişə bir yerdə olmalıyıq.

Bu gün Türkiyə və Azərbaycan arasında əlaqələr, bizim birgə nümayiş etdirdiyimiz birlik təkcə xalqlarımız, ölkələrimiz üçün deyil, bölgə üçün, dünya üçün önəmlidir. Türkiyə bu gün dünyada çox fəal və önəmli müsbət rol oynayır. Bölgədə gedən proseslərə Türkiyənin təsir imkanları artır. Türkiyə gündən-günə güclənir. Bu bizi çox sevindirir. Çünki Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da o qədər güclü olacaqdır.

Azərbaycan da sürətlə inkişaf edir. 1991-ci ildə müstəqilliyi bərpa edəndə Azərbaycanda vəziyyət çox ağır idi. Ölkənin müstəqil həyatı əslində sual altında idi. Bu gün isə Azərbaycan ən dinamik inkişaf edən ölkədir. O ölkədir ki, öz maraqlarını qorumaqla bölgədə genişmiqyaslı əməkdaşlığın dərinləşməsi üçün praktiki addımlar atır.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr çoxşaxəlidir, çox genişdir. Bu əlaqələr çox möhkəm tarixi və mədəni köklər əsasında qurulubdur. Xalqlarımız arasındakı dostluq, qardaşlıq duyğuları bu əlaqələri möhkəmləndirir. Birgə həyata keçirdiyimiz layihələr, istər nəqliyyat, istər energetika, istər mədəniyyət sahələrində, istər humanitar sahədəki bütün addımlarımız bizi bir-birimizə daha da yaxın edir. Türkiyə–Azərbaycan əlaqələri regional əməkdaşlıq üçün başlıca şərtdir və bizim maraqlarımız nəzərə alınmadan bölgədə heç bir təşəbbüs reallaşa bilməz.

Türkiyə–Azərbaycan əlaqələri deyə bilərəm ki, türk dünyasının daha da sıx birləşməsi üçün həlledici rol oynayır. Keçən il Naxçıvanda keçirilmiş türkdilli dövlət başçılarının zirvə görüşü, görüşün nəticələri, əldə edilmiş qərarlar bir daha göstərdi ki, biz hamımız çalışmalıyıq ki, türk dünyasını

daha da sıx birləşdirək. Əgər buna nail olsaq, onda bizim gücümüz daha da artacaqdır. Bütün imkanlarımız var – təbii sərvətlər, coğrafi vəziyyət, əhali. Türk dünyasının birliyi bizim gələcəyimizdir. Azərbaycan və Türkiyə öz üzərinə düşən rolunu şərəflə yerinə yetirir. Türk dünyasının birliyinin əsasını Türkiyə və Azərbaycan təşkil edir.

Qazi Mustafa Kamal Atatürkün abidəsinin Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəzində ucaldılması bugünkü günü tariximizə bayram günü kimi yazacaqdır. Bu, Türkiyə–Azərbaycan dostluğunun, birliyinin bayramıdır. Bu, böyük öndərin xatirəsinə Azərbaycan xalqının qəlbindəki duyğuların ifadəsidir.

Mən əminəm ki, bu gözəl, abad parkda Türkiyə və Azərbaycan vətəndaşları birlikdə gözəl günlər keçirəcəklər. Bu yerin seçilməsi də təsadüfi xarakter daşımır və deyə bilərəm ki, bunda mənim də rolum olmuşdur. Burada biz bir neçə amili nəzərə aldıq. İlk növbədə bu, şəhərin mərkəzində, Bakının tarixi yerində olmalı idi. Çox şadam ki, bu abidə Türkiyə səfirliyinin yaxınlığında yerləşir. Bura Bakı şəhərinin mərkəzində qardaş Türkiyənin kiçik bir parçası kimidir.

Mən bir daha sizin hamınızı, Azərbaycan və türk xalqlarını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Əziz qardaşıma mənim dəvətimi qəbul edib Bakıya səfər etdiyinə və bu gözəl mərasimdə iştirakına görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən öz fəaliyyətimdə bundan sonra da Türkiyə–Azərbaycan əlaqələrinin yüksək səviyyədə saxlanması üçün əlimdən gələni əsirgəməyəcəyəm. Türkiyə–Azərbaycan birliyinin möhkəmləndirilməsi üçün öz səylərimi davam etdirəcəyəm və bütün işlərimdə çalışacağam ki, xalqlarımız bir-biri ilə daha da yaxından əməkdaşlıq etsinlər.

Bir daha, əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm! Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nitqi

Çox dəyərli qardaşım, hörmətli Prezidentim!
Hörmətli Mehriban xanım!
Dəyərli qardaşlarım, xanımlar və bəylər!

Sizləri bu çox gözəl açılış mərasimində ən səmimi duyğularımla salamlayıram. Həqiqətən, bu gün dəyərli qardaşım bizlərə 17 mayı – Türkiyə–Azərbaycan əlaqələri tarixinə yazılacaq belə bir gözəl açılış mərasimini – yaşatdı. Bu səfərimi daha mənalı etdilər. Bununla əlaqədar ona öz adımdan və millətim adından çox təşəkkür edirəm.

Böyük lider, cümhuriyyətimizin banisi Mustafa Kamal Atatürkün abidəsinin belə gözəl bir yerdə seçilib ucaldılması və xüsusilə də bu yeri hörmətli qardaşımın özünün seçməsi, müəyyənləşdirməsi bizim üçün çox əhəmiyyətlidir. Hətta səfirlik binasının yerini müəyyənləşdirərkən orada da eyni həssaslığı göstərmişdi. Layihə hazırlanarkən orada əyrü-üyrü kiçik bir yer var idi. O zaman qardaşıma dedim ki, buranı nə edəcəyik? Həmin an bütün cavabdeh şəxsləri çağırdı, hamısını yanımıza topladıqdan sonra belə bir xətti çəkdi, bura belə olacaq, – dedi. Həqiqətən, o xətt çəkilərək ona əsasən layihəyə hazırlıq işlərinə başlanıldı. Beləliklə, səfirlik binası da Bakının ən gözəl yerində inşa edildi. İndi də eyni hissi abidənin ucaldılması zamanı yaşadıq.

Türkiyə–Azərbaycan əlaqələrinin bənzərsiz mahiyyəti vardır. Təbii, qazi Mustafa Kamal Atatürkün «Azərbaycanın kədəri–kədərimiz, sevinci–sevincimizdir» deyərkən ortaya qoyduğu həqiqət davam edir, bundan sonra da eynilə davam edəcəkdir. Bunu əminliklə söyləyə bilərəm ki, hansı siyasi iqtidar gəlirsə gəlsin, aramızdakı bu əlaqəni poza bilməz. Çünki bizim aramızdakı əlaqələr qurumların əlaqəsi deyildir, millətlərin əlaqəsidir. Çinki biz bir millətik, iki ayrı dövlətik. Bunu dərindən anlamaq lazımdır. Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari – bütün sahələrdə bu

əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır.

Azərbaycanla əlaqədar da bunları deyə bilərəm. 10 il, 20 il əvvələ getdikdə, necə bir Azərbaycan var idi, bu gün necə bir Azərbaycan var. Hətta bir il əvvəlki Azərbaycanla indiki Azərbaycan arasındakı çox böyük fərqi görürəm. Bu qədər sürətlə inkişaf edən, bu qədər sürətlə dəyişən bir Azərbaycan vardır. Bunu dəyişdirən lider vardır, kadrlar vardır. Tarixi şəxsiyyətlər tarixdə qurub-yaratdıqları ilə qalırlar.

İndi tarix Azərbaycanda mərhum Heydər Əliyevi necə yad edirsə, gələcəkdə İlham Əliyev qardaşımı belə yad edəcəkdir. Əsərlərlə yad edəcəkdir.

Mən şəxsən öz adımdan və millətim adından minnətdarlığımı təkrar ifadə edirəm. Təkrar edirəm ki, Türkiyə–Azərbaycan əlaqələri hər ötən gün daha da güclənməkdədir, daha da güclənəcəkdir. Bundan heç kəsin şübhəsi, narahatlığı olmasın. Kimsə dedi-qodulara inanmasın. Bizim aramızdakı birliyi, qardaşlığı dedi-qodular poza bilməz. Mən də eynilə İlham Əliyev qardaşım kimi, «Yaşasın Türkiyə–Azərbaycan qardaşlığı» – deyəcəyəm! «Yaşasın işıqlı gələcəyimiz!» – deyəcəyəm! «Yaşasın Türkiyə və Azərbaycanın gələcəkdəki o güclü dünyanı formalaşdırması» – deyəcəyəm! Sağ olun, var olun!

* * *

*Azərbaycan dövlətinin başçısı və Türkiyənin Baş naziri abidənin üzərindən ağ örtüyü götürdülər.*

*Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın adından abidənin önünə əklillər qoyuldu.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan abidənin önündə xatirə şəkli çəkdirdilər.*

## PAYTAXTIN MÜXTƏLİF YERLƏRİNDƏ İSTİFADƏYƏ VERİLMİŞ PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*20 may 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 20-də paytaxtın müxtəlif yerlərində yenidən qurulmuş və yeni inşa olunmuş piyada keçidlərinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Füzuli meydanında əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş yeraltı piyada keçidi ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi tədbirləri çərçivəsində əsaslı şəkildə yenidən qurulmuş piyada keçidində görülmüş işlər barədə məlumat verdi. Bildirildi ki, paytaxtda nəqliyyatın hərəkətinin sıx olduğu ərazidə yerləşən bu keçid yararsız vəziyyətdə idi və piyadalar buradan çox az istifadə edirdilər. Bu isə nəqliyyatın və piyadaların təhlükəsiz hərəkəti üçün qorxu törədirdi.*

*Prezident İlham Əliyev keçidin əvvəlki vəziyyətini əks etdirən fotoşəkillərə baxdı.*

*Dövlətimizin başçısına ətrafda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mayın 20-də Hüseyn Cavid prospektində Azərbaycan Texniki Universitetinin binası qarşısında yeraltı piyada keçidində aparılmış yenidənqurma işləri ilə də tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi tədbirləri çərçivəsində bu yeraltı keçiddə təmir və yenidənqurma işlərinə ötən ilin sonlarında başlanılmışdı.*

*Dövlətimizin başçısı yeraltı keçidi gəzdi və burada görülmüş işlərdən razılığını bildirdi.*

* * *

*Prezident İlham Əliyev həmin gün Binəqədi rayonunda, Azadlıq prospektində metronun «Azadlıq prospekti» stansiyası yaxınlığında inşa edilmiş yerüstü piyada keçidinin açılışında iştirak etmişdir.*

*Tikinti şirkətinin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev nəqliyyatın hərəkətinin sıx olduğu ərazidə inşa edilmiş keçidin açılışını bildirən lenti kəsdi və keçid ilə yaxından tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, tikintidə yüksək keyfiyyətli inşaat materiallarından və avadanlıqlardan istifadə edilmişdir. Ümumi uzunluğu 63 metr, yolun hərəkət hissəsindən hündürlüyü 5 metrdən çox olan keçid yükdaşıyan 16 kolonun üzərində dayanır.*

*Keçidin texniki göstəriciləri ilə tanış olan prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Zonquldak vilayətindəki «Karadon» kömür şaxtasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2010-cu il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ**

Hörmətli xanım Prezident!

Manqalor şəhərinin hava limanı yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Hindistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2010-cu il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–İtaliya dövlətlərarası münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İtaliya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2010-cu il*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – İsveç Bayrağı günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsveç arasındakı münasibətlər, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveç xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2010-cu il*

## RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MAQOMEDSALAM MAQOMEDOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov arasında görüş keçirilmişdir.*

*Daha sonra görüş geniş tərkibdə davam etdirilmişdir.*

*Dövlətimizin başçısı prezident Maqomedsalam Maqomedovun ilk səfərini Azərbaycana etməsini yüksək qiymətləndirərək Azərbaycan ilə Dağıstanı çoxəsrlik tarixi, mədəni əlaqələrin birləşdirdiyini vurğulamış və əmin olduğunu bildirmişdir ki, Dağıstan prezidentinin Azərbaycana səfəri xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq, müxtəlif sahələrdə, o cümlədən iqtisadi, regionda təhlükəsizliyin möhkəmləndirilməsi, sərmayə yatırımları və digər istiqamətlərdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi işinə xidmət edəcəkdir. Prezident Maqomedsalam Maqomedov Dağıstan xalqının dərin hörmət və ehtiramını dövlətimizin başçısına çatdırmışdır. M.Maqomedov Rusiya–Azərbaycan münasibətlərinin və eləcə də xalqlarımız arasında mehriban dostluq və qardaşlıq əlaqələrinin qədim tarixə malik olduğunu vurğulayaraq bu ənənələrin qorunaraq gələcək nəsillərə ötürüləcəyinə əmin olduğunu bildirmişdir.*

## MİSİRİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD ABUL ĞEYTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Misir Ərəb Respublikasının Xarici İşlər naziri Əhməd Abul Ğeytin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulamışdır. Prezident İlham Əliyev Misirə rəsmi səfəri zamanı keçirdiyi görüşləri xatırladaraq Azərbaycan ilə Misir arasında müxtəlif səviyyəli tədbirlərin əhəmiyyətini qeyd etmiş, Misirin Xarici İşlər naziri Əhməd Abul Ğeytin ölkəmizə səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətli olacağına əminliyini bildirmişdir.*

*Xarici İşlər naziri Əhməd Abul Ğeyt Misir Ərəb Respublikasının Prezidenti Hüsnü Mübarəkin salamlarını və məktubunu dövlətimizin başçısına çatdırmışdır. Qonaq ölkəmizdə gedən sürətli inkişaf proseslərinin, sabitlik və əmin-amanlığın, yaradılmış müasir infrastrukturun, inşa olunan yeni obyektlərin onda böyük təəssürat doğurduğunu demişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Misir dövlətinin başçısı Hüsnü Mübarəkin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Misir prezidentinə çatdırmağı xahiş etmişdir.*

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ XANIM AŞA ROUZ MİGİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də BMT Baş katibinin müavini xanım Aşa Rouz Migironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin VII konfransında iştirak etmək üçün ölkəmizə səfər edən xanım Aşa Rouz Migiro BMT Baş katibi Pan Gi Munun salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, Baş katib Azərbaycanda əldə olunan iqtisadi tərəqqini maraqla izləyir. Xanım Aşa Rouz Migiro Azərbaycan prezidentinin konfrans iştirakçılarına ünvanladığı müraciətə görə minnətdarlığını bildirdi. Bu gün Azərbaycanın birinci xanımı ilə görüşdüyünü və çox maraqlı müzakirələr apardıqlarını bildirən qonaq Mehriban Əliyevanın Azərbaycanda uşaqların sağlamlığı istiqamətində gördüyü işlərdən məmnun qaldıqlarını vurğuladı.*

*Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin VII konfransının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı tədbirin Azərbaycanda və konfransda iştirak edən ölkələrdə ümumi vəziyyətin inkişafı işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı BMT Baş katibi Pan Gi Munun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş katibə çatdırmağı xahiş etdi.*

## BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Valter Kalinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin qaçqınların və məcburi köçkünlərin vəziyyəti ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını vurğulamışdır. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qeyd edən prezident İlham Əliyev onların sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən və bu işlərin Azərbaycan dövlətinin siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu demişdir. Dövlətimizin başçısı Azərbaycanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoymaqla bu ədalətsizliyin aradan qaldırılması istiqamətində səylərini bundan sonra da əsirgəməyəcəyini bildirmişdir.*

*BMT Baş katibinin nümayəndəsi Valter Kalin 2007-ci ildə ölkəmizə səfərini və həmin səfər zamanı keçirdiyi görüşlərdə qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə bağlı müzakirələri xatırladaraq həm Bakıda, həm də bölgələrdə qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə yaxından tanış olduğunu, 2007-ci ildən bəri Azərbaycanda bu istiqamətdə çox böyük işlər görüldüyünü məmnunluqla qeyd etmişdir.*

## AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ XANIM MOD DE BUR BUKİKKİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Avropa Şurası Baş katibinin müavini xanım Mod De Bur Bukikkionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan cəmiyyətində qadınların rolu, müxtəlif hakimiyyət strukturlarında və ictimai təşkilatlarda qadınların iştirakı ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## AVROPA ŞURASINA ÜZV DÖVLƏTLƏRİN GENDER BƏRABƏRLİYİNƏ HƏSR OLUNMUŞ VII KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransın açılışı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikası bu gün Avropa Şurası ilə ən müxtəlif sahələrdə qarşılıqlı faydalı münasibətlər quraraq səmərəli əməkdaşlıq həyata keçirir. Təşkilata üzv-dövlətlərlə əlaqələrin genişləndirilməsi ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına və qarşıya çıxa biləcək problemlərin aradan qaldırılmasına əlverişli zəmin yaradır. Bu baxımdan son zamanlar respublikamızda Avropa Şurası səviyyəsində bir sıra beynəlxalq tədbirlərin ənənəvi xarakter alması təqdirəlayiqdir.

Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət edir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Azərbaycan təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə, real gender bərabərliyinə nail olunması üçün öz qüvvələrini əsirgəmirlər.

Bununla yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan artıq qaçqın və

məcburi köçkünün əksəriyyətini təşkil edən qadınlarımızın ən kobud şəkildə pozulmuş əsas hüquqları hələ də bərpa olunmamışdır. Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin və Avropa Şurasının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlarının mövcud olmasına baxmayaraq, həmin insanların doğma yurdlarına qayıtması istiqamətində göstərilən səylər də hələlik nəticəsiz qalmışdır.

Gender bərabərliyinin faktiki surətdə əldə olunması, heç şübhə yoxdur ki, beynəlxalq və milli səviyyədə bir çox qurum və təsisatların uzunmüddətli birgə fəaliyyətinin gücləndirilməsini tələb edir. Əminəm ki, konfransınız bu məsələlər ətrafında geniş və səmərəli müzakirələr aparacaq, gələcək fəaliyyətinizdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə öz töhfəsini verəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2010-cu il*

## DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 may 2010-cu il*

*Mayın 25-də Dövlət Miqrasiya Xidmətinin yeni inzibati binasının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Son illər Azərbaycanda gedən sosial-iqtisadi inkişaf nəticəsində ölkəyə miqrant axınının güclənməsi bu sahədə tənzimləmə işlərinin aparılması zərurətini yaratmışdır. Bu məqsədlə prezident İlham Əliyev 2007-ci il martın 19-da Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Fərman imzalamışdır. Bununla da ölkədə miqrasiya sahəsində qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə olunması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması ilə bağlı dövlət siyasətinin həyata keçirilməsi üçün geniş imkanlar yaradılmışdır.*

*Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimov prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, yeni inzibati binanın tikintisi yüksək keyfiyyətlə həyata keçirilmiş və inşaat işləri zamanı milli memarlıq üslubu qorunub saxlanılmışdır.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, binada Xidmətin əməkdaşları üçün yüksək şərait yaradılmış və onların səmərəli fəaliyyətinə böyük imkanlar açılmışdır.*

*Dövlətimizin başçısı binada yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu. Burada xalqımızın ümummilli lideri*

*Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər və sənədlər qorunur.*

*Miqrasiya sahəsinə nəzarətin gücləndirilməsi məqsədilə prezident İlham Əliyevin tapşırığına əsasən binada ən müasir Vahid Miqrasiya Məlumat Sistemi quraşdırılmışdır. Ölkədə baş verən miqrasiya proseslərinin dinamikası barədə tam təsəvvürün yaradılmasına imkan verən, qeyri-qanuni miqrasiya ilə mübarizə və təhlükəsizliyin təminatı sahəsində müvafiq tədbirlərin görülməsi üçün əlverişli şərait yaradan, hazırda respublikada miqrasiya proseslərinin idarə edilməsi funksiyasını yerinə yetirən Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə daxil olduqdan sonra harada və hansı işlə məşğul olması müşahidə edilir və ciddi nəzarətdə saxlanılır.*

*Yeni binada Dövlət Miqrasiya Xidmətinin Yevlax, Şirvan, Lənkəran və Xaçmaz regional idarələrinin, həmçinin Bakı və Yevlaxda qanunsuz miqrantların saxlanma mərkəzlərinin birbaşa videomüşahidəsi də təmin edilmişdir.*

*Xidmətə müraciət edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sənədlərinin qəbulu prosesi elektron növbəlilik prinsipi nəzərə alınmaqla təşkil edilmişdir. Eyni vaxtda 14 şəxsin sənədlərinin qəbulu və müvafiq icazə vəsiqələrinin verilməsi nəzərdə tutulmuşdur.*

*Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, habelə Azərbaycan vətəndaşlarının operativ məlumatlandırılması üçün 24 saat fəaliyyətdə olan «Qaynar xətt» xidməti təşkil edilmişdir.*

*Bina ilə tanışlıqdan sonra dövlətimizin başçısı Dövlət Miqrasiya Xidmətinin kollektivi ilə görüşüb onları təbrik etdi.*

**İlham Əliyev:** Bu gözəl binanın açılışı münasibətilə sizi təbrik edirəm. Burada işləmək üçün bütün şərait vardır. Ən müasir standartlar tətbiq olunub. Bina həm gözəlliyi ilə seçilir, həm də ki, daxili tərtibatı yaxşı səviyyədədir. İş şəraiti ən yüksək standartlara cavab verir. Əsas odur ki, burada bütün işlər də yüksək standartlara cavab versin. Azərbaycan Miqrasiya Xidmətinin böyük funksiyaları vardır. Miqrasiya

Xidmətinin yaranması çox vaxtında atılmış addım idi və bu illər ərzində Xidmət formalaşdı, gücləndi. Bu gün Azərbaycanın iqtisadi maraqlarının qorunması üçün Miqrasiya Xidmətinin çox mühüm rolu vardır.

Əminəm ki, bundan sonra da Miqrasiya Xidmətinin işi yüksək səviyyədə olacaqdır. Bu, siz işçilərdən asılıdır. Elə etməliyik ki, ən qabaqcıl təcrübə burada tətbiq olunsun. Burada gördüklərim məni çox sevindirir, çox böyük işlər görülübdür, bu məsələlərə düşünülmüş şəkildə yanaşılıbdır. O ki qaldı sizin vəzifələrinizə, siz bu vəzifələri yaxşı bilirsiniz. İndi Azərbaycan xarici vətəndaşlar üçün çox cəlbedici ölkədir. Xaricdən işləmək, yaşamaq üçün gələnlərin sayı artıb. Bu da çox sevindirici haldır. Bu bizim iqtisadi uğurlarımızın nəticəsidir. Azərbaycan xalqı çox qonaqpərvərdir. Sizin funksiyanız ondan ibarət olacaqdır ki, xaricdən gələn vətəndaşlara həm xidmət göstərəcək, həm də onların Azərbaycanda qalmasının təmin edilməsi üçün bütün lazımi qanuni tədbirləri görəcəksiniz.

Qanunsuz miqrasiya dünyanın müxtəlif ölkələrində, xüsusilə inkişaf etmiş ölkələrdə mövcuddur. Qanunsuz miqrasiya, əlbəttə, xoşa gələn hal deyildir və biz buna qarşı ciddi mübarizə aparmalıyıq. Amma müxtəlif yollarla Azərbaycana gəlmək istəyənlərin sayının artması özlüyündə Azərbaycanın nə qədər cəlbedici ölkə olduğunu göstərir.

Biz qapılarımızı bütün qonaqlara açırıq. Ancaq hər şey qanun çərçivəsində olmalıdır. Qanunsuz miqrasiyaya qarşı çox ciddi mübarizə aparılmalıdır. Azərbaycana işləmək üçün gələnlər qanunlarımıza, milli dəyərlərimizə, ənənələrimizə hörmətlə yanaşmalıdırlar. Belə olan halda Azərbaycana gələn xarici ölkə vətəndaşlarının da yaşayışı üçün bütün şərait yaradılacaqdır.

İndi biz dünya iqtisadiyyatına inteqrasiya edirik. Azərbaycana xaricdən gələnlərin sayı artır. Azərbaycan vətəndaşları başqa ölkələrdə işləyirlər. Bu, normal proseslərdir. Əsas odur ki, bütün bu işlər qanun çərçivəsində tənzimlənsin

və iqtisadi maraqlarımız tam şəkildə təmin olunsun. Azərbaycanda bütün təhlükəsizlik tədbirləri maksimum dərəcədə təmin olunsun. Biz yaxşı bilirik ki, daxildə ölkənin təhlükəsizliyinə səbəb ola biləcək heç bir amil yoxdur. Ona görə biz ilk növbədə sərhədlərimizi möhkəmləndirməliyik və bunu edirik. O cümlədən Miqrasiya Xidmətinin xətti ilə görülən tədbirlər həm iqtisadi maraqlarımızı qoruyacaq, həm də insanlarımızın rahat, təhlükəsiz həyatını təmin edəcəkdir.

Mən əminəm ki, siz bütün bu vəzifələri yaxşı dərk edirsiniz. Miqrasiya Xidmətinin qısa müddət ərzində fəaliyyəti onu göstərir ki, qarşımıza qoyduğumuz məsələlər icra olunur. Bu onu göstərir ki, Miqrasiya Xidmətinin yaradılması çox düzgün və vaxtında atılmış addım idi. Hələ o vaxt biz bu qərara gələndə deyə bilərəm ki, Azərbaycana gəlmək istəyən miqrantların sayı o qədər də çox deyildi. Ancaq biz bilirdik ki, Azərbaycanın uğurlu inkişafı və bütün proqramların icrası nəticəsində xaricdən işçi qüvvəsinin axını güclənəcəkdir. Bu gün biz bunu görürük, ona görə bütün addımları vaxtında atmışıq. Əsas odur ki, siz öz işinizlə bütün bu vəzifələri icra edəsiniz və Azərbaycanın dövlət maraqlarının qorunması üçün bütün lazımi tədbirləri görəsiniz.

Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sizə işinizdə uğurlar arzulayıram.

## PAYTAXTDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2010-cu il*

*Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Respublika günü münasibətilə paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*Mərasim başa çatdıqdan sonra prezident İlham Əliyev İstiqlaliyyət küçəsindəki binaların fasadlarında, eləcə də paytaxtın Filarmoniya bağında həyata keçirilən yenidənqurma və abadlıq işləri ilə tanış oldu, «Respublika» otelində aparılan təmir və bərpa işlərinin gedişi ilə maraqlandı.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL

*«Buta» sarayı*

*27 may 2010-cu il*

*Mayın 27-də «Buta» sarayında 28 May – Respublika gününə həsr olunmuş rəsmi qəbul təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir.*

*Salona toplaşanlar prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi və bütün Azərbaycan xalqını Respublika günü münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

92 il əvvəl müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Bu hadisə çox böyük tarixi məna daşıyırdı. İlk dəfə olaraq bu bölgədə demokratik respublikanın yaradılması Azərbaycan xalqının böyük nailiyyəti idi. Respublikanın ömrü uzun olmadı, 2 ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Azərbaycan xalqı dövlət müstəqilliyini itirdi. Qısa müddət ərzində, iki ildə bütün dövlət atributları yaradıldı, Azərbaycanın Dövlət bayrağı qəbul edildi, bizim dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli

tərəfindən Azərbaycanın Dövlət himni bəstələndi, Azərbaycanın Dövlət gerbi qəbul edildi, dövlət strukturları formalaşdırıldı, nazirliklər yaradıldı. Buna baxmayaraq, respublikanın süqutu qaçılmaz idi və 70 il ərzində Azərbaycan Sovet İttifaqının tərkibində sosialist respublikası kimi yaşadı. Baxmayaraq ki, biz dövlət müstəqilliyimizdən məhrum idik, amma Azərbaycan üçün o illər də uğurlu olmuşdur. Azərbaycanda çox güclü sənaye potensialı yaradıldı, kənd təsərrüfatının inkişafı çox sürətlə gedirdi. Sənaye müəssisələri, xüsusilə neft-qaz sahəsində yaradılmış müəssisələr bu gün də müstəqil Azərbaycana xidmət edir.

Ancaq biz müstəqil ölkə kimi yaşaya bilmirdik. Azərbaycan xalqı yenə də ümidlərlə yaşayırdı və bu ümidlər özünü 1991-ci ildə doğrultdu. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. O illər Azərbaycan tarixinə çox çətin illər kimi daxil olub. Çünki müstəqilliyin ilk illərində Azərbaycanda gedən xoşagəlməz proseslər, daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə, Azərbaycan rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində ölkəmizin müstəqilliyi yenə də şübhə altına qoyuldu. Bütün iqtisadi məsələlər düzgün istiqamətdə həll olunmurdu. Sənaye sahəsində böyük tənəzzül müşahidə olunurdu, total böhran hökm sürürdü.

Sovet İttifaqının dağılmasından bir neçə il əvvəl erməni separatçılarının Azərbaycana qarşı apardıqları işğalçı siyasət nəticəsində torpaqlarımızın müəyyən hissəsinin işğal altına düşməsi Azərbaycanı çox çətin vəziyyətdə qoymuşdu. Müstəqilliyimiz əldən gedə bilərdi. Azərbaycan xalqı özünə xas olan müdrikliyini göstərərək, ümummilli lider Heydər Əliyevə müraciət etmişdir. Onu Azərbaycanın siyasi hakimiyyətinə dəvət etmişdir. Onun Azərbaycanın siyasi hakimiyyətinə gəlişindən sonra vəziyyət sabitləşdi, xoşagəlməz meyillərin qarşısı alındı, sabitlik yaradıldı və Azərbaycan öz inkişaf dövrünə qədəm qoydu.

1993–2003-cü illər Azərbaycan tarixində sabitlik və inkişaf illəri kimi qalacaqdır. Məhz o illərdə Azərbaycanda dövlətçiliyin əsasları qoyuldu, hüquqi dövlət quruculuğu işində çox əhəmiyyətli addımlar atıldı. Siyasi sistem yaradıldı. İqtisadi islahatlar aparılmağa başlandı. Azərbaycan o illərdə dünya birliyinə sürətlə inteqrasiya etməyə başlamışdır və bir sıra beynəlxalq təşkilatların üzvü olmuşdur.

Ölkəyə böyük həcmdə xarici sərmayənin gətirilməsi nəticəsində bizim uzunmüddətli inkişaf strategiyamız təmin edildi. Heydər Əliyev neft strategiyasının bütün bu işlərin içərisində xüsusi yeri vardır. Bu strategiya bu gün də uğurla icra edilir və nəticədə biz Azərbaycanda çox sürətli inkişafı görürük.

İqtisadiyyatımızın şaxələndirilməsi işində çox böyük uğurlara nail ola bildik. Neft-qaz amilindən çox uğurla və məharətlə istifadə edərək, ölkəmizin hərtərəfli inkişafına nail ola bildik. Ölkəmiz son illər ərzində böyük və şərəfli yol keçmişdir. Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir və son 7 ilin tarixi bunun əyani sübutudur. Bütün istiqamətlərdə sürətli inkişaf müşahidə olunur. Azərbaycan beynəlxalq arenada öz mövqeyini möhkəmləndirir, tərəfdaşlarımızın sayı artır. Azərbaycan beynəlxalq müstəvidə çox önəmli rolunu oynayır və getdikcə imkanlarımız daha da genişlənəcəkdir.

Regional əməkdaşlıq sahəsində bizim təşəbbüsümüzlə həyata keçirilən bütün layihələr uğurla icra edilir. İstər energetika, istər nəqliyyat, istərsə də humanitar sahələrdə bütün təşəbbüslər regional əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Xarici siyasətimizin əsas mahiyyəti ondan ibarətdir ki, biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlərin dərinləşməsinə çalışırıq və bölgədə buna nail ola bilmişik.

İqtisadi islahatlar sahəsində ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. 2004–2009-cu illərdə Azərbaycanda iqtisadi inkişaf templəri dünya miqyasında ən sürətli

idi. O illərdə iqtisadiyyatımız təxminən 3 dəfə artmışdır. Ölkə qarşısında duran ciddi sosial məsələlərin böyük əksəriyyəti öz həllini tapmışdır. İşsizliyə qarşı mübarizə gözəl nəticələrini verir. Yoxsulluğun azaldılması sahəsində praktiki işlər görülübdür. Əminəm ki, yaxın zamanlarda bu iki çox böyük sosial bəla Azərbaycan tarixindən, ümumiyyətlə, silinəcəkdir.

Ölkənin bütün bölgələrində quruculuq işləri aparılır. Əminəm ki, ikinci regional inkişaf proqramının uğurlu icrası nəticəsində 2013-cü ilə qədər ölkə qarşısında duran əsas infrastruktur, sənaye, iqtisadi və sosial məsələlər öz həllini tapacaqdır.

Bizim iqtisadi islahatlarımız dünya birliyi tərəfindən də təqdirlə qarşılanır. Mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda gedən islahatları çox yüksək dəyərləndirirlər. Dünya İqtisadi Forumunun hesablamalarında rəqabətqabiliyyətliliyinə, informasiya-kommunikasiya texnologiyalarının inkişafına görə Azərbaycan MDB məkanında lider dövlətdir. Baxmayaraq ki, dünyada maliyyə və iqtisadi böhran hələ başa çatmayıb, bu yaxınlarda Azərbaycan mötəbər reytinq agentlikləri tərəfindən çox yüksək qiymət alıb. Bizim reytinqimiz artıbdır. Bu, deyə bilərəm ki, indiki şəraitdə çox böyük əhəmiyyətə malik olan bir hadisədir. Çünki dünyada mövcud olan və davam edən böhran bir çox ölkə qarşısında olduqca böyük problemlər yaratdı.

Azərbaycan isə o ölkələrdəndir ki, iqtisadi böhrandan ən az itkilərlə çıxa bilmişdir. Keçən il böhrana, dünya neft qiymətlərinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, iqtisadiyyatımız 9,3 faiz artdı. Bu artım, dinamika bu gün də davam edir. İqtisadi islahatlarımızın dünya birliyi tərəfindən yüksək qiymətləndirilməsi onu bir daha göstərir ki, bizim uğurumuzun təməlində düşünülmüş siyasət dayanır. Ancaq dünyada və bölgədə bizdən qat-qat böyük həcmdə neft hasil və ixrac edən ölkələr vardır. Bu böhranlı aylar onu göstərir ki, bu amil həlledici rol oynamır. Həlledici rol oynayan

amillər düşünülmüş siyasət, siyasi iradə, sabitlik, investisiya qoyuluşuna cəlbedicilik və ölkədə biznes üçün yaranan çox gözəl, əlverişli mühitdir. Ölkədə bazar iqtisadiyyatının inkişafı üçün bütün praktiki tədbirlər görülür və bu gün Azərbaycanda güclənən sahibkarlar sinfi yaranmaqdadır.

Biz bundan sonra da güclü sosial siyasət aparacağıq, iqtisadi imkanlarımızı genişləndirəcəyik. Çox böyük maliyyə imkanlarımız, valyuta ehtiyatlarımız və düşünülmüş strateji xəttimiz vardır. Bir sözlə, ölkə daxilində gedən proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycan cəmiyyətində ölkənin inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Bizim daxili imkanlarımıza əsaslanaraq dünya birliyinə sürətlə inteqrasiya etmək, heç kimdən asılı olmamaq, daxili imkanları maksimum şəkildə səfərbər edib ölkə qarşısında duran bütün vəzifələri icra etmək, qonşu ölkələrlə, dünya ölkələri ilə səmərəli əlaqələr yaratmaq istiqamətində strateji xəttimiz dəyişməz olaraq qalır. Neft-qaz sahəsində bu vaxta qədər görülmüş işlər təqdirəlayiqdir. Bundan sonrakı işlərimiz də görülmüş işlər əsasında həyata keçiriləcəkdir. Biz enerji təhlükəsizliyi məsələlərinin həllində həm bölgədə, həm qitədə çox müsbət rol oynayırıq. Əminəm ki, qarşıda yeni layihələrin icrası nəticəsində Azərbaycan daha da böyük enerji resurslarından istifadə edə biləcəkdir.

İxrac imkanlarımız artır. İxracın strukturu müsbətə doğru inkişaf edir, idxal isə azalır. Bu gün əsas ərzaq məhsulları ilə özümüzü təmin edirik, ixrac edirik. Görülən və görüləcək tədbirlər nəticəsində qeyri-neft sektorunun inkişafının gələcəyi də çox müsbət, ümidverici olacaqdır.

Qarşımızda duran əsas problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bu istiqamətdə çox fəal çalışırıq. Danışıqlar prosesində biz həmişə prinsipial mövqe tutmuşuq. Son illər ərzində gedən danışıqlar bunu bir daha göstərir. Azərbaycan prinsipial məsələlərdə bir addım da geri atmamışdır. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların qə-

rarlarına, qətnamələrinə əsaslanır və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün biz bütün imkanlardan istifadə edirik.

Qarşı tərəfin mövqeyi isə onların arzularına əsaslanıb və bu, münaqişənin həlli üçün heç cür əsas ola bilməz. BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər beynəlxalq təşkilatların qərarları və qətnamələri bizim mövqeyimizi gücləndirir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Azərbaycanın işğal edilmiş bütün torpaqları işğalçılardan azad edilməli, məcburi köçkünlər öz doğma, tarixi torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Dağlıq Qarabağda isə erməni və Azərbaycan icmaları yüksək muxtariyyət çərçivəsində, vahid Azərbaycan dövləti çərçivəsində yaşamalıdırlar. Bu, prinsipial mövqedir. Bu mövqe beynəlxalq hüquq normalarına və dünya birliyi tərəfindən qəbul edilmiş prinsiplərə əsaslanır.

Bu yaxınlarda İslam Konfransı Təşkilatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox müsbət və tutarlı arqumentlərlə zəngin olan qətnamələr qəbul edibdir. Bu qətnamələr Azərbaycanın mövqeyini, yəni haqq-ədaləti tam şəkildə dəstəkləyir. Bir həftə əvvəl Avropa parlamenti tərəfindən bu məsələ ilə bağlı qəbul edilmiş qətnamə yenə də beynəlxalq hüquq normalarına əsaslanır və orada Ermənistan aqressor, yəni təcavüzkar dövlət kimi göstərilir. Açıq-aydın göstərilir ki, güc tətbiq etməklə heç bir ölkənin sərhədlərini pozmaq, status-kvo ilə barışmaq mümkün deyildir. Bu vəziyyət – nə sülh, nə savaş davam edə bilməz, Azərbaycan torpaqları işğalçılardan azad edilməlidir.

Biz başa düşürük ki, bu qətnamələr və siyasi addımlar Ermənistanı çox böyük təşvişə salıbdır. Yəni Ermənistan təbliğatına çox böyük zərbələr endirilibdir. Onların belə isterik reaksiyası bunun əyani sübutudur. Belə olmasaydı, Ermənistan rəsmiləri Avropa parlamenti tərəfindən qəbul edilmiş qətnaməyə dair çox gülməli və əsassız şərhlər verməzdilər. Onlar deyirlər ki, bu qətnamə Madrid prinsip-

lərinə ziddir. Halbuki bu, Madrid prinsiplərinə və beynəlxalq hüquq normalarına tamamilə uyğundur. Belə gülməli və qeyri-ciddi şərhlər təkcə onu göstərir ki, Ermənistan tərəfi doğrudan da təşviş içindədir.

Bu yaxınlarda Dağlıq Qarabağda separatçı kriminal rejim tərəfindən keçirilmiş qanunsuz, qondarma «seçkilər» və «seçkilərə» beynəlxalq birlik tərəfindən verilən qiymət bir daha onu göstərir ki, dünya birliyi separatizmi qəbul etmir, Dağlıq Qarabağı müstəqil qurum kimi qəbul etmir və etməyəcəkdir.

Minsk qrupunun həmsədr ölkələri, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı, qonşu dövlətlər, Avropa Şurası, bütün beynəlxalq birlik bu dırnaqarası seçkiləri pislədi, bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi və bunu açıq şəkildə bəyan etdi. Belə olan halda şübhəsiz ki, Azərbaycan öz prinsipial mövqeyini davam etdirəcəkdir.

Doğrudur, torpaqlarımız işğal altındadır. Bu işğal davam edir və Ermənistanın danışıqlarda qeyri-konstruktiv və riyakar davranışı onu göstərir ki, Ermənistan tərəfi sadəcə olaraq, vaxt uzatmaq istəyir. Beynəlxalq vasitəçiləri aldatmaq istəyir ki, o sanki danışıqlarda iştirak edir. Əslində isə danışıqlarda iştirakının əsas səbəbi vaxt uzatmaqdır. Ancaq heç bir şeyə nail ola bilməyəcəklər. Çünki vaxt onların xeyrinə işləmir.

Bölgədə gedən proseslər bir daha onu göstərir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan bölgədə Ermənistanın iştirakı ilə heç bir əməkdaşlıqdan söhbət gedə bilməz, heç bir başqa məsələ öz həllini tapa bilməz. Ermənistan tərəfi çox ümid edirdi ki, Türkiyə–Ermənistan sərhədləri açılacaq və onlar üçün bir nəfəs borusu yaranacaq, Qarabağ məsələsi kənara qoyulacaqdır. Ancaq Türkiyə tərəfinin prinsipial mövqeyi onların bütün planlarını alt-üst etdi. Vəziyyət o həddə çatmışdır ki, bir neçə ay əvvəl Ermənistan prezidenti hansısa xarici səfərdə çıxış edərkən söyləmişdi ki, Azərbaycan prezidentini Türki-

yə–Ermənistan sərhədlərinin açılmasına dəvət edəcəkdir. Bu çox yersiz və mənasız bir bəyanat idi. Ondan başqa hamı artıq bilirdi ki, Türkiyə–Ermənistan sərhədləri Dağlıq Qarabağ prosesi nizama salınmadan açıla bilməz.

Şübhəsiz ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim siyasətimizin prioriteti olaraq qalacaqdır. Biz bütün səylərimizi səfərbər etmişik və edəcəyik ki, məsələni tezliklə, ədalətli, beynəlxalq normalara uyğun şəkildə həll edək, torpaqlarımızı işğalçılardan boşaldaq və Azərbaycanın ərazi bütövlüyünü bərpa edək. Bu gün Azərbaycanda mövcud olan hərbi potensial bizə imkan verir ki, istənilən anda, istənilən vəzifəni uğurla və qısa müddət ərzində icra edək. Biz istəmirik ki, hərbi yola əl ataq, ancaq bu variant da heç vaxt istisna olunmamışdır. Mən heç şübhə etmirəm ki, Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və bunu etmək üçün kifayət qədər əsaslar vardır.

Əziz dostlar, biz 20 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq. Bu illər ərzində özümüzə də, dünya birliyinə də sübut edə bildik ki, Azərbaycan xalqı öz daxili imkanlarına istinadən müstəqil yaşaya bilər. Müstəqillik təkcə dövlət rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara, milli maraqlarını müdafiə edə bilsin. Bu gün müstəqil ölkə kimi, qısa tariximiz onu göstərir ki, biz müstəqil olaraq uğurla inkişaf edirik. Azərbaycanda bütün sahələrdə görünən inkişaf onun bariz nümunəsidir. Siyasi islahatlar, demokratikləşmə prosesinin uğurla getməsi, hüquqi dövlət, ordu quruculuğu, iqtisadi islahatlar – hər bir ölkə üçün vacib olan bütün bu istiqamətlərdə biz ancaq və ancaq müsbət irəliləyişi görürük. Bu bizim gücümüzü daha da artırır. Biz inamla irəliyə gedirik, ölkəmizi inamla idarə edirik. Bugünkü Azərbaycan xalqımızın zəhmətinin, istedadının nəticəsidir. Bu ölkəni biz qurmuşuq, Azərbaycan xalqı qurubdur. Hər bir vətəndaş gündəlik işində elə etməlidir ki, öz fəaliyyəti ilə bu müstəqilliyi gücləndirsin, əbədi,

dönməz etsin və bundan sonra onilliklər, əsrlər boyu Azərbaycan xalqı azad, müstəqil və rifah içində yaşasın.

Bütün bu məqsədlərə nail olmaq üçün, bir daha demək istəyirəm ki, bütün imkanlarımız vardır. Ən əsası odur ki, siyasi iradə vardır. Bu gözəl bayram günündə mən Azərbaycan xalqını bizim üçün ən əziz bayram münasibətilə bir daha təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ**

Hörmətli xanım Prezident!

Ölkənizdə baş vermiş dəmiryol qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbəri kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Hindistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2010-cu il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Lahor şəhərində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2010-cu il*

## ÇİNİN MƏRKƏZİ BANKININ SƏDRİ ÇJOU SYAOÇUAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Çin Xalq Respublikasının Mərkəzi Bankının sədri Çjou Syaoçuanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq Azərbaycanın Çin Xalq Respublikası ilə əlaqələri bütün sahələrdə genişləndirmək niyyətində olduğunu bildirmişdir. Dünya maliyyə böhranına baxmayaraq ölkələrimizin yaxşı iqtisadi artım templəri nümayiş etdirdiyini qeyd edən prezident İlham Əliyev iqtisadi əməkdaşlıq sahəsində birgə təşəbbüslər barədə qarşılıqlı fikir mübadiləsi aparmağın önəmini vurğulamışdır. Dövlətimizin başçısı Çin Xalq Respublikası Mərkəzi Bankının sədrinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi işinə xidmət edəcəyinə və uğurlu nəticələr verəcəyinə əminliyini ifadə etmişdir.*

## BAKIDA XVII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2010-cu il*

*İyunun 1-də yeni inşa olunmuş Bakı Sərgi Mərkəzində XVII Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı əvvəlcə Bakı Sərgi Mərkəzinin acılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, inşasına 2008-ci ildə başlanılmış sərgi mərkəzi bütün beynəlxalq standartlara cavab verir. Tikinti-quraşdırma işlərinin gedişində burada 2000-dən çox inşaatçı, o cümlədən 500-ə yaxın əcnəbi mütəxəssis çalışmışdır. İşlərin ən yüksək sürətlə aparıldığı dövrdə obyektdə çalışan fəhlə və mühəndislərin sayı 3000 nəfərə bərabər olmuşdur.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva XVII Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının açılışında iştirak etdilər.*

*Açılış mərasimindən sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*Dövlətimizin başçısı əvvəlcə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) ekspozisiyasına baxdı. Sonra «bp–Azərbaycan», «Total», ENİ, «Petkim», TPAO, RWE, «Statoyl», «Gastech İnternational Fz.Co», «Tekfen» şirkətlərinin ekspozisiyaları ilə tanış oldu.*

*Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabını imzaladı, sərgi-konfransın işinə uğurlar arzuladı.*

## XVII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA NİTQ

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən bu ənənəvi sərgi bu il yeni sərgi salonunda keçirilir. Bu gün biz eyni zamanda, bu yeni sərgi salonunun açılışını qeyd edirik. Mən hesab edirəm ki, bu çox əlamətdar hadisədir – ilk sərgi məhz Xəzər neft-qaz sərgisidir. Çünki Xəzər neft-qaz sərgisi müasir Azərbaycanda keçirilən sərgilərin arasında xüsusi yerə malikdir. Birinci dəfə bu sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt hələ Azərbaycanda sərgi keçirmək istəyində olan şirkətlərin sayı çox deyildi. Azərbaycan yeni müstəqil dövlət idi. Azərbaycanın gələcəyi haqqında dünyada müxtəlif fikirlər dolaşırdı. Ona görə, bu sərginin 1994-cü ildə keçirilməsi, Azərbaycanın neft strategiyasının başlanmasına təsadüf etməsi çox əlamətdar hadisə olmuşdur. Çox ədalətlidir ki, bu möhtəşəm, gözəl salonda ilk sərgi məhz Xəzər neft-qaz sərgisidir.

1994-cü ildə Azərbaycan böyük işlərin astanasında idi. Ölkə iqtisadiyyatı o vaxt böyük çətinliklərlə üzləşmişdi. Ölkədə sabitlik yaradılması üçün addımlar atılırdı. Ancaq 1994-cü ildə, ümumiyyətlə, Azərbaycanın gələcəyi haqqında birmənalı fikir yox idi: Azərbaycan hansı yollarla inkişaf edəcək? Azərbaycan iqtisadiyyatı nəyin hesabına formalaşacaq? Azərbaycan öz strateji inkişaf yolunu hansı istiqa-

mətdə görür? Bütün bu suallar ölkə qarşısında durmuşdu. O illərdə edilən strateji seçim Azərbaycanın bugünkü uğurlu inkişafını təmin etdi. Çünki məhz o illərdə Azərbaycanın yeni neft strategiyasının başlanması, Azərbaycanın dünya birliyinə inteqrasiya etmək siyasətinin uğurla aparılması, ölkədə həyata keçirilən iqtisadi islahatlar, iqtisadiyyata cəlb edilən böyük həcmdə xarici investisiyalar – bütün bu amillər bugünkü inkişafı şərtləndirdi. Bu gün Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkədir.

Biz hamımız yaxşı bilirik ki, əgər 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən o qətiyyətli addımlar atılmasaydı və «Əsrin müqaviləsi» imzalanmasaydı, bəlkə də Azərbaycanın inkişafı tam başqa istiqamətdə davam edərdi. «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycan nəinki Xəzər hövzəsinin böyük, zəngin resurslarını dünya şirkətləri üçün açdı, eyni zamanda, Azərbaycanın uzunmüddətli və uğurlu inkişafını təmin etdi.

1994-cü ildə bizim planlarımız çox geniş idi. Biz bilirdik məqsədimiz nədir. Ancaq onu da bilirdik ki, bu məqsədə çatmaq üçün yolumuz hamar olmayacaqdır. Elə də oldu. Azərbaycan çox böyük sınaqlardan şərəflə çıxdı və qarşıda duran bütün vəzifələri uğurla həll etdi. İnvestisiyaların cəlb edilməsi, xarici şirkətlərlə uğurlu və qarşılıqlı maraqlar əsasında yaradılmış əlaqələr, hasilatın artırılması, Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi, neft kəmərlərinin tikintisi və təbii ehtiyatların bu kəmərlər vasitəsilə dünya və Avropa bazarlarına nəql edilməsi layihələri bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə əks etdirir.

Bu gün böyük sevinc hissi ilə deyə bilərik ki, artıq Azərbaycan iqtisadiyyatı neft amilindən o qədər də asılı deyildir. Halbuki, bundan sonra da uzun illər ərzində neft və qaz amili Azərbaycanın həm iqtisadi maraqlarını təmin edəcək, həm dünyadakı mövqelərimizi möhkəmləndirəcəkdir. Ümumiyyətlə, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün bu amil uzun illər öz rolunu oynayacaqdır. Ancaq bu-

nunla bərabər, bu gün Azərbaycanın qeyri-neft sektorunun inkişafı da çox sürətlə gedir. Buna təkan verən məhz neft siyasəti, neft strategiyası olmuşdur.

Neft strategiyasının uğurlu icrası Azərbaycanı dünyaya bir etibarlı tərəfdaş kimi təqdim etdi. Biz xarici şirkətlərlə artıq 16 ildir ki, uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq qarşılıqlı maraqlar əsasında qurulubdur və həm xarici tərəfdaşlara, həm də Azərbaycana böyük mənfəət gətiribdir. İşlərin əvvəlində isə bu planların reallaşması üçün bütün səylər göstərilmişdir. Ümid edirəm ki, Azərbaycanın bundan sonrakı inkişaf dövrü də uğurlu olacaqdır.

1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanmasından sonra 1996-cı ildə «Şahdəniz» qaz yatağı üzrə kontrakt imzalanmışdır. O illərdə qaz amili, ümumiyyətlə, dünya neft və enerji siyasətində o qədər də mühüm yer tutmurdu. O layihəyə investisiyalar və kreditlər cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün dünya enerji siyasətində deyə bilərəm ki, bu yanaşmada müəyyən və xeyli dəyişiklik edildi. Qaz amili daha da mühüm rol oynamağa başlamışdır və nəinki iqtisadi maraqları təmin edir, bəzi hallarda enerji təhlükəsizliyi məsələlərinə də məhz qaz amili çox mühüm təsir göstərir.

Azərbaycan isə o ölkədir ki, həm qaz, həm neft resursları kifayət qədər böyükdür. Azərbaycan qədim neft diyarıdır. İlk dəfə dəniz yataqlarından sənaye üsulu ilə neft dünyada məhz Azərbaycanda hasil edilibdir. Bu yaxınlarda biz faşizm üzərində Qələbənin 65-ci ildönümünü qeyd etdik və bir daha o illərə nəzər salarkən gördük ki, Azərbaycan nefti və neftçilərinin gərgin zəhməti olmasaydı, o müharibənin nəticələri başqa ola bilərdi.

Müstəqil ölkə, müstəqil Azərbaycan kimi, biz özümüzü yenidən təsdiq və təqdim etməli idik. Biz bunu uğurla bacardıq. Bizim neft siyasətimiz çox açıqdır, aydındır və çox səmimidir. Götürdüyümüz bütün öhdəliklər yerinə yetirilir. Biz dünya enerji şirkətləri ilə etibarlı tərəfdaş kimi, uğurla əmək-

daşlıq edirik. Bu gün Azərbaycanın Dövlət Neft Şirkəti – SOCAR dünyanın aparıcı şirkətləri arasındadır və xarici şirkətlərlə uğurla əməkdaşlıq bizə də bu yeni, müasir təcrübəni gətirdi. Bu gün artıq Azərbaycan şirkətləri başqa ölkələrə böyük həcmdə, milyardlarla ölçülən investisiyalar qoyur və bu proses bundan sonra da davam etdiriləcəkdir.

Ötən əsrin 90-cı illərinin ortalarında isə qarşımızda digər vəzifələr dururdu: hasilata başlamaq, «Azəri», «Çıraq», «Günəşli» yataqları üzrə işlərin sürətlə aparılmasına nail olmaq, neft kəmərlərini, ondan sonra qaz kəmərlərini yaratmaq. Bu vəzifələrin hamısı icra olundu. Bu gün Azərbaycanın neft və qaz hasilatı nəinki ölkə tələbatını ödəyir, həm də çox böyük ixrac resursu da təşkil edir. Bu il Azərbaycanda neft hasilatı 52 milyon ton səviyyəsində gözlənilir. Qaz hasilatı təxminən 30 milyard kubmetrə bərabər olacaqdır ki, bu da Azərbaycanın daxili tələbatından 3 dəfə çoxdur.

Təbii ki, Azərbaycan enerji resurslarını neft və qaz kəmərləri ilə müxtəlif istiqamətlərə ixrac edir. İxrac coğrafiyamız ildən-ilə genişlənir və mən tam əminəm ki, biz yeni bazarlara da çıxacağıq. Çünki yeni bazarlarda Azərbaycanın təbii resurslarına ehtiyac vardır. Bizim də marağımız ondadır ki, neft-qaz potensialımızı maksimum dərəcədə realizə edə bilək. Bugünkü hasilat ixrac imkanlarımızdan daha çoxdur. Ancaq biz elə etməliyik ki, hasilatımızla daxili tələbat və ixrac imkanlarımız bərabərlik təşkil etsin. Buna nail olmaq üçün, əlbəttə ki, bizə yeni bazarlar lazımdır. Yaxud da ki, mövcud olan bazarların genişləndirilməsi lazımdır. Azərbaycan hər iki istiqamətdə çox düşünülmüş, çox dəqiq və məqsədyönlü siyasət aparır. Bizim üç neft, dörd qaz kəmərimiz vardır. Onlar enerji şaxələndirilməsini tam şəkildə təmin edir və enerji resurslarımızın istənilən istiqamətdə ixracının artırılması üçün bütün imkanlar vardır. Bu gün Azərbaycanda verilən tapşırıqlar əsasında görülən texniki işlər qaz ixrac imkanlarımızı xeyli dərəcədə artıracaqdır. Biz

bu sahəyə böyük investisiyalar qoyuruq və bu investisiyalar özünü doğruldacaqdır.

Azərbaycan investisiyalar üçün çox məqbul, çox cəlbedici ölkədir. 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına 82 milyard dollar investisiya qoyulmuşdur. Onların, demək olar ki, yarısı neft-qaz sektoruna qoyulmuşdur. Neft strategiyamızın ilk illərində investisiyalar daha çox neft-qaz sektoruna qoyulurdu. Bu bəzi ekspertləri narahat edirdi ki, «Holland sindromu» yaşana bilər.

Ancaq bizim düşünülmüş siyasətimiz və konkret addımlarımız göstərdi ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. Bu gün Azərbaycan iqtisadiyyatı şaxələndirilmiş iqtisadiyyatdır. Əgər ümumi investisiya portfelinin yarısı qeyri-neft sektoruna qoyulubsa, bu onu göstərir ki, Azərbaycanda qeyri-neft sektoru da çox cəlbedici bir sahədir. Qeyri-neft sektoruna qoyulan həm xarici, həm daxili investisiyalar, həm dövlət büdcəsindən, həm də özəl sektordan ayrılan vəsait yeni bir vəziyyət yaratdı. Bu gün Azərbaycan enerji, yəni neft-qaz amilindən daha da az asılı vəziyyətdədir və getdikcə bu asılılıq daha da azalacaqdır. 2009-cu ilin rəqəmlərini götürsək, Azərbaycanda son illər ərzində aparılan işlərin elə bil ki, nümunəsini görərik.

Çünki 2009-cu ildə dünya üzrə neftin qiyməti 3-4 dəfə aşağı düşdü, iqtisadi və maliyyə böhranı, demək olar ki, bütün ölkələrə mənfi təsir göstərdi. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı keçən il 9 faizdən çox artmışdır. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi Azərbaycanın inkişafına mənfi təsir göstərməmişdir. Biz bütün sosial proqramları, bütün infrastruktur layihələrini icra etdik. Biznes imkanları səfərbər olundu və biz bu çətin vəziyyətdən çox uğurla çıxa bildik.

Bütün bu işlərin təməlində düşünülmüş iqtisadi siyasətlə bərabər, şübhəsiz ki, neft strategiyamız dayanır. Bir daha qayıdıram 15 il bundan əvvəlki dövrə. Əgər o illərdə o cəsarətli

və məqsədyönlü, qabağa hesablanan addımlar atılmasaydı, bu gün Azərbaycanın vəziyyəti tam başqa ola bilərdi.

Bu gün iqtisadi müstəqilliyimiz, böyük valyuta ehtiyatlarımız, iqtisadiyyatımızın uğurlu inkişafı bizə əlavə güc verir. Çünki biz hələ ki, gənc müstəqil dövlətik. Azərbaycan iqtisadiyyatı artıq öz keçid dövrünü başa vurdu. Biz artıq keçid iqtisadiyyatı ölkəsi deyilik, inkişaf edən iqtisadiyyatıq və bunu mötəbər beynəlxalq maliyyə qurumları da görür, təsdiqləyir.

Biz bütün bu imkanlardan istifadə edib gələcək planlarımızı bu gün tutmalıyıq. Həm energetika sahəsində, neft-qaz sahəsində, həm də qeyri-neft sahəsində bizim uzunmüddətli strategiyamız, planlarımız, konkret addımlar paketimız vardır. Biz öz siyasətimizi proqram üzrə qururuq. Buna görə, Azərbaycan həm böhrandan ən az itkilərlə çıxmış ölkədir, həm də siyasi sabitlik baxımından Azərbaycanda vəziyyət çox müsbətdir. Bu ümumi vəziyyət ölkəmizə investisiyaların axınını gücləndirir. Bu gün Azərbaycanda sərmayə təkcə neft-qaz sektoruna qoyulmur – turizm, infrastruktur, mehmanxanalar, sosial obyektlər, belə gözəl sərgi salonlarına qoyulur. Bu sərgi salonu dünya miqyasında seçilən, gözəlliyi və funksional mahiyyəti ilə fərqlənən sərgi salonlarından biridir. Bu gün biz bu gözəl, möhtəşəm salonda bu tədbiri keçiririk.

Biz bundan sonra da öz siyasətimizi bu vaxta qədər apardığımız yollarla inkişaf etdirəcəyik. Ölkəmizin iqtisadi potensialının maksimum şaxələndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Neft kəmərləri, qaz kəmərləri, hasilat, investisiyalar, yeni bazarlara çıxış və bu gün biz daha da böyük investisiyaları gözləyirik. Bu yaxınlarda «Çıraq» yatağında yeni böyük layihə başlanmışdır. Ümid edirəm ki, biz yaxın zamanlarda böyük «Şahdəniz-2» layihəsinin başlanılmasına da nail olacağıq. Bunu etmək üçün hazırda bütün imkanlar vardır. Əgər biz buna nail olsaq, növbəti illərdə Azərbaycanın neft-qaz sektoruna ancaq bu layihə üzrə ən azı 20 milyard dollar sərmayə qoyulacaqdır. Bu sərmayə özlüyündə, yəqin ki, buna bərabər

həcmdə sərmayənin qeyri-neft sektoruna da yatırılmasına gətirib çıxaracaqdır.

Əziz dostlar, mən bu gözəl hadisə, ənənəvi sərgi və konfransın açılışı münasibətilə bir daha sizi təbrik edirəm. Konfransın təşkilatçılarına öz minnətdarlığımı bildirmək istəyirəm ki, uzun illərdir Azərbaycanda bu gözəl, beynəlxalq tədbir keçirilir. Əminəm ki,  yaradılmış bu gözəl ənənə bundan sonra da davam edəcəkdir. Sərgiyə və konfransa uğurlar arzulayıram.

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmışdır.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Dövlət bayramı – Rusiya günü münasibətilə Sizi və bütün Rusiya xalqını ürəkdən təbrik edirəm.

Dost Rusiya iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi, siyasi sistemin təkmilləşdirilməsi üzrə genişmiqyaslı proqramları uğurla həyata keçirir. Ölkənin beynəlxalq birlikdə nüfuzu artır, mövqeləri möhkəmlənir.

Azərbaycan ilə Rusiya arasında etimad, qarşılıqlı dəstək prinsiplərinə əsaslanan dostluq və mehriban qonşuluq münasibətlərinin dərin tarixi kökləri vardır. Əminəm ki, bu xeyirxah ənənələr, dövlətlərarası münasibətlərimiz, hərtərəfli əməkdaşlıq xalqlarımızın mənafeyi, Qafqazda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, bütün Rusiya xalqına firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2010-cu il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Əminəm ki, əlaqələrimizin hərtərəfli genişləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2010-cu il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Portuqaliya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Portuqaliya arasında təşəkkül tapmış münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2010-cu il*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ DİREKTORLAR ŞURASININ ÜZVÜ VERNER QRUBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa Yenidənqurma və İnkişaf Bankının Direktorlar Şurasının üzvü Verner Qruberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 iyun 2010-cu il*

*İyunun 3-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Belarus prezidentinə raport verdi.*

*Belarusun və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Belarus prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Aleksandr Lukaşenkoya, Belarus nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*3 iyun 2010-cu il*

*İyunun 3-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi.*

*Belarus prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ BELARUS PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*3 iyun 2010-cu il*

*İyunun 3-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Belarus prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Sizi bir daha ürəkdən salamlamaq istəyirəm, Azərbaycana xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər dövlətlərimiz arasında münasibətlərin daha fəal inkişafına xidmət edəcəkdir. Bizim münasibətlərimiz çox dinamik, müsbət inkişaf edir. Biz bir sıra müştərək layihələr üzərində işləyirik, özü də uğurla işləyirik. Nəzərdə tutduqlarımızın hamısını qısa müddətdə və keyfiyyətlə yerinə yetiririk. Buna görə də hesab edirəm ki, Sizin ölkəmizə səfəriniz ikitərəfli münasibətlərin inkişafına daha güclü təkan verəcəkdir. Çoxlu sənədlərin imzalanması planlaşdırılır, ölkələrimiz arasında hüquqi baza elə indi də kifayət qədər genişdir. Düşünürəm ki, nümayəndə heyətinin üzvləri də bu vaxtdan səmərəli istifadə edəcəklər. Mən bilirəm ki, ölkələrimizin hökumətlərinin üzvləri arasında fəal əlaqələr vardır. Bununla belə, həllini tələb edən məsələləri bir daha müzakirə etmək, məncə, faydalı olacaqdır. Düşünürəm ki, biz əməkdaşlığın inkişaf etdirilməsi üçün yeni yollar, yeni, çox perspektivli sahələr – energetika, kənd təsərrü-

fatı, tikinti, turizm, yüksək texnologiyalar sahələrində əməkdaşlıq üçün yollar müəyyən edəcəyik.

Bu gün biz Sizinlə bərabər geniş gündəlikdəki ikitərəfli məsələləri, regional, beynəlxalq məsələləri artıq ətraflı nəzərdən keçirmişik. Bizim dostluğumuz, eləcə də münasibətlərimizin bu cür səmərəli və müsbət inkişaf etməsi məni çox sevindirir. Azərbaycanda Sizin gəlişinizə həmişə şadıq və mən əminəm ki, Sizin budəfəki səfəriniz uğurlu olacaq, yaxşı nəticələrlə yadda qalacaqdır. Bir daha xoş gəlmisiniz!

**Aleksandr Lukaşenko:** Hörmətli İlham Heydər oğlu! Əziz dostlar!

Mən, hörmətli İlham Heydər oğlu, ölkənizdə bizim, o cümlədən həmkarlarımın da həmişə hiss etdiyimiz ənənəvi səmimi, dostcasına qəbula görə Sizə və bu müddətdə bizimlə işləyənlərin hamısına dərin təşəkkürümü bildirmək istəyirəm. Xalqlarımız arasında çoxillik sıx və mehriban əməkdaşlıq, qarşılıqlı yardım ənənələri indiki mürəkkəb şəraitdə, xüsusən son dövrlərdə nəinki davam edir, həm də getdikcə geniş vüsət alır. Bu gün ölkələrimiz dövlətçiliyin möhkəmləndirilməsi yolu ilə irəliləyirlər. Mən buraya son səfərimdən 3 il sonra Bakıda və onun hüdudlarından kənarda baş verənləri gördükdə keçirdiyim hissləri, fikirlərimi, həsədimi gizlətmədən İlham Heydər oğluna demişəm. Hər yerdə tikinti gedir, kranlar işləyir. Xüsusən axşamlar, binalar işıqlandırılanda onların gözəlliyi diqqəti cəlb edir. Səmimi deyirəm, Sizin uğurlarınıza sevindim.

Siz bütün bu işləri yüksək bacarıqla görürsünüz. Mən İlham Heydər oğluna dedim ki, əgər ölkədə insanlar haqqında düşünən və öz xalqını sevən prezident varsa, deməli, bu dövlətin perspektivləri çox böyükdür.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*3 iyun 2010-cu il*

*İyunun 3-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko «Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Belarus tərəfindən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, Belarus tərəfindən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*«Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikasının Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu*

*Bağırov, Belarus tərəfindən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*«Azərbaycan Respublikası Hesablama Palatası və Belarus Respublikasının Dövlət Nəzarət Komitəsi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən Hesablama Palatasının sədri Heydər Əsədov, Belarus tərəfindən Dövlət Nəzarət Komitəsinin sədri Zenon Lomat imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında elm və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Belarus tərəfindən Dövlət Elm və Texnologiya Komitəsinin sədri İqor Voytov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informasiyalaşdırma və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov, Belarus tərəfindən Rabitə və İnformasiyalaşdırma naziri Nikolay Panteley imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Belarus tərəfindən Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

## BELARUSUN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*4 iyun 2010-cu il*

*İyunun 4-də Bakının Xətai rayonunun ərazisində Belarusun Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko mərasimdə iştirak etmişlər.*

*Prezidentlər gilizi təmələ buraxdılar və beton qarışığı tökdülər.*

*Dövlət başçıları binanın layihəsi və maketi ilə tanış oldular.*

*Prezidentlər İlham Əliyevə və Aleksandr Lukaşenkoya məlumat verildi ki, ümumi sahəsi 1950 kvadratmetr olacaq səfirliyin üçmərtəbəli binası Qərb və Şərq memarlığının elementlərini özündə əks etdirəcəkdir. Konsulluq şöbəsi də burada yerləşəcəkdir. Binada konfrans zalları, müxtəlif xidməti otaqlar olacaqdır. Diplomatik missiyanın yerləşdiyi kompleksdə səfirliyin əməkdaşlarının yaşaması üçün 2160 kvadratmetrlik ərazidə dördmərtəbəli bina da inşa ediləcəkdir.*

*Sonra dövlət başçıları Gəncə avtomobil zavodunun istehsal etdiyi müxtəlif təyinatlı maşınlarla tanış oldular.*

*Bildirildi ki, 2006-cı ilin oktyabrında əldə olunmuş razılığa əsasən 2007-ci ilin martından Gəncə avtomobil zavodunda «Belarus» markalı avtomobillərin istehsalı həyata keçirilir. Bu, Azərbaycanda həm «Belarus» traktorları, həm də «MAZ» yük avtomobilləri, kommunal və inşaat texnikaları istehsal edən yeganə müəssisədir. Zavod respublikanın 8 regionunda yüksək keyfiyyətli servis xidməti də göstərir.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*4 iyun 2010-cu il*

*İyunun 4-də «Gülüstan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin adından Belarus prezidenti Aleksandr Lukaşenkonun şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Qəbulda ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunan prezident İlham Əliyev əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edərək demişdir:* Bu gün səfər çərçivəsində ikitərəfli əməkdaşlığın əsas istiqamətlərini müəyyən edəcək bir neçə mühüm sənəd imzalanmışdır. Dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri isə bizim münasibətlərin dinamikasına dəlalət edə bilər. Son 5 ildə dörd belə səfər olmuşdur. Bu fakt özü bizim ikitərəfli münasibətlərə nə qədər böyük əhəmiyyət verməyimizi göstərir. İqtisadi cəhətdən 2009-cu ilin böhran ili olmasına baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsinin artmasını müşahidə etmişik. Yəqin ki, bu, 2009-cu ildə nadir hadisələrdən biridir. Biz bu il də əmtəə dövriyyəsinin artdığını görürük. Belarusda baş verən prosesləri biz Azərbaycanda böyük maraqla müşahidə edirik. Sizin uğurlarınıza sevinirik. Bütün bu uğurların əsasını Belarusun lideri, prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun çox böyük əməyi təşkil edir. Onun rəhbərliyi altında Belarus inkişafda çox böyük uğurlar qazanmışdır. Biz sizin əsl dostlarınız kimi, uğurlarınıza sevinirik. Öz tərəfimizdən çalışırıq ki, ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün nəzərdə tutduğumuz bütün sahələr dərin məzmun kəsb etsin. Əminəm ki, nəzərdə tutduqlarımıza nail olacağıq. Hər halda, münasibətlərimizin inkişafının tarixi, son illərdə bu münasibətlərin dinamik inkişafı bunu deməyə imkan verir.

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA**

Hörmətli cənab Prezident!

Ölkənizin paytaxtı Dəkkə şəhərində baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə sarsıldım.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Banqladeş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2010-cu il*

## ABŞ MÜDAFİƏ NAZİRİ ROBERT QEYTS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da ölkəmizdə səfərdə olan ABŞ Müdafiə naziri Robert Qeytsi qəbul etmişdir.*

*ABŞ Müdafiə naziri Robert Qeyts Birləşmiş Ştatların prezidenti Barak Obamanın məktubunu dövlətimizin başçısına çatdırmışdır. O qeyd etmişdir ki, ABŞ Prezidenti Barak Obama senator qismində ilk xarici səfərinin Azərbaycana etməsini məmnunluqla xatırlayır.*

*Dövlətimizin başçısı məktuba görə minnətdarlığını ABŞ Prezidentinə çatdırmağı xahiş etmişdir.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında hərbi sahədə əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*7 iyun 2010-cu il*

*İyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Türkiyənin dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*İstanbul*

*7 iyun 2010-cu il*

*İyunun 7-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, yüksək səviyyəli görüşlərin əhəmiyyəti qeyd edildi.*

*Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın regional əhəmiyyəti vurğulandı. Qeyd edildi ki, təbii qazla bağlı imzalanacaq sənədlər Azərbaycan ilə Türkiyə arasında energetika sahəsində uğurlu əməkdaşlıqda yeni bir mərhələ olacaqdır.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Aralıq dənizində baş verən son hadisələrlə bağlı Türkiyəyə tam dəstəyini ifadə edərək hadisə zamanı günahsız Türkiyə mülki vətəndaşlarının öldürülməsi ilə əlaqədar başsağlığı verdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu məsələdə Türkiyənin yanındadır.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə olundu.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*7 iyun 2010-cu il*

*İyunun 7-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə olundu. İki ölkə arasında təbii qazla bağlı imzalanacaq sənədlərin Azərbaycan ilə Türkiyənin energetika sahəsində əməkdaşlığında yeni mərhələ olduğu bildirildi və bu sənədlərin əhəmiyyəti vurğulandı. Azərbaycan ilə Türkiyə arasında energetika sahəsində və bütün digər sahələrdə əməkdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Aralıq dənizində baş verən son hadisələrlə bağlı Türkiyəyə tam dəstəyini ifadə etdi, bu hadisə zamanı günahsız Türkiyə mülki vətəndaşlarının öldürülməsi ilə əlaqədar başsağlığını çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu məsələdə Türkiyənin yanındadır.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*İstanbul*

*7 iyun 2010-cu il*

*İyunun 7-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan ilə Türkiyə arasında sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qazın satışı və nəqli sahəsində Anlaşma Memorandumunu ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və BOTAŞ-ın İdarə Heyətinin sədri Fazil Şenel imzaladılar.*

*Azərbaycandan Türkiyəyə və Türkiyə ərazisindən təbii qazın satışı və nəqlinə dair Bəyannaməni, Azərbaycanın Sənaye və Energetika Nazirliyi ilə Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyi arasında təbii qazın satışı və nəqlinə dair Anlaşma Memorandumunu Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Taner Yıldız imzaladılar.*

## MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*İstanbul*

*7 iyun 2010-cu il*

*İyunun 7-də İstanbulda Azərbaycan prezidenti İlham Əliyevin və Makedoniya prezidenti George İvanovun görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Makedoniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimiz arasında müəyyən oxşar cəhətlərin olduğunu vurğulayan dövlət başçıları iqtisadiyyat, turizm və digər sahələrdə əməkdaşlığın faydalı olacağını və əlaqələri inkişaf etdirməyin məqsədəuyğunluğunu bildirdilər.*

*Makedoniya prezidenti ölkəsinin Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq etmək arzusunda olduğunu bəyan etdi.*

*Görüşdə ölkələrimizin müəyyən məsələlərdə bir-birinə dəstək verdiyi də qeyd olundu.*

## ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN ÜÇÜNCÜ ZİRVƏ TOPLANTISI

*İstanbul*

*8 iyun 2010-cu il*

*İyunun 8-də İstanbulda «Çırağan» sarayında Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üçüncü zirvə toplantısı keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə toplantısında iştirak etmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül və Qazaxıstan prezidenti Nursultan Nazarbayev zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarını qarşıladılar.*

*Toplantını quruma sədrlik edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev açdı. O dedi ki, ətrafında 22 dövləti birləşdirən və böyük bir arealı əhatə edən təşkilatın ötən dövrdə fəaliyyəti uğurlu olmuşdur. Təşkilatın dünyada və bölgədə nüvə silahı olmayan məkanın yaradılmasına əhəmiyyət verdiyini deyərək bildirdi ki, dünyada sülh və təhlükəsizliyin bərqərar olması vacibdir.*

*Türkiyə prezidenti Abdullah Gül bildirdi ki, Türkiyə sədrlik edəcəyi 2 il ərzində təşkilatın daha mühüm uğurlar əldə etməsinə çalışacaqdır. Türkiyə təşkilata sədrliyi dövründə Asiyada etibarlı dialoqun əldə edilməsinə nail olmağa, təşkilatın əhatə etdiyi coğrafiyada demokratiya, rifah üçün əlindən gələni etməyə hazırdır. Dünya maliyyə böhranının nəticələrinin aradan qaldırılması üçün qlobal yaxınlaşma və dünyada savaş ehtimallarının aradan qaldırılması da günümüzün vacib məsələsidir.*

*Azərbaycan prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz qardaşım prezident Abdullah Gül!

Hörmətli dövlət başçıları!

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri!

Xanımlar və cənablar!

Əvvəlcə mən prezident Abdullah Gülə səmimi qonaqpərvərliyə və bu zirvə görüşünün əla təşkil edildiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin mühüm beynəlxalq foruma çevrilməsi istiqamətində göstərdiyi səylərə görə Qazaxıstan prezidenti cənab Nursultan Nazarbayevə təşəkkürümü bildirirəm. Əminəm ki, bu təşkilatın gələcəyi çox perspektivli və parlaq olacaqdır.

Fürsətdən istifadə edərək, Aralıq dənizində günahsız mülki şəxslərin qətli ilə nəticələnən, humanitar yük gəmisinə edilən hücumla əlaqədar Azərbaycan xalqının türk qardaşlarımızla həmrəy olduğunu bildirmək istəyirəm. Biz bu hücumu qəti surətdə pisləyirik və Türkiyə ilə çiyin-çiyinə dayanırıq. Fürsətdən istifadə edərək mən Azərbaycan xalqı adından türk qardaşlarımıza və qurban vermiş ailələrə dərin hüznlə başsağlığı verirəm.

Azərbaycan regional əməkdaşlıq işində öz rolunu oynayır. Biz tam əminik ki, regional əməkdaşlıq, regionda proqnozlaşdırma və birgə fəaliyyət mövcud riskləri azaldacaq və xalqlarımız üçün proqnozlaşdırılan gələcəyi qurmaqda yardım edəcəkdir.

Asiyada təhlükəsizlik tədbirləri dünyadakı qlobal təhlükəsizlik tədbirlərinin bir hissəsidir. Təhlükəsizlik tədbirlərinə kompleks yanaşma olmadan biz uğur əldə edə bilməyəcəyik. Terrorçuluğa qarşı mübarizə dünyada bütün terrorçu təşkilatlara qarşı olmalıdır. Yaxşı, yaxud pis terrorçu olmur. Buna görə terrorçuluğa qarşı səylərin birləşdirilməsi uğurun əsas ilkin şərtidir. Regional əməkdaşlıq və iqtisadi artım regionumuzda təhlükəsizlik tədbirlərinə böyük töhfə verə-

cəkdir. Bu səbəbdən də Azərbaycan regional əməkdaşlıq məsələlərində mühüm rol oynamağa çalışır.

Ölkəmizdə başlanılmış və uğurla həyata keçirilmiş müxtəlif layihələr geniş regional əməkdaşlıq üçün artıq möhkəm əsas yaradır. Mən xüsusən də enerji təhlükəsizliyinə aid olan layihələri qeyd etmək istəyirəm. Bu layihələr ilk olaraq boru kəməri layihələri kimi başlandı, hazırda isə bütün iştirakçılara fayda gətirən çox mühüm regional əməkdaşlıq nümunəsinə çevrilibdir. Azərbaycan, həmçinin Tarixi İpək yolunun bərpasına töhfə verir və iştirak etdiyimiz dəmiryol layihəsi Asiya ilə Avropanı birləşdirəcək və regionumuzda yaşayan xalqlara rifah gətirəcək olduqca geniş nəqliyyat qovşağını yaratmağa imkan verəcəkdir.

Qeyd etmək istədiyim mühüm məsələlərdən biri də münaqişələrin həllinə olan münasibətdir. Azərbaycan Ermənistanın davamlı təcavüzünün qurbanıdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi illərdir ki, Ermənistanın işğalı altındadır. İşğal nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Hazırda işğal olunmuş ərazilərdə heç bir yerli sakin yoxdur. Orada etnik təmizləmə aparılmışdır. Həmin yerlərdə bütün tikililər, o cümlədən binalar, evlər, məktəblər, ulu babalarımızın məzarları, məscidlərimiz və bütün tarixi irsimiz dağıdılıbdır. Biz beynəlxalq təşkilatların qərar və qətnamələrinin Ermənistan tərəfindən icrasını tələb edirik.

BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin bu qətnamələr hələ də yerinə yetirilməyibdir. BMT-nin Baş Məclisinin qətnamələri, ATƏT-in qərarları, İslam Konfransı Təşkilatının qətnamələri, Avropa Şurası və Avropa parlamentinin, eləcə də digər beynəlxalq təşkilatların qərarları yerinə yetirilməyib. Əgər beynəlxalq hüququn normaları işləmirsə, onda beynəlxalq ictimaiyyət üçün hansı durumdan söhbət gedə bilər? Əgər biz hamı tərəfindən qəbul olunmuş

qətnamələri icra etmiriksə və bu vəziyyət davam edərsə, onda beynəlxalq münasibətlərin gələcəkdə necə təşkil olunacağı sual doğurur. Öz əhəmiyyəti və ölçüsündən asılı olmayaraq hər bir ölkə beynəlxalq hüquq normalarına əməl etməlidir. Biz beynəlxalq təşkilatların üzvüyük və onların qəbul etdiyi qərarlara hörmətlə yanaşmalıyıq. Əgər həmin qərarlar qəbul olunursa və icra edilmirsə, onda beynəlxalq təsisatlara olan etimad da azalacaqdır.

Azərbaycanın ərazi bütövlüyü dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Ermənistan–Azərbaycan münaqişəsinin həlli Azərbaycanın ərazi bütövlüyünün bərpasına və ölkəmizdə erməni azlığına yüksək özünüidarəetmə və muxtariyyət statusunun verilməsinə əsaslanmalıdır.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan regionumuzda təhlükəsizlik tədbirlərinə verdiyi töhfəni gələcəkdə davam etdirəcəkdir. Biz öz səylərimizlə və hüdudlarımızdan kənarda qoyulan sərmayələrimizlə regionun iqtisadi inkişafına töhfəmizi davam etdirəcəyik. Daşıma və enerji infrastrukturuna aid layihələr xalqları və dövlətləri birləşdirəcəkdir. İstehlakçılar, hasilatçılar və tranzit ölkələrin maraqları arasında müvafiq tarazlıq olmalıdır. Yalnız bu halda bütün layihələr hamımızın rifahına xidmət edəcəkdir.

Sonda mən bir daha ev sahibi Türkiyəyə səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm və sammitin işinə uğurlar arzulayıram.

## RUSİYANIN BAŞ NAZİRİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*İstanbul*

*8 iyun 2010-cu il*

*İyunun 8-də İstanbulda Azərbaycan prezidenti İlham Əliyevin və Rusiyanın Baş naziri Vladimir Putinin görüşü olmuşdur.*

**V l a d i m i r  P u t i n:** İlham Heydər oğlu, Sizi görməyimə, konfransın işi çərçivəsində sizinlə danışıqlar aparmağa, cari işlərimiz, ölkələrimizin iqtisadi, humanitar münasibətləri barədə söhbət etmək imkanına görə çox şadam. Biz həm ikitərəfli dövlətlərarası əlaqələrimizin inkişafında, həm də regionda vəziyyətin normallaşdırılması istiqamətində əlavə addımlar atmaq üçün hər bir imkandan istifadə etməyə çalışırıq. Buna görə də Sizi bir daha görməyə çox şadam.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, Vladimir Vladimiroviç. Əminəm ki, görüşümüz həmişəki kimi, çox konstruktiv və dostluq ruhunda keçəcəkdir. Bundan əvvəlki səmimi görüşümüzü xatırlayıram. Bu görüşlər həmişə münasibətlərimizin daha da inkişafına xidmət etmişdir. Bugünkü ikitərəfli görüşün gündəliyi çox genişdir. Təbii ki, burada iqtisadi əlaqələr, qarşılıqlı siyasi fəaliyyət, humanitar əməkdaşlıq, regional problemlər, münaqişənin nizamlanması məsələləri vardır. Biz ikitərəfli münasibətlərin bütün istiqamətləri üzrə çox konstruktiv, səmərəli iş aparırıq. İqtisadi əlaqələrə gəldikdə, bizdə əmtəə dövriyyəsinin artması müşahidə olunur. Bu çox müsbət amildir. İkitərəfli münasibətlərin bütün başqa istiqamətlərində də tərəqqi görürük. Buna görə də mən əminəm ki, bu görüş bizim dostluq, mehriban qonşuluq münasibətlərimizin daha fəal inkişafına xidmət edəcəkdir.

## UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*İstanbul*

*8 iyun 2010-cu il*

*İyunun 8-də İstanbulda Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin görüşü olmuşdur.*

**İlham Əliyev:** Gələcəkdə fəal, konstruktiv iş görüləcəyinə ümid edirəm. Ölkələrimiz arasında gözəl tarixi münasibətlər vardır. Bizim şəxsi münasibətlərimiz bundan sonra da mühüm rol oynayacaqdır. Bizim üçün Ukrayna ən yaxın dost və tərəfdaşdır. Mən əminəm ki, ən yaxın gələcəkdə biz əməkdaşlığımızın uğurlu nəticələrini görəcəyik.

**Viktor Yanukoviç:** Sizi görməyimə şadam. Hesab edirəm ki, Ukrayna ilə Azərbaycan arasında ənənəvi münasibətlər, Sizinlə şəxsi dostluq münasibətlərimiz ölkələrimizin münasibətlərinə yeni şərait yaradacaq, deyərdim ki, bu münasibətlərə dinamika verəcəkdir. Mən buraya Sizi böyük məmnuniyyətlə növbəti dəfə görmək, ikitərəfli ticari-iqtisadi əlaqələrimizi müzakirə etmək üçün gəlmişəm. 2009-cu ildə əmtəə dövriyyəsinin azalması bizim ölkələrin real potensialına uyğun deyildir. İndi əsas vəzifəmiz əmtəə dövriyyəsinin əvvəlki səviyyəsini bərpa etməkdir. Hazırda təxminən 1 milyard dollar səviyyəsindədir. Fikrimcə, biz ən yaxın vaxtlarda əmtəə dövriyyəsini ən azı iki dəfə artıra bilərik.

Hörmətli cənab Prezident, mən çox şadam ki, ölkənizin iqtisadiyyatı kifayət qədər davamlıdır və bu, son illərdə sizdə yaranmış sabitliyin sayəsində mümkün olmuşdur. Hətta gərgin 2009-cu ildə də sizdə ümumi daxili məhsulun artımı 9 faizdən çox olmuşdur. Bu çox böyük nailiyyətdir. Faktiki

olaraq, siz qısa bir dövr ərzində adambaşına ümumi daxili məhsulun həcmini iki dəfə, hətta iki dəfədən çox artırmısınız. Əminəm ki, bu, daxili siyasətdə bir sıra məsələlərin həllinə şərait yaradır, cəmiyyəti və insanları birləşdirir. Son illərdə Ukraynada bu hal çatışmırdı. Biz sizə yaxşı mənada həsəd aparırıq. Bu gün mən Sizi görməyə, əla təşkil edilmiş bu tədbirdə Sizi salamlamağa şadam. Ümid edirəm ki, ən yaxın vaxtlarda Sizi bir daha görəcəyəm, əlbəttə, bu dəfə artıq Ukraynada.

**İlham Əliyev:** Ölkəmiz haqqında bu xoş sözlərinizə görə təşəkkür edirəm, Viktor Fyodoroviç, sağ olun. Siz tamamilə haqlısınız. Böhranlı 2009-cu ildə biz yüksək nəticələr nümayiş etdirdik. İqtisadiyyatımız 20–25 faiz artmışdır. Bizim iqtisadiyyat sabitdir və hətta bu il kredit agentlikləri Azərbaycanın kredit reytinqini artırmışlar. Bu onu göstərir ki, biz iqtisadiyyatı şaxələndirməyə və davamlı artıma nail olmuşuq. Tamamilə haqlısınız ki, burada əsas amil sabitlik – həm siyasi sahədə, həm iqtisadiyyatda sabitlik və vəziyyətin proqnozlaşdırıla bilməsi, eləcə də investisiya imkanlarıdır. Ukrayna bizim üçün yaxın dost və strateji tərəfdaşdır. Əvvəlki onilliklərdə biz uzun illər boyu birgə yaşamışıq. Müstəqil dövlətlər kimi də biz həmişə bir-birimizə kömək etmişik. Sizinlə məni şəxsi dostluq münasibətləri bağlayır. Bu dostluq neçə illərdir ki, davam edir. Əminəm ki, Sizin rəhbərliyiniz altında dost Ukrayna xalqı böyük uğurlar qazanacaqdır. Bunun üçün hər cür imkan, ən başlıcası isə siyasi əzmkarlıq vardır.

Mən Sizi yenidən görməyimə çox şadam. Əminəm ki, yaxın illərdə bu cür görüşlər həm Ukraynada, həm də Azərbaycanda çox olacaqdır və biz bu cür möhkəm baza əsasında, xalqlarımızın bir-birinə qarşılıqlı rəğbəti və meyli sayəsində dostluğa, qarşılıqlı maraqlara, xalqlarımıza fayda gətirən amillərə əsaslanan münasibətlər quracağıq. Sizi bir daha şəxsən öz adımdan prezident vəzifəsinə seçilməyiniz, Ukrayna xalqının Sizə göstərdiyi etimad münasibətilə təbrik etmək istəyirəm. Bu Sizə münasibətin və Sizə bəslənilən ümidin əsas göstəricisidir. Əminəm ki, bütün ümidlər doğrulacaqdır.

## İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞ

*İstanbul*

*8 iyun 2010-cu il*

*İyunun 8-də İstanbulda «Çırağan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İran arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu.*

*Dövlət başçıları siyasi, iqtisadi və energetika sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardılar.*

*Görüşdə Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏSİ

*İstanbul*

*8 iyun 2010-cu il*

*İyunun 8-də prezident İlham Əliyev İstanbulda Azərbaycan jurnalistlərinə müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Siz Türkiyədə zirvə toplantısı çərçivəsində çoxtərəfli görüşlər keçirmisiniz. İstərdik ki, zirvə toplantısındakı çıxışınız və görüşləriniz barədə məlumat verəsiniz.**

**İ l h a m Ə l i y e v**: Görüşlərin hamısı çox uğurlu keçdi. Bu görüşlər deyə bilərəm ki, ənənəvi xarakter daşıyır. Biz öz tərəfdaşlarımızla mütəmadi qaydada görüşlər keçiririk. Bu fürsətdən istifadə edib müxtəlif görüşlər keçirildi. Türkiyə prezidenti və Baş naziri, Rusiyanın Baş naziri, Ukrayna və İran prezidentləri ilə apardığım danışıqlar çox yaxşı nəticələr verdi. Bu ölkələr ilə Azərbaycan arasında əlaqələr çox böyük tarixə malikdir və biz müxtəlif sahələrdə fəal çalışırıq. Həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq uğurludur. Bütün ölkələrlə əlaqələrimiz qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulub. Hesab edirəm ki, bu gün və dünən apardığım danışıqlar, keçirdiyim görüşlər bu ölkələrlə Azərbaycan arasında əlaqələrin inkişafına xidmət edəcəkdir.

**S u a l: Cənab Prezident, Siz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dəfələrlə bəyan etmisiniz ki, Ermənistan Madrid prinsiplərinə cavab verməsə, «yox» desə ölkənin**

**mövqeyi, qəti iradəsi ortaya qoyulacaqdır. Ermənistan cavab verməsə, nə baş verəcəkdir?**

**İ l h a m Ə l i y e v**: Hazırda biz elə həmin o dediyiniz vəziyyətlə üzləşirik. Çünki Ermənistandan nə «hə», nə «yox» cavabı gəlir. Ona görə də indiki şəraitdə vasitəçilər öz qəti sözünü deməlidirlər. Bildiyiniz kimi, mən bu barədə dəfələrlə öz fikrimi bildirmişəm ki, Azərbaycan prinsip etibarilə yenilənmiş Madrid prinsipləri ilə razıdır. Düzdür, o təkliflərdə müəyyən məqamlar vardır ki, onlar bizi qane edə bilməz. Amma onlar daha çox texniki və redaktə xarakteri daşıyır.

Bütövlükdə yenilənmiş Madrid prinsiplərində Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğaldan əziyyət çəkmiş bütün insanların öz doğma torpaqlarına qaytarılması məsələləri öz əksini tapır. Ermənistandan isə cavab yoxdur və hesab edirəm ki, həmsədr ölkələr bu məsələ ilə bağlı öz qəti fikrini bildirməlidir. Nə vaxta qədər Azərbaycan bu cavabı gözləməlidir?! Daha doğrusu, həmsədr ölkələrin özləri nə vaxta qədər bu cavabı gözləməlidirlər?! Çünki yenilənmiş Madrid prinsipləri bizim təklifimiz deyildir, bu, üç həmsədr ölkənin təklifidir. Ümid edirəm ki, bu ölkələr öz təkliflərinə hörmətlə yanaşacaqlar və son aylar ərzində danışıqlar prosesində pozuculuq fəaliyyəti aparan Ermənistana ciddi siqnallar getməlidir. Əgər biz hamımız danışıqların davam etdirilməsinə maraqlıyıqsa, onda hər hansı bir addımlar atılmalıdır. Əgər bu olmasa, Ermənistan tərəfindən ya vaxt uzatma taktikası davam edərsə, yaxud da ki, rəsmi qaydada bu prinsiplərə mənfi cavab verilərsə, o zaman Azərbaycan təbii ki, bu danışıqlarda və ümumiyyətlə, bu prosesdə öz iştirakının perspektivi haqqında ciddi düşünməlidir. Biz müxtəlif variantları nəzərdən keçiririk və çalışacağıq ki, Azərbaycanın ərazi bütövlüyünü istənilən yolla bərpa edək. Şübhə etmirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Məsələ ondadır ki, necə və nə vaxt?! Biz istəyirik ki, bunu tezliklə və sülh yolu ilə həll edək. Ancaq

Ermənistan tərəfi öz işğalçı siyasətini davam etdirmək istəsə və danışıqları sadəcə bir imitasiya prosesi kimi davam etdirmək istəsə, onda Azərbaycan, əlbəttə ki, öz mövqeyində ciddi dəyişikliklər edəcəkdir.

**S u a l: Cənab Prezident, dünən «Şahdəniz» qazının Azərbaycandan Türkiyəyə ixracı ilə bağlı saziş imzalandı. Ümumiyyətlə, bu sazişi Azərbaycanın enerji siyasətində mühüm bir tarixi hadisə kimi qiymətləndirmək olarmı? Bu layihənin perspektivləri ilə bağlı nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v**: Hesab edirəm ki, Azərbaycanın enerji sahəsindəki uğurları arasında bu sazişin öz xüsusi yeri vardır. Əhəmiyyət və mahiyyət baxımından bu çox nəhəng bir layihənin həyata keçirilməsinə gətirib çıxaracaqdır. Əgər bu məsələnin maliyyə tərəfinə nəzər salsaq görərik ki, ilkin hesablamalara görə bu layihənin həyata keçirilməsi üçün 20 milyard dollar sərmayə qoyulacaqdır. Nəzərə alsaq ki, 1995-ci ildən bu günə qədər Azərbaycanın neft-qaz sektoruna 40 milyard dollar sərmayə qoyulubsa, görərik ki, bu nə dərəcədə böyük maliyyə resursları tələb edən layihədir. Digər tərəfdən, bu layihənin icrası bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz potensialı tam şəkildə realizə edilsin.

Hazırda hasilatımız mövcud bazarların imkanları ilə məhdudlaşır. Biz hasilatı rahatlıqla, qısa müddət ərzində artıra bilərik. Ancaq qaz sahəsində bilirsiniz ki, hasilat mövcud bazarların imkanlarına birbaşa bağlıdır. Bu bizə imkan verəcək ki, 5 ildən sonra «Şahdəniz» yatağından əlavə ən azı 16 milyard kubmetr qaz hasil edilsin və nəql olunsun. Azərbaycanın artıq çox güclü və şaxələndirilmiş qaz ixracı infrastrukturunun olduğunu nəzərə alsaq görərik ki, mövcud kəmərlərin genişləndirilməsi sayəsində biz istənilən istiqamətə istənilən həcmi ötürə biləcəyik. Bu bizə imkan verəcək ki, ölkəmizə böyük həcmdə valyuta axını təşkil edilsin. Digər tərəfdən, bildiyiniz kimi, qaz sahəsindəki əməkdaşlıq, əlbəttə ki, təkcə iqtisadi maraqlarla məhdudlaşmır. Bu təbii ki,

Azərbaycanın bölgədəki, qitədəki mövqeyini xeyli dərəcədə gücləndirəcək bir amilə çevriləcəkdir.

Çox şadam ki, nəhayət, biz bütün məsələlər ətrafında razılığa gələ bildik. Həm Türkiyəyə əlavə qazın verilməsi məsələsi öz həllini tapıbdır, həm bundan əvvəlki dövrdə müəyyən qiymət fərqini ödəmək üçün lazımi tədbirlər nəzərdə tutulur, həm də ki, gələcəkdə əgər belə bir imkan yaranarsa, biz Azərbaycan qazını müxtəlif istiqamətlərə nəql edə biləcəyik.

Ümid edirəm ki, bütün planlarımız həyatda öz əksini tapacaqdır. Bunu deməyə əsas verən odur ki, bu vaxta qədər enerji sahəsində nəzərdə tutulmuş bütün vəzifələr uğurla və vaxtında icra edilibdir.

**S u a l: Cənab Prezident, Amerika prezidentindən məktub almısınız. Bu məktuba Sizin münasibətinizi bilmək istərdik. Sizin bu məktuba cavabınız olacaqmı?**

**İ l h a m Ə l i y e v**: Əlbəttə, cavabım olacaqdır. Bu məktubda əks olunan məqamlar əminəm ki, Amerika–Azərbaycan əlaqələrinin perspektivlərini müəyyən edəcəkdir. Çünki məktubda həm bu vaxta qədər əldə edilmiş məqamlar öz əksini tapıb və həm də hesab edirəm ki, məktub daha çox gələcəyə ciddi bir addımdır. Məktubda sadalanan bütün istiqamətlər üzrə Amerika ilə Azərbaycan arasında əlaqələrin çox böyük tarixi vardır. Əlaqələrimiz son bir-iki il ərzində formalaşmayıb. Bu əlaqələrin çox böyük tarixi vardır. Həm sülhməramlı əməliyyatlarda rolumuz, enerji sahəsində təşəbbüslərimiz – hansılar ki, bax, bugünkü sazişin də imzalanmasına gətirib çıxardı – bütövlükdə Azərbaycan tərəfindən keçən əsrin 90-cı illərinin ortalarında başlanmış enerji siyasətimiz dünyanın enerji xəritəsini dəyişdirdi.

Amerika ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir. Ümid edirəm ki, biz gələcək illərdə iki tərəfi razı sala biləcək əməkdaşlığa yeni amilləri daxil edəcəyik.

Məktub çox xoşniyyətlidir. Biz məktubda göstərilən bütün məsələlər ətrafında gələcək əməkdaşlığımızı davam etdirəcəyik.

**S u a l: Cənab Prezident, Siz Vladimir Putin ilə də görüşdünüz. Düzdür, bunu nə qədər inkar etsə də, Qarabağ münaqişəsinin həllində Rusiyanın da rolu vardır. Yəni, münaqişənin həllinin tezləşdirilməsində Rusiyanın iradəsindən də çox şey asılıdır. Bu görüşdə həmin məsələlərə toxunuldumu?**

**İ l h a m Ə l i y e v**: Biz çox istəyirik ki, həmsədr ölkələr öz nüfuzundan, təsir imkanlarından istifadə edib Ermənistan tərəfinə ciddi siqnallar göndərməklə onları vadar etsinlər ki, yenilənmiş Madrid prinsiplərini qəbil etsinlər və biz bunun əsasında sülh müqaviləsi üzərində işə başlayaq.

**S u a l: Cənab Prezident, Türkiyənin Baş naziri mətbuat konfransında bildirdi ki, Siz Aralıq dənizində baş verən hadisələrlə bağlı Türkiyəyə böyük dəstək olursunuz. Bu fikri Sizin öz dilinizdən eşitmək istərdik.**

**İ l h a m Ə l i y e v**: Bu barədə mən bu gün çıxışımda da öz fikirlərimi söylədim. Bildiyiniz kimi, Azərbaycan bu qanlı hadisəyə reaksiya verən ilk ölkələrdəndir və bu belə də olmalı idi. Çünki biz hər zaman Türkiyənin yanındayıq. Biz bütün məsələlərdə Türkiyəyə həmişə dəstəyimizi əsirgəməmişik və bu gün də bu dəstəyi veririk. Beynəlxalq sularda mülki vətəndaşlara qarşı edilən bu qanlı hadisə, bu hücum əleyhinə öz səsimizi ucaltmışıq. Bu gün də mən çıxışım zamanı bunu bir daha ifadə etdim. Biz Türkiyə ilə, türk xalqı ilə öz həmrəyliyimizi ifadə edirik, şəhidlərin yaxınlarına başsağlığı veririk. Hesab edirik ki, ciddi araşdırmalar aparılmalıdır və cinayətkarlar məsuliyyətə cəlb olunmalıdır. Yəni burada bizim mövqeyimiz, bir daha demək istəyirəm ki, birmənalıdır, qətidir və bizimlə Türkiyə arasında qardaşlıq münasibətlərimizə, beynəlxalq hüquqa əsaslanır. Biz, əlbəttə, hesab edirik ki, Türkiyəyə müttəfiq sayılan ölkələr də eyni mövqedən çıxış etməlidirlər. Bilirsiniz, bu bir həqiqət anıdır. Yəni bu çətin anlarda dostlar, əsl dostlar öz mövqeyini bildirməlidir. Əgər hər şey

yaxşıdırsa, yəni bu həyatda da belədir, çox adam yaxşı sözlər deyə bilər, amma çətin gündə, yəni seçim qarşısında olan günlərdə həm ölkələr, həm də ki, insanlar öz mövqelərini bildirməlidirlər. İnsanlar üçün də, ölkələr üçün də mövqe çox vacibdir, yəni prinsipial mövqe. Azərbaycan bütün zamanlarda bütün məsələlərlə bağlı öz prinsipial mövqeyini heç vaxt gizlətməmişdir. Bizə yaxın olan ölkələrə aid bütün məsələlərdə biz öz səsimizi ucaltmışıq və bu, haqq-ədalət səsi olmuşdur. Heç vaxt Azərbaycan hansısa qanunsuz hərəkəti dəstəkləməmişdir və eyni zamanda, qanunsuz hərəkətlərə biganə olmamışdır, xüsusilə Türkiyə ilə münasibətlərimizdə.

Eyni münasibəti biz Türkiyədən görürük. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən bu günə qədər həmişə Türkiyə bizim yanımızda olubdur, bizə ən böyük dəstəyi Türkiyə veribdir. Bu gün də belədir. Bəzən Türkiyə ilə Azərbaycan arasında münasibətlərə müdaxilə etmək istəyən qüvvələr olur. Əfsuslar olsun ki, Türkiyə mətbuatında və o cümlədən, bəzi hallarda Azərbaycan mətbuatında da son bir ildə vəziyyətlə bağlı çox nalayiq və çirkin yazılar dərc edilmişdir. Biz buna heç cür yol verə bilmərik ki, bizi istəməyən qüvvələr burada hansısa süni bir məsələni qabartmaqla Türkiyə–Azərbaycan münasibətlərinə zərrə qədər zərbə vursunlar. Yəni bu, mümkün deyil və bugünkü hadisələr, Türkiyə–Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti bunu əyani şəkildə sübut edir.

Bu yaxınlarda Türkiyənin Baş naziri Azərbaycana rəsmi səfər etmişdir. Səfər zamanı Bakının mərkəzində böyük öndər Mustafa Kamal Atatürkün abidəsinin açılışı olmuşdur. Bizim aramızda olan əlaqələr, sözün əsl mənasında, qardaşlıq əlaqələridir.

**S u a l: Cənab Prezident, Soçi danışıqlarından sonra, bildiyiniz kimi, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində müəyyən durğunluq yaranıb. Bilmək istərdik ki, Sizin Ermənistan prezidenti ilə yaxın zamanlarda görüşünüz planlaşdırılırmı?**

**İ l h a m Ə l i y e v**: Hələ ki, bu barədə heç bir təklif olmamışdır. Bildiyiniz kimi, Soçidən sonra, ümumiyyətlə, heç bir görüş keçirilməmişdir. Baxmayaraq ki, Soçidə Ermənistan prezidenti verilən təklifə münasibət bildirmək üçün iki həftə vaxt istəmişdir. Ancaq artıq altı ay keçibdir, hələ heç bir xəbər yoxdur. Ona görə belə bir görüş yaxın zamanlarda planlaşdırılmır.

**S u a l: Çox sağ olun, cənab Prezident, bu gərgin iş qrafikinizdə bizə vaxt ayırdınız.**

**İ l h a m Ə l i y e v**: Sağ olun. Mənim mətbuat nümayəndələri ilə görüşlərim, necə deyərlər, o qədər də fəal deyildir. Buna baxmayaraq, həmişə sizinlə görüşməyə hazıram, sadəcə olaraq, Bakıda yəqin ki, fürsət olmur. Ya da ki, mən demək istədiyim məsələlərə digər yollarla vaxtaşırı toxunuram, fikirlərimi bildirirəm.

Mən sizin də fəaliyyətinizi yüksək qiymətləndirirəm. Qeyd edim ki, sizin dünənki sualınız da Aralıq dənizindəki hadisələrə Azərbaycanın münasibətini açıqlamaq üçün bir imkan yaratdı. Azərbaycan haqqında həqiqətləri çatdırmaq bizim ümumi işimizdir. Əfsuslar olsun ki, bəzi hallarda xarici mətbuatda bizə qarşı çox ədalətsiz və qərəzli mövqe nümayiş etdirilir. Bunun müxtəlif səbəbləri vardır. İndi mən onların çoxunu heç açıqlamaq istəmirəm. Buna bəlkə də əhəmiyyət verməməliyik. Ancaq digər tərəfdən, biz buna qarşı öz həqiqətlərimizi qoymalıyıq. Ölkəmiz haqqında reallıqlar, ölkədə gedən proseslər, ölkənin inkişafı diqqətə çatdırılmalıdır. Bəzi hallarda xarici kütləvi informasiya vasitələrində bu ya danılır, ya da təhrif edilmiş şəkildə təqdim olunur və beləliklə, istər-istəməz ölkə haqqında reallığı əks etdirməyən bir rəy formalaşır. Düzdür, biz dövlət olaraq buna əhəmiyyət vermirik. Mən hesab edirəm, əsas məsələ odur ki, biz öz işimizi davam etdirək. Əgər biz əminik ki, bu iş ölkəmiz üçün lazımdır, heç bir şeyə baxmadan bunu etməliyik. Azərbaycanın bugünkü reallıqları və əldə edilmiş nailiyyətlər onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur.

Baxmayaraq ki, son illər ərzində müxtəlif tərəflərdən bəzi təzyiqlər, yumşaq desək, bəzi tövsiyələr oldu, yaxud hər halda, cəhdlər göstərildi. Ancaq onların heç biri bizi əsas ana xəttimizdən döndərə bilmədi. Bizim yolumuz müstəqillik, inkişaf yoludur. Azərbaycan xalqı öz taleyini özü müəyyən edir və müəyyən edəcəkdir. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır və ildən-ilə daha da yaxşı yaşayacaqdır. Sadəcə olaraq, biz istəyirik ki, ölkəmiz haqqında reallıqlar dünya ictimaiyyətinə çatdırılsın. Ola bilər ki, bizim haqqımızda qərəzli mövqedə olan qüvvələr hələ bir neçə il öz fəaliyyətlərini davam etdirsinlər. Ancaq bizim reallıqlarımızı danmaq mümkün deyildir. Vaxt keçdikcə, imkanlarımız, xarici əlaqələrimiz genişləndikcə Azərbaycan haqqında real vəziyyəti danmaq mümkün olmayacaqdır.

Hər halda, keçirdiyim bütün görüşlərdə, nəinki bu gün və bundan əvvəlki dövrlərdə, bütün xarici səfərlərdə, ən yüksək səviyyədə apardığım danışıqlarda mən Azərbaycan haqqında ancaq müsbət fikirlər eşitmişəm. Ən önəmlisi odur ki, Azərbaycan cəmiyyətində də, prinsip etibarilə, gələcək inkişafla bağlı fikir ayrılığı yoxdur. Yəni Azərbaycan cəmiyyəti də bu məsələdə vahid mövqedən çıxış edir. Biz elə etməliyik ki, hər birimiz öz sahəsində, gündəlik həyatda ölkəmizin qüdrətini artıraq, müstəqilliyimizi möhkəmləndirək və Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çalışaq. Bu işlərdə bütün Azərbaycan xalqına uğurlar arzulayıram.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri iyunun 9-da başa çatmışdır.*

*İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Azərbaycan prezidentini Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtmışdır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NAOTO KANA**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, dövlətlərarası münasibətlərimiz, çoxşaxəli dostluq əlaqələrimiz, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyun 2010-cu il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Filippin arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Filippin xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyun 2010-cu il*

## AVROPA PARLAMENTİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ FİORELLO PROVERA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Avropa Parlamenti Xarici Əlaqələr Komitəsi sədrinin müavini Fiorello Proveranı qəbul etmişdir.*

*Dövlətimizin başçısı hazırkı dövrdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğunu demiş və ölkəmizin müvafiq strukturları ilə Avropa parlamenti arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev bu yaxınlarda Avropa parlamentinin Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılması ilə bağlı qəbul etdiyi qətnamənin əhəmiyyətini qeyd etmişdir.*

*Avropa parlamenti Xarici Əlaqələr Komitəsi sədrinin müavini Fiorello Provera Azərbaycan hökumətinin rəsmiləri və parlament üzvləri ilə aparılan qarşılıqlı fikir mübadiləsi və dialoqların artıq mütəmadi xarakter daşıdığını bildirmişdir. O, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etmişdir.*

## ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN İNZİBATİ BİNASININ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*10 iyun 2010-cu il*

*İyunun 10-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasının yenidənqurmadan sonra açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılışda iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə binanın ətrafında yaradılan şəraitlə tanış oldu.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov bildirdi ki, ümumi sahəsi 10 min 190 kvadratmetr olan fasad müasir formada yenilənmiş, ətrafda abadlıq işləri görülmüş, binanın qarşısında 1500 kvadratmetr sahədə yaşıllıq zolağı salınmış, fəvvarələr kompleksi quraşdırılmışdır. Sonra prezident İlham Əliyev bina ilə yaxından tanış oldu.*

*Birinci mərtəbədə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin aztəminatlı insanlarla, şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi veteranları ilə görüşlərindən çəkilən fotoşəkillərdən ibarət guşə yaradılmışdır.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bölgələrdə tikdirdiyi və dövlətimizin başçısının iştirakı ilə açılışı olan yaşayış binaları barədə məlumat verildi. Bildirildi ki, 1999–2008-ci illərdə əlil və şəhid ailələrinin istifadəsinə 2763 mənzil verilmişdir. Bu kateqoriyadan olan insanlara təkcə 2009-cu ildə 700-dən çox mənzil verilmişdir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, nazirlikdə yeni yaradılan sistem yerlərdən məlumatları dərhal qəbul etməyə, məsələləri operativ həll etməyə, paytaxta gəlmək*

*imkanı olmayan vətəndaşların suallarını videoəlaqə vasitəsilə cavablandırmağa imkan verir. Hazırda Naxçıvan, Qusar və Gəncədə belə mərkəzlər fəaliyyət göstərir. Mərkəzlərin sayı gələn il daha da artırılacaqdır. Nazirliyin binasının açılışı mərasimi zamanı birbaşa videoəlaqəyə qoşulan bölgələrdə və onlara yaxın ərazilərdə yaşayan Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə və əlillərə 88 avtomobil veriləcəkdir.*

*Dövlətimizin başçısı Naxçıvan, Qusar və Gəncə ilə yaradılmış birbaşa videoəlaqəyə girdi.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun. Mən sizi ürəkdən salamlayıram. Sizi yaradılmış bu gözəl şəraitlə əlaqədar canlı bağlantı vasitəsilə təbrik edirəm. Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni binasının əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu binada çox gözəl şərait yaradılıb, ən müasir, qabaqcıl texnologiyalar tətbiq olunub ki, biz bu gün sizinlə canlı əlaqə vasitəsilə görüş keçiririk. Nazirliyin çox böyük funksiyaları vardır. Azərbaycanda çox güclü sosial siyasət aparılır. Sosial siyasət bizim ümumi siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycanın artan iqtisadi imkanları gücümüzü artırır, sosial siyasəti daha da uğurlu aparmaq üçün bizə şərait yaradır. Biz çalışırıq ki, bütün sosial məsələlər vaxtında və yüksək səviyyədə həllini tapsın.

Ünvanlı sosial yardım Azərbaycanda bir neçə ildir ki, təşkil olunubdur və minlərlə, on minlərlə Azərbaycan vətəndaşı dövlətdən bu yardımı alır. Əmək bazarının tənzimlənməsi işində nazirliyin çox vacib funksiyaları vardır. Bilirsiniz ki, Azərbaycan dövləti Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün öz qayğısını əsirgəmir. Bütün bölgələrdə evlər tikilir, mənzillər, avtomaşınlar verilir və bu gün isə biz bu gözəl tədbiri keçiririk. Biz bu gün Naxçıvan, Gəncə və Qusarla əlaqədəyik. Bu bölgələrdə yaşayan soydaşlarımız bu gün maşınlar alacaqlar.

Mən bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı öz rayon və

şəhərlərinizin sakinlərinə çatdırasınız. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti bundan sonra da vətəndaşlarının rifah halının yaxşılaşdırılması və sosial məsələlərin həlli üçün öz səylərini göstərəcəkdir. Bizim həm iqtisadi imkanlarımız, həm də güclü siyasi iradəmiz vardır. Biz əsas istiqamətimizi bunda görürük – güclü iqtisadiyyat və güclü sosial siyasət. Keçən il dünyanı bürümüş iqtisadi böhran məhz bu siyasətin nəticəsində Azərbaycandan yan keçib. Nəyə görə? Çünki biz görülən tədbirlərlə, insanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində apardığımız işlərlə böhranın acı nəticələrini minimum səviyyəyə endirə bilmişik.

Sosial məsələlərin həlli bundan sonra da işimizdə prioritet məsələ kimi qalacaqdır. Hər şey Azərbaycan xalqı üçün olmalıdır və Azərbaycan xalqı gündən-günə daha da yaxşı yaşamalıdır. Bu gün hələ ki, ağır vəziyyətdə, yoxsulluq şəraitində yaşayanlara da Azərbaycan dövləti öz yardımını göstərəcəkdir. Ancaq o da həqiqətdir ki, son illər yoxsulluğun səviyyəsi 49 faizdən 11 faizə enmişdir. Bu da işlərimizin ən gözəl göstəricisidir. Əminəm ki, gələcəkdə də bütün planlarımız həyatda öz əksini tapacaq və Azərbaycanın bütün bölgələrində işlər ən yüksək səviyyədə görüləcəkdir.

Mən Azərbaycanın bütün bölgələrində dəfələrlə olmuşam, vəziyyətlə tanış olmuşam və bütün müvafiq göstərişləri vermişəm. Regionların inkişaf proqramı, infrastruktur layihələri, sosial proqramlar – bütün bunlar Azərbaycanın bugünkü reallıqlarıdır. Biz uğurla və inamla irəliyə gedirik. Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və uğurlar arzulayıram.

**Füzuli Ələkbərov** (*nazir*): Cənab Prezident, bizim yerlərdəki adamlarımızın Sizə ürək sözləri vardır. İcazə versəydiniz, onlara da söz verərdik.

**İlham Əliyev**: Buyurun.

**Naxçıvandan müharibə veteranı** *(video əlaqəyə qoşulan)*: Möhtərəm cənab Prezident, bu gün Sizin rəhbərliyinizlə davam və inkişaf etdirilən Heydər Əliyev

quruculuq xətti nəticəsində ölkəmiz sürətlə tərəqqi edir, insanlarımızın rifah halı gündən-günə yaxşılaşır. Naxçıvan Muxtar Respublikasının bütün sakinləri kimi, biz müharibə əlilləri də Sizin diqqət və qayğınızı daim üzərimizdə hiss edirik. Mənzillərlə təmin olunuruq, Prezident təqaüdü alırıq, müalicəmiz vaxtında təşkil edilir, asudə vaxtımızın səmərəli keçməsi üçün bizə hər cür şərait yaradılmışdır. Bu gün müharibə əlillərinə avtomobillərin təqdim edilməsi Vətən yolunda sağlamlığını itirən insanlara göstərdiyiniz diqqət və qayğının əyani ifadəsidir.

Cənab Prezident, ölkəmizdə yaradılan əmin-amanlığa və bizə göstərdiyiniz yüksək diqqətə və qayğıya görə muxtar respublikada yaşayan bütün müharibə veteranları və sakinlər adından Sizə öz dərin minnətdarlığımızı bildiririk. Sağ olun.

**Qusar sakini** *(video əlaqəyə qoşulan)*: Möhtərəm cənab Prezident, icazə verin Sizi bütün qusarlılar adından salamlayım, Sizə onların dərin hörmət və məhəbbətini çatdırım. Bu gün çox böyük qürur hissi keçirirəm ki, belə bir tədbirdə çıxış etmək mənə nəsib olmuşdur.

Cənab Prezident, bu gün Qusarda yeni yolların salınması, sosial obyektlərin tikintisi, dünyada analoqu olmayan «Şahdağ» dağ turizm mərkəzinin tikintisi buna əyani sübutdur. Bu gün hər bir Azərbaycan vətəndaşına Sizin tərəfinizdən qayğı göstərilir. Bunun ən gözəl nümunələrindən biri də bu gün veteranlarımıza avtomobillərin paylanmasıdır. Sizə bütün veteranlar adından öz dərin minnətdarlığımızı bildirir, uzun ömür, cansağlığı arzu edirik.

**Qarabağ müharibəsi əlili** (*Gəncədən video əlaqəyə qoşulan)*: Möhtərəm Prezident, mən də Qarabağ müharibəsi əlilləri, şəhid ailələri adından Sizə çox sağ olun deyirəm ki, belə bir gündə yenə bizi ətrafınıza yığıb sevindirdiniz. Sizin qayğınız nəticəsində bütün müharibə əlillərinə, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, ümumiyyətlə, Azərbaycandakı əlillərin hamısına sosial yardımlar, kom-

pensasiyalar, Prezident təqaüdü, mənzillər, evlər, maşınlar verilir.

Cənab Prezident, Sizin sayənizdə hər il onlarla müharibə əlili öz müalicəsini respublikamızdan kənarda davam etdirir. Bu gün bizi yenə sevindirməyiniz – avtomobillərin bizə hədiyyə edilməsi, biz müharibə iştirakçılarının rifah halının yaxşılaşdırılması onu göstərir ki, Siz bizim üçün əlinizdən gələni edirsiniz. Mən çox şadam ki, bununla ikinci dəfədir Sizinlə görüşürəm. İki il öncə Göygöl rayonunda Siz bizim Qarabağ müharibəsi əlillərinə mənzillərin orderlərini təqdim etmişdiniz. Çox şadam ki, bu gün yenə Sizinlə görüşürəm və Sizin bizə hədiyyə etdiyiniz avtomobillərin birini də mən alacağam. Bir daha müharibə əlilləri, şəhid ailələri adından Sizə çox sağ olun deyirik.

**İlham Əliyev:** Çox sağ olun. Xoş sözlərinizə görə hamınıza təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, bundan sonra da mən öz fəaliyyətimdə Azərbaycanın inkişafı və Azərbaycanda bütün sosial məsələlərin həlli üçün səylərimi əsirgəməyəcəyəm və Sizinlə yaxın zamanlarda yenidən görüşəcəyik. Bir daha sağ olun, salamat qalın!

## AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİNİN YENİ BİNASINDA APARILAN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ VƏ MUSİQİ MƏDƏNİYYƏTİ DÖVLƏT MUZEYİNİN ESKİZİ VƏ İNŞASI ÜÇÜN NƏZƏRDƏ TUTULAN YERLƏ TANIŞLIQ

*10 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 10-da Dənizkənarı Milli Parkın ərazisində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün inşa edilən yeni binada aparılan tikinti işlərinin gedişi ilə maraqlanmış, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eskizi və inşası üçün nəzərdə tutulan yerlə tanış olmuşlar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev tikinti işləri barədə dövlətimizin başçısına məlumat vermişdir. Dövlətimizin başçısı və xanımı inşaat işlərinin gedişi ilə bir daha yaxından tanış oldular.*

*Prezident İlham Əliyev inşaat işlərinin yüksək standartlara uyğun surətdə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini vermişdir.*

*Daha sonra dövlətimizin başçısı və xanımı yaxınlıqdakı «Venesiya şəhərciyi» adlanan ərazidə inşa olunacaq Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eskiz layihəsi ilə tanış olmuşlar. Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev layihə barədə Azərbaycan prezidentinə və xanımına məlumat vermişdir.*

*Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eskiz layihəsi ilə tanış olduqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin inşası üçün nəzərdə tutulan əraziyə baxmışlar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ

*Sankt-Peterburq*

*17 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin «Pulkovo» Aeroportunda Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Sankt-Peterburq*

*17 iyun 2010-cu il*

*İyunun 17-də Sankt-Peterburqda, «Konstantinovski» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Sankt-Peterburq*

*17 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Sankt-Peterburqda onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

* * *

*İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Lüksemburq arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2010-cu il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DANİLO TYURKA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Dövlətçilik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Sloveniya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sloveniya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2010-cu il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İVO YOSİPOVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Xorvatiya münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2010-cu il*

## BMT-nin ÖLKƏMİZDƏ YENİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ FİKRƏT AKÇURA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də BMT-nin ölkəmizdə yeni rezident-əlaqələndiricisi Fikrət Akçuranı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Fikrət Akçuranı BMT-nin Azərbaycanda rezident-əlaqələndiricisi kimi fəaliyyətə başlaması münasibətilə təbrik etmiş və ona işində uğurlar arzulamışdır. Azərbaycan ilə BMT arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirmişdir.*

*Fikrət Akçura demişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədiyi kimi, Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir və qardaş Azərbaycanda BMT-nin rezident-əlaqələndiricisi vəzifəsinə təyin olunmasından qürur duyur. O, dövlətimizin başçısını əmin etmişdir ki, BMT ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra da genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.*

*Fikrət Akçura BMT-nin Baş katibi Pan Gi Munun məktubunu prezident İlham Əliyevə çatdırmışdır.*

## AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİXAEL ŞPİNDELEQQERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Avstriya Respublikasının Xarici İşlər naziri Mixael Şpindeleqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Mixael Şpindeleqqer Avstriya Respublikasının Federal Prezidenti Hayntz Fişerin salamlarını və məktubunu dövlətimizin başçısına çatdırmışdır.*

*Nazir Mixael Şpindeleqqer Bakıda gördüyü memarlıq abidələrinin və şəhərin gözəlliyinin onda çox böyük təəssürat yaratdığını bildirmişdir. Ölkəmizdə keçirdiyi görüşlərə toxunan Mixael Şpindeleqqer bu görüşlərin ikitərəfli münasibətlərimizə dair məsələlərin müzakirəsi baxımından səmərəli olduğunu qeyd etmişdir. O bildirmişdir ki, Avstriya şirkətləri Azərbaycana investisiya qoymaqda və ölkəmizlə daha çox ticarət mübadiləsinin həyata keçirilməsində maraqlıdırlar. Prezident İlham Əliyev Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə, investisiya qoyuluşu və müxtəlif layihələrin həyata keçirilməsi sahəsində əlaqələrin inkişafı üçün yaxşı potensialın mövcud olduğunu vurğulamış və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etmişdir.*

*Dövlətimizin başçısı Avstriya Respublikasının Federal Prezidenti Hayntz Fişerin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Avstriya prezidentinə çatdırmağı xahiş etmişdir.*

## BAKIDA İSLAM İNKİŞAF BANKI QRUPUNUN 35-ci İLLİK TOPLANTISININ AÇILIŞI MƏRASİMİ

*«Gülüstan» sarayı*

*23 iyun 2010-cu il*

*İyunun 23-də Bakıda «Gülüstan» sarayında İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısının açılışı mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmiş və nitq söyləmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Bismillahir-Rəhmanir-Rəhim!

Hörmətli İslam İnkişaf Bankının prezidenti doktor Əhməd Məhəmməd Əli!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İslam İnkişaf Bankının Müdirlər Şurasının illik toplantısının Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox əlamətdar hadisədir. Əminəm ki, bu toplantı uğurlu keçəcək və toplantının nəticələri bankın üzvü olan ölkələr arasında əməkdaşlığın dərinləşməsinə xidmət edəcək, bankın perspektivləri haqqında geniş fikir mübadiləsi aparılacaqdır.

İslam İnkişaf Bankı ilə Azərbaycan arasında əlaqələr çox uğurla və sürətlə inkişaf edir. Bu barədə burada artıq rəqəmlər göstərildi. Uzun illərdir ki, biz bu səmərəli əmək-

daşlıqdan böyük mənfəət götürürük və Azərbaycanın uğurlu iqtisadi inkişafında İslam İnkişaf Bankının xidməti çox böyük olmuşdur. Ümid edirəm ki, gələcək illərdə də bu əməkdaşlıq dərinləşəcək və ölkəmiz qarşısında duran iqtisadi və sosial məsələlərin həlli üçün biz uğurlu əməkdaşlığımızı davam etdirəcəyik.

Əməkdaşlığımızın çox uğurlu perspektivləri vardır. Azərbaycan öz inkişaf dövrünü yaşayır və bankın xətti ilə Azərbaycanda həyata keçirilmiş layihələr özünü doğruldur. Ölkəmizin hərtərəfli inkişafını təmin etmək üçün biz gələcəkdə də iqtisadi islahatlarımızı davam etdirəcəyik. Bir sözlə, İslam İnkişaf Bankı ilə Azərbaycan arasında bu günə qədərki əməkdaşlıq çox uğurlu olmuşdur. Biz bu əməkdaşlıqdan çox məmnunuq və ümid edirik ki, gələcəkdə də bu əməkdaşlığın dərinləşməsinə bərabər səylərimizi göstərəcəyik.

Hesab edirəm ki, bugünkü toplantı bankın üzvü olan ölkələr arasında da əlaqələrin genişlənməsinə xidmət edəcək, islam həmrəyliyini gücləndirəcəkdir. Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini göstərir. Baxmayaraq ki, biz müstəqil ölkə kimi, nisbətən gəncik, artıq İslam Konfransı Təşkilatının çox fəal üzvünə çevrilmişik. Bu təşkilatın xətti ilə Azərbaycanda çoxsaylı tədbirlər keçirilmişdir və o tədbirlərin çox gözəl nəticələri vardır. Aramızda olan iqtisadi əlaqələrin inkişafı sayəsində bu həmrəyliyi daha da gücləndirə bilərik. Belə imkanlar vardır və İslam Konfransı Təşkilatının üzvü olan ölkələr arasında iqtisadi sahədə əməkdaşlığın genişlənməsi hamımızın marağındadır. Nəinki iqtisadi və siyasi sahədə, bütün başqa sahələrdə – mədəniyyət, humanitar sahələrində əlaqələrimizi gücləndirməliyik.

Böyük iftixar hissi ilə deyə bilərəm ki, 2009-cu ildə Bakı şəhəri islam mədəniyyətinin paytaxtı elan edilmişdi və bütün il boyu müxtəlif tədbirlər keçirilmişdi. Biz bütün istiqamətlərdə çalışırıq ki, müsəlman ölkələri arasında əməkdaşlığa öz töhfəmizi verək və bu səylərimizi davam etdirəcəyik.

Mən xüsusilə Azərbaycanın böyük dostu doktor Əhməd Məhəmməd Əlinin çıxışında səslənən fikirlərə öz münasibətimi bildirmək istəyirəm. Minnətdarlığımı bildirmək istəyirəm ki, Azərbaycan dövləti və xalqı haqqında xoş sözlər ifadə edib, ölkəmiz üçün ən ağır, ən birinci problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildirib. Bu çox qiymətli və dəyərli fikirlərdir. Bu, əsl dostluq əlamətidir. Mən bu fürsətdən istifadə edərək, bütün müsəlman bacı-qardaşlarımıza Azərbaycanın haqq işinə öz dəstəyini verdiklərinə görə bir daha minnətdarlığımı bildirirəm.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, ölkəmiz və bölgəmiz üçün böyük problemlər yaradır. Ermənistanın Azərbaycana əsassız torpaq iddiası nəticəsində Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazisinin 20 faizi hazırda Ermənistanın işğalçı qüvvələrinin işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyon Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal nəticəsində zəbt edilmiş ərazilərdə bütün binalar, infrastruktur dağıdılıbdır, muzeylərimiz talan edilibdir, eksponatlar oğurlanıbdır. Əcdadlarımızın qəbirləri, tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən dağıdılıbdır. İşğal edilmiş torpaqlar ölü bölgəyə çevrilibdir. Bu ərazilərdə azərbaycanlılar əsrlər boyu yaşamışlar.

Ermənistanın işğalçı siyasəti bu gün də davam edir. Dağlıq Qarabağ və onun ətrafında yerləşən bölgələr uzun illərdir ki, işğal altında saxlanılır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və mən heç şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər və bizim mövqeyimizi, yəni haqq-ədalət mövqeyini dəstəkləyən beynəlxalq təşkilatların çoxsaylı qərarları və qətnamələri vardır. Bu gün hörmətli cənab Əhməd Məhəmməd Əli bu barədə öz fikirlərini bildirdi. BMT Təhlükəsizlik Şurası, yəni

beynəlxalq müstəvidə ən ali orqan tərəfindən bu məsələ ilə bağlı 4 qətnamə qəbul edilmişdir. Bu qətnamələrdə birmənalı göstərilir ki, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın ərazilərindən qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr icrasız qalıbdır.

İslam Konfransı Təşkilatı dəfələrlə buna oxşar qətnamələr qəbul edibdir. ATƏT, Avropa parlamenti, Avropa Şurası, bütün başqa beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyirlər. Ermənistan isə beynəlxalq hüquq normalarına məhəl qoymur, beynəlxalq təşkilatların qərarları ilə hesablaşmır. Bu işğalçı siyasətə son qoyulmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və işğaldan əziyyət çəkmiş bütün insanlar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar.

Buna baxmayaraq, biz müstəqillik dövründə böyük və şərəfli yol keçə bilmişik. Azərbaycan müstəqilliyi əldə edəndə – 1991-ci ildə vəziyyətimiz çox ağır idi. Bir tərəfdən erməni işğalı, digər tərəfdən ölkə daxilində gedən xoşagəlməz proseslər, iqtisadi tənəzzül, demək olar ki, ölkəni iflic vəziyyətinə salmışdı. Azərbaycan xalqının iradəsi və böyük lider Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan o böhranlı vəziyyətdən şərəflə çıxa bilmişdir. Keçən əsrin 90-cı illərinin ortalarında sabitlik yaranmışdır, həm iqtisadi, həm siyasi sabitlik bərqərar olunmuşdur. Bu bizə imkan verdi ki, sürətlə inkişaf edək. O gündən bu günə qədər Azərbaycanın hərtərəfli inkişafı ölkə qarşısında duran problemlərin həlli üçün bizə şərait yaratdı.

1995–2010-cu illərdə ölkə iqtisadiyyatına 80 milyard dollardan çox sərmayə qoyulmuşdur. Bu sərmayə nəticəsində ölkə iqtisadiyyatının müxtəlif sahələri inkişaf etməyə başlamışdır. Bu gün iqtisadi inkişafımızı göstərən bəzi rəqəmlər səsləndi. Azərbaycan son illər ərzində iqtisadi inkişaf baxımından, sözün əsl mənasında, ən sürətlə inkişaf edən ölkədir. Ümumi daxili məhsulun, sənaye istehsalının artımı, investisiyaların cəlb edilməsi və ən önəmlisi, yoxsulluğun de-

mək olar ki, 4 dəfədən çox aşağı düşməsi bizim əsas nəticələrimizdir. Biz 20 ilə yaxındır ki, bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Bundan əvvəl – Sovet İttifaqının tərkibində yaşadığımız dövrdə Azərbaycanda bazar iqtisadiyyatı yox idi. Buna baxmayaraq, artıq iqtisadiyyatımızın 85 faizi özəl sektorda formalaşır və özəl sektorun inkişafı bizim üçün prioritetdir. Özəl sektoru müxtəlif yollarla stimullaşdırmaq üçün tədbirlər görürük ki, Azərbaycanda güclü sahibkarlar sinfi yaransın. Artıq bunun nəticələrini görürük.

Biz çalışmışıq və çalışırıq ki, ölkə iqtisadiyyatının bütün sahələrini, xüsusilə qeyri-neft sektorunu inkişaf etdirək və bu istiqamətdə də böyük nailiyyətlər əldə edildi. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, həm iqtisadi və maliyyə böhranına, dünyada neftin qiymətinin bir neçə dəfə aşağı düşməsinə baxmayaraq, keçən il Azərbaycan iqtisadiyyatı 9 faizdən çox artmışdır. Bu artım indiyə qədər görülən işlərin nəticəsidir. Artıq Azərbaycan iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır, bir sektordan asılı deyildir. Azərbaycan investisiya qoyuluşu üçün də çox əlverişli ölkədir. Həm daxili, həm xarici investisiyalar Azərbaycanda dövlət səviyyəsində qorunur və bu bizə imkan verir ki, iqtisadiyyatımızı sürətlə inkişaf etdirək. Biz beynəlxalq maliyyə qurumları ilə sıx əməkdaşlıq edirik və bu əməkdaşlığın da gözəl nəticələri vardır.

Hesab edirəm ki, uğurlarımızın əsas səbəbi hər mənada sabitliyi qoruyub saxlamaqdır. Çünki sabitlik olmayan yerdə iqtisadi inkişafdan, investisiyalardan söhbət gedə bilməz. Biz bunu yaxşı bilirik. Müstəqilliyimizin qısa tarixində biz gördük ki, sabitlik pozulanda bu öz mənfi nəticələrini dərhal iqtisadi məsələlərdə də göstərir.

Biz gələcəyə ümidlə baxırıq və ölkə iqtisadiyyatının gücləndirilməsi sahəsində əldə edilmiş uğurlarla kifayətlənməyəcəyik. Qarşımızda böyük hədəflər var ki, Azərbaycanı inkişaf etmiş ölkələrin sırasına daxil edək. Bu istiqamətdə artıq gözəl nəticələr vardır. Bu gün rəqəmlər səsləndirildi.

Rəqabət qabiliyyətliliyinə görə Azərbaycan MDB məkanında birinci, dünya miqyasında isə 51-ci yerdədir. Biz hələ bu yolun başlanğıcındayıq.

Bir sözlə, iqtisadi sabitlik imkan verir ki, biz siyasi cəhətdən də müstəqil siyasətimizi cəsarətlə aparaq. Azərbaycan o ölkələrdəndir ki, müstəqil siyasət aparır. Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına əsaslanır və bölgədə gedən proseslərə də müsbət təsir göstərir. Beynəlxalq və regional əməkdaşlıq işlərində çox fəal iştirak edirik. Azərbaycanın təşəbbüsü ilə bölgədə uğurla icra edilən nəhəng enerji layihələri bunun bariz nümunəsidir. Bizim təşəbbüsümüzlə müxtəlif istiqamətlərə neft-qaz kəmərləri çəkildi. Bu kəmərlər həm Azərbaycanın iqtisadi maraqlarını təmin edir, bölgənin inkişafına xidmət edir, həm də bölgədə gedən əməkdaşlığı dərinləşdirir və bütövlükdə qitənin enerji təhlükəsizliyinə də öz müsbət təsirini göstərir. Biz enerji resurslarımızdan çox uğurla və məharətlə istifadə edə bildik və əldə edilmiş gəlirləri qeyri-neft sektoruna yönəltdik. Nəticədə ölkə iqtisadiyyatında şaxələndirmə meyillərini daha da gücləndirdik.

Maliyyə sistemimizdə şəffaflıq prinsiplərini tətbiq edirik və bu istiqamətdə də böyük nailiyyətlər əldə edilibdir. Azərbaycanın Dövlət Neft Fondu çox şəffaf bir qurumdur, Birləşmiş Millətlər Təşkilatı tərəfindən mükafatlandırılıb və hasilatda şəffaflıq təşəbbüsünün fəal üzvü kimi, Azərbaycan bu sahədə də liderlik göstərir. Azərbaycanın enerji resursları hələ uzun illər bizə imkan verəcək ki, iqtisadiyyatımızı gücləndirək. Ancaq bizim əsas vəzifəmiz bu kapitalı insan kapitalına çevirməkdir. Bu məqsədlə Azərbaycanda sosial və humanitar sahələrdə çox böyük tədbirlər görülür.

Sosial sahənin gücləndirilməsi üçün konkret proqramlar icra edilir. Təhsil, səhiyyə, mədəniyyət, idman – bu sahələr bizim üçün prioritetdir. Gəlirlərin ədalətli bölüşdürülməsi bir tərəfdən, cəmiyyətdə ədalət prinsiplərinin bərqərar olunmasını təsdiqləyir, digər tərəfdən, bizə imkan verir ki, ölkə

qarşısında duran vəzifələri böyük səmərə və keyfiyyətlə icra edək.

Bizim təşəbbüsümüzlə çəkilən dəmir yolları, açılan dəhlizlər bölgə üçün böyük əhəmiyyət daşıyır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi nəticəsində Asiya ilə Avropa yeni dəmir yolu ilə birləşəcəkdir. Bu təşəbbüsü biz göstərmişik və ilkin maliyyə resurslarını səfərbər etmişik. Şimal–Cənub dəhlizinin fəaliyyəti nəticəsində Azərbaycan bu baxımdan da öz imkanlarını genişləndirəcəkdir. Bizim coğrafi vəziyyətimiz əlverişlidir. Ancaq infrastruktur layihələri olmadan bu coğrafi vəziyyət o qədər də böyük əhəmiyyət daşımır. Biz öz coğrafi vəziyyətimizdən uğurla istifadə etməliyik və edirik. Beləliklə, Azərbaycan öz tarixi missiyasını davam etdirəcəkdir. Tarixi İpək yolu vaxtilə Azərbaycan ərazisindən keçmişdir. Biz bu gün müasir infrastruktur layihələri ilə, öz təşəbbüslərimizlə bu Tarixi İpək yolunu müxtəlif formalarda bərpa edirik.

Bu günə qədər əldə edilmiş uğurlar bizi daha da ruhlandırır. Çünki iqtisadi cəhətdən möhkəm və sabit olan ölkə, əlbəttə ki, siyasi çəkisini də artıracaqdır. Azərbaycanın bölgədəki rolu artır, dünyadakı mövqeləri möhkəmlənir. Biz beynəlxalq təşkilatlarda özümüzü çox etibarlı tərəfdaş kimi göstərə bilmişik. Qonşu dövlətlərlə bizim çox səmərəli, qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlərimiz vardır.

Bizim gələcək planlarımız da aydındır. Biz öz işimizi proqram əsasında qururuq. 2004–2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair birinci proqramın uğurlu icrası bizə imkan verdi ki, artıq ölkəmizin iqtisadiyyatını böyük dərəcədə şaxələndirək. Bu gün biz ikinci Dövlət Proqramını icra edirik. 2009–2013-cü illəri əhatə edən bu proqramın nəticəsində əminəm ki, ölkə qarşısında duran əsas infrastruktur və sosial məsələlər öz həllini tapacaqdır. Bizim proqramlarımız konkret xarakter daşıyır. Onların icra mexanizmləri, konkret cədvəli və ən önəmlisi, maliyyə re-

surslar vardır. Bu bizə deməyə imkan verir ki, ikinci proqram da uğurla icra ediləcəkdir.

Bununla bərabər, bir daha demək istəyirəm ki, biz beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlığımızı dərinləşdirəcəyik. Xüsusilə, İslam İnkişaf Bankı ilə əməkdaşlığımızın çox gözəl perspektivləri vardır. Biz bir daha İslam İnkişaf Bankının rəhbərliyinə böyük minnətdarlıq hissi ilə müraciət etmək istəyirik. Minnətdarlığımızı bildirmək istəyirik ki, bizə kömək göstərildi, xüsusilə ölkəmizin ağır illərində bu əməkdaşlıq, bu yardımlar, bu kreditlər çox böyük məna daşıyırdı. Bu gün də böyük məna daşıyır və mən heç şübhə etmirəm ki, biz bu uğurlu əməkdaşlığı gələcəkdə davam etdirəcəyik.

Bugünkü toplantı ölkəmizin həyatında xüsusi yer tutur. Bir tərəfdən, bizim üçün böyük şərəfdir ki, belə bir beynəlxalq tədbir Azərbaycanda keçirilir. Digər tərəfdən, mən bilirəm ki, qonaqlarımızın arasında Azərbaycanda ilk dəfə olanların sayı az deyildir. Bu da bizim hamımıza imkan yaradır ki, bir-birimizi daha da yaxşı tanıyaq, həm şəxsi əlaqələr yaradılsın, həm də nazirlər səviyyəsində əlaqələr daha da gücləndirilsin.

Azərbaycanın böyük tarixi, böyük mədəniyyəti vardır. Bu gün dostumuz doktor Əhməd Məhəmməd Əli Azərbaycanın tarixi haqqında çox dəyərli fikirlər söyləmişdir. Ancaq müstəqillik tariximiz o qədər də böyük deyildir. Ona görə bəzi hallarda Azərbaycan haqqında dünyada kifayət qədər məlumat yoxdur. Ancaq bu, müvəqqəti bir məsələdir. Vaxt keçdikcə Azərbaycanı tanıyanların sayı çox olacaqdır və ölkə haqqında dəqiq, qərəzsiz məlumat üstünlük təşkil edəcəkdir. Biz istəyirik ki, müsəlman ölkələri daim bir-birinə dəstək olsunlar, beynəlxalq təşkilatlarda bir-birimizin lehinə səsimizi ucaltmalıyıq. Çünki bizim gücümüz birliyimizdədir. Biz istəyirik ki, dünyada sülh, əmin-amanlıq, ədalət olsun, işğalçılar işğal edilmiş bütün torpaqlardan çəkilsinlər. İşğaldan əziyyət çəkmiş bütün insanlar öz doğma torpaqlarına,

tarixi torpaqlarına qayıtsınlar ki, dünyada ədalət bərpa edilsin. Əfsuslar olsun ki, ədalətsizliklər də kifayət qədər çoxdur. Biz birgə səylərimizlə bu ədalətsizliklərə qarşı mübarizə aparmalıyıq. Öz haqq səsimizi ucaltmalıyıq. Digər tərəfdən, gücümüzü, müştərək gücümüzü iqtisadi imkanlarla artırmalıyıq.

Bu niyyətlə mən sizə bir daha öz hörmətimi bildirmək istəyirəm, sizi bir daha Azərbaycanda salamlayıram. Əminəm ki, Azərbaycana səfəriniz uğurlu, yaddaqalan olacaqdır. Bütün nümayəndə heyətlərinin rəhbərlərinə müraciət edib, xahiş edirəm ki, mənim səmimi salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Sağ olun.

## İRANIN İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ SEYİD ŞƏMSƏDDİN HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə naziri Seyid Şəmsəddin Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirmişdir.*

*Seyid Şəmsəddin Hüseyni İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırmışdır. Qonaq İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısındakı çıxışına görə bütün həmkarları adından prezident İlham Əliyevə təşəkkür etmişdir.*

*Dövlətimizin başçısı prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etmişdir.*

## BMT-nin KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ FONDUNUN (İFAD) PREZİDENTİ KANAYO NVANZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondunun (İFAD) prezidenti Kanayo Nvanzeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsinin ölkəmizin qarşısında duran prioritet məsələlərdən biri olduğunu qeyd etmiş və bu istiqamətdə əldə olunan uğurlardan danışmışdır.*

*Kanayo Nvanze Azərbaycanın müstəqilliyini bərpa etdiyi qısa müddət ərzində böyük inkişafa nail olmasının önəmini vurğulayaraq bu münasibətlə dövlətimizin başçısını təbrik etmişdir.*

*Görüşdə Azərbaycan ilə BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**XANIM MİŞEL JANA**

Hörmətli xanım General-Qubernator!

Ölkənizin milli bayramı – Kanada günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Kanada münasibətlərinin bugünkü inkişaf səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2010-cu il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının milli bayramı – Respublika Günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Əminəm ki, Azərbaycan ilə Belarus arasında ənənəvi dostluq münasibətləri və çoxtərəfli əməkdaşlıq xalqlarımızın və ölkələrimizin firavanlığı naminə bundan sonra da dinamik şəkildə və sürətlə inkişaf edəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Belarus xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2010-cu il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında müvəffəqiyyətlə inkişaf edərək tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Enerji təhlükəsizliyinin təmin edilməsi, qlobal təhdidlərə və çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, eləcə də regional sabitliyin gücləndirilməsi sahəsində birgə fəaliyyətimiz əməkdaşlığımızın mühüm istiqamətlərindəndir.

Əminəm ki, dostluq münasibətlərimizin daim möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı iş birliyimizin dərinləşdirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Biz, həmçinin xalqımızın ən ağrılı probleminin – ölkəmizin ərazi bütövlüyünün pozulmasına və torpaqlarımızın işğalına səbəb olmuş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında –sülh yolu ilə tezliklə və ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın səylərinə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə, cənab Prezident, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2010-cu il*

## MALAVİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİNQU VA MUTARİKAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malavi arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malavi xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2010-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARADILMASININ 92-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MÜDAFİƏ NAZİRLİYİNİN, DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ BİRLƏŞMƏ VƏ HİSSƏLƏRİNİN İRİMİQYASLI BİRGƏ ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMLƏRİ İLƏ TANIŞLIQ

*24 iyun 2010-cu il*

*İyunun 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bölmələrin, hissələrin və silah sistemlərinin taktiki döyüş tətbiqini əhatə edən təlimin əsas mərhələsini izləmişdir.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Ali Baş Komandana raport verdi.*

*Prezident İlham Əliyev xüsusi təyinatlıların döyüş fəaliyyətinin nümayişinə baxdı.*

*Sonra dövlətimizin başçısı hərbi texnika və silah nümunələri ilə tanış oldu.*

*Ali Baş Komandana məlumat verildi ki, burada nümayiş olunan hərbi texnika yüksək standartlara cavab verir və güclü döyüş qabiliyyətinə malikdir.*

*Prezident İlham Əliyev radiolokasiya stansiyalarına, zenit-raket briqadasının avtomatlaşdırılmış komanda məntəqəsinə*

*baxdı, kompyuter və multimedia avadanlığı ilə təmin olunmuş mobil komanda-qərargah və rabitə kunqlarında yaradılan şəraitlə tanış oldu. Ən yüksək tələblərə cavab verən, qoşunların manevr imkanlarını və atəş gücünü əhəmiyyətli dərəcədə artırmağa imkan yaradan T 72 M-1 əsas döyüş tankına, 82 millimetrlik avtomatik minaatana, «Qrad» və «LAR» döyüş maşınlarına, avtomatlaşdırılmış idarəetmə sistemləri kompleksinə, düşmənin artilleriyasını, minaatanlarını, texnikasını, canlı qüvvəsini və idarəetmə məntəqələrini məhv etmək, müdafiə qurğularını dağıtmaq qabiliyyətinə malik 122 millimetrlik özüyeriyən minaatan qurğuya, reaktiv mərmilərin daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitələrinə, piyadaların modernləşdirilmiş döyüş və zirehli kəşfiyyat-dozor maşınlarına, ön müşahidə sistemlərinə baxdı.*

*Sonra Müdafiə naziri Səfər Əbiyev hərbi təlimlərin operativ-taktiki vəziyyəti barədə Ali Baş Komandana məruzə etdi.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev bölmələrin, hissələrin və silah sistemlərinin döyüş tətbiqi üzrə təlimlərini izlədi.*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər qarşısında çıxış etdi.*

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı

Əziz hərbçilər!

Sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə təbrik edirəm, sizə xidmətinizdə uğurlar arzulayıram.

Azərbaycan Ordusu gündən-günə güclənir. Azərbaycanda ordu quruculuğu prosesi çox uğurla gedir və bu bizə imkan verir ki, hərbi gücümüzü artıraq. Ordu quruculuğu hər bir ölkə üçün çox önəmli məsələdir. Xüsusilə müharibə şəraitində yaşayan ölkə üçün bu, prioritet olmalıdır. Biz uzun illərdir ki, işğaldan əziyyət çəkirik, torpaqlarımız işğal altın-

dadır. Hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Bunu etmək üçün siyasi və diplomatik səylərlə bərabər, biz güclü orduya malik olmalıyıq və bu proses uğurla gedir. Bu gün Azərbaycan Ordusunun səviyyəsi çox yüksək zirvədədir.

Orduda peşəkarlıq, döyüş qabiliyyəti artır, ruh yüksəkliyi vardır, ordumuzun maddi-texniki bazası möhkəmlənir və son illərdə bu işlərdə çox böyük addımlar atılmışdır. Ordunun bütün tələbatını ödəmək üçün dövlət tərəfindən kifayət qədər vəsait ayrılır. Bir rəqəmi demək kifayətdir ki, son 7 il ərzində hərbi xərclərimiz 13 dəfədən çox artmışdır. Bu gün 2010-cu ilin bütün hərbi xərcləri Azərbaycanda 2 milyard 150 milyon dollara bərabərdir ki, bu da Ermənistanın bütün dövlət büdcəsindən çoxdur. Bir neçə il bundan əvvəl qarşıya məqsəd qoyulmuşdu ki, Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün xərclərindən çox olmalıdır. Artıq bu məqsəd reallaşıb. Biz bundan sonra da hərbi gücümüzü artıracağıq, ordumuz üçün lazım olan bütün silah-sursatı və texnikanı alacağıq.

Azərbaycanda hərbi təyinatlı məhsulların istehsalı istiqamətində əlavə addımlar da atılacaqdır. Son illərdə bu istiqamətə çox böyük diqqət göstərilmişdir. Hazırda Azərbaycanda 21 hərbi müəssisə, hərbi zavod fəaliyyət göstərir, 30 istehsal sahəsi yaradılıbdır. Biz elə etməliyik ki, Azərbaycan Ordusu üçün, Silahlı Qüvvələr üçün lazım olan bütün texnika, silah-sursat Azərbaycanda istehsal edilsin. Biz bu istiqamətdə işimizi daha da gücləndirəcəyik.

Son illərdə Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevrilir. Son bir neçə il ərzində iqtisadi inkişaf dünya miqyasında ən yüksək templərlə ölçülür və bu bizə imkan verir ki, həyatımızın bütün sahələrində lazımi tədbirləri görək. Azərbaycanda nəinki hərbi büdcə, bütün başqa məsələlərin həlli üçün əlavə vəsait ayrılır. Büdcəmiz artdıqca bütün iqtisadi-sosial məsələlər həllini tapır. Lakin ilk növbədə hərbi xərclərə daha da böyük diqqət göstərməliyik. İqtisadi

gücümüz artdıqca, ölkəmizin dünyadakı, bölgədəki mövqeləri də güclənir. Azərbaycan bu gün çox böyük hörmətə malik olan ölkədir və bölgədə mövqelərimiz möhkəmdir. Bölgədə aparılan işlər bizi qane edir. Bizim təşəbbüslərimizlə aparılan işlər Azərbaycanın maraqlarına tam şəkildə cavab verir. Biz bölgənin gələcək inkişafı üçün də lazımi addımları atacağıq.

Keçən il və bu il dünyada hökm sürən maliyyə böhranı, demək olar ki, Azərbaycandan yan keçdi. Çünki bizim tərəfimizdən atılan addımlar həm ölkəmizi, həm də əhalini bu acı fəsadlardan qoruya bilmişdir. Azərbaycan gələcəyə nikbinliklə baxan ölkədir, öz iqtisadi qüdrətini artırır. Şübhə etmirəm ki, biz həm iqtisadi, həm sosial, həm bütün siyasi məsələlərdə məqsədimizə nail olacağıq. Məqsədimiz isə ondan ibarətdir ki, ölkənin müstəqilliyini daha da gücləndirək, müstəqil siyasətimizi təmin edək, ölkə qarşısında duran bütün vəzifələri həll edək. Bu vəzifələrin arasında ən vacibi, ən birincisi torpaqlarımızı işğalçılardan azad etməkdir. Uzun illərdir Ermənistan ilə Azərbaycan arasında bu istiqamətdə danışıqlar aparılır. Danışıqların aparılmasında vasitəçilər öz rolunu oynayır. Lakin məsələ bu günə qədər həllini tapmayıbdır. Baxmayaraq ki, bizim mövqeyimizi, haqq-ədalət mövqeyini gücləndirən beynəlxalq təşkilatların qərarları, qətnamələri vardır. Demək olar ki, dünyanın bütün aparıcı təşkilatları bu məsələ ilə bağlı öz qərarlarını vermişlər. Ancaq işğalçı dövlət bu qərar və qətnamələrə məhəl qoymur. Belə olan halda Azərbaycanın qarşısına yeni vəzifələr çıxır. Ya danışıqları davam etdirmək – biz buna hazırıq, ancaq o şərtlə ki, danışıqların nəticəsi olsun – ya da ki, başqa yolu seçmək. Biz hər bir varianta hazır olmalıyıq və son illər ərzində dəfələrlə verdiyim bəyanatlar bunu bir daha göstərir.

Biz məsələnin həllinin hərbi yolla mümkün olmasını heç vaxt inkar etməmişik. Biz sülh danışıqlarının tərəfdarıyıq və 20 ilə yaxındır sülh danışıqları aparılır. Azərbaycan bu danışıqlarda çox konstruktiv mövqe nümayiş etdirir. Lakin bunun nəticəsi yoxdur. Azərbaycan xalqı nə vaxta qədər

gözləməlidir ki, haqq-ədalət bərpa olunsun? Bir halda ki, Ermənistan tərəfi beynəlxalq hüquq normalarına məhəl qoymur, beynəlxalq təşkilatların qərarlarına riayət etmir. Azərbaycan xalqının səbri tükənməz deyildir.

Biz son illər ərzində ordu quruculuğuna çox böyük diqqət göstərmişik. Bizim əsas vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü istənilən yolla bərpa etməkdir. Əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, Azərbaycan Ordusu, Silahlı Qüvvələr hazır olmalıdırlar ki, Ali Baş Komandanın əmri ilə öz doğma torpaqlarını azad etsinlər.

Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Bu bizim haqqımızdır. Bir milyon Azərbaycan vətəndaşının elementar insan haqları pozulub. Azərbaycanlılar etnik təmizləməyə məruz qalmışlar. Dağlıq Qarabağdan və ətraf bölgələrdən yüz minlərlə Azərbaycan vətəndaşı qovulmuşdur. Nə vaxta qədər biz buna dözməliyik?

Biz həm siyasi, həm diplomatik səylərimizi gücləndirməliyik və gücləndiririk. İqtisadi potensialımızı yüksək səviyyədə gücləndirmişik. Bu gün Ermənistan ilə Azərbaycan arasında iqtisadi potensial baxımından böyük uçurum vardır. Bu uçurum getdikcə dərinləşəcəkdir. Çünki bizim böyük imkanlarımız vardır. Ermənistan isə xarici dairələrin köməyi hesabına yaşayır, öz hesabına yaşaya bilmir və getdikcə bu fərq daha da böyüyəcəkdir.

Bu gün Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmlənməsi, orduya dövlət tərəfindən göstərilən diqqət və hörmət – bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğalçılardan azad edək.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu azərbaycanlılar bu diyarda yaşamışlar, ermənilər isə oraya qonaq kimi gəlmişlər. Dağlıq Qarabağın əvvəlki, yəni real coğrafi məntəqələrinin adlarına baxmaq kifayətdir. Xankəndi şəhəri əsrlər boyu bu adla mövcud olmuşdur. Köhnə xəritə-

lərə baxanda hər kəs bunu görə bilir: Xankəndi. Stepanakert adı orada yoxdur. Stepanakert bolşevik, quldur Stepan Şaumyanın adından götürülübdür. Bu ad Sovet İttifaqı zamanında verilibdir. Dağlıq Qarabağ – Qarabağ Azərbaycan sözüdür. Erməni dilində bunun heç bir mənası yoxdur. Bütün başqa coğrafi məntəqələrin adlarının hamısı Azərbaycan xalqı, Azərbaycan tarixi ilə bağlıdır. XIX əsrdə digər bölgələrdən ermənilərin Dağlıq Qarabağa köçürülməsi orada demoqrafik vəziyyətin dəyişdirilməsinə gətirib çıxarmışdır. Lakin bu heç kimə əsas vermir ki, orada azlıq təşkil edən azərbaycanlıların haqlarını pozsun. Azərbaycanlıların o torpağa qayıtmağa haqqı vardır və biz oraya qayıdacağıq.

Bugünkü təlimlər bir daha Azərbaycan Ordusunun, bütün Silahlı Qüvvələrin qüdrətini göstərdi. Bu təlimlər Müdafiə Nazirliyi, Daxili Qoşunlar, Sərhəd Qoşunları tərəfindən birgə keçirilmişdir və biz Vətən uğrunda, torpaq uğrunda mübarizəyə birlikdə çıxacağıq. Bütün Azərbaycan xalqı səfərbər olunacaqdır. Bu məqsədlə bütün Silahlı Qüvvələr arasında əlaqələndirmə işi aparılmalıdır. Bu təlimlərin əsas məqsədi ondan ibarətdir ki, biz birgə səylərlə öz doğma torpaqlarımızı işğalçılardan azad edək. Təlimlər də çox uğurlu keçdi. Mən də gördüm ki, qarşıya qoyulan bütün vəzifələr icra edildi və Silahlı Qüvvələrimiz yüksək peşəkarlıq göstərdilər.

Əziz hərbçilər, əsgərlər, gizirlər, zabitlər, generallar, sizi qarşıdan gələn böyük bayram – Silahlı Qüvvələr Günü münasibətilə bir daha ürəkdən təbrik edirəm, Vətən uğrunda xidmətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonda Ali Baş Komandan hərbi xidmətdə fərqləndiklərinə və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 92 illiyi münasibətilə bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LƏNKƏRAN RAYONUNA SƏFƏRİ

*25 iyun 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 25-də Lənkəran rayonuna gəlmişdir.*

*Respublikamızın digər rayonlarında olduğu kimi, Lənkəranda da regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq geniş abadlıq və quruculuq işləri aparılır. Rayonda 2003-cü ildən 2010-cu ilin iyununa qədər 14 min 451-i daimi olmaqla, 25 min 790 yeni iş yeri açılmışdır.*

*Dövlətimizin başçısı Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Lənkəranlıların sevimli istirahət guşələrindən olan parkda orijinal fəvvarələr yaradılmış, dekorativ gül kolları və ağaclar əkilmiş, çəmənlik salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Burada uşaqların əylənməsi üçün də gözəl şərait vardır.*

### Konserv zavodunun açılışı mərasimi

*İyunun 25-də Azərbaycan prezidenti İlham Əliyev Lənkərana səfəri çərçivəsində Sütəmurdov kəndində konserv zavodunun açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, son illərdə Lənkəranda da yeni müəssisələrin istifadəyə verilməsi davamlı xarakter almışdır. Bu müəssisələrin istehsal etdiyi məhsulların*

*rəqabətədavamlı və keyfiyyətli olması ölkəmizin ixrac potensialının gücləndirilməsinə xidmət edir.*

*Müəssisə tam gücü ilə işləyəndə burada 350 nəfər çalışacaqdır.*

*Prezident İlham Əliyev zavodun işə düşməsini bildirən düyməni basdı, istehsal sahələrindəкi prosesləri izlədi.*

*Dövlətimizin başçısı müəssisənin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Bu, Lənkəranda əlamətdar hadisədir. Bu çox gözəl hadisə onu göstərir ki, Azərbaycanın bütün bölgələri, o cümlədən Lənkəran rayonu inkişaf edir. Belə müasir zavodun tikilməsi, şübhəsiz, rayonun iqtisadiyyatına yeni təkan verəcəkdir. Burada ən qabaqcıl texnologiyalar tətbiq olunub, fermerlərə ən gözəl xidmət göstəriləcəkdir. Həm istehsalın artırılması, həm də keyfiyyətli məhsulun istehsalı üçün burada bütün şərait vardır.

Zavod, əlbəttə ki, Lənkəranda sənayenin inkişafına böyük xidmət göstərəcəkdir və nəinki bu rayonda, bölgədə, bütün cənub zonasında kənd təsərrüfatının inkişafına təkan verəcəkdir. Çünki fermerlər məhsullarını bu zavoda gətirib təhvil verəcəklər, pulunu alacaqlar və beləliklə, kənd təsərrüfatının inkişafı daha da sürətlə gedəcəkdir. Belə zavodların Azərbaycanda yaradılması çox əlamətdar hadisədir, aparılan iqtisadi siyasətin nəticəsidir. Bütün bölgələrdə quruculuq, abadlıq işləri aparılır, yeni müəssisələr yaradılır. İndi dünyada hökm sürən maliyyə böhranı iqtisadi inkişafa xeyli dərəcədə maneçilik törədir. Ancaq bu böhranlı illərdə Azərbaycanda yeni, müasir zavodların istifadəyə verilməsi özlüyündə bir göstəricidir.

Biz iqtisadi gücümüzü artırmalıyıq. Xüsusilə qeyri-neft sektorunun, kənd təsərrüfatının, sahibkarlığın və Azərbaycanın gələcək inkişafı bu istiqamətdə davam etməlidir. Bizim artıq güclü maliyyə bazamız, iqtisadi potensialımız vardır.

Elə etməliyik ki, bütün bölgələrdə yeni, müasir zavodlar yaransın.

İstehsal sahələri hər bir ölkənin inkişafında aparıcı rol oynayır. İstehsal sahələri həm yerli istehsal, həm də iş yerləri, məşğulluq, ərzaq təhlükəsizliyi deməkdir. Bu zavodda istehsal olunacaq məhsullar Azərbaycan bazarında, xaricdə satılacaqdır. Həm sahibkarlar, fermerlər bundan fayda götürəcək, həm də bütün ölkəmiz. Böyük məbləğlərdə, milyonlarla ölçülən investisiyalar qoyulur. Sahibkarlarda inam var ki, Azərbaycanda bütün iqtisadi məsələlər, investisiyaların qorunması məsələləri gələcəkdə də lazımi səviyyədə qorunacaqdır.

Sizə, lənkəranlılara yeni uğurlar arzulayıram. Lənkəran rayonu çox uğurla inkişaf edir. Rayonda çox böyük işlər görülür – sənaye infrastrukturu, sosial infrastruktur yaradılır, tibb məntəqələri, məktəblər, idman qurğuları, sənaye müəssisələri, turizm obyektləri. İndi Bakı–Astara avtomobil yolunun tikintisi davam edir. Yolun tikintisi imkan verəcək ki, bütün cənub bölgəsinin Bakı ilə çox yaxşı əlaqəsi yaransın. Rahat, dünya səviyyəli bir yol olacaqdır. Lənkəran aeroportu fəaliyyət göstərir, artıq Lənkəran–Moskva beynəlxalq reysləri yerinə yetirilir. Bu da çox gözəl hadisədir. Aeroportun yenidən qurulması artıq konkret nəticələrə gətirib çıxarıb. İnsanlar birbaşa Lənkərandan, cənub zonasından Moskvaya uçurlar, daha Bakıya gəlmirlər.

İqtisadi və sosial siyasətimiz bütün sahələrdə və hər bir bölgədə, hər rayonda öz nəticəsini verir. Lənkəranın inkişafı göz qabağındadır. Lənkəranlılar da bunu yaxşı bilirlər və Lənkərana qonaq gələn insanlar bunu görürlər. Mən çox şadam ki, burada işlər uğurla və yüksək keyfiyyətlə aparılır. Sizi bütün bu uğurlar münasibətilə, zavodun açılması münasibətilə təbrik edirəm və lənkəranlılara yeni uğurlar arzulayıram.

**Fərman Quliyev** *(Lənkəran sakini)*: Möhtərəm cənab Prezident, Lənkərana gəlişiniz münasibətilə rayonumu-

zun ictimaiyyəti adından «Xoş gəlmisiniz!» deyirəm. Ulu öndərimiz Heydər Əliyev Lənkərana həmişə yüksək diqqət və qayğı göstərmişdir. Bu gün fərəhləndirici haldır ki, Siz bu adət-ənənələri davam etdirib Lənkərana 7 il müddətində yeddinci dəfədir gəlmisiniz.

Lənkəranda indi möhtəşəm süd zavodunun yaradılması, çay fabrikinin, dondurma istehsalı müəssisəsinin, «Palsüd» zavodunun tikilməsi Sizin sahibkarlığa olan diqqətinizin, qayğınızın nəticəsidir. Bundan əlavə, Sizin təklifinizlə və qayğınızla yaradılmış Olimpiya İdman Kompleksi, Lənkəran Müalicə-Diaqnostika Mərkəzi – bütün bunlar bizim bölgənin inkişafında böyük rol oynayır. Lənkəranda Dövlət Dram Teatrı, musiqi məktəbləri, muzeylər bizim zəngin mədəniyyəti yaşadır. Lənkəranda Dövlət Universitetinin, Pedaqoji Kollecin, Tibb Məktəbinin yaradılması ətraf rayonlardan minlərlə gəncin gəlib burada təhsil alması üçün şərait yaratmışdır. Bütün bunlara görə Sizə lənkəranlıların dərin təşəkkürünü bildiririk.

Fürsətdən istifadə edib, Lənkərana, lənkəranlılara həmişə diqqət və qayğı göstərən xalqımızın sevimli qızı Mehriban xanım Əliyevaya təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Sizə uğurlar və uzun ömür arzulayırıq.

**İlham Əliyev:** Çox sağ olun. Siz Lənkəranda son illər ərzində açılan müəssisələr, obyektlər haqqında danışdınız. Doğrudan da bu qısa müddət ərzində bütün sahələrdə çox böyük işlər görülüb. Olimpiya kompleksi ölkəmizdə olimpiya kompleksləri arasında birincilərin sırasındadır. Birinci Müalicə-Diaqnostika Mərkəzi Lənkəranda tikildi. İdman qurğuları, zavodlar, fabriklər, həm sosial infrastruktur, həm iqtisadi müəssisələr, sənaye müəssisələri. Lənkəran hərtərəfli inkişaf edir. Lənkəran gözəlləşib, abadlaşıb, tarixi bir şəhərdir, tarixi diyardır, gözəl təbiəti vardır. Turizm üçün də gözəl imkanlar vardır. Burada mehmanxanalar da vardır, mən keçən dəfə gələndə olmuşam, daha da çox tikilməlidir.

Yeni yol çəkilir. Bakı ilə Lənkəran arasında məsafə də qısalacaqdır. Çünki yeni xətt açılır. Beynəlxalq aeroport açılır. Heç vaxt Lənkəranda Beynəlxalq aeroport olmayıb. Bilirsiniz, sovet vaxtında daxili uçuşlar üçün olubdur. Kiçik təyyarələr uçurdu. Amma indi burada tikilmiş zolaq ən ağır yük təyyarələrini də qəbul edə bilər. Aeroport tikiləndən sonra gördük ki, artıq beynəlxalq uçuşlar da açıldı. İndi Lənkəran–Moskva uçuşları yerinə yetirilir.

Bir sözlə, bu zonanın inkişafının çox böyük imkanları və potensialı vardır. Biz çalışmalıyıq ki, bundan maksimum dərəcədə istifadə edək. Ətraf rayonlarda da işlər yaxşı gedir. Bu, böyük bir uğurdur, nailiyyətdir. Ancaq biz əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməməliyik, gələcəyə baxmalıyıq. Daha da çox işlər görülməlidir. Mən şübhə etmirəm ki, sahibkarlar da burada yaradılmış imkanlardan istifadə edəcəklər, yeni müəssisələr, turizm kompleksləri yaradacaqlar. Dövlət də öz tərəfindən sahibkarlara dəstək verir. Kreditlər ayrılır, əlverişli şərait, investisiya mühiti yaradılır, kənd təsərrüfatına subsidiyalar, aqrolizinq yolu ilə texnika, ondan sonra gübrə, yanacaq verilir. Əgər dövlətin dəstəyi olmasaydı, biz bu qədər kənd təsərrüfatı məhsulu istehsal edə bilməzdik. Bu gün biz ərzaq təhlükəsizliyimizi, demək olar ki, təmin etmişik. Əsas qida məhsulları Azərbaycanda istehsal və emal olunur. Sizə yeni-yeni uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıram.

## Çay fabrikinin açılışı mərasimi

*İyunun 25-də prezident İlham Əliyev Lənkəranın Sütəmurdov kəndində çay fabrikinin açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev əvvəlcə fabrikin maketi ilə tanış oldu. Məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafına*

*dair ikinci Dövlət Proqramı üzrə hazırlanan tədbirlərə əsasən inşa edilmiş fabrikdə tikinti işləri bir ilə başa çatdırılmışdır.*

*Prezident İlham Əliyev müəssisənin işə düşməsini bildirən düyməni basdı, qurutma, təmizləmə və qablaşdırma sahələrində istehsal prosesini izlədi.*

*Qeyd olundu ki, burada gündə 250–300 kiloqram yaşıl çay yarpağı emal etmək mümkün olacaqdır. İlkin mərhələdə çay iki adda – «İmperial» və «Lənkəran» adı ilə bazara çıxarılacaqdır.*

## Regional Boks Təlim Mərkəzinin açılışı mərasimi

*İyunun 25-də prezident İlham Əliyev Lənkəran rayonuna səfəri çərçivəsində Liman şəhəri ərazisində əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilən Regional Boks Təlim Mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərkəzin kollektivi, idman ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Kompleksdə ümummilli lider Heydər Əliyevin idmana qayğısını əks etdirən guşə yaradılmışdır.*

*Mərkəzin ərazisində basketbol, qaçış və mini futbol meydançaları da vardır.*

*Prezident İlham Əliyev boks rinqlərində, basketbol və futbol meydançalarında gənc idmançıların məşq prosesini izlədi.*

## «Palmali Holdinq» şirkətlər qrupuna daxil olan «Pal Food» MMC-nin dondurma fabrikinin açılışı mərasimi

*İyunun 25-də prezident İlham Əliyev Lənkərana səfəri çərçivəsində «Palmali Holdinq» şirkətlər qrupuna daxil olan «Pal Food» MMC-nin dondurma fabrikinin açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev müəssisə ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, «Pal Food» MMC dondurma fabrikinin tikintisinə 2008-ci ildə başlanılmış, ötən ilin sonlarında isə «Paldad» markası ilə dondurma istehsalına başlanılmışdır. Prezident İlham Əliyev müəssisənin işə düşməsini bildirən düyməni basdı.*

*Məlumat verildi ki, hazır məhsul mənfi 30 dərəcədə olan soyuducu anbara göndərilir. 720 kvadratmetr sahədə tikilən soyuducu anbarda 250 ton qablaşdırılmış dondurma saxlanır. Dondurma sexinin investisiya dəyəri 15 milyon manatdır. Ən son texnologiya ilə qurulan zavoda avadanlıq Danimarkadan gətirilmişdir. Dondurmanın qabları isə Türkiyə istehsalıdır. Hazırda Azərbaycan bazarı ilə yanaşı, «Paldad» dondurmalarının Türkiyə, Gürcüstan, Özbəkistan və digər dövlətlərə ixracı istiqamətində danışıqlar aparılır.*

*Prezident İlham Əliyev müəssisənin məhsullarının nümunələrinə və dadına baxdı, kollektivi təbrik etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LERİK RAYONUNA SƏFƏRİ

*25 iyun 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev cənub bölgəsinə səfəri çərçivəsində iyunun 25-də Lerik rayonuna gəlmişdir.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra edildiyi rayonlardan biri də Lerikdir. 2010-cu ilin birinci rübündə 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə rayonda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, adambaşına düşən gəlir xeyli artmışdır. Ümumi məhsul buraxılışının həcmində ötən ilə nisbətən 2,7 faiz, pərakəndə əmtəə dövriyyəsində 7,5 faiz, pullu xidmətdə 17,5 faiz, təmir-tikinti işlərində isə 11 faiz artım qeydə alınmışdır.*

*Rayonda kənd təsərrüfatı sahəsində də mühüm uğurlar əldə edilmişdir. Əhalinin sosial şəraitinin daha da yaxşılaşdırılması üçün rayonda mühüm işlər görülmüş, sahibkarlığa göstərilən diqqət nəticəsində yeni müəssisələr istifadəyə verilmiş, işsizlik xeyli azalmışdır. Lerik şəhərində yaşayan 1321 ailənin mənzilinə prezident İlham Əliyevin göstərişi ilə 2007-ci ildə qaz xətti çəkilmişdir. Bu bölgənin turizm üçün böyük potensiala malik olması da diqqətdən kənarda qalmamışdır. Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev meydanında ulu öndərin abidəsini ziyarət etdi.*

*Prezident İlham Əliyev Heydər Əliyev meydanında aparılmış tikinti işləri ilə tanış oldu.*

*Məlumat verildi ki, 8200 kvadratmetr sahəni əhatə edən meydan yenidən qurulmuş, işıqlandırma sistemi quraşdırılmışdır. Burada 35 metrlik qüllə üzərində Azərbaycanın Dövlət bayrağı dalğalanır.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Rayon Mərkəzi Xəstəxanasında aparılmış əsaslı yenidənqurma işləri ilə tanışlıq

*İyunun 25-də prezident İlham Əliyev Lerikə səfəri çərçivəsində rayon Mərkəzi Xəstəxanasında aparılmış əsaslı yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin səhiyyə sahəsinə göstərdikləri diqqət və qayğını əks etdirən fotostend vardır.*

*Məlumat verildi ki, 4 mərtəbəli binanın ümumi sahəsi 2100 kvadratmetrdir. 90 çarpayılıq xəstəxana hər cür müasir tibbi avadanlıqla, mərkəzləşdirilmiş havalandırma və istilik sistemləri ilə təchiz olunmuşdur.*

*Səhiyyə ocağında poliklinika, qəbul, infeksion, terapiya, doğuş-ginekologiya, cərrahiyyə, reanimasiya və intensiv terapiya, uşaq xəstəlikləri şöbələri fəaliyyət göstərir. Burada ultrasəslə müayinə, pediatr, oftalmoloq, endoskopiya, travmatoloq və əməliyyat otaqları, ümumi və biokimyəvi laboratoriya vardır. Reanimasiya və cərrahiyyə şöbələrində 20 çarpayılıq 12 palata vardır.*

*Xəstəxananın yenidənqurmadan sonra istifadəyə verilməsi rayon sakinlərini müalicə və müayinə üçün başqa yerlərə getməkdən azad edir. Burada yaradılan lazımi şərait qonşu rayonların sakinlərinə də tibbi xidmət göstərməyə imkan verir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Prezident İlham Əliyev iyunun 25-də Lerik şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi, Mərkəzlə tanış oldu.*

*Heydər Əliyev meydanında inşa edilmiş Mərkəzdə dahi rəhbərin büstü qoyulmuşdur.*

*Məlumat verildi ki, ümumi sahəsi 420 kvadratmetr olan Heydər Əliyev Mərkəzində ümummilli liderin həyatını əks etdirən eksponatlar, ulu öndərin şəxsi arxivindən götürülmüş sənədlər və fotoşəkillər yerləşdirilmişdir. Mərkəz görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin siyasi irsinin təbliği, gənc nəslin bu irsdən yararlanması məqsədi ilə yaradılmışdır. Mərkəzin kitabxanasında ulu öndər haqqında maraqlı kitablar toplanmışdır. Burada internetə qoşulmuş müasir kompyuterlər, monitor quraşdırılmış, ümummilli liderin həyatına dair sənədli filmlər toplanmışdır.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı.*

## LERİK RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*25 iyun 2010-cu il*

*Heydər Əliyev Mərkəzinin açılışından sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Bu gözəl gündə Sizin hamınızı salamlayıram. Biz bu gün Heydər Əliyev Mərkəzinin açılışını qeyd etdik. Çox gözəl, yaraşıqlı Mərkəzdir. Həm xarici görünüşü çox gözəldir, həm daxili tərtibatı. Ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər çox böyük təsir bağışlayır. Bu, Azərbaycanın tarixidir. Həm keçən əsrin 70-ci illərində, həm 80-ci illərinin əvvəllərində, həm də müstəqillik dövründə Heydər Əliyevin fəaliyyəti Azərbaycanın inkişafına xidmət edibdir. Onun zəhməti və fəaliyyəti nəticəsində ölkəmiz o illərdə böyük və uğurlu yol keçmişdir. Bu siyasət bu gün də davam edir. Lerikin bugünkü siması o siyasətin nəticəsidir.

Mən çox şadam ki, Lerikdə inkişaf sürətlə gedir. Üçüncü dəfədir ki, Lerikdəyəm. Hər dəfə gələndə yeni müəssisələr, yeni obyektlər açılır, abadlıq işləri aparılır. Bunları görürəm və çox sevinirəm. Rayonun, sözün əsl mənasında, inkişafı həm yerli sakinlər, həm də bütün ölkə üçün çox vacibdir. Çünki Lerik paytaxtdan uzaqda yerləşən dağ rayonudur. Dağ rayonlarına, paytaxtdan, mərkəzdən uzaqda yerləşən bölgələrə xüsusi diqqət göstərilməlidir və bu diqqət göstərilir. Bax, bu gün həm Heydər Əliyev Mərkəzinin, həm də əsaslı təmirdən sonra fəaliyyətə başlayan Mərkəzi Xəstəxananın açılışını qeyd edirik. Mənə verilən məlumata görə, Mədəniyyət evi də təmir olunubdur, ora da baxacağam. Uzunömürlülər muzeyi yaradılıb. Bu da çox gözəl təşəbbüsdür. Çünki Lerik uzunömürlülər diyarıdır. Yəni, biz bir gündə

rayonun inkişafını əks etdirən bir neçə obyektin açılışını bərabər qeyd edəcəyik. Bu onu göstərir ki, hər bir bölgədə, hər bir rayonda inkişaf üçün imkanlar vardır. Əsas odur ki, iradə olsun, iradə də vardır. Azərbaycanın hərtərəfli və uğurlu inkişafı bölgələrin inkişafından asılıdır.

Bir neçə il əvvəl biz Lənkəran–Lerik yolunun açılışını bərabər qeyd etdik. Lerik sakinləri yaxşı xatırlayır ki, o yol hansı vəziyyətdə idi. Bərbad vəziyyətdə idi. Çox böyük çətinliklər yaradırdı. Gənclər isə yəqin ki, indi onu xatırlamırlar.

Yolun ardınca Lerik rayon mərkəzinə qaz xətti də çəkildi. Heç sovet vaxtında bu zona qazlaşdırılmamışdı. O layihə böyük maliyyə vəsaiti tələb edirdi. Ancaq biz bunu etdik. Çünki Azərbaycanın bütün rayonları qazla təmin edilməlidir. Növbəti mərhələlərdə kəndlərdə qaz təchizatı genişlənməlidir, yeni xətlər çəkilməlidir. Elektrik enerjisi ilə təchizat yaxşılaşır. Düzdür, bəzi hallarda Lerikin hava şəraitinə görə – hava pisləşəndə işıq dirəkləri sıradan çıxır. Ancaq əsas odur ki, bizdə indi kifayət qədər imkanlar var ki, ilk növbədə təmir işlərini sürətlə aparaq. Digər tərəfdən, yeni enerji gücləri yaranır. Astarada elektrik stansiyasının tikintisi bütün zona üçün enerji təminatını xeyli dərəcədə yaxşılaşdırıb.

Hər halda, biz Lerikin timsalında Azərbaycanın sürətli inkişafını əyani şəkildə görürük. Rayonun potensialı maksimum dərəcədə işə salınmalıdır. Xüsusilə kənd təsərrüfatı, emal və sənaye müəssisələri, turizm imkanları çox genişdir. Bildiyimə görə, rayon ərazisində bir neçə turizm mərkəzi yaradılmışdır və Azərbaycanın müxtəlif bölgələrindən istirahət üçün buraya gələnlərin sayı artır. Lerikin çox gözəl təbiəti, təbii sərvətləri, gözəl havası vardır. Yəni bu, böyük sərvətdir və biz bu imkanlardan – turizm imkanlarından səmərəli şəkildə istifadə etməliyik.

Ümumiyyətlə, ölkəmizdə işlər yaxşı gedir. İslahatlar aparılır. Azərbaycan uğurla inkişaf edir. Bölgələr inkişaf edir. Regional inkişaf proqramı icra edilir və bütün zonaları əhatə edir. Biz bu

proqramın növbəti illərdə icrası nəticəsində elə etməliyik ki, ölkə qarşısında duran bütün məsələlər həll olunsun.

2004-cü ildə regionların inkişafına böyük təkan verən proqram qəbul edildi və icra olundu. Əsas odur ki, proqramda nəzərdə tutulmuş bütün məsələlər son 6 ildə öz həllini tapdı, o cümlədən Lerik rayonunda. Bax, burada görülən işlər, həm infrastruktur, yollar, ondan sonra qaz xətləri, səhiyyə ocaqları, məktəblər – onların hamısı regional inkişaf proqramında nəzərdə tutulmuş məsələlər idi. Biz növbəti illərdə fəaliyyətimizi plan üzrə davam etdirəcəyik və kifayət qədər vəsait də nəzərdə tutulub.

Azərbaycanın iqtisadi imkanları yaxşıdır. Azərbaycan xalqının zəhməti hesabına yaradılan bu şəraitdən vətəndaşlarımız istifadə edirlər. Ölkəmizin iqtisadi potensialı artacaq, buna şübhə yoxdur. Görülən bütün işlər bu məqsədi güdür. Maliyyə imkanlarımız genişlənəcək və belə olan halda insanlar daha da yaxşı yaşayacaqlar. Pensiyalar, əmək haqları, sosial müavinətlər vaxtında ödənilir və onların həcmi artmalıdır.

Bax belə, mən gəlmişəm ki, sizinlə yenidən görüşüm, bu gözəl tədbirdə bərabər iştirak edim. Sizə ən xoş arzularımı yetirirəm. Arzu edirəm ki, həyatınızda hər şey yaxşı olsun.

**Gültəkin Şıxəliyeva** ***(Əməkdar müəllim):*** Möhtərəm cənab Prezident, icazə verin, Sizi Lerik ictimaiyyəti adından salamlayım, rayonumuza «Xoş gəlmisiniz!» deyim. Bu Sizin Lerikə üçüncü səfərinizdir. Sizin hər dəfə rayonumuza gəlişiniz Lerikin sosial, iqtisadi və mədəni həyatının inkişafında yeni bir mərhələnin başlanğıcını qoyur.

Cənab Prezident, hamımız bilirik ki, Azərbaycan dövlətinin qazandığı hər bir uğur əbədiyaşar prezidentimiz, müstəqil Azərbaycan adlı şah əsərini yaratmış ümummilli lider Heydər Əliyev siyasətinin nəticəsidir. Uzun illərə hesablanmış bu siyasət Sizin tərəfinizdən uğurla davam etdirilərək Azərbaycanımızı daha da inkişaf etdirmiş, qüdrətləndirmiş, zənginləşdirmiş, ölkəmizin hər bir regionunun, o cümlədən

rayonumuzun da simasını tamamilə dəyişdirmişdir. Açılışına toplaşdığımız bu gözəl meydan, əzəmətli abidə kompleksi, Heydər Əliyev Mərkəzi buna bariz nümunədir. Leriklilər uzun illər ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuşlar.

Cənab Prezident, bu gün Sizin qayğınızla rayonumuzun bir problemi də öz həllini tapmışdır. Əsaslı təmirdən çıxmış, hər cür müasir tibbi avadanlıqla təmin olunmuş Mərkəzi Xəstəxanadan rayon sakinləri istifadə edə biləcəklər. Yaxın vaxtlarda şəhər statusu almış Lerik həqiqətən də tanınmaz dərəcədə dəyişmiş, doğrudan da şəhərə çevrilmişdir.

Cənab Prezident, biz Sizin uğurla həyata keçirdiyiniz Heydər Əliyev siyasi kursunun təntənəsinə inanırıq. İnanırıq ki, Sizin sayənizdə, rəhbərliyiniz altında dövlətimizin taleyüklü məsələləri yaxın vaxtlarda öz həllini tapacaqdır. Bir daha bütün leriklilər adından Sizə rayonumuza və onun sakinlərinə göstərdiyiniz diqqətə görə dərin minnətdarlığımızı bildirir, ölkəmizin inkişafında, titanik fəaliyyətinizdə Sizə uğurlar, Lerik uzunömürlülüyü, möhkəm cansağlığı diləyirik.

**İlham Əliyev:** Sağ olun, minnətdaram. Sizi əmin edirəm, mən bundan sonra da fəaliyyətimdə əlimdən gələni edəcəyəm ki, Azərbaycanı daha da gücləndirək. Bizim bir məqsədimiz var ki, ölkəmiz daha da güclənsin. Həm dünyadakı mövqelərimiz daha da güclü olsun, həm də ölkə daxilində bütün proseslər müsbət istiqamətdə davam etsin. Bu gün bunu etmək üçün bütün imkanlar vardır. Mən tam əminəm ki, gələcək inkişafımız çox uğurlu olacaqdır. Çünki bunu etmək üçün bütün əsaslar vardır.

Azərbaycan dövlətçiliyi möhkəm təməl üzərində qurulubdur. Baxmayaraq ki, biz müstəqilliyi əldə edəndə gələcək müstəqil həyatımız, demək olar ki, şübhə altında idi. O illəri hamımız yaxşı xatırlayırıq. Həm daxili çəkişmələr, həm Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, vətəndaş müharibəsi, hakimiyyət uğrunda mübarizə – bütün bu hadisələr müstəqilliyimizi sarsıdırdı. Sual yaranırdı ki, Azərbaycan

müstəqil ölkə kimi yaşaya biləcək, yoxsa yox? Çünki müstəqilliyimizin əvvəlki dövrlərdə ömrü uzun olmamışdır. Rus imperiyasının dağılmasından sonra 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranmışdı və cəmi 2 il yaşadı. Ondan sonra müstəqilliyimiz müxtəlif səbəblər üzündən əlimizdən alındı. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan yenidən müstəqilliyə qovuşdu. Yenə də 2 il keçəndən sonra müstəqilliyimiz şübhə altında idi, əldən gedə bilərdi. Azərbaycan xalqı o vaxt həmişə olduğu kimi, öz müdrik sözünü dedi. Ulu öndəri hakimiyyətə dəvət etdi və 1993-cü ilə qədərki bütün xoşagəlməz hadisələrə onun fəaliyyəti nəticəsində son qoyuldu, sabitlik bərpa olundu, inkişaf başladı.

İndiki dövrün, əlbəttə ki, öz xüsusiyyətləri vardır. Çünki həyat yerində durmur, ölkə qarşısına yeni çağırışlar, yeni məsələlər çıxır. Həm beynəlxalq müstəvidə, həm bölgədə yeni hadisələr baş verir. Biz bütün bu hadisələrə hazırıq. Bütün hadisələrə münasibətimizi bildiririk. Ona görə Azərbaycan bu gün beynəlxalq aləmdə çox böyük hörmətə malik olan bir ölkədir. Nəyin hesabına? Ona görə ki, bizim siyasətimiz çox səmimidir, açıqdır və birmənalıdır.

Ölkə daxilində gedən proseslər bizi gücləndirir. Əgər güclü iqtisadiyyatımız olmasaydı, biz necə müstəqil siyasət apara bilərdik? Daxili imkanlar səfərbər olundu. Enerji sektorundakı təşəbbüslər real nəticələr verdi. Biz enerji sektorunda əldə edilmiş nailiyyətlərin nəticələrini, yəni maliyyə resurslarını digər sektorlara yönəltdik. Kənd təsərrüfatı, qeyri-neft sektoru, sahibkarlıq, kənd təsərrüfatının müxtəlif istiqamətlərində aparılan islahatlar özünü bu gün göstərir. Ölkəmizin hərtərəfli inkişafına nail ola bildik. Bu proses – ölkəmizin gücləndirilməsi və Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması, bütün sosial məsələlərin həlli davam edəcəkdir.

Bu xəstəxana indi sizlərə xidmət edəcəkdir. Düzdür, leriklilər çox sağlamdırlar və onların səhhətində heç bir problem yoxdur. Onlar dünya miqyasında məşhurdurlar, uzunömürlüdürlər. Amma hər ehtimala qarşı xəstəxana da

olmalıdır. Burada da bütün lazımi avadanlıqlar quraşdırılıb – müasir aparatlar, texnika – yəni burada bütün tibbi xidmət göstərilməlidir. Mən tövsiyə edirəm ki, hər bir vətəndaş ildə bir dəfə müayinədən keçsin.

Bütün bölgələrdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilibdir. İndi doğum evlərinin tikintisi sürətlə gedir. Azərbaycanda son vaxtlar uşaq ölümünün səviyyəsi aşağı düşübdür. İnsanlarımızın sağlamlığını təmin edən tədbirlərin sayı çoxdur – həm tibbi xidmət, həm təmiz ekoloji vəziyyət. Leriklilərin bu cəhətdən bəxti gətirib. Onlar çox gözəl təbii şəraitdə yaşayırlar. Azərbaycan əhalisi bu və ya digər bölgədən asılı olmayaraq, təmiz ekoloji şəraitdə yaşamalıdır.

Ona görə bir daha demək istəyirəm ki, bax, bu gün Lerikdə açılan obyektlərin – xəstəxananın, gözəl Mərkəzin, muzeyin, mədəniyyət mərkəzinin əhəmiyyəti və kəmiyyəti böyük bir göstəricidir. İndi siz qeyd etdiniz, son illər ərzində 22 məktəb tikilibdir. Bu, böyük bir işdir, bəlkə 22 məktəb də tikilməlidir. Çünki hələ çox da yaxşı vəziyyətdə olmayan məktəblər vardır. Son 7 ildə 2000 məktəb tikilib. Azərbaycanda bütün dövrlərdə cəmi 4500 məktəb tikilibdir. Demək olar ki, əsasən ən bərbad vəziyyətdə olan məktəblər dağıdıldı, yerində yeniləri tikildi. Ancaq hələ ki, qəzalı vəziyyətdə məktəblər vardır.

Bölgələrdə tibbi xidmət yaxşılaşdırılır. İndi hər bir bölgədə, rayonlarda gözəl mərkəzlər vardır. İndi tibbi yardım almaq üçün heç yerə getmək lazım deyildir. Bu hər rayonda olmalıdır. Kənd yolları tikilməlidir ki, əhali rahat gedib-gələ bilsin. Hər rayon üzrə konkret proqram vardır. Lerik rayonu üzrə də konkret proqram vardır və dövlət tərəfindən həmişə diqqət göstəriləcəkdir. Əmin ola bilərsiniz ki, mən həmişə leriklilərə öz diqqətimi əsirgəməyəcəyəm. Lerikə üçüncü dəfədir ki, gəlirəm. Hər gəlişimdə bu gözəlliyi, dəyişikliyi görəndə çox sevinirəm. Bütün uğurlara görə sizi təbrik edirəm.

## Rayon Mədəniyyət evində aparılmış əsaslı yenidənqurma işləri ilə tanışlıq

*Prezident İlham Əliyev iyunun 25-də Lerik rayon Mədəniyyət evində aparılmış əsaslı yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev rayonda aparılan abadlıq-quruculuq işlərini və turizm potensialını əks etdirən fotostendlərə baxdı.*

*Bildirildi ki, rayonun coğrafi baxımdan əlverişli yerdə yerləşməsi və yüksək turizm potensialına malik olması ilə əlaqədar son illər onlarla yeni istirahət mərkəzləri, turizm obyektləri istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev məktəblilərin əl işləri, dekorativ sənət əsərləri və rəsmlərdən ibarət sərgiyə baxdı. Sərgidə mineral sular, arıçılıq təsərrüfatının məhsulları, Lerikin tarixini əks etdirən və rayon ərazisində aşkarlanan qədim əşyalar, xalq sənətkarlıq nümunələri, habelə qum-çınqıl və kərpic zavodlarının məhsulları nümayiş olunur.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Uzunömürlülər Muzeyinin açılışı mərasimi

*İyunun 25-də prezident İlham Əliyev Lerikdə Uzunömürlülər Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi, muzeylə yaxından tanış oldu.*

*Məlumat verildi ki, bu muzeyin məhz Lerikdə yaradılması təsadüfi deyildir. Bu rayon dünyada uzunömürlülər diyari kimi şöhrət qazanmışdır. Dağlar qoynunda yerləşən Lerik rayonunda vaxtilə 500 nəfərdən çox uzunömürlü insan yaşamışdır. Hazırda rayonun yaşı 100-ü keçmiş 20-dən çox sakini vardır.*

*Dünyada yeganə olan bu muzeyin binası müasir memarlıq elementlərindən istifadə edilməklə inşa olunmuşdur. İki salon-*

*dan ibarət muzeydə yaşı yüzdən yuxarı olan 50-dən çox lerikli haqqında 2 mindən çox eksponat, o cümlədən maraqlı məlumatlar, fotoşəkillər yer almışdır. Muzeydəki 40-dək fotoşəklin müəllifi olan fransız fotoqrafı Frederik Laşop bu əsərlərini Parisdə təşkil etdiyi «Uzunömürlülər diyarına səyahət» sərgisində nümayiş etdirmişdir. Muzeydə planetin ən uzunömürlü sakini adını qazanmış Şirəli Müslümova, Mahmud Eyvazova və Məcid Ağayevə aid guşələr yaradılmışdır.*

## «Şəhidlər» abidə-kompleksini ziyarət

*İyunun 25-də prezident İlham Əliyev Lerikə səfəri çərçivəsində «Şəhidlər» abidə-kompleksini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış «Əbədi məşəl»in önünə gül dəstəsi qoydu.*

*Abidə-kompleksi ilə tanışlıq zamanı bildirildi ki, Qarabağ müharibəsində Lerik rayonu 130-dan çox şəhid vermişdir. Onların 5-i şücaətlərinə görə Milli Qəhrəman adına layiq görülmüşlər. Hazırda rayonda 80 nəfər Qarabağ müharibəsi əlili vardır. Şəhid ailələrinə və əlillərə daim dövlət qayğısı göstərilir.*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Litva Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi Algirdas Brazauskasın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, mərhumun ailəsinə, bütün Litva xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyun 2010-cu il*

## ALBANİYA PARLAMENTİNİN SƏDRİ JOZEFİNA TOPALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Albaniya parlamentinin sədri Jozefina Topallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkəmizə səfəri zamanı Azərbaycanda əldə edilən nailiyyətlərin və sürətli inkişaf prosesinin şahidi olduğunu deyən Albaniya parlamentinin sədri bu münasibətlə dövlətimizin başçısını təbrik etmişdir. Jozefina Topalli ölkəsinin Azərbaycan ilə siyasi əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirmiş və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır. O, enerji, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu demişdir. Qonaq parlamentlərarası əməkdaşlığın genişləndirilməsini ikitərəfli münasibətlərimizin möhkəmlənməsi baxımından əhəmiyyətli olduğunu bildirmişdir.*

*Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsinin vacibliyini qeyd etmiş, siyasi, iqtisadi, mədəni sahələrdə, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrimizin perspektivlərinin müzakirə edilməsi baxımından Albaniya parlamenti sədrinin ölkəmizə səfərinin əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev hökumət və parlament üzvləri arasında əlaqələrin qurulmasının önəmli olduğunu bildirmişdir.*

## SURİYANIN NEFT VƏ MİNERAL EHTİYATLAR NAZİRİ, SURİYA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ SUFYAN ALAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Suriya Ərəb Respublikasının Neft və Mineral Ehtiyatlar naziri, Suriya–Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Sufyan Alaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkəmizdə Suriya–Azərbaycan hökumətlərarası komissiyasının birinci iclasının keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, bu tədbir ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacaqdır.*

*Prezident İlham Əliyev ölkəmizin Suriya ilə əlaqələrimizin çoxşaxəli olmasında, eləcə də siyasi, iqtisadi sahələrdə tərəfdaşlığımızın daha da möhkəmlənməsində maraqlı olduğunu vurğulamışdır.*

*Sufyan Alao Suriya prezidenti Bəşşar əl-Əsədin və Suriya xalqının salamlarını və ən xoş arzularını prezident İlham Əliyevə çatdırmışdır. Qonaq qeyd etmişdir ki, dost və qardaş Suriya ilə Azərbaycanın əlaqələrinin möhkəmlənməsi ölkələrimiz arasında olan hörmətin təzahürüdür.*

*Prezident İlham Əliyev Suriya prezidenti Bəşşar əl-Əsədin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Suriya prezidentinə çatdırmağı xahiş etmişdir.*

## BMT-nin SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KANDE YUMKELLANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da BMT-nin Sənayenin İnkişafı Təşkilatının Baş direktoru Kande Yumkellanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Kande Yumkella bildirmişdir ki, ölkəmizə səfərinin əsas məqsədi rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında əməkdaşlığın perspektivlərinin müzakirə edilməsindən ibarətdir. O qeyd etmişdir ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi strategiyasının uğurla həyata keçirilməsi nəticəsində qeyri-neft sektorunda böyük inkişafa nail olunmuşdur və BMT-nin Sənayenin İnkişafı Təşkilatı Azərbaycan ilə bu istiqamətdə əməkdaşlıqda maraqlıdır.*

*Dövlətimizin başçısı Azərbaycanın bütün digər sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də böyük uğurlar əldə etdiyini vurğulayaraq, qeyri-neft sektorunun ölkəmiz üçün prioritet sahə olduğunu qeyd etmişdir. 2013-cü ilədək Azərbaycanda ikinci regional inkişaf proqramının həyata keçiriləcəyini qeyd edən prezident İlham Əliyev bunun çox mühüm infrastruktur layihələrinin reallaşdırılması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etmişdir. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sənayenin İnkişafı Təşkilatı ilə əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirmişdir.*

## FRANSANIN GDF SUEZ ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ, «AVROQAZ»IN PREZİDENTİ JAN-FRANSUA SİRELLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Fransanın GDF SUEZ şirkətinin prezidenti və Baş direktorunun müavini, «Avroqaz»ın prezidenti Jan-Fransua Sirellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Jan-Fransua Sirelli Azərbaycanda gördüyü inkişaf proseslərinin, ölkəmizdəki firavanlığın və sabitliyin onlarda çox böyük təəssürat yaratdığını bildirmişdir. Təmsil etdiyi şirkətin Avropada fəaliyyətindən danışan qonaq Azərbaycan ilə qaz sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğulamışdır.*

*Dövlətimizin başçısı GDF SUEZ şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə etmişdir. Prezident İlham Əliyev GDF SUEZ şirkətinin prezidenti və Baş direktorunun müavini, «Avroqaz»ın prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızla bağlı məsələlərin səmərəli şəkildə müzakirəsi üçün yaxşı imkan yaratdığını demişdir.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 iyun 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

## BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*Prezident sarayı*

*30 iyun 2010-cu il*

*İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov və xanımı Zorka Pırvanova ilə birgə görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, energetika və digər sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Yüksək səviyyəli səfərlərin əhəmiyyətinə toxunuldu. Bolqarıstan prezidentinin Azərbaycana işgüzar səfərinin əlaqələrimizin genişlənməsi baxımından önəmi qeyd olundu.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*30 iyun 2010-cu il*

*İyunun 30-da Azərbaycan prezidenti İlham Əliyevin və Bolqarıstan prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Prezident İlham Əliyev Bolqarıstan prezidenti Georgi Pırvanovu ölkəmizdə salamladı və bildirdi ki, bu səfər münasibətlərimizin daha da inkişaf etməsi üçün böyük əhəmiyyətə malikdir.* Biz artıq Sizinlə münasibətlərimizin gündəliyinə dair fikir mübadiləsi aparmışıq və həmin münasibətlərin necə dinamik inkişaf etməsini görürük. Biz ölkələrimizin və xalqlarımızın rifahı, habelə Azərbaycan ilə Avropa strukturları arasında münasibətlərin möhkəmlənməsi naminə ikitərəfli əməkdaşlıq potensialından tam şəkildə istifadə etmək üçün Sizinlə siyasi, iqtisadi, mədəni məsələlərə dair əməkdaşlığa hazırıq – *deyən prezident İlham Əliyev Bolqarıstan prezidentini bir daha ölkəmizdə salamladı və ona ən xoş arzularını bildirdi.*

*Bolqarıstan prezidenti Georgi Pırvanov prezident İlham Əliyevin münasibətlərin inkişafına verdiyi qiymətlə razı olduğunu bildirdi.* Nazirliklər, digər təsisatlar səviyyəsində münasibətlər çox fəal inkişaf edir. Lakin bu da çox vacibdir ki, dövlət başçılarının münasibətləri bütün sahələrdə əlaqələrin inkişafına təkan verir – *deyən Bolqarıstan dövlətinin başçısı bildirdi ki, bu əlaqələri və münasibətləri ikitərəfli planda praktiki addımlara çevirməyə nail oluruq.*

# AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*30 iyun 2010-cu il*

*İyunun 30-da geniş tərkibdə görüşdən sonra prezidentlər İlham Əliyev və Georgi Pırvanov mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, Sizin səfəriniz Bolqarıstan–Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Mən əminəm ki, səfərin nəticələri əlaqələrimizi daha da irəliyə aparacaqdır. Aramızda əlaqələr çox möhkəm zəmində qurulubdur. Biz müxtəlif sahələrdə çox uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq gündən-günə genişlənir və dərinləşir. Bizim siyasi əlaqələr yüksək səviyyədədir və qarşılıqlı səfərlər, xüsusilə yüksək səviyyəli səfərlər bunu göstərir. Biz Sizinlə həm Azərbaycanda, həm Bolqarıstanda, digər ölkələrdə vaxtaşırı görüşürük, fikir mübadiləsi aparırıq. Çox şadam ki, bütün strukturlar, nazirliklər öz aralarında da çox səmərəli əlaqələr qura bilmişlər.

Bir sözlə, siyasi əlaqələrin möhkəm olması bizə imkan verir ki, müxtəlif sahələrdə əlaqələrin inkişafına da güclü təkan verək. Bu gün biz Sizinlə gündəliyimizin, demək olar ki, bütün məsələlərini müzakirə etdik. Bir daha gördük ki,

ikitərəfli gündəliyimiz çox genişdir və çoxmənalıdır. İqtisadi sahədə böyük potensialımız vardır. Ümid edirəm ki, gələcək illərdə bu potensial həyatda öz əksini tam şəkildə tapacaqdır. Qarşılıqlı investisiya layihələri, müştərək müəssisələrin yaradılması və birgə iqtisadi fəaliyyət əlaqələrimizi daha da gücləndirəcəkdir.

Biz bu gün Sizinlə energetika sektorundakı əlaqələrimizi geniş müzakirə etdik. Bu sahədə gözəl perspektivlər vardır və artıq konkret addımlar da atılıbdır. Keçən il Sofiyada Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində memorandum imzalanmışdır və artıq işçi qrupu memorandumun əsasında bir neçə görüş keçirmişdir. Bu görüşlər çox ümidvericidir. Bu gün biz Sizinlə həmin məsələləri daha da geniş şəkildə müzakirə etdik. Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq əminəm ki, çox uğurlu olacaq, həm ölkələrimizin maraqlarını təmin edəcək, həm də regional əməkdaşlıq üçün çox böyük töhfə verəcəkdir. Çünki Azərbaycan tərəfindən başlanmış və uğurla icra edilən neft-qaz layihələri bu gün artıq regional müstəviyə daxil edilibdir. Bu layihələrin regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün də çox böyük əhəmiyyəti vardır.

Azərbaycan öz enerji potensialını tam şəkildə reallaşdırmaq əzmindədir. Bunu etmək üçün bizə yeni istiqamətlər, yeni bazarlar lazımdır. Əminəm ki, istehlakçılar üçün də yeni mənbələr maraq doğurur. Bu sahədə maraqlarımız üst-üstə düşür. Əminəm ki, bu gün bizim tərəfimizdən verilən konkret tapşırıqlar bu sahədəki əməkdaşlığın reallaşmasına gətirib çıxaracaqdır. Beləliklə, Bolqarıstan ilə Azərbaycan arasında energetika sektorunda da çox uğurlu və uzunmüddətli əməkdaşlıq təmin ediləcəkdir.

Bu gün biz Sizinlə Azərbaycan ilə Avropa İttifaqı və Avropa strukturları arasında mövcud olan əlaqələri müzakirə etdik. Bolqarıstan Azərbaycan ilə Avropa qurumları arasında əməkdaşlığın dərinləşməsi işində müsbət rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Biz ümid

edirik ki, «Şərq tərəfdaşlığı» Proqramının icrası nəticəsində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr yeni səviyyəyə qalxacaqdır.

Bu yaxınlarda Avropa parlamenti tərəfindən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş qətnamə Azərbaycanda çox müsbət hal kimi qiymətləndirilir. Bu qətnamə çox ədalətlidir, münaqişənin mahiyyətini tam şəkildə açır və Azərbaycanın işğal edilmiş torpaqlarından işğalçı qüvvələrin çıxarılmasına dair konkret təkliflər orada öz əksini tapır. Bildiyiniz kimi, uzun illərdir Azərbaycan torpaqları erməni işğalçılarının nəzarətindədir. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Torpaqlarımızın 20 faizi uzun illərdir ki, işğal altındadır. Bu işğal nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın-köçkün vəziyyətində yaşayır. Biz istəyirik ki, məsələ beynəlxalq təşkilatların qətnamələri, qərarları əsasında və beynəlxalq hüquq normaları çərçivəsində tezliklə öz ədalətli həllini tapsın. Hər bir yeni qərar, xüsusilə Avropa parlamenti tərəfindən qəbul edilmiş qətnamə və buna bənzər qətnamələr mövqeyimizi gücləndirir, bir sözlə, məsələnin ədalətli həllinə öz dəstəyini göstərir. Biz bu qətnamənin qəbul edilməsində Bolqarıstan nümayəndələrinin iştirakını da çox yüksək qiymətləndiririk.

Bir sözlə, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrdə Bolqarıstanın xüsusi yeri vardır. Biz həmişə Bolqarıstandan dəstək almışıq. Bu dəstəyi bu gün də görürük və hiss edirik. Biz bu gün əməkdaşlığımızın müxtəlif sahələrini geniş şəkildə müzakirə etdik və müzakirə etdiyimiz bütün məsələlərdə mövqeyimiz üst-üstə düşür. Biz istəyirik ki, ikitərəfli əlaqələr sürətlə inkişaf etsin, regional əməkdaşlıq – Xəzər dənizi–Qara dəniz regionlarının əməkdaşlığı daha da uğurlu olsun. Bölgədə sülh, təhlükəsizlik təmin edilsin, bütün siyasi və iqtisadi proseslər müsbət istiqamətdə davam etsin.

Mən əminəm ki, səfəriniz çox uğurlu keçəcək və səfərinizin nəticələri Bolqarıstan–Azərbaycan əlaqələrinin inkişa-

fına xidmət edəcəkdir. Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram və bir daha Sizə «Xoş gəlmisiniz!» deyirəm.

## Bolqarıstan prezidenti Georgi Pırvanovun bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əvvəlcə, mənə göndərdiyiniz dəvətə görə və göstərilmiş səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən keçirilmiş danışıqlardan çox razıyam. Sözün əsl mənasında, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri mövcud olmuşdur. İndi isə bizim belə bir imkanımız var ki, həmin o münasibətlərə yeni məna verək, yeni keyfiyyət gətirək. Hesab edirəm ki, bu münasibətlər Avropa İttifaqının üzvü olan dövlət ilə sizin regionun dövləti arasında nümunəvi münasibətlər kimi xidmət edə bilər.

Cənab Prezident, Siz burada müxtəlif Avropa təsisatları ilə münasibətlərimizə istinad etdiniz. Biz münasibətlərimizin inkişafı üçün müsbət rol oynamış bu amilləri qeyd etmək istəyirik. Hesab edirəm ki, biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin düzgün müsbət təhlilini apara və ölkələrimiz arasında əmtəə dövriyyəsinin yeni strukturunu nəzərdən keçirə biləcəyik. Biz bu baxımdan müvafiq nazirliklər və sahə qurumları arasında daha böyük əməkdaşlıq gözləyirik. Təbii ki, bugünkü danışıqlar sərmayə prosesinə təkan verə bilər. Bu, hər iki istiqamətdə sərmayə marağını daha da artıra bilər. Biz bu məsələləri də müzakirə etdik. Ümidvaram ki, bu məsələlər müvafiq təsisatların və nazirliklərin iş gündəliyinə salınacaqdır.

Energetika sahəsində apardığımız danışıqları müsbət dəyərləndirirəm. Bu baxımdan əlaqələrimiz yaxşı inkişaf edir, müsbət nəticələrimiz vardır. Biz Bolqarıstana bir milyard kubmetr həcmində Azərbaycan qazının alınması

imkanının yaradılmasından çox məmnunuq. Bu çox müsbət bir haldır və bu sahədə əməkdaşlıq artıq gələn ildən başlayaraq baş tutacaqdır. Zənnimcə, bu mənim ölkəmin enerji təhlükəsizliyinə mühüm töhfə olacaqdır.

Burada Azərbaycandan sıxılmış qazın Bolqarıstan vasitəsilə Avropaya çıxarılması nəzərdə tutulur. Mən bunu xüsusilə qeyd edirəm, əgər birinci layihəmiz ikitərəfli xarakter daşıyırsa, sıxılmış qaz layihəsi artıq daha geniş regional əhəmiyyətə malik ola bilər. Hesab edirəm ki, bu, enerji daşıyıcıları mənbələrinin və daşınma yollarının şaxələndirilməsinə böyük töhfə verər. Bundan Azərbaycan da faydalana bilər. Beləliklə, Azərbaycan Avropanın enerji bazarına birbaşa çıxış əldə edəcəkdir.

Təfərrüatlara varmadan qeyd etmək istəyirəm ki, işçi qrupu çərçivəsində konkret məsələlər – daşınmanın həcmi, təbii qazın daşınma yolları müzakirə olunur. Müxtəlif qurumlar bu layihənin həyata keçirilməsində iştirak edir.

Mən prezident İlham Əliyevin digər sahələrdə, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığı qeyd etdiyini yüksək dəyərləndirirəm. Elm, təhsil, mədəniyyət sahələrində də əməkdaşlığımızı xüsusi qeyd etmək istəyirəm.

Qeyd etmək istəyirəm ki, münasibətlərimiz get-gedə daha çox Avropa çalarlarını özündə əks etdirir. Bolqarıstan Avropa təsisatlarının iştirakçısı kimi, regiona dair, xüsusən də dost Azərbaycana olan siyasətin formalaşdırılmasında iştirak edəcəkdir. Biz müxtəlif təşəbbüslərə, xüsusən də «Şərq tərəfdaşlığı» təşəbbüsünə daha böyük mənanın, məzmunun gətirilməsinə çalışacağıq.

Onu da qeyd etmək istəyirəm ki, biz Avropa təsisatları ilə birgə çalışaraq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Minsk qrupuna lazımi dəstəyi veririk. Biz istəyirik ki, bu münaqişə, cənab Prezidentin qeyd etdiyi kimi, tezliklə ədalətli şəkildə həll olunsun. Çünki bu münaqişənin həlli bütün Cənubi Qafqaz regionunun uğurlu inkişafına töhfə verərdi. Bugünkü kimi,

biz Minsk qrupunun fəaliyyətinə və müxtəlif digər təsisatların işinə dəstək verəcəyik. Bundan sonra da bunu davam etdirəcəyik.

Yekunda mən şəxsən öz adımdan və nümayəndə heyəti adından məmnunluğumu bildirmək istəyirəm ki, razılaşdırdığımız bütün məsələlər yaxın gələcəkdə, görünən gələcəkdə baş tutacaqdır. Beləliklə, münasibətlərimizin yeni Avropa meyarı olacaqdır.

**MACARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PAL ŞMİTƏ**

Hörmətli cənab Şmitt!

Macarıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Macarıstan əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2010-cu il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan–Almaniya münasibətləri bu gün dinamik inkişaf yolundadır. Dost ölkələrimizin istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının həyata keçirdiyi proqramlar çərçivəsində əməkdaşlığı əlaqələrimizin hərtərəfli genişlənməsi üçün yaxşı zəmin yaratmışdır.

Əminəm ki, dövlətlərarası münasibətlərimiz, qarşılıqlı maraq doğuran bir çox sahələrdə səmərəli iş birliyimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2010-cu il*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan–Fransa münasibətləri hərtərəfli inkişaf yolundadır. Münasibətlərimizin möhkəmləndirilməsi istiqamətində addımlarımız istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının həyata keçirdiyi proqramlar çərçivəsində fəal və səmərəli əməkdaşlığımız ilə müşayiət olunur.

Çoxşaxəli əlaqələrimizin geniş spektrində humanitar sahə mühüm yer tutur. Ölkənizdə keçirmək istədiyimiz «Azərbaycanın mədəniyyət fəsli» çərçivəsində tədbirlər xalqlarımızın bir-birini daha yaxından tanımasına töhfə olacaq.

Cənab Prezident, ölkəmizin ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına səbəb olmuş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrinin aradan qaldırılmaması bizim ən ağrılı problemimizdir. Biz münaqişənin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin səylərinizə böyük ümidlər bəsləyirik.

Münasib bildiyiniz ən yaxın vaxtda Azərbaycana səfərə gələcəyinizə, Sizinlə Bakıda görüşəcəyimizə ümidvar oldu-

ğumu bildirirəm. Bu əlamətdar gündə Sizə möhkəm can-sağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2010-cu il*

## MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monqolustan arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2010-cu il*

**MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqro Respublikasının milli bayramı – Dövlətçilik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Monteneqro arasında təşəkkül tapmış münasibətlər dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2010-cu il*

## FƏVVARƏLƏR MEYDANINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 iyul 2010-cu il*

*İyulun 2-də Bakının ən gözəl istirahət məkanlarından biri – Fəvvarələr meydanı əsaslı bərpa və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada aparılmış yenidənqurma işləri ilə tanış olmuşlar.*

*XIX və XX əsrlər Azərbaycan memarlıq incilərinin yerləşdiyi məkanlardan biri kimi diqqəti cəlb edən Fəvvarələr meydanı artıq əsaslı bərpa və yenidənqurma işlərindən sonra daha gözəl və daha orijinal formada paytaxt sakinlərinin istifadəsindədir. Bu istirahət məkanı bir çox dövrlərdə baxımsızlıqdan əziyyət çəkmişdir. Zəngin bitki örtüyünə malik olan bu bağda illərin baxımsızlığı öz izini qoymuşdur. Lakin prezident İlham Əliyevin diqqət və qayğısı bu bağın da tarixi şöhrətini qaytarmağa imkan vermişdir. Dövlətimizin başçısının paytaxtın inkişaf konsepsiyasının mühüm tərkib hissəsi kimi dəyərləndirdiyi bağ və parkların yenidən qurulmasına göstərilən diqqət və qayğı Fəvvarələr meydanının timsalında daha aydın görünür.*

*Prezident İlham Əliyev mütəmadi olaraq əraziyə gəlib işlərin gedişi ilə maraqlanmış, yenidənqurma prosesinin meydanın orijinal üslubu saxlanılmaqla həyata keçirilməsinin vacibliyini bildirmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Fəvvarə» restoran-kafesində yaradılan şəraitlə də tanış oldular.*

*Bildirildi ki, burada paytaxt sakinlərinin, qonaqların istirahətinin təşkili üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxt sakinlərinin «Kitab pasajı» kimi tanıdığı ərazidə aparılan yenidənqurma işləri ilə tanış oldular. Buradakı memarlıq abidələri olan bütün binalarda, küçəni hər iki tərəfdən əhatə edən tağlı keçidlərdə yenidənqurma işləri görülmüşdür. Tağlı keçidlərin tavanında Bakı memarlığını əks etdirən tablolar çəkilmişdir.*

*Dövlətimizin başçısı və xanımı «Xaqani» bağında da aparılmış yenidənqurma işləri ilə maraqlandılar. Qeyd olundu ki, bu bağda yaşıllıq zolağının artırılmasına xüsusi diqqət göstərilmiş, istirahət guşəsinin əvvəlki koloriti qorunub saxlanılmışdır. Tərtibatında müxtəlif bəzək elementlərindən istifadə olunan bağda xüsusi formalı fəvvarə də əvvəlki görkəmində qalmışdır.*

*Burada görülən işlər bir daha təsdiqləyir ki, paytaxtda yeni park və xiyabanların salınması, mövcud olanlarda abadlaşdırma işlərinin aparılması hər zaman dövlətimizin başçısının diqqət mərkəzindədir. Bu, şəhərimizin gözəlləşməsinə, digər tərəfdən, paytaxtımızın sakinlərinin və qonaqlarının mənalı istirahətinə geniş imkanlar açır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Nizami küçəsində salınan yeni parka və burada yaradılan fəvvarəyə baxdılar.*

*Dövlətimizin başçısının diqqətinə ərazinin əvvəlki görüntüləri təqdim olundu. Bildirildi ki, aparılan abadlıq və yenidənqurma işləri zamanı burada yeni parkın salınması ilk növbədə paytaxt sakinlərinin mənalı istirahətinə xidmət edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Nizami küçəsində davam edən yenidənqurma işlərinin gedişi ilə maraqlandılar. Bildirildi ki, artıq burada yenidənqurma işləri başa çatmaq üzrədir. Məlumat verildi ki, ərazidə əhalinin rahat hərəkətini təmin etmək üçün yeni piyada keçidi də inşa edilmişdir. Bununla da paytaxtın böyük bir ərazisində yüksək keyfiyyətlə yenidənqurma işlərinin aparılmasına nail olunmuşdur.*

## HEYDƏR ƏLİYEV VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ YOL QOVŞAĞININ İKİNCİ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Bakının Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsindəki müxtəlif səviyyəli Böyükşor yol qovşağının ikinci kompleksinin açılışında iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə yeni yol qovşağının texniki göstəriciləri haqqında məlumat verdi.*

*Bildirildi ki, Böyükşor yol qovşağı respublikamızda yol-nəqliyyat sisteminin ən müasir standartlar səviyyəsində yenidən qurulmasının əyani nümunələrindəndir. Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq edilmiş «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planı», eləcə də «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı» çərçivəsində paytaxtda çoxlu sayda yolötürücü, yeraltı və yerüstü piyada keçidləri inşa edilmiş, ən müasir standartlara cavab verən avtomobil yolları salınmışdır. Həyata keçirilən ardıcıl tədbirlər hesabına respublikamızın bütün bölgələrində olduğu kimi, Bakı şəhərinin yol-nəqliyyat kompleksi də əsaslı şəkildə yenilənir və tıxac probleminin aradan qaldırılması istiqamətində mühüm işlər görülür.*

*Qeyd olundu ki, Böyükşor yol qovşağı Azərbaycan prezidentinin 2006-cı il 1 fevral tarixli Sərəncamı əsasında inşa olunur. Qovşaq 3 kompleksdən ibarətdir. Layihəyə əsasən həmin*

*qurğu ümumi uzunluğu 3145 metr təşkil edəcək 9 körpü, körpü girişləri və qovşağın tərkib hissəsi olan avtomobil yollarından ibarət olacaqdır. Kompleksin tikintisinə 2006-cı ilin martında başlanılmışdır.*

*İndi isə yol qovşağının ikinci kompleksi istismara buraxılır. Nəqliyyat Nazirliyinin sifarişi ilə «Azərkörpü» ASC-nin inşa etdiyi bu kompleks Heydər Əliyev, Ziya Bünyadov və Qara Qarayev prospektlərini hava limanı və Bakıxanov qəsəbəsi istiqamətində yollarla birləşdirən, ümumi uzunluğu 1194 metrə çatan 5 xüsusi yolötürücüsü, onun yanaşmaları və bir sıra digər yollardan ibarətdir. Kompleksdəki yolötürücülərinin maksimum eni 27,5 metr, yerdən hündürlüyü isə 6,5 metrə bərabərdir.*

*Prezident İlham Əliyev yol qovşağının layihəsinə və inşaat işlərinin gedişini əks etdirən fotoşəkillərə baxdı.*

*Məlumat verildi ki, hazırda bu yol qovşağının üçüncü kompleksinin inşası davam edir. 665 metr uzunluğunda yolötürücü və onun yanaşmalarından ibarət olacaq 3-cü kompleks hava limanı avtomobil yolunu Qara Qarayev prospekti ilə birləşdirəcəkdir. Regionda ilk dəfə inşa olunan vant konstruksiyalı ikiaşırımlı bu yolötürücünün uzunluğu 360 metr, orta dayağın yer səviyyəsindən hündürlüyü isə 98 metr olacaqdır. Bu yolötürücü hava limanı istiqamətindən gələn nəqliyyat vasitələrinin 8-ci Kilometr, Əhmədli, Günəşli yaşayış massivləri və Zığ dairəsi–hava limanı magistral avtomobil yoluna birbaşa hərəkətini təmin etmək üçün inşa edilir. Həmin kompleksin 2011-ci ilin mayında istifadəyə verilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, inşaatçıları təbrik edərək onlara uğurlar arzuladı.*

## AVROPA YAYIMLARI BİRLİYİNİN PREZİDENTİ JAN POL FİLİPPO BAŞDA OLMAQLA BİRLİYİN İDARƏ HEYƏTİNİN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Avropa Yayımları Birliyinin prezidenti Jan Pol Filippo başda olmaqla Avropa Yayımları Birliyi İdarə Heyətinin rəhbərliyini qəbul etmişdir.*

*Avropa Yayımları Birliyinin prezidenti Jan Pol Filippo Avropa Yayımları Birliyinin Baş Assambleyasının 64-cü sessiyasının iştirakçılarının Bakıya səfəri zamanı Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olduqlarını qeyd etmiş, Bakının gözəlliyinin və paytaxtda aparılan yenidənqurma işlərinin onlarda böyük təəssürat yaratdığını vurğulamış, şəhərimizin müxtəlif zəngin mədəniyyət ocaqları ilə tanış olduqlarını bildirmişdir.*

*Dövlətimizin başçısı Avropa Yayımları Birliyinin Baş Assambleyasının 64-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətinə toxunaraq bu tədbirin müxtəlif ölkələrdən gələn nümayəndələrin Azərbaycanda əldə olunan nailiyyətlərlə yaxından tanış olması üçün yaxşı imkan yaratdığını bildirmişdir. Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə böyük uğurlara nail olunduğunu qeyd edərək mədəniyyət sahəsinin inkişafına da xüsusi diqqət yetirildiyini vurğulamışdır.*

*Görüşdə Avropa Yayımları Birliyinin Baş Assambleyasının 64-cü sessiyasının keçirilməsinin televiziya və radio sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilmişdir.*

## ABŞ-ın DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2010-cu il*

*İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Dövlət katibi Hillari Klintonu qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v**: Xanım katib, Azərbaycana xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. Ümidvaram ki, görüşümüz çox uğurlu olacaqdır. İlk növbədə mən bu gün Müstəqillik günü münasibətilə sizi təbrik etmək və Amerika xalqına ən xoş arzularımı çatdırmaq istəyirəm.

Biz sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz tərəfdaşlığımızı daha da gücləndirəcəkdir. İkitərəfli münasibətlərimizin gündəliyi çox genişdir. Müxtəlif sahələrdə uğurlu əməkdaşlığımızın böyük tarixi vardır. Bir daha qeyd etmək istərdim ki, səfəriniz tərəfdaşlığımızı daha da gücləndirəcək və bu, region üçün çox önəmlidir. Biz müstəqilliyi əldə etdikdən sonra ABŞ ilə Azərbaycan arasındakı əlaqələr çox uğurla inkişaf edir. Biz iqtisadi sahədə sıx əməkdaşlıq edirik. Sülhməramlı əməliyyatlarda iştirak edirik. Terrorçuluğa qarşı mübarizə ilə bağlı məsələlərdə birgə fəaliyyət göstəririk. Enerji təhlükəsizliyi məsələləri daim gündəliyimizdədir.

Təbii ki, ABŞ ATƏT-in Minsk qrupuna həmsədr ölkələrdən biri kimi, Dağlıq Qarabağ münaqişəsinin həllində bizimlə və digər ölkələrlə yaxından çalışır. Bu münaqişə bizim üçün ən böyük problem və regional təhlükəsizlik üçün əsas təhlükədir. Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız

işğal altındadır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası, ATƏT, Avropa parlamenti, Avropa Şurası, İslam Konfransı Təşkilatı – bu təşkilatların hamısı vəziyyəti əks etdirən və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılmasını tələb edən müxtəlif qətnamələr qəbul edib. Biz münaqişəni beynəlxalq hüquq çərçivəsində həll etmək və bu münaqişənin həllinə mümkün qədər tez nail olmaq istəyirik. Çünki insanlarımız bundan əziyyət çəkirlər.

Biz bu gün bu və digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, onların nəticələri yaxşı olacaq və səfərinizdən sonra ölkələrimiz arasında əlaqələr uğurla inkişaf etməyə davam edəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Hillari Klinton**: Çox sağ olun, cənab Prezident. Mən Bakıya, ölkənizə ilk səfərimdən məmnunluq və şərəf hissi duyuram. Xüsusilə xoş haldır ki, səfərim ölkəmizin Müstəqillik gününə təsadüf edir.

Bilirəm ki, iqtisadi və sosial inkişaf üçün möhkəm bünövrənin qurulmasında ölkəniz son 20 il ərzində çox çalışmışdır. Mən əlaqələrimizə çox sadiqəm. Son 18 ay ərzində aramızda mütəmadi və məzmunlu söhbətlərimiz olub. Qeyd etdiyiniz məsələlər bizim üçün vacibdir. Fikrimcə, çox əhəmiyyətli haldır ki, bizim hərtərəfli müzakirə aparmaq imkanımız vardır.

Məni burada – Xəzər dənizinin sahilində, gözəl bir gündə ölkələrimiz arasında dostluq və tərəfdaşlıq ruhunda qəbul etdiyinizə görə bir daha minnətdarlığımı bildirirəm.

## AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD ALLAN HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2010-cu il*

*İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Allan Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Devid Allan Harris Azərbaycanın Amerika yəhudiləri üçün çox əhəmiyyətli ölkə olduğunu vurğulayaraq demişdir ki, biz Azərbaycanın dostları kimi, bu ölkənin ABŞ üçün siyasi, strateji və mədəni əhəmiyyətini dərk edirik.*

*Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan–ABŞ münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir. Ölkələrimiz siyasi, iqtisadi, energetika və digər sahələrdə səmərəli əməkdaşlıq qurmuşlar. Azərbaycan və Birləşmiş Ştatlar antiterror əməliyyatlarında birgə fəaliyyət göstərirlər.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzündən, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ölkəmizin beynəlxalq hüquq prinsiplərinə əsaslanan mövqeyindən, münaqişənin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesindən danışmışdır.*

*Dövlətimizin başçısı bildirmişdir ki, əsrlər boyu azərbaycanlılar və yəhudilər sülh və əmin-amanlıq şəraitində yaşamışlar, Azərbaycanda yaşayan yəhudilər ölkəmizin inkişafına öz töhfələrini verirlər. Bu isə əlaqələrimizi əks etdirən ən gözəl amillərdəndir.*

# İRANIN MƏDƏNİYYƏT VƏ İSLAM MAARİFLƏNDİRİLMƏSİ NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də İran İslam Respublikasının Mədəniyyət və İslam Maarifləndirilməsi naziri Seyid Məhəmməd Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Seyid Məhəmməd Hüseyni İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırmışdır.*

*Görüşdə Azərbaycan ilə İran arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığın uğurla davam etdiyi vurğulanmış və bildirilmişdir ki, bu uğurlu əməkdaşlığın mənbəyi məhz xalqlar arasındakı dostluq və qardaşlıq əlaqələridir. Bu işdə mədəniyyətlə bağlı məsələlər xüsusi rol oynayır. Söhbət zamanı mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinin hər iki ölkə üçün vacib məsələ olduğu qeyd edilmişdir.*

*Dövlətimizin başçısı prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etmişdir.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Polşa dövlətlərarası münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, çoxşaxəli dostluq əlaqələrimiz, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və layihələr çərçivəsində qarşılıqlı işbirliyimiz, strateji tərəfdaşlıq xarakteri almış əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Polşa xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyul 2010-cu il*

## ***bp*** **ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU TONİ HEYVORD İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*6 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da bp şirkətinin icraçı direktoru Toni Heyvordu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə bp şirkəti arasında uzunmüddətli əməkdaşlığın uğurlu olduğunu vurğulamış və bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.*

*Toni Heyvord bp şirkətinin Azərbaycan hökuməti və ARDNŞ ilə uğurlu əməkdaşlığını bir daha qeyd edərək «Azəri», «Çıraq», «Günəşli» və «Şahdəniz» neft və qaz, eləcə də Bakı–Tbilisi–Ceyhan və Cənubi Qafqaz boru kəmərləri layihələrinin Azərbaycan, region və qlobal enerji bazarları üçün əhəmiyyətli olduğunu demişdir.*

*Görüşdə «Şahdəniz» yatağının tammiqyaslı işlənilməsinin Azərbaycan və bp üçün önəmli layihələrdən biri olduğu qeyd edilmişdir.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASI DAĞLIQ QARABAĞ BÖLGƏSİNİN AZƏRBAYCANLI İCMASININ MƏRKƏZİ QƏRARGAHININ AÇILIŞI MƏRASİMİ

*6 iyul 2010-cu il*

*Prezident İlham Əliyev iyulun 6-da Bakıda Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında iştirak etmişdir.*

*Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, binada yaradılmış şəraitlə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dördmərtəbəli, xüsusi memarlıq üslubunda əsaslı şəkildə yenidən qurulan inzibati binada əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Ümumi sahəsi 1300 kvadratmetr olan binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur.*

*Bina ilə tanışlıqdan sonra «Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması» İctimai Birliyi İdarə Heyətinin üzvləri ilə görüş oldu.*

*Prezident İlham Əliyev görüşdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, sizi ürəkdən salamlayıram. Bu gün çox əlamətdar bir gündür. Dağlıq Qarabağın azərbaycanlı icması üçün mənzil-qərargahın yeni binası istifadəyə verilir, Şuşa Şəhər İcra Hakimiyyəti də bu binada yerləşəcəkdir. Çox gözəl, müasir binadır, qısa müddət ərzində əsaslı təmir olu-

nub və burada fəaliyyət göstərmək üçün bütün şərait yaradılıb. Əminəm ki, siz burada çox böyük səmərə ilə işləyəcəksiniz. Sizin iş şəraitiniz statusunuza uyğun olmalıdır və biz bu gün buna nail olduq. Qısa müddət ərzində bütün təmir-tikinti işləri aparılmışdır və bina ilə tanışlıq çox gözəl təəssürat bağışlayır. Ancaq bu, müvəqqəti qərargahdır. Torpaqlarımız işğalçılardan azad olunandan sonra sizin üçün yeni gözəl binalar Dağlıq Qarabağda tikiləcəkdir. Mən buna şübhə etmirəm və tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bu ədalətsizliyə son qoyulacaqdır. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaqdır.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Münaqişə ilə bağlı bütün reallıqlar bizim fəaliyyətimiz nəticəsində dünya birliyinə çatdırılır. Dünyanın aparıcı beynəlxalq təşkilatlarında Azərbaycanın səmərəli fəaliyyəti nəticəsində münaqişə ilə bağlı reallıqlar, bu bölgənin tarixi, mədəniyyəti ilə bağlı həqiqətlər artıq o təşkilatların üzvlərinə çatdırılır. Münaqişənin ilk illərində erməni lobbisinin fəaliyyəti nəticəsində və Azərbaycanın beynəlxalq aləmdə o qədər də böyük imkanlarının olmaması üzündən münaqişənin səbəbləri, Dağlıq Qarabağın tarixi ilə bağlı çox yanlış və təhrif edilmiş məlumatlar mövcud idi. Bu gün dünyanın bütün əsas beynəlxalq təşkilatları Azərbaycanın haqq işini qəbul edilmiş qərarları ilə dəstəkləyirlər. BMT, Avropa parlamenti, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, digər təşkilatlar müxtəlif dövrlərdə münaqişə ilə bağlı çox tutarlı və həqiqəti əks etdirən qətnamələr, qərarlar qəbul etmişlər ki, bu qərarlar münaqişənin həlli üçün əsasdır.

Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu təsdiqləyən müxtəlif sənədlər, faktlar mövcuddur. Bildiyiniz kimi, ermənilər bu bölgəyə XIX əsrin əvvəllərində köçürülmüşlər. Ondan sonra müxtəlif səbəblər üzündən Dağlıq Qarabağda erməni əhalisi əksəriyyət təşkil etmişdir. Nəticədə XX əsrin əvvəllərində, 20-ci illərdə Dağlıq Qarabağda

muxtar vilayət yaradılmışdır. Dağlıq Qarabağın bütün tarixi, bütün toponimləri, coğrafi adları Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlıdır. Bütün kəndlərin, şəhərlərin adları Azərbaycanın tarixini təcəssüm etdirir.

Dağlıq Qarabağın mərkəzi Xankəndi şəhəri bu adla qurulmuşdur. Bu yaxınlarda mən bu barədə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, uzağa getməyək, elə XX əsrin əvvəllərində tərtib edilmiş xəritələrə baxmaq kifayətdir ki, görək – xəritələrdə bütün adlar əzəli adları ilə göstərilib – orada Stepanakert adlı şəhər yoxdur, Xankəndi vardır. «Stepanakert» sözü bolşevik Stepan Şaumyanın adından götürülüb. O adamın ki, Azərbaycan xalqının, günahsız insanların qanını axıtmışdır, azərbaycanlılara qarşı soyqırımı törətmişdir. Əfsuslar olsun ki, bu həqiqətlər uzun illər dünya birliyinə o qədər də geniş şəkildə çatdırılmırdı.

Bu, problemlərimizin bir tərəfidir. Digər tərəfi bu gün beynəlxalq təşkilatlarda və dünyada fəaliyyətimiz nəticəsində həqiqətlər çatdırıldığı bir zamanda yenə də bəzi hallarda Azərbaycana qarşı ədalətsizliklər görürük, bəzən həqiqətlərə göz yumulur, reallıqlar nəzərə alınmır və müəyyən xarici dairələr öz siyasətini uydurulmuş faktlar, təhrif edilmiş tarix əsasında aparmağa davam edirlər. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, dünyada bu gün və əvvəlki dövrlərdə də mövcud olan bir yanaşmadır. İkili standartlar ədalətsizlik deməkdir. İşğalçı ilə işğalın qurbanını bir səviyyədə görmək nə qədər ədalətlidir?!

Beynəlxalq təşkilatların qərarları çox önəmlidir. Bəzi hallarda belə bir fikir yarana bilər ki, bu qərarlar qəbul edilir, Azərbaycan haqq səsini beynəlxalq forumlarda dünya birliyinə çatdırır, ancaq münaqişə həllini tapmır. Bu həqiqətdir. Ancaq beynəlxalq təşkilatların qərarları məsələnin istənilən yolla həlli üçün əsasdır. Çünki beynəlxalq hüquq normalarının Ermənistan tərəfindən pozulmasını heç kim inkar etmir. Dünya birliyi və beynəlxalq aləm beynəlxalq hüquq normaları əsasında formalaşıbdır və fəaliyyət göstərir.

Birləşmiş Millətlər Təşkilatı, digər təşkilatlar – yəni bu təşkilatların nizamnaməsi, məramı ədalət, demokratiya, hüquq normaları üzərində qurulubdur və istənilən formada münaqişənin həlli beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Əgər Azərbaycan görsə ki, sülh prosesi artıq tükənib, heç bir ümid yoxdur və müharibə yoluna üstünlük verərsə, yenə də beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Çünki Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində açıq-aydın göstərilir ki, hər bir ölkə özünü müdafiə etmək üçün bütün hüquqlara malikdir. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun, ərazi bütövlüyümüz dinc yolla, danışıqlar yolu ilə bərpa olunsun. Ancaq hələ ki, bu, mümkün deyildir.

Biz diplomatik səylərimizi bundan sonra da davam etdirməliyik. Bu yaxınlarda Avropa parlamentində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir. Baxmayaraq ki, münaqişənin başlanmasından 20 ilə yaxın vaxt keçir, ancaq bu qətnamə bu il qəbul edilib. Gec də olsa Avropa parlamentində ədalətli qərarın qəbul edilməsi çox önəmlidir. Hamımız bilirik ki, orada erməni lobbisi nə qədər böyük imkanlara malikdir və bu qətnamənin əleyhinə çıxan erməni lobbisi nə qədər böyük səylər göstərmişdir. Son ana qədər onların müqaviməti, səyləri və bütün dünya erməniliyinin birləşməsi yenə də qətnamənin əleyhinə qərarın qəbul edilməsinə imkan vermədi. Çünki haqq-ədalət öz yerini tutdu. Biz Azərbaycanın artan təsir imkanlarının və həqiqətin Avropa deputatlarına çatdırılması sayəsində bu qətnamənin qəbul edilməsinə nail olduq. Yenə də deyirəm, Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq hüquq əsasında, istənilən yolla bərpa etmək istəyəndə, hüquqi əsas həlledici rol oynayacaqdır.

Bugünkü vəziyyət, yəni beynəlxalq hüquq normaları əsasında həllini gözləyən münaqişə ilə bağlı proseslər müsbət istiqamətdə davam edir. Çünki BMT-nin Təhlükəsizlik Şura-

sının qətnamələrindən sonra bu illər ərzində müxtəlif beynəlxalq təşkilatlarda vacib qərarlar qəbul edilmişdir.

Bu gün Madrid prinsipləri əsasında təklif edilən yenilənmiş prinsiplər Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün şərait yaradır. Məhz buna görə də Azərbaycan bu danışıqlarda iştirak edir və konstruktivlik nümayiş etdirir. Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmalıdır, münaqişə həllini bunun əsasında tapmalıdır. Bu gün həmsədr ölkələr öz fikirlərini bəlkə daha da açıq şəkildə ortaya qoyurlar. Bir vacib məsələ vurğulanır ki, məsələ öz həllini Helsinki prinsipləri əsasında tapmalıdır. Nədir bu Helsinki prinsipləri? Burada əsas prinsip ərazi bütövlüyüdür. Xalqların öz müqəddəratını təyinetmə, müəyyənetmə prinsipləri də vardır. Ancaq o prinsiplər ölkələrin ərazi bütövlüyünə zərbə vurmamalıdır, onunla ziddiyyət təşkil etməməlidir. Xalqların özünüidarəetmə və öz müqəddəratını müəyyənetmə imkanları ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Budur Helsinki prinsiplərinin mahiyyəti və mənası. Bunun əsasında həmsədr ölkələr tərəfindən işlənilmiş təkliflər ortaya qoyulub və Azərbaycan müəyyən istisnalarla bu təklifləri qəbul edir. Bunlar nədən ibarətdir? Bir daha mən bu barədə məlumat vermək istəyirəm. İlk növbədə, Dağlıq Qarabağın ətrafında yerləşən işğal edilmiş bütün bölgələrdən işğalçı qüvvələr çıxarılır. Beş rayon dərhal, iki rayon – Kəlbəcər və Laçın rayonları müəyyən müddətdən sonra qaytarılır. Təkliflərdə 5 il müddət nəzərdə tutulubdur. Bunun səbəbi ondan ibarətdir ki, Kəlbəcər və Laçın rayonları Dağlıq Qarabağla Ermənistan arasında yerləşir və bir növ o rayonlara Azərbaycan əhalisinin qayıtması üçün təhlükəsizlik tədbirləri daha da böyük həcmdə görülməlidir. Bütün bölgələr Azərbaycanın nəzarəti altına qayıdır. Ermənistanla Dağlıq Qarabağ arasında yol, yəni dəhliz fəaliyyət göstərir və Azərbaycan bu təkliflərlə də razılaşıbdır. Çünki bu, münaqişənin həlli üçün vacib olan məsələdir.

Bizim elə bir niyyətimiz yoxdur ki, ermənilər kimi orada etnik təmizləmə siyasəti aparaq. Heç vaxt Azərbaycan xalqı

belə çirkin əməllərə əl atmamışdır. Ona görə Dağlıq Qarabağla Ermənistan arasında mövcud yol necə fəaliyyət göstərib, elə də fəaliyyət göstərməlidir və hesab edirəm ki, bu təklif qəbul oluna bilər. Təhlükəsizlik zəmanəti verilməlidir. Sülhməramlı qüvvələr Dağlıq Qarabağın inzibati sərhədinə gətirilməlidir. Çünki işğal edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşlarının təhlükəsizliyi təmin edilməlidir. Sülhməramlı kontingent bu funksiyanı o vaxta qədər yerinə yetirəcək ki, artıq bütün tərəflər təhlükəsizlik tədbirlərini öz üzərlərinə götürəcəklər.

Dağlıq Qarabağa keçici statusun verilməsi Azərbaycanın ərazi bütövlüyünü pozmayacaqdır. İşğaldan əziyyət çəkmiş bütün insanlar öz yerlərinə qayıtmalıdırlar. Bu o deməkdir ki, Azərbaycan vətəndaşları Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar və üç həmsədr ölkənin bu yaxınlarda verdiyi bəyanatda bu, açıq-aydın göstərilir. Bu, demokratik, beynəlxalq hüquq normalarını əks etdirən prinsiplərdir və məsələnin həlli üçün yeganə variant ola bilər. Lakin Ermənistan tərəfi öz taktikasını davam etməyə üstünlük verir. Münaqişəni imkanları daxilində maksimum müddətdə uzatmaq və işğalı davam etdirmək istəyirlər.

Azərbaycan tərəfi buna heç vaxt razı ola bilməz. Biz uzun illərdir ki, danışıqlarda iştirak edirik, konstruktivlik nümayiş etdiririk. Müxtəlif dövrlərdə Ermənistan tərəfi danışıqları pozub və Ermənistanda baş verən hadisələr danışıqların gedişatına mənfi təsir göstərib. Ermənistan parlamentində terror aktları, keçən əsrin 90-cı illərinin sonunda dövlət çevrilişi və digər cinayətlər münaqişənin həll olunması üçün əsas problem yaratmışdır.

Biz isə həmişə konstruktivlik nümayiş etdirmişik və bu prinsipləri bütövlükdə qəbul edirik. Münaqişə bu prinsiplər əsasında həllini taparsa, mən hesab edirəm ki, Azərbaycanın maraqları tam şəkildə təmin olunacaqdır. Birinci, Azərbaycan vətəndaşları Dağlıq Qarabağın ətrafında yerləşən bütün bölgələrə qayıdacaqlar. Son illər ərzində Azərbaycan əhalisi

artıbdır və əlbəttə ki, o bölgədə demoqrafik vəziyyət qısa müddət ərzində bizim maraqlarımızı tam şəkildə təmin edəcəkdir. Dağlıq Qarabağa, Şuşaya Azərbaycan əhalisinin qayıtması mütləq olmalıdır. Bunsuz bu münaqişə öz həllini tapa bilməz və Azərbaycan bütün imkanlardan istifadə edəcək ki, buna maksimum tez bir zamanda nail ola bilsin.

Hesab edirəm ki, sülhün yaranması, kommunikasiyaların açılması bölgədə gedən proseslərə müsbət təsir göstərəcək. Bu gün sirr deyil ki, Ermənistan ilə Azərbaycan arasında qüvvələr nisbəti bizim xeyrimizə dəyişibdir. Biz buna nail ola bilmişik. İstənilən sahədə Azərbaycan Ermənistandan qat-qat üstündür. İqtisadi potensial cəhətdən Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından 7-8 dəfə böyükdür. Demoqrafik potensial da Azərbaycanın mövqelərini gücləndirir. Bu gün Azərbaycanın əhalisi 9 milyondur. Ermənistan əhalisi qeyri-rəsmi məlumatlara, amma dəqiq mənbələrə görə 1 milyon 800 min nəfər civarındadır. Bizdə olan məlumata görə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 60 minə yaxın, yəni bir rayonun əhalisi qədər əhali vardır. İqtisadiyyat, coğrafi vəziyyət, demoqrafiya, ordu quruculuğu, sənaye potensialı, geosiyasi vəziyyət və Azərbaycanın bölgədəki, dünyadakı mövqelərinin gücləndirilməsi – bütün bu amillər mövqeyimizi gücləndirir və məqsədə çatmaq üçün bizə imkanlar yaradacaqdır.

Ümid edirəm ki, həmsədr ölkələr Ermənistana ciddi siqnallar göstərməklə nail olacaqlar ki, Ermənistan da dekabr ayında həmsədrlər tərəfindən rəsmi qaydada təqdim edilmiş təkliflərə müsbət cavab versin. Əks-təqdirdə danışıqların uğurla davam etməsi sual altında olacaqdır. Çünki 1992-ci ildən – Minsk qrupunun yaranması günündən bu günə qədər müxtəlif proseslərdə, danışıqlarda müxtəlif mərhələlər mövcud idi. Hər bir mərhələ nə iləsə nəticələnirdi. Əvvəlki dövrlərdə Ermənistanın qeyri-konstruktiv mövqeyi danışıqların pozulmasına gətirib çıxarıbdır. Son 5-6 il ərzində yuxarıda söylədiyim prinsiplər əsasında Praqa prosesi

adlandırdığımız danışıqlar formatı formalaşıbdır. Bu gün biz bu prosesin məntiqi sonuna, yaxud da vacib mərhələsinin məntiqi sonuna yaxınlaşmışıq ki, artıq dekabr ayında Madrid prinsipləri əsasında yenilənmiş təkliflər verildi. Bir tərəf – Azərbaycan tərəfi prinsip etibarilə bu təkliflərlə razıdır. Digər tərəf ya razı deyil, ya da hələ ki, vaxt uzatmaqla məşğuldur. Əgər qarşı tərəf bu təkliflərə müsbət reaksiya verməsə, onda danışıqların bu formatda davam etdirilməsində heç bir məna yoxdur. Əgər danışıqların bu formatda davam etdirilməsi mümkün olmayacaqsa, o zaman sülh prosesi haqqında danışmağa dəyməz. Çünki bu günə qədər müxtəlif variantlar müzakirə olunmuşdur, müxtəlif düsturlar əsasında təkliflər verilmişdir. Ancaq nəticə yoxdur. Praqa prosesi adlandırdığımız format, hesab edirəm ki, son şansdır. Ermənistan üçün son şansdır ki, işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxsın və öz gələcəyini, təhlükəsizliyini təmin etsin. Bu yaxınlarda həmsədr ölkələrin nümayəndələri ilə danışıqlar zamanı bu barədə öz fikirlərimizi bildirmişik. Bu həlledici məqamda məsələnin həlli üçün lazım olan bütün addımlar atılmalıdır.

Mən şəxsən şübhə etmirəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Ermənistan ilə Azərbaycan arasında inkişaf sahəsində böyüyən uçurum mövqeyimizi gücləndirir. Azərbaycan xalqının iradəsi mövqeyimizi dəstəkləyir. Ermənistanda hətta müxtəlif rəhbər dairələrdə belə bir fikir formalaşır ki, artıq 20 ilə yaxındır danışıqlar gedir, hələ bir 10 il davam etsin, bir 10 il də davam etsin və biz də burada imitasiya ilə məşğul olaq. Vaxt keçdikcə azərbaycanlılar o bölgələri unudacaqlar, yeni nəsil dünyaya gələcək, o bölgə ilə bağlı olmayacaqlar. Bütün bu fikirlərin qarşısına Azərbaycan xalqı öz iradəsini qoyur.

Ermənilərin fikri özlərinə getməsin. Onlar bəlkə də öz tarixi vətənini unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində,

Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar. Biz öz haqq işimizdən heç vaxt əl çəkməyəcəyik. Biz Ermənistandan o vaxta qədər əl çəkməyəcəyik ki, öz torpaqlarımıza qayıdaq və ərazi bütövlüyümüzü bərpa edək.

Bu gün Azərbaycan 20 il bundan əvvəlki Azərbaycan deyildir. O vaxt – torpaqlarımız işğal olunanda Azərbaycanda hərc-mərclik idi, ümumiyyətlə, dövlət yox idi. Dövlət quruculuğu aparılmırdı. Azərbaycanı dünyada tanımırdılar. Ordumuz yox idi. Müxtəlif silahlı birləşmələr, quldur birləşmələri, hər bir partiya rəhbərinin öz ətrafında silahlı dəstələri var idi. Özü də onlar burada bir-biri ilə vuruşa-vuruşa hakimiyyət uğrunda mübarizə aparırdılar, orada isə torpaqlarımız əldən gedirdi. Digər tərəfdən, Ermənistana xaricdən həm maliyyə, həm hərbi dəstək göstərilirdi. Biz o vaxt nə qədər xarici muzdluları zərərsizləşdirdik və həbs etdik. Ermənistanın hətta o vaxtkı Azərbaycana bu qədər problem yaratmağa imkanı yox idi. O ki qaldı indiki vəziyyətə, bu gün Azərbaycan güclü, müstəqil ölkədir. Bütün forumlarda öz haqq səsini ucaldır. Heç kimdən çəkinmir, güclü orduya malikdir.

Bu gün ordumuz istənilən məsələni həll edə bilər. Mən buna şübhə etmirəm. Tam əminəm.

Onlar nə vaxta qədər belə vəziyyətdə yaşayacaqlar? Budurmu onların seçimi?! Müstəqillik bizim üçün, bizim nəsil üçün bir şans, tarixi bir sərvət idi. Biz xoşbəxt insanlarıq ki, müstəqillik dövründə yaşayırıq. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır. Nəsillər gəlirdi, gedirdi. Yenidən müstəmləkə, ya respublika, ya da ki, hansısa başqa formada vilayət kimi yaşamışdır. Öz taleyimizi özümüz həll edə bilmirdik. Başqa imperiyaların tərkibində bölünə-bölünə, torpaqlarımız əldən gedə-gedə yaşamışıq. Müstəqillik tarixi şans idi, bizim üçün də, Ermənistan üçün də, bütün başqa keçmiş müttəfiq respublikalar üçün də.

Bu gün Azərbaycan bu şansdan uğurla istifadə edir. Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, bir milyon azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Xalqımıza qarşı Xocalı soyqırımı törədildi. Buna baxmayaraq, biz uğurla irəliyə baxırıq. Güclü ölkəyik. Öz hesabımıza yaşayırıq. Bölgədə gedən proseslərə təsir edirik. Bütün ölkələrlə, hətta böyük dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və qarşılıqlı maraqlar əsasında münasibətlər qururuq. Heç kimdən heç nə istəmirik, xahiş eləmirik. Əksinə, bizdən xahiş edirlər.

Ermənistan nə edir? Ermənistanın müstəqilliyi şərti xarakter daşıyır. O ölkə müstəqil sayıla bilməz. Çünki müstəqil siyasət apara bilmir. Başqa dairələrin iradəsi ilə idarə olunur, özünün müstəqil iqtisadi siyasəti yoxdur. Bütün infrastrukturu, strateji obyektləri başqa ölkələrin əlindədir. Əhali azalır, demoqrafik iqtisadi böhran yaranıbdır. Əgər keçən böhranlı ildə onlara xaricdən yardımlar edilməsəydi, ölkə tamamilə dağılacaqdı. Ona görə deyirəm, bu, tarixi seçimdir. Mən əminəm ki, bizim seçimimiz düzgün olmuşdur. Biz bundan sonra da bütün sahələrdə – iqtisadi, sənaye sahələrində potensialımızı, diplomatik səyləri, ordu quruculuğunu gücləndirəcək, torpaqlarımızı işğalçılardan azad edəcəyik.

Ermənistanda fikirləşirlər ki, vaxt keçdikcə onların mövqeyi güclənir. Bu, səhv bir yanaşmadır. Onların bütün sahələrdə mövqeləri zəifləyir. Dünya ermənilərinin güclü mövqelərə malik olması bugünkü status-kvonun saxlanmasını təmin edir. Amma status-kvo əbədi, uzunmüddətli ola bilməz. Bölgədə sülhməramlı qüvvələr yoxdur, erməni əsgəri, Azərbaycan əsgəri vardır. Onların arasında bəzən məsafə 40–50 metrdir. Heç kim zəmanət verə bilməz ki, orada xoşagəlməz hadisə baş verməyəcək. Azərbaycan xalqı nə vaxta qədər dözməlidir? Nə vaxta qədər bu ədalətsizliklə barışmalıdır? O vaxt ki, Ermənistan ilə Azərbaycan arasında hərbi balans var idi, bunu müəyyən mənada izah etmək olardı. Amma bu gün bu hərbi balans yoxdur.

Qarabağ problemi qarşımızda duran ən ağrılı, ən vacib problemdir. Bu problemi həll etmədən biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Bir də demək istəyirəm ki, sülh prosesi çərçivəsində təklif edilmiş variant, əminəm ki, məsələnin həlli üçün əsas ola bilər. Azərbaycan bir daha konstruktivlik nümayiş etdirir, öz işini dekabr ayında verilmiş bu təkliflər əsasında davam etdirmək istəyir.

Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağın və ətraf bölgələrin işğalı dözülməzdir. Azərbaycan xalqı, Azərbaycan rəhbərliyi heç vaxt bu vəziyyətlə barışmayacaqdır. Bu məsələ bizim üçün və Prezident kimi, mənim üçün prioritet məsələdir. Məsələ həll olunmayana qədər prioritet məsələ kimi qalacaqdır. Bir də demək istəyirəm ki, bugünkü gözəl tədbirdə, hesab edirəm, bu məsələ ilə bağlı biz gərək danışaq və mən istərdim ki, sizin də fikirlərinizi eşidim.

* * *

*«Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması» İctimai Birliyinin sədri Bayram Səfərov onlar üçün yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkür etdi və icmanın fəaliyyəti barədə məlumat verdi.*

**Bayram Səfərov:** Cənab Prezident! Dağlıq Qarabağın azərbaycanlı icmasına belə gözəl bina Sizin 2009-cu il 31 avqust tarixli Sərəncamınıza əsasən ayrılmış vəsait hesabına ərsəyə gəlib. İcmanın İdarə Heyətinin üzvlərinə ancaq yaxşı işləmək qalır. Belə şəraitdə yaxşı işləməliyik, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə, beynəlxalq qurumlara daha ətraflı çatdırmalıyıq.

Sizə bir daha icmanın İdarə Heyətinin üzvləri adından, şəxsən öz adımdan təşəkkürümüzü bildirirəm ki, bizə belə gözəl şərait yaratmısınız. Siz həmişə 1 milyondan artıq qaçqın və məcburi köçkünün qayğısına qalmısınız. Bunlar hamısı göz qabağındadır. Artıq bir dənə də çadır şəhər-

ciyimiz yoxdur. Siz məcburi köçkünlərə həmişə diqqət və qayğı göstərmisiniz. Biz də buna cavab olaraq həmişə Sizin əmrinizə hazırıq, müfəssəl əsgər kimi, hamımız döyüşə hazırıq.

İcmamızın idarə heyətinin də, üzvlərinin də istəyi budur ki, gələcəkdə Azərbaycanın hüdudlarından çıxıb xarici ölkələrdə, MDB dövlətlərində nümayəndəliklər yaradaq, beynəlxalq birliyi məlumatlandıraq. Bu istiqamətdə Heydər Əliyev Fondunun dəstəyi ilə çox böyük işlər görülür. Fondun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ həqiqətləri, Xocalı soyqırımı barədə bir neçə dildə kitablar buraxılır. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə dünyanın 100-dən artıq ölkəsində hər il Xocalı faciəsi ilə əlaqədar tədbirlər keçirilir. Görülən işlər göz qabağındadır. Bir daha Sizə həm öz adımdan, həm də İdarə Heyəti adından təşəkkür edirik. Sağ olun.

**Fərhad Bədəlbəyli:** *(Bakı Musiqi Akademiyasının rektoru):* Siz Qarabağ haqqında ətraflı danışdınız. Məncə, bizim əsas məqsədlərimizdən biri gələcəkdə qayıdış ilə bağlıdır. Cəmiyyəti oraya qayıtmağa hazırlamalıyıq. Qayıdış mövzusuna cəmiyyətdə, telekanallarda daha çox diqqət yetirilməlidir ki, biz necə qayıdacağıq, necə yaşayacağıq? Biz ona hazır olmalıyıq. Bizim Ali Baş Komandan əmr etsə, ordumuz bir həftə ərzində Xankəndiyə qədər gedə bilər. Amma biz istəməzdik ki, yenə qurbanlar verək. Siz illərdir ki, sülh yolu ilə torpaqlarımızın azad edilməsinə çalışırsınız. Bütün beynəlxalq görüşlərdə, dövlət başçıları ilə danışıqlarda, mötəbər forumlarda həmişə Qarabağ problemini xüsusi vurğulayırsınız.

Mənim yadımdadır, ulu öndər Heydər Əliyev Amerikada, hər yerdə çubuğu götürürdü və coğrafiya dərsi keçirdi, başa salırdı, Qarabağ haradadır, kimin torpağıdır. Bu siyasəti indi

Siz davam etdirirsiniz. Ona görə də ümidimiz Sizədir və heç şübhə yoxdur ki, bu ümidlər tezliklə doğrulacaqdır.

Biz keçən əsrin 80-ci illərində Sizinlə bərabər qarlı Şuşada olmuşuq. Cavan idik, xoşbəxt idik onda. Mənim heç şübhəm yoxdur, biz yenə oraya qayıdacağıq. Yenə Siz Vaqifin məqbərəsini, Bülbül əminin evini bərpa edəcəksiniz. Mən Sizə bir jurnal bağışlamaq istəyirəm. Bu, icmanın birinci nəşridir. Sizin dəstəyinizlə biz Elmlər Akademiyasının Almaniyada böyük bir konfransını keçirdik. Orada senatorlar da iştirak edirdilər. Konfransda Qarabağ məsələsinin diskussiyasını keçirdik. Çox ciddi bir söhbət oldu, konsert də verdik. Mən Mehriban xanıma çox sağ ol deməliyəm. Çünki onun dəstəyi ilə hazırlanan «Qarabağ xanəndələri» albomu da böyük silahdır. Hər dəfə hər bir ölkədə onu bağışlayanda, onlar bunu möcüzə kimi qəbul edirdilər.

Sizə dərin minnətdarlığımı bildirirəm. Biz Sizə inanırıq. İnanırıq ki, gec-tez hamımız Sizinlə bərabər orada olacağıq.

**Kamal Abdulla** (*Bakı Slavyan Universitetinin rektoru):* Ümummilli liderimiz Heydər Əliyevin əlində coğrafiya çubuğu dünya ölkələrinin rəhbərlərinə Qarabağın, Azərbaycanın harada olmasını, Ermənistanın və Azərbaycanın sərhədlərinin əslində haradan keçdiyini, tarixdə nə cür olduğunu yorulmadan izah etməsi, məlumatlar verməsi heç vaxt yadımızdan çıxmayacaqdır. Çünki ona qədər doğrudan da dünyada münaqişə barədə yayğın təsəvvürlər var idi və məsələnin mahiyyətinə nüfuz o zamandan başlamışdır.

Heydər Əliyev siyasəti bu gün layiqincə, vicdanla, şövqlə, yorulmaz səylərlə davam etdirilir. Biz çox gözəl dərk edirik ki, Siz bu prinsipləri, strategiyanı, münasibətləri cilalayanda daxilən hansı hissləri keçirirsiniz. Azərbaycanın savaş deyil, sülh yolunu seçməsi xalqımızın, prezidentimizin bəşəri dəyərlərə, demokratik prinsiplərə ehtiramının təzahürüdür.

Bu gün Qarabağın azərbaycanlı icması Sizin göstərişləriniz əsasında həm Xarici İşlər Nazirliyi, həm Prezident Administrasiyasının rəhbərliyi ilə çox maraqlı, faydalı görüş-

lər keçirir. Bu görüşlərdə Azərbaycan həqiqətlərinin insanların beyninə, qəlbinə necə nüfuz etdiyinin şahidi oluruq. Biz çox sevinirik ki, Azərbaycan artıq bu gün dünyada böyük nüfuza malikdir. ABŞ-ın Dövlət katibi xanım Klintonun bu günlərdə Bakıda Sizinlə görüşdən necə təsirləndiyini biz hətta uzaqdan-uzağa duyduq. Əminik ki, bütün bunların sayəsində tezliklə doğma Qarabağımıza qovuşacağıq.

**Rövşən Rzayev** (*Milli Məclisin deputatı):*Bizim üçün beynəlxalq təşkilatların qərarları çox önəmlidir. Həqiqətən də, bu il mayın 20-də Avropa parlamentində qəbul olunmuş qərara əsasən belə qənaətə gəlirik ki, sülh yolu ilə addımlamaq ən lazımlı, ən düzgün yoldur. Bununla bərabər, Azərbaycanın Silahlı Qüvvələri bu gün çox yüksək səviyyədədir. MDB məkanında Rusiyadan və Ukraynadan sonra yeganə ölkədir ki, Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi mövcuddur və bu sahədəki uğurlar göz qabağındadır. Mən bunların hamısına görə, cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bütün Azərbaycan xalqı Sizi dəstəkləyir və ulu öndərimiz Heydər Əliyevin siyasətinə inanır. Biz Sizinlə fəxr edirik. İnanırıq ki, Azərbaycanın ərazi bütövlüyü məhz Sizin apardığınız qətiyyətli siyasət sayəsində təmin olunacaqdır.

**İlham Əliyev:** Sağ olun. Bir daha demək istəyirəm ki, bu bizim ümumi işimizdir, ümumxalq işimizdir. Bu məsələni həll etmək üçün bütün diplomatik səylərlə, təbliğat işləri ilə bərabər, biz güclü olmalıyıq. Çalışmalıyıq ki, daha da güclənək. Ona görə bu illər ərzində Azərbaycanın iqtisadi potensialı, hərbi quruculuğu, müdafiə potensialı, müdafiə sənayesinin yaradılması – bütün bunlar bir məqsədi güdürdü ki, biz istənilən vaxtda öz torpaqlarımızı azad edə bilək. Belə bir kritik qüvvə yaradaq ki, artıq qarşı tərəf də dərk etsin ki, məsələnin uzadılması onların xeyrinə deyildir. Çünki bütün bunlar – həm Azərbaycanın potensialı, həm geosiyasi mövqeyi, həm hərbi qüdrəti siyasi gedişatlarda mövqeyimizi gücləndirir. Ona görə daha da güclü olmalıyıq. Məsələni sülh

yolu ilə həll etmək üçün güclü ordumuz olmalıdır. Biz bu gün bunu yaradırıq.

Gələcəkdə çox işlər görülməlidir. Paralel olaraq dünyada, bütün beynəlxalq təşkilatlarda daim bu mövzunu diqqətdə saxlamalıyıq. Fərhad burada çox düzgün qeyd etdi ki, mən bütün tədbirlərdə – iqtisadi məsələlər müzakirə olunanda, mədəniyyətlə bağlı tədbirlərdə, hər bir beynəlxalq forumda bu məsələni qaldırıram. Çünki Ermənistan və erməni lobbisi baxmayaraq ki, işğalçı siyasət aparırlar, etnik təmizləmə siyasətini aparmışlar, azərbaycanlıları öz doğma torpaqlarından didərgin salmışlar, dünyada rəy yaratmaq istəyirlər ki, Azərbaycan təcavüzkardır.

Bütün sahələrdə belə broşürlərin, Heydər Əliyev Fondu tərəfindən disklərin buraxılması onu göstərir ki, Qarabağ bizim tarixi torpağımızdır, mədəniyyətimizdir. Mən şübhə etmirəm ki, biz Dağlıq Qarabağa, Şuşaya qayıdacağıq.

O günləri mən çox yaxşı xatırlayıram. O qarlı şəraitdə Cıdır düzündə Vaqifin məqbərəsi önündə durmuşduq. O unudulmaz təəssüratlar sizin kimi, mənim də qəlbimdə yaşayır, hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayır. Biz ora qayıtmayana qədər sakitləşməyəcəyik. Biz bütün səylərimizi səfərbərliyə alıb elə etməliyik ki, tezliklə oraya qayıdaq. Bir daha demək istəyirəm və mən şübhə etmirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, biz Dağlıq Qarabağa qayıdacağıq və o bölgəni yenidən quracağıq, bütün dağıdılmış binaları, məscidləri, məktəbləri, evləri bərpa edəcəyik. Biz sadəcə istəyirik ki, buna tezliklə nail olaq, bu gün qaçqın həyatı yaşayanlar tezliklə öz ata-baba torpaqlarına qayıtsınlar.

Bir daha sizi ürəkdən salamlayıram. Bir daha sizə və bütün Azərbaycan xalqına söz verirəm ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası əvvəlki illərdə olduğu kimi, bundan sonra da mənim üçün prioritet məsələ olaraq qalacaq və bütün səylərimi qoyacağam ki, məsələ tezliklə və ədalətli həll olunsun. Çox sağ olun.

## GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Gürcüstanın Xarici İşlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonağın ölkəmizə səfərinin məhsuldar və uğurlu olacağına ümidvar olduğunu bildirdi. Azərbaycanla Gürcüstanın bütün istiqamətlərdə fəal əməkdaşlıq etdiyini vurğulayan prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etdi.*

*Xarici İşlər naziri Qriqol Vaşadze Azərbaycanla Gürcüstan arasında əlaqələrin, xüsusilə beynəlxalq təşkilatlarda, ölkələrimiz üçün aktual olan ərazi bütövlüyü məsələlərində əməkdaşlığın necə inkişaf etdirilməsi barədə Azərbaycan prezidenti ilə müzakirələr aparmağın çox vacib olduğunu dedi.*

*Prezident İlham Əliyev əməkdaşlığımızı daha da genişləndirmək üçün daimi məsləhətləşmələrin önəmli olduğunu vurğuladı.*

**MİSİRİN NEFT NAZİRİ SAMİH FEHMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*7 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Misirin Neft naziri Samih Fehminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Misir arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Bu yaxınlarda Misirin Xarici İşlər nazirinin ölkəmizə səfəri zamanı səmərəli müzakirələr aparıldığını vurğulayan prezident İlham Əliyev dost ölkələr olan Azərbaycanla Misir arasında əməkdaşlığı bütün sahələrdə daha da inkişaf etdirməyin zəruriliyini bildirdi. Misirin Neft naziri Samih Fehminin ölkəmizə səfərinin enerji sahəsində əlaqələri inkişaf etdirmək üçün yaxşı fürsət yaratdığını qeyd edən prezident İlham Əliyev qonağın Bakıda keçirəcəyi görüşlər zamanı birgə fəaliyyət üçün məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi.*

*Misirin Neft naziri Samih Fehmi ölkəmizə səfərinin yenicə başlamasına baxmayaraq, burada gördüklərindən təəssüratlandıqlarını vurğuladı. Ölkələrimiz arasında əlaqələri genişləndirmək üçün maraqlı planların olduğunu və onların həyata keçiriləcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ZAQATALA RAYONUNA SƏFƏRİ

*8 iyul 2010-cu il*

*İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqatala rayonuna gəlmişdir.*

*Ölkənin bütün regionları kimi, Zaqatala da özünün yüksəliş dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonun iqtisadiyyatı daha da inkişaf etmiş, əhalinin yaşayış səviyyəsi yüksəlmiş, şəhər və kəndlərdə quruculuq işləri geniş vüsət almışdır.*

*Dövlətimizin başçısı İlham Əliyevin Zaqatalaya bir neçə dəfə səfəri rayonun sosial-iqtisadi və mədəni həyatında mühüm keyfiyyət dəyişiklikləri ilə müşayiət olunmuşdur. Rayonda təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafı diqqət mərkəzində olmuş, son bir neçə ildə 7 tibb məntəqəsi tikilmiş, mərkəzi rayon xəstəxanasının və 2 kənd sahə xəstəxanasının binaları əsaslı təmir edilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər birində 240 şagird yeri olan üç kənd orta məktəb binası, digər mənbələr hesabına isə 10 yeni məktəb binası tikilmişdir. Zaqatalanın qaz və elektrik enerjisinə olan tələbatının ödənilməsi istiqamətində də mühüm tədbirlər görülmüşdür.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ulu öndərin abidəsinin yerləşdiyi Heydər Əliyev parkında abadlıq işləri görülmüşdür. Burada yeni oturacaqlar quraşdırılmış, müasir işıqlandırma sistemi yaradılmış, fəvvarələr yenidən qurulmuş, yaşıllıq zolağı genişləndirilmişdir.*

## Süd emalı zavodunun açılışı mərasimi

*İyulun 8-də prezident İlham Əliyev Zaqatala Süd emalı zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev müəssisə ilə yaxından tanış oldu. Bildirildi ki, «Gilan» MMC tərəfindən inşa olunan bu müəssisə öz potensialına və ixrac qabiliyyətinə görə bölgədə mühüm yer tutur. Beş hektar ərazidə yerləşən zavod ölkədəki 5 süd emalı müəssisəsindən biridir. Sutkalıq emal gücü 30 ton olan müəssisədə xarici ölkələrdən gətirilən müasir avadanlıq quraşdırılmışdır. Zavodun müasir tələblərə cavab verən laboratoriyası və digər xidməti bölmələri vardır. Buraya süd Zaqatalanın müxtəlif kəndlərindən gətirilir. Məqsəd Zaqatalada kənd təsərrüfatının və heyvandarlığın inkişafına nail olmaqdır. Südtoplama məntəqəsinə qəbul edilən xammal müəssisədə pasterilləşdirilir və müvafiq məhsulun istehsalı üçün avtomatik olaraq aidiyyəti sexə göndərilir.*

*Prezident İlham Əliyev müəssisənin işə düşməsini bildirən düyməni basdı, istehsal prosesini izlədi.*

*Dövlətimizin başçısı müəssisənin istehsalı olan məhsulların dadına baxdı.*

## Tütün emalı zavodunun açılışı mərasimi

*İyulun 8-də prezident İlham Əliyev Zaqatalaya səfəri çərçivəsində «İntertobakko» MMC-nin Tütün emalı zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev müəssisə ilə yaxından tanış oldu. Bildirildi ki, iki hektardan çox ərazidə inşa olunan zavodun illik emal gücü 3300–3600 tondur. Hazırda zavodda 75 işçi çalışır, yaxın gələcəkdə onların sayının 100 nəfərə çatdırılması nəzərdə tutulmuşdur. Ərazisi 7800 kvadratmetr olan istehsal sahəsində tütün emalının bütün prosesi həyata keçirilir.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Məlumat verildi ki, iqtisadiyyatında tütünçülüyün mühüm yer tutduğu Zaqatalada fəaliyyətə başlayan bu zavod rayonda kənd təsərrüfatının bu sahəsinin sürətli inkişafına şərait yaradacaqdır. Bu müəssisə ölkədə tütün sənayesinin daha da inkişafında mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısı müəssisədə emal olunmuş tütün növlərinə baxdı, kollektivi təbrik etdi və uğurlar arzuladı.*

## Rayon Mədəniyyət evində aparılmış əsaslı yenidənqurma işləri ilə tanışlıq

*Prezident İlham Əliyev iyulun 8-də Zaqatala rayon Mədəniyyət evində aparılmış əsaslı yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin mədəniyyətin inkişafına qayğısını əks etdirən fotoguşə yaradılmışdır.*

*Məlumat verildi ki, 1959-cu ildə inşa edilmiş binada aparılmış əsaslı təmir və yenidənqurma işlərindən sonra Mədəniyyət evi müasirliyi ilə seçilir.*

*Məlumat verildi ki, Zaqatala Mədəniyyət evində 2 xalq kollektivi, xalq teatrı və xalq kəndirbazlar qrupu, səyahətlər klubu və 5 dərnək fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev Mədəniyyət evinin qarşısında Azərbaycan mədəniyyətinin tanınmış simalarının büstləri qoyulmuş sahəyə baxdı, habelə yaxınlıqda müharibə veteranları və əlillər üçün bağda yaradılmış şəraitlə də tanış oldu.*

## ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram, Zaqatalada olmağımdan çox məmnunam. Bu mənim son illər ərzində Zaqatalaya üçüncü səfərimdir və hər dəfə burada olanda yenilikləri, inkişafı görəndə çox sevinirəm.

Bu gün Zaqatala rayonunun gələcək inkişafı üçün çox əlamətdar bir gündür. Rayonda çox müasir iki yeni sənaye müəssisəsi işə başlamışdır. Hər biri dünya standartları səviyyəsində qurulubdur. Bu gün həm süd, həm tütün zavodunun açılışında iştirak edərkən gördüm ki, burada rayonun inkişafı üçün çox böyük və vacib məsələlər öz həllini tapır. Tütün zavodunun yaradılması əslində Azərbaycanda müasir tütün sənayesinin yaranması deməkdir. Biz bu gözəl ənənələri bərpa edirik və rayonun inkişafı, sənaye potensialının gücləndirilməsi üçün bunun çox böyük mənası vardır.

Süd zavodu da müasir standartlara cavab verir. Bu həm iş yerlərinin açılmasıdır, həm yerli istehsalın yaradılmasıdır, həm də rayonun inkişafıdır. Yəni bütün bu işlər bir daha onu göstərir ki, rayon dinamik şəkildə inkişaf edir, işlər burada müsbət istiqamətdə davam edir və həm də rayonun iqtisadi, sənaye potensialı artır, görkəmi gözəlləşir.

Zaqatala qədim tarixə malik çox gözəl şəhərimizdir. Zaqatalanın tarixi simasını saxlamaqla aparılan müasir işlər, əlbəttə ki, yeni infrastrukturun yaranmasına xidmət edir. Siz – burada yaşayanlar bu işlərdə fəal iştirak edirsiniz və ümu-

miyyətlə, bu bölgənin gələcək inkişafı Azərbaycanın potensialını xeyli dərəcədə gücləndirəcəkdir.

Bu bölgəyə xüsusi diqqət göstərilir. Bildiyiniz kimi, keçən dəfə mən burada olarkən Zaqatalanın inkişafı üçün vacib obyektlərin açılışında iştirak etmişdim. Olimpiya İdman Kompleksi, Müalicə-Diaqnostika Mərkəzi, mehmanxana yaradılmışdır. Yəni burada bütün sahələrdə işlər görülür ki, insanların rahatlığı üçün şərait yaradılsın. İş yerləri, sosial obyektlər, səhiyyə, təhsil, mədəniyyət müəssisələri açılır. Bu gün Mədəniyyət evinin təmirdən sonra açılışında iştirak etmişəm. Bu da çox gözəl hadisədir. Bölgənin gələcək inkişafı təmin ediləcəkdir. Bu bölgənin öz xüsusiyyətləri vardır.

Keçən dəfə mən burada olarkən turizmin inkişafı üçün böyük əhəmiyyəti olan aeroportun açılışını qeyd etdik. Düzdür, müəyyən müddətdən sonra uçuşlar dayandırıldı və mənə verilən məlumata görə, sərnişin axını o qədər də güclü deyildi. Ancaq mən bu gün «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinə göstəriş verdim ki, yaxın zamanlarda Bakı–Zaqatala xəttində təyyarə uçuşlarını bərpa etsin. Biz insanlar üçün əlavə imkanlar yaratmalıyıq. Çünki təyyarə ilə gəlmək daha rahatdır. Əminəm ki, Bakı–Zaqatala–Balakən sərhəd avtomobil yolu da əsaslı təmirdən sonra yaxın zamanlarda istifadəyə veriləcəkdir. Yolun bir hissəsi artıq hazırdır. Ancaq hava nəqliyyatının öz üstünlüyü vardır və bu, gələcəkdə Zaqatalanın, ətraf rayonların turizm imkanlarının genişləndirilməsi üçün şərait yaradacaqdır.

Hər bir bölgə, hər bir rayon çalışmalıdır ki, öz daxili resursları hesabına iqtisadi və sənaye potensialını gücləndirsin. Düzdür, Azərbaycan dövləti və hökuməti fəaliyyətini hər bir bölgə üzrə konkret plan, konkret proqram əsasında qurubdur. Hər bir bölgəyə dövlət büdcəsindən subsidiyalar, dotasiyalar verilir və bu belə də olmalıdır. Amma biz elə etməliyik ki, rayonların sənaye və iqtisadi potensialından maksimum şəkildə istifadə edək.

Zaqatalanın bu sahədə imkanları genişdir – gözəl təbiəti, iqlimi, turizm imkanları, kənd təsərrüfatının inkişafı üçün yaxşı şərait vardır. Biz elə etməliyik ki, bütün lazımi imkanları yaradaq. Bilirsiniz ki, kənd təsərrüfatının inkişafı, fermerlərin, sahibkarların fəaliyyəti üçün lazımi tədbirlər görülür, kreditlər, subsidiyalar, texnika verilir, sosial sahə xüsusi diqqət mərkəzindədir.

Azərbaycanın son illərdə əldə etdiyi iqtisadi nəticələr, deyə bilərəm ki, dünya miqyasında xüsusi yerə malikdir. Biz dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkəyik. Hətta bu il, keçən il – dünyada böhran illəri kimi tarixdə qalacaq bu illər ərzində Azərbaycan iqtisadiyyatı inkişafdadır. Bütün sosial proqramlar, infrastruktur layihələri icra olunur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası üçün bütün lazımi tədbirlər nəzərdə tutulub. Büdcəmiz artır. Dünyada böhran nəticəsində bir çox ölkələrdə büdcə yerinə yetirilmir və kəsir yaranır. Biz isə əksinə, büdcədə dürüstləşmə etdik və əlavə böyük vəsait ayırdıq ki, ölkə qarşısında təxirəsalınmaz, yəni vacib olan məsələlər tezliklə öz həllini tapsın.

Bu gün Zaqatalada gördüklərim məni ürəkdən sevindirir. Mən çox şadam ki, rayon dinamik inkişaf edir və hər şey burada yüksək səviyyədədir. Arzum odur ki, daha da yaxşı olsun və əlbəttə ki, buna nail olmaq üçün bu il və gələn illərdə Zaqatalanın inkişafı ilə bağlı bütün lazımi tədbirlər görüləcək və yardımlar ediləcəkdir. Sizi bir daha ürəkdən salamlayıram və sizə xoş arzularımı bildirirəm.

**Sona Qazıyeva** *(Zaqatala sakini):* Möhtərəm cənab Prezident! Sizi Zaqatala ictimaiyyəti adından salamlayırıq və «Xoş gəlmisiniz!» deyirik.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın gözəl guşəsi olan Zaqatalaya həmişə diqqət yetirirdi. Sovetlər dövründə Zaqatala geridə qalmış rayonlardan biri idi. Lakin ulu öndərimiz respublika rəhbərliyinə gələndən sonra rayonumuz

qızıl güllər diyarına çevrildi. O illərdə təkcə bizim rayon deyil, respublikamızın bütün bölgələri sürətlə inkişaf etmişdir.

Keçən əsrin 70-ci illərində mən Beyləqan rayonunda bacım Sevil Qazıyevanın işini davam etdirirdim. Ulu öndərimiz bizim sahəyə gəlmişdi, onunla görüşmək mənə də nəsib oldu. İşimizə yüksək qiymət verdi. Bu təkcə mənim əməyimə deyil, 70-ci illərin gənclərinin əməyinə verilən qiymət idi. Hələ o zamanlar ulu öndərimiz Heydər Əliyev məhz bu günü, müstəqillik günümüzü görürdü. Elmdə, təhsildə, bütün sahələrdə gəncləri bu günə yönəldirdi və bizdə ruh yüksəkliyi yaradırdı.

Zaqatala çoxmillətli rayondur. Burada müxtəlif xalqların nümayəndələri – saxurlar, ləzgilər, avarlar böyük, vahid bir ailə kimi yaşayırlar. Sevincimizi də bir yerdə bölüşürük, problemlərimizi də birgə həll etməyə çalışırıq.

Zaqatalalılar həmişə dövlətçiliyə sadiq olmuşlar. Rayonumuz 200-ə yaxın şəhid vermişdir. Biz inanırıq ki, itirilmiş torpaqlarımız Sizin titanik fəaliyyətiniz sayəsində işğaldan azad ediləcəkdir. Biz hər zaman müsəlləh əsgər kimi, Vətənimizin xilası naminə hazırıq.

Cənab Prezident, Siz rayonumuzun iqtisadiyyatının inkişafına böyük qayğı ilə yanaşırsınız. Bu gün Siz yeni müəssisələrin açılışını etmisiniz. Bu hər bir zaqatalalı üçün yeni iş yeri, maddi rifah halının yaxşılaşdırılması deməkdir. Bunun üçün Sizə çox böyük təşəkkür edirik. Sizinlə çiyin-çiyinə çalışan Mehriban xanıma incəsənətimizin, mədəniyyətimizin inkişafına göstərdiyi qayğıya görə təşəkkürümüzü bildiririk.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Siz qeyd etdiyiniz məsələlər doğrudan da çox vacibdir. Bu gün Azərbaycanın uğurlu inkişafı müxtəlif amillər üzərində qurulubdur. Yəni, ölkəmiz həm dinamik şəkildə inkişaf edir, iqtisadi gücə malikdir, həm də sənaye potensialı güclənir. Bizim çox uğurlu və güclü neft siyasətimiz vardır. Bu gün Azərbaycan dünya miqyasında öz yerini tutubdur, böyük hörmətə malik olan bir ölkədir. Ölkədə sabitlik, yəni vətəndaş birliyi, vətəndaş həmrəyliyi vardır.

İqtisadiyyatın, sənaye potensialının gücləndirilməsi, əlbəttə ki, hər bir ölkə üçün vacibdir. Amma bizdə, ölkəmizdə bir gözəl xüsusiyyət, yəni bizi bəzi başqa ölkələrdən fərqləndirən cəhət ondan ibarətdir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi dostluq, qardaşlıq, mehribanlıq şəraitində yaşayırlar. Azərbaycanda bütün xalqlar arasında həqiqətən qardaşlıq münasibətləri vardır. Bu bizim böyük sərvətimizdir. Azərbaycan burada yaşayan hər bir xalqın vətənidir. Azərbaycan dövləti bütün gücünü ortaya qoyur ki, ölkəmizdə yaşayan xalqlar özlərini rahat hiss etsinlər, vahid ailə kimi yaşasınlar. Bu gün dünyada Azərbaycanın adı çəkiləndə təkcə neftdən söhbət getmir. Eyni zamanda, millətlərarası münasibətlərdən söhbət gedir. Azərbaycan artıq bölgədə və dünyada bir model rolunu oynamağa başlamışdır. Təsadüfi deyildir ki, ölkəmizdə dini, milli tolerantlıq, dözümlülük mövzularında müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu bizim ən böyük gücümüzdür, ən böyük sərvətimizdir və biz bu sərvəti qorumalıyıq. Prezident, hər bir məmur, millət vəkili, hər bir vətəndaş, hər bir insan bu sərvəti öz əməyi, öz münasibəti ilə qorumalıdır.

Siz qeyd etdiyiniz kimi, Zaqatala rayonu çoxmillətli rayondur və burada bütün xalqların nümayəndələri qardaşlıq şəraitində yaşayırlar. Əminəm ki, gələcəkdə də belə olacaqdır. Azərbaycan dövləti gücləndikcə qarşıda duran bütün vəzifələr həll edilməli, millətlərarası münasibətlər daim diqqət mərkəzində olmalıdır. Bu həm dövlət siyasətidir, həm də hər bir vətəndaşın ürəyində olan duyğulardır. Bax, bu iki amil bu gün Azərbaycanda bu gözəl ab-havanın mövcud olmasında öz rolunu oynayır. Ona görə də mən həmin məsələlərlə bağlı öz fikrimi xüsusi vurğulamaq və bir daha bildirmək istəyirəm. Arzu edirəm ki, sizin bütün arzularınız həyatda öz əksini tapsın. Mən prezident kimi çalışacağam ki, bundan sonra da rayonda bütün problemlərin həlli üçün biz konkret tədbirləri görək.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BALAKƏN RAYONUNA SƏFƏRİ

*8 iyul 2010- cu il*

*İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Balakən rayonuna səfərə gəlmişdir.*

*Son illər Azərbaycanda əldə edilən sosial-iqtisadi inkişaf regionların simasında da özünü aydın büruzə verir. Bu baxımdan Balakən rayonunun uğurları da diqqət çəkir.*

*2004–2009-cu illərdə Balakəndə ümumilikdə 3096-sı daimi olmaqla 8876 yeni iş yeri açılmışdır. Cari ilin birinci yarısında isə açılan iş yerlərinin sayı 1160-dır. Balakəndə abadlıq-quruculuq işlərinə də xüsusi diqqət yetirilmiş, əhalinin asudə vaxtının səmərəli keçirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Dövlətimizin başçısının 2006-cı və 2008-ci illərdə Balakənə etdiyi səfərlər rayonun ictimai, siyasi, sosial-iqtisadi həyatında mühüm dəyişikliklərlə yadda qalmışdır.*

*Prezident İlham Əliyev əvvəlcə ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Diqqətə çatdırıldı ki, ulu öndərin abidəsinin qoyulduğu Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ümummilli liderin siyasi irsini öyrənmək məqsədi ilə Heydər Əliyev Muzeyi fəaliyyət göstərir.*

### «Qubek» mehmanxanasının açılışı mərasimi

*Prezident İlham Əliyev iyulun 8-də Balakən rayonuna səfəri çərçivəsində «Qubek» mehmanxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və dörd-ulduzlu mehmanxana ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, Heydər Əliyev adına mədəniyyət və istirahət parkının yaxınlığında yerləşən 100 yerlik mehman-xananın tikintisinə 2007-ci ildə başlanılmışdır. Mehman-xanada 9 lüks və 54 sadə nömrə, 80 nəfərlik konfrans zalı, 80 nəfərlik yay və qış restoranları vardır. Bina fasiləsiz elektrik enerjisi ilə təmin edilmişdir. Burada, həmçinin qazanxana və avtomobil qarajı da fəaliyyət göstərir. Mehmanxanada 80 nəfər işlə təmin olunmuşdur.*

*Mehmanxananın əsas özəlliyi onun turizm üçün son dərəcə əlverişli bölgədə yerləşməsidir. Bu cür obyektlər Balakənin, ümumilikdə bölgənin turizm imkanlarının inkişafına müsbət təsir göstərir.*

*Prezident İlham Əliyev yaradılmış şəraiti yüksək qiy-mətləndirdi.*

## «Balakən-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimi

*İyulun 8-də prezident İlham Əliyev «Balakən-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev inşa ediləcək bu energetika qurğusu barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, dövlət başçısının 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə respublikamızda külək və su elektrik stansiyalarının inşasının genişləndirilməsi məqsədi ilə potensial imkanların öyrənilməsi və xüsusi proqramların hazırlanması «Azərenerji» ASC-yə tapşırıl-mışdır. Mütəxəssislərin ilkin araşdırmalarına görə, respublika-mızın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su elektrik stansiyası tikmək mümkündür. Kiçik su elektrik stansiyalarının inşası elektrik enerjisi istehsalında yanacağa qənaət etməklə yanaşı, ətraf mühitin qorunmasında da mühüm rol oynayır.*

*«Balakən-1» su elektrik stansiyasında ildə 10 milyon kilovat/saat enerji istehsal ediləcəkdir. Bu, rayonun elektrik enerjisinə tələbatının 25 faizini təşkil edir. Yerli «AZENKO» şirkətinin inşa edəcəyi su elektrik stansiyasında hər birinin gücü 0,5 meqavata çatan 3 hidroturbin və hidrogenerator, eləcə də 10 kilovoltluq yarımstansiya quraşdırılacaq, elektrik xətləri çəkiləcəkdir. Stansiyanın tikintisini 2011-ci ilin ikinci yarısında başa çatdırmaq nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev su elektrik stansiyasının təməlini qoydu.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*İyulun 8-də prezident İlham Əliyev Balakən Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Balakənin idman ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar. Azərbaycan prezidenti idmançılarla görüşdü.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və Mərkəzlə yaxından tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin idmanın inkişafı istiqamətində gördükləri işləri əks etdirən fotoguşə yaradılmışdır.*

*Məlumat verildi ki, Balakən Olimpiya İdman Kompleksinin tikintisinə Gənclər və İdman Nazirliyinin sifarişi ilə 2008-ci ildə başlanılmışdır. Kompleksin ümumi ərazisi 5 hektar, tikinti sahəsi 8900 kvadratmetrdir. Buraya futbol stadionu, basketbol, voleybol, mini futbol və tennis meydançaları, üzgüçülük hovuzu, əl oyunları zalı, habelə stolüstü oyunlar və trenajor zalları, kotteclər daxildir.*

*Prezident İlham Əliyev Mərkəzin bölmələrində idmançıların məşq prosesini izlədi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksə gələn idmançıların, qonaqların qalması və istirahəti üçün burada hər cür şəraiti olan 6 kottec tikilmişdir.*

*Dövlətimizin başçısı yaradılan şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı mərasimi

*İyulun 8-də prezident İlham Əliyev Balakənə səfəri çərçivəsində Mərkəzi Xəstəxananın yeni binasının açılışında iştirak etmişdir.*

*Səhiyyə ocağının kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilən Balakən rayon Mərkəzi Xəstəxanasının yeni binasının təməli 2006-cı il aprelin 11-də prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur.*

*Prezident İlham Əliyev xəstəxananın foyesində ümummilli lider Heydər Əliyevin səhiyyə sahəsinə diqqət və qayğısını əks etdirən fotostendə baxdı.*

*Prezident İlham Əliyev poliklinika şöbəsində rentgen kabinetində, kardiologiya, oftalmologiya, qastroskopiya və kolonoskopiya kabinetlərində yaradılmış şəraitlə tanış oldu və yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## BALAKƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 iyul 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 8-də rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən təbrik edirəm. Bu gün Balakəndə çox gözəl tarixi hadisə baş verir. Balakəndə ən müasir standartlara cavab verən yeni gözəl rayon xəstəxanası öz fəaliyyətinə başlayır. Bu çox gözəl, əlamətdar hadisədir və bu onu göstərir ki, bizim bütün planlarımız öz əksini tapır.

Mən Balakənə birinci dəfə gələndə bura boş yer idi. Biz burada bu xəstəxananın təməl daşını qoyduq. Bu gün isə açılışında iştirak edirik. Bu doğrudan da gözəl hadisədir.

Deyə bilərəm ki, son illər ərzində Azərbaycanın bölgələrində tikilmiş xəstəxanalardan ən müasiri və ən böyüyü Balakən xəstəxanasıdır. Bu bir daha onu göstərir ki, Balakənə xüsusi diqqət, xüsusi münasibət vardır. Mən çox şadam ki, burada tibbi xidmətin yüksək səviyyədə təşkil olunması üçün bütün şərait vardır. Ümumiyyətlə, Azərbaycanın bütün bölgələrində müasir xəstəxanalar, tibb məntəqələri, tibb ocaqları tikilir. Dövlət Neft Şirkəti bu işlərə çox fəal qoşulmuşdur. Bu xəstəxana da Dövlət Neft Şirkətinin vəsaiti hesabına yaradılmışdır. Başqa bölgələrdə də müalicə-diaqnostika mərkəzləri tikilir. Bu çox güclü bir sosial siyasətin əlamətidir. Çünki insanların sağlamlığı bizim üçün prioritet məsələdir.

Bu xəstəxanada bütün şöbələr, eyni zamanda, doğum şöbəsi də vardır. Azərbaycanda son illərdə uşaq ölümünün səviyyəsi aşağı düşür, ona görə ki, müasir imkanlar yaradılı-

bdır. Bir sözlə, bu xəstəxana balakənlilərin sağlamlığının keşiyində duracaqdır. Ümid edirəm ki, həkimlər də burada öz vəzifə borclarını şərəflə yerinə yetirəcəklər.

Burada quraşdırılmış müasir avadanlıqdan istifadə etmək üçün xüsusi bacarıq lazımdır. Burada treninqlər, kurslar keçiriləcəkdir. Bir sözlə, bu gözəl hadisəni sizinlə bərabər qeyd etmək üçün mən bu gün yenidən Balakənə gəlmişəm. Bu gün Balakəndə xəstəxananın açılışı ilə bərabər, digər vacib hadisələr də baş verib. Bu gün gözəl olimpiya mərkəzinin açılışını qeyd etdik. Bu Azərbaycanda idmana olan diqqətin nəticəsidir. Mən bu gün yeni müasir mehmanxananın açılışında da iştirak etdim. Hesab edirəm ki, bu, Balakənə turizm axınının təmin edilməsi üçün vacib amil olacaqdır. Mehmanxana da dünya səviyyəli mehmanxanalardan heç fərqlənmir.

Balakənin enerji təminatını yaxşılaşdırmaq üçün bu gün kiçik su elektrik stansiyasının təməl daşını qoyduq. Bu, birinci addımdır. Artıq proqrama görə, yaxın illərdə Balakəndə çaylarda 10 elektrik stansiyasının tikintisi nəzərdə tutulub. Biz rayonun bütün potensialının gücləndirilməsi üçün işlər görürük. Səhiyyə, təhsil, idman, mədəniyyət, turizm, sənaye – yəni Azərbaycanın bölgələri, o cümlədən də Balakən bu cür inkişaf etməlidir. Son illər ərzində burada aparılan işlər nəticəsində Balakənin siması dəyişib, şəhər gözəlləşib, müasirləşib. Dünya səviyyəli inkişaf etmiş şəhərlərin sırasına daxil edilib. Nəzərə alsaq ki, Balakənin çox gözəl təbiəti, təbii şəraiti var, doğrudan da dünya miqyasında özünün xüsusi yeri olan bir şəhərdir.

Mən çox istəyirəm ki, burada abadlıq, quruculuq işləri bundan sonra da sürətlə getsin. Keçən dəfə mən burada olanda böyük parkın açılışında iştirak etdim, xəstəxananın, mehmanxananın tikintisi ilə tanış oldum. Bütün bunları etmək üçün məqsədyönlü, düşünülmüş siyasət, diqqət və ölkəmizin hərtərəfli inkişafı üçün proqramlar lazımdır. Bu proqramlar da vardır. Biz bütün işləri proqramlar əsasında

qururuq, o cümlədən hər bir rayon üzrə xüsusi inkişaf planı da mövcuddur.

Rayonun sənaye, iqtisadi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər də nəzərdə tutulubdur ki, Azərbaycan vətəndaşları yaşadıqları bölgələrdən asılı olmayaraq hər yerdə ən yüksək səviyyə ilə təmin olunsunlar, xüsusilə, paytaxtdan uzaqda yerləşən bölgələrdə. Balakən də Bakıdan uzaqda yerləşir. Buna baxmayaraq, burada ən müasir standartlar tətbiq olunur və bundan sonra da tətbiq olunacaqdır.

Bu gözəl hadisə münasibətilə mən sizi ürəkdən təbrik edirəm və sizə bütün işlərinizdə uğurlar arzulayıram.

**Rəyasət Tinayeva** *(xəstəxananın həkimi)*: Möhtərəm cənab Prezident, icazə verin, Balakən ictimaiyyəti və tibb işçiləri adından Sizi salamlayım, Sizə rayonumuza «Xoş gəlmisiniz!» deyim.

Hamımızın sevincinə səbəb olmuş bu gəlişiniz qısa müddət ərzində rayonumuza üçüncü səfərinizdir. Sizin hər bir səfəriniz bizim üçün olduqca əhəmiyyətlidir. Çünki rayonumuzun sosial-iqtisadi və mədəni həyatında yeni bir inkişafa təməl qoyursunuz. Siz Balakən haqqında «Balakən Azərbaycanın ən inkişaf etmiş rayonlarından biridir» sözlərini demişdiniz. Bu gün biz hamımız bu sözləri qürurla, fərəhlə xatırlayırıq. Lakin bu, təkcə Balakənimizə deyil, bütövlükdə Azərbaycanımıza aiddir. Azərbaycanımız gündən-günə inkişaf edir, gözəlləşir. Bunu ölkəmizdə tez-tez səfərdə olan xarici ölkə rəhbərlərinin dilindən eşitmək isə bizə daha da fərəh verir, sevinc gətirir.

Azərbaycanın ən ucqar rayonlarından biri olan Balakən son qısa bir dövr ərzində tanınmaz dərəcədə dəyişilmişdir. Burada çoxlu sayda təhsil, səhiyyə, mədəniyyət obyektləri, sənaye müəssisələri, hündür yaşayış binaları, ticarət mərkəzləri tikilmiş, yeni yollar salınmış, kəndlərimiz, qəsəbələrimiz abadlaşdırılmışdır. Balakən üçün ən böyük problem olan içməli su məsələsi öz həllini tapmışdır. Mən buraz yolundan

danışmaq istəyirəm. Yəqin ki, balakənlilər bunu yalnız Avropanın inkişaf etmiş ölkələrində görə bilərdilər. Lakin bu gün bu yol sakinlərimizə, qonaqlarımıza xidmət edir.

Bu gün Heydər Əliyev parkı rayonumuza olduqca böyük gözəllik bəxş edir. Bu parkda ulu öndərimizin möhtəşəm abidəsi ucaldılıb. Bu abidə hətta qonşu Gürcüstandan da görünür. O bizim elimizə-obamıza, bütövlükdə, Balakənimizə sanki bir mayak kimi işıq saçır, bizə yol göstərir. Bu, Azərbaycan dövlətinin qüdrətinin simvoludur.

Bu gün bizim üçün olduqca böyük bayramdır. Ona görə ki, bu gün rayonumuzda belə gözəl, möhtəşəm, müasir tələblərə cavab verən xəstəxana, müasir, möhtəşəm Olimpiya İdman Kompleksi açılır. Yəqin ki, bu, balakənlilərin xatirindən heç bir zaman silinməyəcəkdir. Çünki balakənlilər üçün heç vaxt bundan böyük hədiyyə olmamışdır.

Siz bir neçə il əvvəl, birinci səfəriniz zamanı boş bir ərazidə xəstəxanamızın təməlini qoymuşdunuz. İkinci dəfə gəlişinizdə buranın inşası ilə maraqlandınız. Bu gün isə bu böyük xəstəxananın açılışında iştirak edirsiniz. Bundan böyük xeyirxahlıq nə ola bilər?! Bu gün mən kollektivimiz adından Sizə söz verirəm, bizə bəxş etdiyiniz bu böyük, müasir xəstəxanamızda insanların sağlamlığını qorumaq üçün var qüvvəmizlə çalışacağıq. Sizin ən yaxın yardımçınız Heydər Əliyev Fondunun prezidenti çox hörmətli Mehriban xanım Əliyeva olmuşdur. İcazə verin, fürsətdən istifadə edib çox hörmətli Mehriban xanıma balakənlilərin adından dərin minnətdarlığımızı çatdıraq. Siz və xanımınız Mehriban Əliyeva bizim yaxşı yaşamağımız üçün əlinizdən gələni əsirgəmirsiniz. Odur ki, milyonlarla insanların, biz balakənlilərin duası daim Sizi qoruyacaqdır. Tanrıdan Sizə, ailənizə uzun ömür, cansağlığı arzulayırıq. Tanrı Sizi qorusun! Çox sağ olun!

**İ l h a m  Ə l i y e v**: Xoş sözlərinizə görə təşəkkür edirəm. Bir məsələni qeyd etmək istəyirəm ki, Balakənin bugünkü vəziyyəti və inkişafı göstərir ki, Azərbaycanda hər şey etmək mümkündür. Bax, 4 il bundan əvvəl mən buraya

gələndə vəziyyət tam başqa idi. Bu gün Balakən inkişaf etmiş müasir şəhərdir. Rayon inkişaf edir, şəhər inkişaf edir, insanlar daha da yaxşı yaşayırlar. İnsanların yaşaması üçün bütün şərait yaradılır, o cümlədən bu gözəl səhiyyə ocağı insanların sağlamlığını təmin edəcəkdir.

Siz qeyd etdiniz ki, Balakən çoxmillətli rayondur. Bu bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqlar, bütün millətlərin nümayəndələri qardaşlıq şəraitində, bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt – nə əvvəlki illərdə, nə bu gün milli zəmində heç bir ayrı-seçkilik olmamışdır və tam əminəm ki, gələcəkdə də olmayacaqdır. Azərbaycan milli münasibətlərin yüksək səviyyədə qurulması üçün örnək, nümunə ölkə kimi, beynəlxalq təşkilatlarda da qiymətləndirilir. Bizim bu sahədəki siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanda bütün xalqlar, bütün millətlərin nümayəndələri rahat yaşasınlar, bütün hüquqlara malik olsunlar.

Azərbaycanda yaşayan bütün xalqlar, o cümlədən Balakəndə yaşayan bütün qardaş xalqlarımız Azərbaycanın dövlətçiliyi uğrunda vuruşmuşlar, qan tökmüşlər və bu gün də Azərbaycanda dövlət quruculuğu işində, dövlətçiliyin möhkəmlənməsində çox fəal rol oynayırlar. Hər bir vətəndaş öz dövlətini gücləndirmək üçün fəal işləməlidir, vətənpərvər olmalıdır, öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir. Belə olan halda Azərbaycan daim inkişafda olacaq və ölkəmiz güclənəcəkdir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm və sizə cansağlığı arzulayıram.

## Yeni gömrük-sərhəd buraxılış məntəqəsinin açılışı mərasimi

*İyulun 8-də prezident İlham Əliyev Balakəndəki Mazımçay gömrük-sərhəd buraxılış məntəqəsinin açılışında iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi general-leytenant Elçin Quliyev dövlətimizin başçısına raport verdi.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və müasir standartlar səviyyəsində tikilmiş yeni gömrük-sərhəd buraxılış məntəqəsi ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısına Azərbaycana idxal olunan avtomobillərin «Avro-2» standartlarına uyğunluğunu yoxlayan cihaz, idxal və ixrac əməliyyatlarının rəsmiləşdirilməsi və mal-nəqliyyat vasitələrinin qeydiyyatı, həmçinin gömrük xidmətinin avtomatlaşdırılmış informasiya sistemi haqqında məlumat verildi. Diqqətə çatdırıldı ki, burada ixrac və idxal gömrük nəzarəti və sərnişin xətləri vardır. Gömrük buraxılış məntəqəsində «bir pəncərə» sistemi tətbiq edilir. Burada, həmçinin sanitar-karantin, fitosanitar və baytar nəzarəti xidməti də vardır. Quraşdırılmış xüsusi monitorlarda Tovuz, Xaçmaz, Sınıqkörpü gömrük-sərhəd buraxılış məntəqələrindəki vəziyyəti izləmək mümkündür.*

*Prezident İlham Əliyev qonaqlar üçün yaradılan xüsusi gözləmə otağında da oldu. Diqqətə çatdırıldı ki, terminalın ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.*

*Gömrük-sərhəd buraxılış məntəqəsi ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

**QIRĞIZISTAN RESPUBLİKASININ KEÇİD DÖVRÜ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ROZA OTUNBAYEVAYA**

Hörmətli xanım Prezident!

Qırğızıstan Respublikasının keçid dövrü Prezidenti vəzifəsinin icrasına başlamağınız münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə cansağlığı, dost Qırğızıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2010-cu il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Milli bayramınız – Kralın andiçmə günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Belçika münasibətləri, ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Belçika xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2010-cu il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALAN QARSİYAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasında yaranmış münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2010-cu il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD NAŞİDƏ**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Maldiv arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Maldiv xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2010-cu il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi və arzularımızı yetirirəm.

Azərbaycan–Misir münasibətləri xoş ənənələrə malikdir. Əminəm ki, bu ənənələrin qorunub saxlanması, dostluq münasibətlərimizin möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişaf etdirilməsi yolunda addımlarımız daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2010-cu il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Taxt-tac günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızı birləşdirən ümumi mənəvi dəyərlərdən, dostluq və qardaşlıq hisslərindən qaynaqlanan dövlətlərarası münasibətlərimizin, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2010-cu il*

## SƏHİYYƏ NAZİRLİYİNİN YENİ İNZİBATİ BİNASI İLƏ TANIŞLIQ

*9 iyul 2010-cu il*

*İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı təmirdən sonra Səhiyyə Nazirliyinin yeni inzibati binası ilə tanış olmuşdur.*

*İndi Səhiyyə Nazirliyi yeni ünvanda yerləşir. Təxminən 100 il bundan əvvəl inşa olunan və indiyədək Musa Nağıyev adına təcili yardım xəstəxanası kimi fəaliyyət göstərən binada əsaslı təmir işləri aparılmışdır.*

*Səhiyyə Nazirliyinin yeni binası yüksək zövq və müasir dizaynla qurulmuşdur. Nazirlik ən qabaqcıl texnologiya və avadanlıqla təchiz edilmişdir.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, binada əsaslı təmir işlərinə 2008-ci ildə başlanılmışdır. Daha sonra diqqətə çatdırıldı ki, Səhiyyə Nazirliyinin təşəbbüsü ilə imtiyazlı xəstələr yaşadıqları əraziyə yaxın apteklərdə 143 adda dərman preparatı ilə pulsuz təmin olunurlar. Pulsuz dərmanların verilməsinə nəzarət isə mərkəzləşdirilmiş qaydada elektron kart vasitəsilə həyata keçirilir. Buradakı kompyuterdə imtiyazlı apteklərin yerləşmə planını izləmək olar. Monitorinq otağında dərman preparatlarının dövlət reyestrinin dünya ölkələri üzrə paylanması da nümayiş etdirilir və eyni zamanda, Avropa istehsalçılarının Azərbaycanın əczaçılıq bazarındakı faiz nisbəti göstərilir. Əgər 2007-ci ildə bu rəqəm 22 faiz təşkil edirdisə, indi artıq 59 faizdir. Müqayisə üçün bildirək ki, MDB ölkələrində bu rəqəm 24,6 faiz civarındadır.*

*Səhiyyə Nazirliyində elektron kitabxana fəaliyyət göstərir. Bu kitabxananın dünyanın elektron kitabxanalarına qoşulmaq*

*imkanı vardır. Nazirliyin işçiləri isə səhiyyəyə aid xəbərləri böyük monitorda onlayn rejimində izləyə biləcəklər.*

*Dövlətimizin başçısı Səhiyyə Nazirliyinin muzeyinə də baxdı. Muzeydə səhiyyənin inkişafının dörd müxtəlif dövrünü əks etdirən fotolar vardır. Burada 1917–1920-ci, 1930–1940-cı, 1960–1970-ci illərə və müasir dövrə aid şəkillər nümayiş olunur.*

*Nazirliyin kollegiya zalı isə böyük toplantıların keçirilməsi üçün nəzərdə tutulmuşdur.*

*Ümumilikdə Səhiyyə Nazirliyinin yeni binasında 200-ə yaxın kabinet fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev burada qurulan elektron məlumat köşkü ilə tanış oldu. Bu köşk vasitəsilə hər bir vətəndaş öz ərizəsinin icrası vəziyyətini izləyə biləcəkdir.*

*Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev Səhiyyə Nazirliyinin həyatinə də baxdı, tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

*10 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün iyulun 10-da Ukraynaya işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün iyulun 10-da Ukraynaya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını Sevastopolun «Belbek» Aeroportunda Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Milli geyimli qızlar Azərbaycan prezidentinə duz-çörək və gül dəstəsi təqdim etdilər.*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ

*Yalta*

*10 iyul 2010-cu il*

*İyulun 10-da Yaltada məşhur Livadiya sarayında MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.*

*Prezident İlham Əliyev və digər dövlət başçıları Livadiya sarayına gəldilər.*

*Ukrayna prezidenti Viktor Yanukoviç prezident İlham Əliyevi sarayın önündə ehtiramla qarşıladı.*

*MDB-nin üzvü olan dövlətlərin liderləri sarayın tarixi «Ağ zal»ında toplaşdılar. Burada 1945-ci ildə tarixi Yalta konfransı keçirilmişdir.*

*Görüşü açan Ukrayna prezidenti Viktor Yanukoviç MDB çərçivəsində iqtisadi əməkdaşlığın sürətləndirilməsi mexanizmlərinin müzakirə edilməsini, nəqliyyat və turizm sahələrində birgə layihələrin həyata keçirilməsini təklif etmişdir. Üzv - dövlətlər arasında ticarətin liberallaşdırılması məsələsinə xüsusi diqqət yetirilmişdir. Bundan əlavə, görüşdə azad ticarət zonasının yaradılması barədə saziş layihəsinin hazırlanmasına və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti görüşündə bu məsələyə baxılmasına dair razılıq əldə olunmuşdur.*

*Rusiya prezidenti Dmitri Medvedev qonaqlar adından Ukraynanın dövlət başçısını doğum günü münasibətilə təbrik etmiş, ona gələcək fəaliyyətində uğurlar arzulamışdır.*

*Dövlət başçılarının qeyri-rəsmi görüşlərinin keçirilməsi Birliyin təcrübəsində bir ənənəyə çevrilmişdir. İlk belə görüş 2000-ci il avqustun 18-də Yaltada olmuşdur. Belə qeyri-rəsmi görüşlərin gündəliyi olmur və hər hansı məsələlərə dair qərarlar qəbul edilməsi nəzərdə tutulmur. Yalnız təxirə salınması mümkün olmayan məsələlər istisna təşkil edir.*

*Bu qeyri-rəsmi görüşdə MDB-nin üzvü olan 6 ölkənin – Azərbaycan, Ukrayna, Rusiya, Belarus, Qazaxıstan və Ermənistanın prezidentləri, Birliyin icraçı katibi iştirak etmişlər.*

## Səfər başa çatdı

*İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Sevastopolun «Belbek» Aeroportunda Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Elə həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevi Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*12 iyul 2010-cu il*

*İyulun 12-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının yeni inzibati binasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev binanın açılışında iştirak etmişdir.*

*Komissiyanın üzvləri və əməkdaşları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Dövlət başçısı yeni binanın istifadəyə verilməsi münasibətilə komissiyanın üzvlərini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Yeni binanın istifadəyə verilməsi münasibətilə sizi ürəkdən təbrik edirəm. Mərkəzi Seçki Komissiyası üçün gözəl, möhtəşəm bina yaradılıbdır. Bu çox gözəl bir haldır, yəni artıq sizin üçün iş şəraiti də çox uyğun olacaqdır. Həm gözəlliyi ilə seçilir – indi içəri də baxacağam – bildiyimə görə içəridə də şərait yaxşıdır.

Mən çox şadam ki, son illər ərzində Mərkəzi Seçki Komissiyası öz işində böyük nailiyyətlər qazanıbdır. Komissiyanın çox vacib funksiyaları vardır. Azərbaycanda seçkilərin keçirilməsində böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik. Bütün işlər beynəlxalq standartlara uyğun şəkildə qurulubdur. Azərbaycanda seçkilərin keçirilməsi prosesi ildən-ilə daha da təkmilləşir, şəffaflıq tam şəkildə təmin edilir və insanlar azad, sərbəst şəkildə öz iradələrini ifadə edirlər.

Sizin fəaliyyətinizdən çox şey asılıdır. Azərbaycan bütün beynəlxalq konvensiyalara qoşulubdur, seçki prosesinin daha da təkmilləşdirilməsi işində beynəlxalq təşkilatlarla

uğurlu fəaliyyət göstərir. Bu gün Azərbaycanda seçkilərin keçirilməsi prosesi artıq Avropa standartlarına uyğundur.

Əminəm ki, Azərbaycanda qarşıdan gələn parlament seçkiləri də ədalətli keçiriləcək, xalqın iradəsi tam şəkildə öz əksini tapacaq və beləliklə, Azərbaycanda demokratiyanın inkişafı prosesində yeni önəmli addım atılacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Həm memarlar, həm də inşaatçılar bu layihə üzərində uzun illərdir ki, işləyiblər. Əlbəttə, mən istəyirdim ki, həm xarici görünüşü gözəl olsun, həm daxilində yaxşı şərait yaradılsın və eyni zamanda, yaxşı yer seçilsin. Yerə gəldikdə, Bakının bu ucqar bölgəsi artıq mərkəzə yaxınlaşır, bu yaxınlarda metro da çəkilibdir, yeni stansiya da açılıbdır. Burada Miqrasiya Xidmətinin binası bu yaxınlarda açılmışdır. Bura Bakının, bir növ yeni inzibati mərkəzinə çevriləcəkdir.

**M ə z a h i r  P ə n a h o v** *(Mərkəzi Seçki Komissiyasının sədri):* Cənab Prezident, icazə verin, mən də komissiyanın bütün üzvləri adından, öz adımdan Sizə minnətdarlığımı bildirim. Komissiya üzvləri artıq bilirlər ki, bu bina layihələndirmə mərhələsindən tutmuş, ta indiki mərhələyə qədər həmişə Sizin diqqətiniz altında olub. Biz də çalışmışıq ki, Sizin etimadınızı doğruldaq. İstəmişik ki, etimadınızı işimizlə doğrultduğumuz kimi, bina da Sizin ümumi standartlarınıza uyğun olsun. Siz özünüz layihəni bəyənəndən, ona öz xeyir-duanızı verəndən sonra çalışmışıq ki, bütün addımlar keyfiyyət baxımından Sizi qane edən standartlara uyğun olsun.

Mən deyərdim ki, komissiya üzvləri üçün bəlkə də Avropada analoqu olmayan bir iş şəraiti yaradılıbdır. Bizim bütün qonaqlarımız artıq məlumatlandırılıblar. Mərkəzi Seçki Komissiyasının işi həmişə ulu öndərin diqqət mərkəzində olub, biz onun qayğısını daim hiss etmişik və sonra da həmişə Sizin hamiliyiniz, qayğınız altında fəaliyyət göstərmişik. Hesab edirəm ki, bizə göstərdiyiniz etimadı doğruldacağıq.

*Sonra prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, milli eklektika üslubunda inşa olunmuş doqquzmərtəbəli binanın sifarişçisi Mərkəzi Seçki Komissiyası, layihənin müəllifi memar Vüqar Həsənov, podratçı təşkilat isə «Xəzər» Gənclərin Elmi-Texniki Yaradıcılıq Mərkəzidir.*

*Burada komissiya üzvlərinin və əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Seçkilər» İnformasiya Mərkəzi də bu binada yerləşəcəkdir. Mərkəzin konfrans zalında seçkilər zamanı nəticələrin nümayiş olunması üçün böyük monitorlar quraşdırılmışdır. Bu monitorlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminə (DAİS) qoşulmaqla, səsvermənin gedişi və nəticələri haqqında məlumatların nümayiş olunması funksiyasını yerinə yetirir. Binada müxtəlif funksiyalı elektron şəbəkə quraşdırılmışdır ki, bu da dairə seçki komissiyaları ilə DAİS vasitəsilə elektron məlumat mübadiləsi, daxili və internet şəbəkəsi qismində fəaliyyət göstərir. Burada mərkəzi server və kommunikasiya otağı, yerli şəbəkə və internet şəbəkəsinin mərkəzi serverləri quraşdırılmışdır. Server otağına giriş-çıxışın nəzarətdə saxlanılması və təhlükəsizlik məqsədi ilə otağın giriş qapısında xüsusi barmaq izi funksiyası ilə fəaliyyət göstərən keçid qurğusu vardır.*

*Binada seçkilər zamanı canlı müşahidə imkanı da təmin olunmuşdur. Seçki məntəqələrində yerləşdirilmiş veb-kameralara texniki nəzarət mərkəzi təşkil edilmişdir. İstər ölkə daxilindən, istərsə xaricdən MSK-nın internet səhifəsinə daxil olmaqla, bu veb-kameralar vasitəsilə səsvermə prosesi, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini müşahidə etmək mümkündür.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2010-cu İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA NİTQİ

*13 iyul 2010-cu il*

2010-cu ilin altı ayı arxada qalır və biz ənənəvi olaraq ilin birinci altı ayının yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, bu il də keçən ildəki kimi, uğurlu iqtisadi inkişaf davam etmişdir. Baxmayaraq ki, keçən il maliyyə və iqtisadi böhran dünyada gedən proseslərə çox güclü təsir göstərmişdir, Azərbaycanda 2009-cu ildə iqtisadi inkişaf baxımından çox yüksək göstəricilər əldə olunmuşdur. 2010-cu ildə də bu müsbət meyillər davam etmişdir və iqtisadiyyatımızın bütün sahələrində inkişaf var, tərəqqi var. Rəqəmlər onu göstərir ki, Azərbaycanda iqtisadi islahatlar düzgün istiqamətdə aparılır. Altı ayda iqtisadi inkişaf 3,7 faiz təşkil etmişdir. Nəzərə alsaq ki, keçən ilin iqtisadi inkişafının bazası çox yüksək idi, bu çox yüksək göstəricidir. Ümumiyyətlə, bu gün Azərbaycanda iqtisadi inkişafın istiqamətləri çoxşaxəlidir və bildiyiniz kimi, biz bu gün qeyri-neft sektorunun inkişafına üstünlük veririk. Bu bizim prioritet məsələmizdir. O ki qaldı neft-qaz sektoruna, orada əldə edilmiş uğurlar bizim üçün kifayətdir və yəqin ki, biz hasilatın hazırkı templərini saxlamalıyıq.

Sənaye potensialının inkişafında müsbət meyillər davam etmişdir. Biz sənaye potensialını iki yerə bölsək görərik ki, neft sektorunda artım 2,4 faiz, qeyri-neft sektorunda isə 15,3 faiz olmuşdur. Yəni bu, gördüyümüz işlərin bariz nümunəsidir. Çünki bu günə qədər Azərbaycanda aparılan islahat-

lar, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar bugünkü reallıqları təmin edir. Bundan sonra da qeyri-neft sektoruna xüsusi diqqət göstəriləcək və qeyri-neft sektorunun 15 faizdən çox artması Azərbaycan iqtisadiyyatının çoxşaxəli iqtisadiyyat olduğunu göstərir. Bizim məqsədimiz neft amilindən uğurla istifadə edib Azərbaycan iqtisadiyyatının bütün sahələrini inkişaf etdirməkdən ibarət olmuşdur və biz bu məqsədə çatmışıq. Növbəti illərdə də elə etməliyik ki, uzun illər, onilliklər bundan sonra Azərbaycan iqtisadiyyatı neft amilindən öz asılılığını maksimum dərəcədə azaltsın.

Digər iqtisadi göstəricilər də, ümumiyyətlə, müsbət mənzərədən xəbər verir. İnflyasiya 4,9 faiz təşkil etmişdir. Bu, normal rəqəmdir. Əhalinin pul gəlirləri isə 9 faiz artmışdır. Bu onu göstərir ki, 2009–2010-cu illərin tarixdə böhranlı illər kimi qalacağına baxmayaraq, Azərbaycan vətəndaşlarının gəlirləri artır və inflyasiyanın templərini də qabaqlayır.

Ölkədə böyük maliyyə resursları yaradılmışdır. Uğurlu neft siyasəti nəticəsində bu gün Azərbaycan öz maliyyə imkanlarını genişləndirir. İlin əvvəlindən Azərbaycanın valyuta ehtiyatları artmış – 20 milyard dollardan 24,7 milyard dollara çatmışdır və bu bizim strateji ehtiyatlarımızdır. Bu ehtiyatlar imkan verir ki, biz iqtisadi sahədə istənilən məsələni, istənilən infrastruktur layihəsini özümüz öz gücümüzə arxalanaraq icra edə bilək.

Bildiyiniz kimi, Neft fondunun gəlirləri və xərcləri haqqında mütəmadi qaydada ictimaiyyətə məlumat verilir. Bu çox şəffaf qurumdur, neft gəlirlərinin uğurla idarə edilməsində və ədalətli bölünməsində Azərbaycan dünya miqyasında nümunə kimi göstərilir. Əlbəttə ki, əldə edilmiş təcrübə və bu sahədə görülən işlər bizə deməyə imkan verir ki, Azərbaycanın strateji valyuta ehtiyatları gələcəkdə də artacaqdır. Bu valyuta ehtiyatları Azərbaycanın uğurlu inkişafını və müstəqil siyasətini təmin edəcəkdir. Çünki iqtisadi müstəqillik siyasi müstəqilliyin əsas amilidir.

Azərbaycan 2010-cu ildə investisiyaların cəlb edilməsi sahəsində öz uğurlu siyasətini davam etdirmişdir. Baxmayaraq ki, demək olar, bütün maliyyə qurumları, beynəlxalq səviyyəli şirkətlər və ölkələr öz xərclərini kəskin şəkildə azaldırlar, Azərbaycana xaricdən gələn investisiyaların həcmi, prosesi davam edir və bu il də biz bunu müşahidə etmişik. Bütövlükdə, ölkə iqtisadiyyatına altı ayda 3,8 milyard dollar sərmayə qoyulmuşdur və bunun müəyyən hissəsi xarici sərmayələrdir. Biz əvvəlki illərdə daha çox xarici investisiyalardan asılı idik. Azərbaycanda yaradılmış gözəl investisiya iqlimi ölkəmizə investisiyaların gətirilməsinə kömək göstərmişdir. Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə bütün dövrlərdə bu bölgədə ən qabaqcıl yerlərdə idi.

Bu gün isə maliyyə imkanlarımız, məhz xarici sərmayənin nəticəsində yaradılmış milli gəlir və valyuta ehtiyatlarımız, güclənmiş iqtisadiyyat imkan verir ki, biz daxili investisiyaların həcmini ildən-ilə artıraq. 3,8 milyard dollardan 3 milyard dolları daxili sərmayələrdir, həm dövlət proqramları çərçivəsində, həm də Azərbaycan şirkətlərinin fəaliyyəti nəticəsində qoyulmuş vəsaitdir. Bu da çox sevindirici haldır.

Azərbaycanda bu gün özəl sektorda fəaliyyət göstərən şirkətlər güclənir. Azərbaycan dövləti onlara öz dəstəyini göstərir. Dövlət şirkətləri müasir sistemə keçirlər. Azərbaycan dövlət şirkətlərində müasir mühasibat, audit və idarəetmə sistemi tətbiq olunur. Biz bu prosesləri dəstəkləyirik və strateji xəttimiz ondan ibarətdir ki, dövlət nəzarətində olan bütün şirkətlər beynəlxalq səviyyəli şirkətlər kimi fəaliyyət göstərsinlər. Onların dövlətə məxsus olduğu o demək deyil ki, onlar dövlət tərəfindən idarə olunmalı, yaxud da hansısa başqa yolla idarə olunmalıdırlar. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri geniş tətbiq olunub və dövlət mülkiyyətində strateji əhəmiyyət daşıyan şirkətlər kommersiya şirkətləri kimi fəaliyyət göstərməlidirlər, beynəlxalq bazarlara çıxmalıdırlar və beynəlxalq bazarlarda investisiya layihələrini davam etdirməlidirlər.

Bir sözlə, iqtisadi inkişafı göstərən və müəyyən edən əsas göstəricilər müsbətdir, inkişaf təmin olunur və əminəm ki, Azərbaycanın uğurlu inkişafı bundan sonra da uzun illər ərzində davam edəcəkdir.

Biz həmişə olduğu kimi, sosial məsələlərə xüsusi diqqət veririk və bu sahədə də nəzərdə tutulmuş bütün proqramlar vaxtlı-vaxtında icra olunur. Heç bir proqramda yubanma yoxdur və biz bu işləri proqram üzrə, cədvəl üzrə görürük. Bugünkü məlumata görə, Azərbaycanda orta əməkhaqqı təxminən 400 dollar təşkil edir və bu, ildən-ilə artır. Orta pensiyaların həcmi təxminən 130 dollardır. Burada da artım var. Amma çalışmalıyıq ki, pensiyaların məbləğini bundan sonra da artıraq və bu barədə bu gün danışacağıq. Bütün sosial infrastrukturun yaradılması layihəsi ilə bağlı – xəstəxanalar, məktəblər, idman qurğuları, mədəniyyət ocaqları – hər bir sahədə konkret işlər görülür. Bakıda və bölgələrdə ilin birinci yarısında açılan gözəl, müasir sosial infrastruktur obyektləri bunun bariz nümunəsidir.

Azərbaycanda regionların inkişafı proqramı uğurla davam edir və regionlarda gedən quruculuq, abadlıq işləri artıq reallıqdır. Azərbaycanın yeni reallıqları ondan ibarətdir ki, hər bir bölgədə inkişaf var, hər bir bölgədə sosial-iqtisadi proqramlar icra olunur, investisiyalar qoyulur.

Ancaq o da həqiqətdir ki, bölgələrimiz dövlətdən verilmiş dotasiyalar hesabına yaşayırlar. Elə bir bölgə yoxdur ki, öz daxili resursları hesabına yaşaya bilsin. Ancaq biz çalışmalıyıq ki, hər bir bölgə özünə xas olan xüsusiyyətlərdən, spesifik coğrafi və ərazi imkanlarından istifadə edərək, özünü maksimum dərəcədə yerli istehsalın artırılması hesabına təmin edə bilsin.

Dövlət, əlbəttə ki, subsidiyaları, dotasiyaları verməyə davam edəcək. İnfrastruktur layihələrinin keçirilməsi, kənd təsərrüfatına subsidiyaların verilməsi bu məqsədi güdür. Özəl sektora verilən kreditlər artıq gözəl nəticələrini verir və hər bir bölgənin öz proqramı var və proqram da çox mü-

fəssəldir. Elə etməliyik ki, növbəti illərdə bölgələrin milli gəliri, ümumi daxili məhsul (ÜDM) daha da artsın. Baxmayaraq ki, son illər bəzi bölgələrdə ÜDM 3 dəfə, 4 dəfə artmışdır, yenə də hələ ki, ehtiyatlar böyükdür. Biz bu ehtiyatlardan maksimum dərəcədə səmərəli istifadə etməliyik.

Bu il Azərbaycanda altı ayda 36 min yeni iş yerləri açılmışdır. 2004-cü ildə bəyan etdiyimiz proqram – regionların inkişafı və iş yerlərinin açılması proqramı uğurla icra edilir. Azərbaycanda son 6 ildə təxminən 900 min yeni iş yerləri açılmışdır ki, onlardan 600 mindən çoxu daimi iş yerləridir. Düzdür, bəzi iş yerləri bağlanır, hansısa şirkət fəaliyyət göstərir, sonra fəaliyyətini dayandırır. Azərbaycanda işsizliklə bağlı olan məsələlər çox uğurla həll olunur.

Bu gün biz idxalı əvəzləyən məhsulların istehsalına çox böyük diqqət veririk. Bu gün biz ərzaq məhsulları ilə bağlı, demək olar ki, əsas vacib məsələləri həll etmişik. Həll olunmamış məsələlər də öz həllini tapacaq və beləliklə, bir daha demək istəyirəm ki, ölkəmizin hərtərəfli inkişafı təmin ediləcəkdir.

Neft-qaz sektorunda bütün işlər plan üzrə gedir. Nəzərdə tutulmuş hasilat səviyyəsi təmin ediləcəkdir. Altı ayda 25 milyon ton neft, 13 milyard kubmetr qaz hasil edilibdir. Bilirsiniz ki, bu hasilatın böyük əksəriyyəti ixrac edilir, Azərbaycana valyuta axını gəlməyə davam edir. Hesab edirəm ki, bu sahədə hasilatla bağlı işlər lazımi səviyyədə qurulub. Biz, əlbəttə ki, hər bir sahədə olduğu kimi, bu sahədəki siyasətimizə vaxtaşırı düzəlişlər edirik. Hesab edirəm ki, hazırkı hasilatın səviyyəsi bizi qane edir. Gələcəkdə, əlbəttə ki, müxtəlif amilləri nəzərə alaraq, hasilatı artıra da bilərik, azalda da bilərik. Elə etməliyik ki, təbii ehtiyatlarımızdan maksimum səmərə ilə istifadə edək. Nəzərə alsaq ki, bizim təbii resurslarımıza dünyada və Avropada böyük ehtiyac var, ola bilər, hansısa əlavə tədbirin görülməsi nəticəsində biz qısa müddət ərzində hasilatı artıra da bilərik. Yəni ki, bu

işlər bizim əlimizdədir, bizdən asılıdır və biz hasilatı istədiyimiz formada tənzimləyə bilərik.

Digər sahələrdə inkişaf müsbət təəssürat yaradır. Azərbaycanın iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. 2009-cu ildə böhran ilinə baxmayaraq, beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqini artırıblar. Bu onu göstərir ki, bizim apardığımız islahatlar çox uğurludur. Bizim iqtisadi inkişafımız təkcə bir sektorun inkişafına bağlı deyil. Bizim siyasətimiz ondan ibarətdir ki, ölkəmizi modernləşdirək, ölkəyə ən qabaqcıl texnologiyaları gətirək. Azərbaycanda bütün iqtisadi və sənaye sahələrində ən qabaqcıl təcrübə tətbiq olunmalıdır, peşəkar kadrlar hazırlanmalıdır. Ölkəmiz uğurla inkişaf etməyə davam edəcəkdir. Bizim təbii resurslarımız var, iqtisadi siyasətimiz var və bu, uğurlu siyasətdir. Beynəlxalq maliyyə qurumları Azərbaycanda bu sahədə aparılan işlərə çox yüksək qiymət verir. Bu, həqiqəti əks etdirən qiymətdir, biz ölkəmizin uzunmüddətli inkişaf strategiyasını təmin edəcəyik.

Bildiyiniz kimi, bu yaxınlarda büdcəyə dəyişiklik edilmişdir və bütövlükdə, bizim dövlət büdcəmiz hazırda 15 milyard dollar səviyyəsindədir. O cümlədən, 500 milyon dollar vəsait hərbi məsələlərin həllinə əlavə olaraq ayrılmışdır. Bu bizim məqsədyönlü siyasətimizin bir hissəsidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Belə olan halda diqqətimizi daha çox ölkəmizin hərbi potensialının gücləndirilməsinə verməliyik və bunu edirik. Bu gün Azərbaycanın bütün hərbi xərcləri 2 milyard 150 milyon dollardır ki, bu da Ermənistanın bütün dövlət büdcəsindən çoxdur. Biz vaxtilə, bir neçə il bundan əvvəl qoyulmuş məqsədə çatdıq. Bu bizə imkan verir ki, ordumuzu daha da müasirləşdirək, ən müasir silah-sursatı, texnikanı Azərbaycana gətirək. Ölkə daxilində güclü müdafiə sənayesini yaradaq. Qısa müddətdə buna nail ola bilmişik.

Hərbi gücümüz ölkəmizin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində həlledici rol oynaya bilər. Biz istəmirik ki, bu, həlledici rol oynasın. İstəyirik ki,

məsələ danışıqlar yolu ilə, diplomatiya yolu ilə öz həllini tapsın. Ancaq hərbi güc olan zaman, əlbəttə ki, bizim mövqeyimiz daha da möhkəmlənəcəkdir.

Bu yaxınlarda mən Dağlıq Qarabağın azərbaycanlı icması ilə görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı öz fikirlərimi bildirdim. İctimaiyyətə geniş məlumat verdim. Bir daha vurğulamaq istəyirəm ki, bizim bu sahədəki bütün fəaliyyətimiz çox şəffafdır, açıqdır və birmənalıdır. Azərbaycan xalqı mütəmadi qaydada məsələ ilə bağlı aparılan danışıqlar haqqında məlumatlandırılır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan xalqının iradəsi əsasında öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb, olmayacaqdır! Vasitəçilərin təklifi də ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğal edilmiş bütün bölgələrdən Ermənistanın işğalçı qüvvələri çıxarılmalıdır, azərbaycanlılar – məcburi köçkünlər öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar və qayıdacaqlar.

O ki qaldı Dağlıq Qarabağın gələcək statusuna, Azərbaycan dövlətinin razılığı olmadan Dağlıq Qarabağa heç bir status verilə bilməz. Bu, danışıqların ayrılmaz parçasıdır. Yəni, birtərəfli qaydada Ermənistan, yaxud da ki, qondarma Dağlıq Qarabağ separatçıları, yaxud da ki, hansısa üçüncü qüvvə Azərbaycanın iştirakı və razılığı olmadan Dağlıq Qarabağa heç bir status verə bilməz. Deyə bilərəm ki, bu, danışıqların əsas məsələlərindən biridir, demək olar ki, onun mahiyyətidir. Ona görə Ermənistan tərəfi deyəndə ki, Dağlıq Qarabağ nə vaxtsa müstəqil olacaq, bu onların xülyasıdır, onların istəyidir, onların arzusudur. Ondan başqa heç nə deyildir. Danışıqlar masasında olan sənəddə Dağlıq Qarabağın statusu, statusunun müəyyən edilməsi haqqında hər şey açıq-aydın göstərilibdir. Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti öz sözünü deyəcək və bu söz həlledici söz olacaqdır.

Azərbaycan dövləti və Azərbaycan xalqı isə heç vaxt Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək heç bir status verməyəcəkdir. Danışıqlarda – müzakirə edilən məsələlərdə Dağlıq Qarabağın Azərbaycandan nə vaxtsa ayrılması ilə bağlı heç bir mexanizm yoxdur, ola da bilməz.

Ona görə mən bunu xüsusilə bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və olmayacaqdır. Azərbaycan ancaq bu prinsiplər əsasında danışıqlarda iştirak edir. Bu prinsiplərdə həm ölkələrin ərazi bütövlüyünə hörmət göstərilir, həm də xalqların öz müqəddəratının təyin edilməsi məsələlərinə münasibət bildirilir. Ancaq bu iki amil bir-biri ilə ziddiyyət təşkil etməməlidir və etmir. Xalqların öz müqəddəratını təyin etməsi məsələləri ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həll oluna bilər. Dünyada, o cümlədən Avropada belə nümunələr çoxdur. Biz isə istəyirik ki, ən qabaqcıl təcrübə hər sahədə tətbiq olunsun, o cümlədən bu münaqişə ilə bağlı heç bir ayrı-seçkiliyə yol verilə bilməz. Azərbaycan dövləti məhz bu prinsiplər üzərində durubdur. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur və olmayacaqdır.

Paralel olaraq bir daha demək istəyirəm ki, biz hərbi gücümüzü də gücləndiririk və bunu edəcəyik. Azərbaycanda hərbi məsələlərin həlli üçün ayrılan vəsait, bildiyiniz kimi, çox böyük vəsaitdir. Biz bu vəsaiti nə üçün xərcləyirik? Yəqin ki, hamıya bəllidir. Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçılardan azad edək. Tam əminəm ki, bu gün Azərbaycanın belə imkanları var. Biz hərbi gücümüzü xeyli dərəcədə artırmışıq, bundan sonra da artıracağıq. Bizim maliyyə imkanlarımız buna şərait yaradır və bu maliyyə imkanlarını biz yaratmışıq, Azərbaycan xalqı yaradıb, siyasətimiz yaradıb. Əgər 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanmasaydı, bu gün, ümumiyyətlə, Azərbaycanın uğurlu inkişafından söhbət gedə bilməzdi. Biz çox uğurla, məharətlə və ağılla bu amildən istifadə etdik

Ermənistanda bəziləri hesab edirlər ki, onlar müharibənin birinci mərhələsində qalib gəldilər. Mən hesab edirəm ki, onlar məğlub olublar. Azərbaycan isə atəşkəs müddəti ərzində böyük və uğurlu yol keçmişdir. Biz bu gün böyük zirvələrə çatmışıq. Dünya miqyasında Azərbaycan böyük hörmətə malik olan ölkədir, bölgədə həlledici rol oynayır. Bölgədə irəli sürülən siyasi təşəbbüslər və onların baş tutmaması bir daha onu göstərir ki, bizim razılığımız olmadan heç bir məsələ öz həllini tapa bilməz.

İqtisadi cəhətdən Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil edilməlidir, qarşıya bu məqsədi qoymuşuq. Biz müasir ölkəyik. Ona görə, müharibənin birinci mərhələsi heç nəyi sübut etmir. Bir şeyi sübut edir ki, Azərbaycan xalqı və Azərbaycan dövləti heç vaxt bu vəziyyətlə barışmayacaq və istənilən yolla öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

## YEKUN NİTQİ

İlin sonuna qədər bütün nəzərdə tutulmuş məsələlər öz həllini tapmalıdır. Biz öz işimizi proqram əsasında qururuq və ilin əvvəlindən bu günə qədər proqram üzrə işləmişik. Ancaq bu yaxınlarda büdcəyə dəyişiklik edilməsi nəticəsində yeni vəzifələr meydana çıxıb. Bu vəzifələri operativ şəkildə həll etmək üçün, əlbəttə ki, bütün qurumlar daha da fəal işləməlidirlər. Çünki ilin sonuna qədər Azərbaycan iqtisadiyyatına əlavə 1 milyard yarım manat vəsait qoyulmalıdır. Biz çalışmalıyıq ki, bu vəsaitdən maksimum səmərə ilə istifadə edək ki, Azərbaycanda ilin sonuna qədər daha da böyük həcmdə işlərin görülməsinə nail olaq.

Bu vəsaitin bir hissəsi, qeyd etdiyim kimi, hərbi potensialımızın gücləndirilməsinə xərclənəcəkdir, bir hissəsi iqtisadi infrastruktur layihələrinə, bir hissəsi isə sel və daşqınlar nəticəsində öz evlərini itirmiş insanların yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldiləcəkdir. Bildiyiniz kimi, bu il Azərbaycanda biz böyük təbii fəlakətlərlə üzləşmişik. Sel və

daşqınlar, demək olar ki, böyük əraziləri məhv etmişdi, subasma halları baş vermişdi və bu barədə bu gün danışıldı. Mən hesab edirəm ki, bizim müvafiq qurumlar çox böyük məharətlə və peşəkarlıqla işlədilər. Mən bilavasitə bu məsələlərə rəhbərlik edirdim və gündəlik formatda məlumatlar gəlirdi, özüm şəxsən vəziyyətlə tanış olurdum. Deyə bilərəm ki, bütün qurumlar çox yaxşı işlədilər, gecə-gündüz bu təbii fəlakətin aradan qaldırılması üçün çox böyük işlər gördük. Həm dövlət qurumları, həm özəl sektor və onu da demək istəyirəm ki, özəl sektoru təmsil edən şirkətlər, onların böyük əksəriyyəti təmənnasız işlədilər.

Bizə müxtəlif ölkələrdən bu münasibətlə yardım göstərmək istəyən zənglər olmuşdur, müxtəlif ölkələrdən, dost ölkələrdən yardımlar təklif edilmişdir. Biz bütün bu təşəbbüslərdə olan insanlara, ölkələrə öz minnətdarlığımızı bildirmək istəyirik. Fəlakətlərin qarşısının alınması və bundan sonra o yerlərin, evlərin bərpasını və bəndbərkitmə işlərinin aparılmasını Azərbaycan dövləti öz üzərinə götürür və bütün bu işləri biz özümüz edəcəyik.

Həm xilasetmə xidməti, həm səhiyyə, təhsil sahələrinin nümayəndələri, suyun idarə olunması ilə bilavasitə məşğul olan qurumlar, tikinti şirkətləri – biz hamımız çox səmərəli işlədik. Ən önəmli məsələ ondan ibarətdir ki, insan itkisinə yol verilmədi. İnsanlar vaxtlı-vaxtında, vaxtından əvvəl o təhlükəyə məruz qala biləcək bölgələrdən köçürüldü, onların müvəqqəti yaşayışı təmin edildi, ərzaq məsələləri, səhiyyə məsələləri həll olundu, yəni biz bütün bu işlərə operativ şəkildə qoşulduq və maksimum nəticəni də əldə edə bildik.

Biz onu da bilirik ki, bu il dünyada, həm Avropada, həm Amerikada, Asiyada, bütün bölgələrdə təbii fəlakətlər mövcud idi. Böyük insan itkisi ilə müşahidə olunan bu hadisələr, əlbəttə ki, bütün dünyanı sarsıtdı. Biz televiziya vasitəsilə görürdük ki, müxtəlif ölkələrdə hansı hadisələr baş verir. Onu deyə bilərəm, böyük nailiyyətimizdir ki, biz bu məsə-

lələrlə bağlı bütün işləri itkisiz gördük. Beləliklə, hesab edirəm ki, minimum itkilərlə bu vəziyyətdən çıxdıq.

Ancaq bu hadisələr bizim iqtisadiyyatımıza çox böyük ziyan vurmuşdur, insanların əmlakı dağılmışdır, minlərlə ev, minlərlə hektar torpaq su altında qalmışdır. Bu gün biz artıq bu vəziyyətin yaxşılaşması üçün əlavə tədbirlər görürük. Konkret planlar tərtib edilibdir. Dağılmış evləri qısa müddət ərzində bərpa etməliyik. Azərbaycan dövləti bu işi öz üzərinə götürür. Başqa ölkələrdə evlər sığortalanıb və dövlət, demək olar ki, belə evlərin bərpası ilə məşğul olmur və vəsait də ayırmır. Yəni evlərin sahibləri sığorta şirkətlərindən vəsaiti alacaq və onun hesabına evləri bərpa edəcəklər. Azərbaycanda belə evlərin bərpası ancaq Azərbaycan dövlətinin üzərinə düşübdür və biz bunu edəcəyik. Baxmayaraq ki, o evlərin böyük əksəriyyəti keyfiyyətsiz materiallardan tikilmişdir və məhz buna görə su dəyən kimi dərhal dağıldı. Biz keyfiyyətli materiallardan istifadə edib evləri yaxın zamanlarda bərpa edəcəyik. Çalışmalıyıq ki, qış gələnə qədər işlərin tam əksəriyyəti görülsün və insanlar normal evlərə köçürülsünlər.

Bununla bərabər, bütün texniki məsələlər də həll olunmalıdır, bəndbərkitmə işləri də aparılmalıdır, bütün texniki qurğular saz vəziyyətə gətirilməlidir. Bu, böyük proqramdır və fəlakət baş verəndən sonra keçirdiyim müşavirələrdə mən bu barədə öz fikirlərimi bildirdim ki, biz kompleks tədbirlərin görülməsinə nail olmalıyıq. Kompleks tədbirlər planı hazırlanıb və qısa müddətdə bütün işləri görəcəyik.

Gələn aylarda, bu rübdə Azərbaycanda minimum əməkhaqqı və minimum pensiyanın qaldırılması nəzərdə tutulur. Bildiyiniz kimi, biz vaxtaşırı bu məsələlərə baxırıq və pensiyaların, əməkhaqlarının minimum məbləğini qaldırırıq. Növbəti aylarda biz yenə də bu məsələyə baxmalıyıq, Azərbaycanda minimum əməkhaqqı və pensiya qaldırılmalıdır. Elə etməliyik ki, insanlar ildən-ilə daha da yaxşı yaşasınlar,

xüsusilə, o qədər də böyük imkanlara malik olmayan insanlar.

Son 6 ildə yoxsulluq şəraitində yaşayanların sayı 4 dəfə aşağı düşmüşdür. Buna baxmayaraq, hazırda ölkə əhalisinin 11 faizi yoxsulluq şəraitində yaşayır. Bu insanlara dövlət öz qayğısını göstərməlidir və ünvanlı sosial yardım, minimum əməkhaqqı və pensiyanın qaldırılması sosial müdafiə işlərində çox mühüm addım olacaqdır.

Bütün sosial obyektlərin tikintisi davam etməlidir. İlin sonuna qədər səhiyyə, təhsil, idman, mədəniyyət sahələrində infrastruktur layihələri davam etdiriləcək, vəsait var və bu işlər sürətləndirilməlidir. Sahibkarlığa Kömək Milli Fondu hesabından kreditlərin ayrılması daha da sürətli getməlidir. Bu gün burada məlumat verildi ki, ilin əvvəlindən müəyyən məbləğlər verilibdir, ancaq əsas məbləğ hələ ki, bölünməmiş qalır. Hesab edirəm ki, üçüncü rübdə kreditlərin əksəriyyəti verilməlidir ki, heç olmasa ilin sonuna qədər sahibkarlar bu il onlardan istifadə edə bilsinlər. Bu proqram artıq bir neçə ildir ki, aparılır və bu çox səmərəli təşəbbüsdür. Artıq verilən kreditlərin məbləği qayıdır və o qayıdan məbləğ yenidən işə salınır və beləliklə, biz böyük bir məbləği əldə etmişik. Bu il 100 milyon manatdan çox kreditlər veriləcəkdir. Gələn il yəqin ki, bu məbləğ artacaqdır. Əsas odur ki, konkret, real layihələr, yəni ciddi layihələr təqdim olunsun və onlar tezliklə, keyfiyyətlə icra olunsun.

Xüsusilə nəzərə alsaq ki, Azərbaycan dövləti ölkəmizin inkişafı üçün lazım olan sahələri müəyyən edib və biz sahibkarlara da tövsiyə edirik ki, onlar hansı sahələrdə bu kreditlərdən istifadə etsinlər. Xüsusilə, bildiyiniz kimi, bu il biz sahibkarları daha çox soyuducu anbarların və taxıl anbarlarının tikintisinə yönəltmişik. Demək olar ki, qısa müddət ərzində hər bir bölgədə müasir soyuducu kameralar tikilibdir. Hələ ki, bu kameraların tikintisinə böyük ehtiyac var. Hesab edirəm ki, biz bu il və gələn il bu imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Bu kreditlər də çox

yaxşı işləyir və bölgələrdə kənd təsərrüfatı, emal sənayesi, turizm sahələrində aparılan işlərin çox önəmli hissəsi bu kreditlər hesabına baş verir. Beləliklə, kreditlərin verilməsi prosesi daha da sürətlə aparılmalıdır.

Bu il Azərbaycanda «Ekologiya ili» elan edilibdir və mən çox şadam ki, ilin birinci yarısında bu sahədə görülən tədbirlər öz nəticəsini verir. Artıq Azərbaycanda bu il bir neçə milyon ağac əkilibdir. Təkcə Bakı və Abşeron yarımadasında 800 min ağac əkilibdir və bu proses payızda davam etdiriləcəkdir. Ancaq tədbirləri təkcə «Ekologiya ili»ndə görməməliyik. Bu, daimi proses olmalıdır və Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün kompleks tədbirlər görülür. Bu ay biz artıq Avro-2 standartına keçdik. Bu da, hesab edirəm ki, çox vacib və əlamətdar hadisədir. Bu, birinci addımdır, bu bizim bu məsələyə nə qədər ciddi yanaşmağımızı göstərir. Ancaq bu addımdan sonra əlavə başqa addımlar da atılmalıdır. Yəni Avro-2 bizim son hədəfimiz deyil, ondan sonra Avro-3, Avro-4, Avro-5 var, yəni görülən bütün işlər bu istiqamətə yönəldilməlidir. Avro-2 standartlarına keçid artıq çox ciddi bir addımdır.

Bakıda bildiyiniz kimi, məişət tullantıları zavodu tikilir. Balaxanı poliqonunda görülən işlər artıq ekoloji vəziyyətin yaxşılaşmasına gətirib çıxarıbdır. Artıq o bölgədən ənənəvi tüstülər qalxmır. Vaxtilə oradan qalxan tüstülər bütün şəhəri bürüyürdü və insanların sağlamlığına böyük ziyan idi. Artıq bu məsələ də öz həllini tapıbdır. Yəni ciddi yanaşma olanda və konkret tədbirlər görüləndə hər bir məsələ öz həllini tapa bilər. Bəziləri hesab edirdi ki, Balaxanı poliqonu elə orada bizə əbədi problem yaradacaq, bunun qabağını almaq heç cür mümkün deyil və bu, böyük bir fəlakətdir, orada yığılan tullantılar elə yavaş-yavaş yanacaq və tüstü şəhəri bürüyəcəkdir. Biz göstərdik ki, əgər iradə varsa və ciddi yanaşma varsa, hər şeyi etmək mümkündür.

Bununla bərabər, bütün bölgələrdə təmizləyici qurğular, içməli suyun verilməsi, kanalizasiya qurulması prosesi da-

vam etməlidir. Bəzi rayonlarda artıq işlər başlanıb. Hesab edirəm ki, bu sahədə istədiyimizə nail ola bilməmişik. Uzun illərdir ki, Azərbaycan bu məsələ ilə bağlı beynəlxalq maliyyə qurumları ilə danışıqlar aparır. Danışıqlar 5 ildən çoxdur aparılır. Birinci dəfə bu məsələni mən 5 il bundan əvvəl qaldırmışdım ki, Azərbaycanda kanalizasiya və içməli su məsələləri öz həllini tapmalıdır. Azərbaycan dövləti hazır idi, biz hazır idik ki, qısa müddət ərzində vəsaiti ayıraq və bu məsələ həll olunsun. Ancaq bürokratiya, bəzi hallarda səriştəsizlik, bəzi hallarda beynəlxalq təşkilatlarla aparılan danışıqlarda süründürməçiliyə yolvermə halları bizi ciddi narahat edir. Çünki elektrik enerjisi, qazlaşdırma, insanları narahat edən digər məsələlərdə biz böyük irəliləyişə nail ola bildik. Amma hələ ki, içməli su, kanalizasiya məsələləri bizim üçün ən ağır sahədir.

Hesab edirəm ki, qısa müddət ərzində bu sahədə də ciddi tədbirlər görülməlidir. Birinci addımlar atılır və artıq təklif verilmişdir ki, rayon icra hakimiyyətləri bu işlərə qoşulsunlar. Azərbaycan dövləti vəsait ayıracaqdır ki, yerlərdə onlar bu işləri özləri görsünlər. Bir halda ki, bu sahədə bizim planlarımız hələ ki, həyatda öz əksini tapmır. Bu məsələ öz həllini təcili surətdə tapmalıdır və qısa müddət ərzində bütün rayon mərkəzlərində, o cümlədən Bakıda içməli su, kanalizasiya sistemi yaradılmalıdır. Bakıda müəyyən işlər görülübdür, daha da böyük işlər görülməlidir. Elə etməliyik ki, Azərbaycan vətəndaşları hər bir yerdə, ölkəmizin istənilən nöqtəsində Dünya Səhiyyə Təşkilatının standartları səviyyəsində içməli su ilə təmin oluna bilsin.

Oğuz–Qəbələ–Bakı su kəməri bu il istifadəyə verilməlidir. Bu kəmərin tikintisi artıq bir neçə ildir ki, uzanıbdır. Düzdür, bunun müəyyən təbii səbəbləri vardır, çünki bu bizim üçün yeni bir layihədir. Yəqin ki, bəri başdan hər şeyi hesablamaq çətin idi. Ancaq kəmərin tikintisi zamanı qarşıya çıxan texniki məsələlər bu işin yubanmasına gətirib çıxardı. Tikinti zamanı lazım olan vəsaitin də çatmayacağı üzə

çıxdı, yəni layihə bahalaşdı. Elə etməliyik ki, qısa müddət ərzində, ilin sonuna qədər Oğuz–Qəbələ–Bakı su kəməri istifadəyə verilsin. Beləliklə, Bakı sakinlərinin içməli su ilə təchizatı yaxşılaşsın. Əsas məqsəd budur.

Bu çox böyük layihədir, həm praktiki əhəmiyyəti var, həm də rəmzi xarakter daşıyır. Neft kəmərindən əldə edilmiş gəlirləri biz su kəmərinin tikintisinə yönəltdik. Yəni, böyük, daim diqqət mərkəzində olan bir layihədir. Bu layihənin ilin sonuna qədər uğurla başa çatdırılması tələb olunur. Ümumiyyətlə, ekoloji vəziyyətlə bağlı görülən işlər təkcə bu məsələlərlə məhdudlaşmır. Azərbaycanda son 6 ildə milli parkların, qoruqların, yasaqlıqların ərazisi iki dəfə artıbdır. Ölkə ərazisinin 10 faizi məhz milli parklar, qoruqlar, yasaqlıqlardır. Bu çox böyük bir rəqəmdir və onu göstərir ki, biz öz təbii sərvətimizə, təbiətimizə çox böyük həssaslıqla yanaşırıq. Elə etməliyik ki, təbiəti maksimum dərəcədə qoruyaq.

Mən neft-qaz sektorunda hasilatla bağlı öz fikirlərimi bildirdim. Bu sahədə işlər yaxşı gedir. Bununla bərabər, xarici tərəfdaşlarla yeni kontraktlar imzalanır. Bu onu göstərir ki, «Əsrin müqaviləsi»ndən artıq 16 il vaxt keçməsinə baxmayaraq, Azərbaycan xarici investorlar üçün maraqlı ölkə kimi cəlbedicidir və bizimlə iş görmək istəyən şirkətlərin sayı artır. Həm yeni şirkətlər, eyni zamanda, bizim ənənəvi tərəfdaşlarımız maraq göstərirlər. Bu çox müsbət haldır. Bir tərəfdən, onu göstərir ki, bizim həqiqətən də çox böyük neft-qaz sərvətlərimiz vardır ki, bu günə qədər biz kontraktlar imzalayırıq. Digər tərəfdən, onu göstərir ki, ölkəmizdə xarici sərmayələr lazımi səviyyədə qorunur, Azərbaycan investisiyaların qorunması sahəsində çox böyük işlər görübdür. Biz xarici tərəfdaşlarla qarşılıqlı maraqlar əsasında işləyirik. Hər bir tərəf öz üzərinə düşən öhdəlikləri yerinə yetirir, o cümlədən Azərbaycan dövləti bütün hallarda kontraktda nəzərdə tutulmuş şərtlərə əməl edibdir və xarici şirkətlər də eyni yanaşmanı göstərir.

Hesab edirəm ki, Azərbaycanda neft-qaz sahəsində beynəlxalq əməkdaşlıq nümunə kimi öyrənilə bilər. Beynəlxalq əməkdaşlıq nəticəsində əldə edilmiş gəlirlərin ədalətli bölünməsi və şəffaf şəkildə saxlanılması artıq dünya miqyasında bir nümunə kimi göstərilir. Bu sahədə biz maksimum dərəcədə istədiyimizə nail ola bildik. Dünyada mövcud olan ən yüksək standartlar Azərbaycanda tətbiq olunur.

Bu sahədə hasilatla bağlı məsələlərlə yanaşı, digər məsələlər də öz həllini tapmalıdır, xüsusilə qaz sektorunda. Bu sahəyə dünyada indi daha da böyük maraq var. Artıq Azərbaycan qazı ixrac edən ölkə kimi özünü təsdiqləyib və bizim tərəfdaşlarımızın sayı artır. Bizim ixracımızın istiqamətləri artır. Biz həm mövcud olan bazarlara əlavə həcmdə qazın verilməsinə nail olmalıyıq, eyni zamanda, yeni bazarlara çıxmaq üçün əlavə tədbirlər görməliyik. Bizim qaz ehtiyatlarımız çox böyükdür. İndi onların ancaq cüzi hissəsindən istifadə olunur. Bundan sonra onilliklər ərzində, daha dəqiq ən azı 100 il ərzində Azərbaycan özünü etibarlı qaz təchizatçısı kimi göstərəcəkdir.

Ölkədə qazlaşdırma prosesi gedir, yeni kəndlər qazlaşdırılır. Rayon mərkəzlərinin hamısına qazın verilməsinə nail ola bildik. Elə etməliyik ki, orada abunəçilərin sayı da artsın. Yeni xətlərin çəkilməsi, kəndlərə qazın verilməsi prosesi davam etməlidir. Qaz anbarlarının həcminin artırılması işində yaxşı nəticələr var.

Enerji sektorunda işlər cədvəl üzrə gedir. Bu il biz 3 yeni kiçik hidroelektrik stansiyasının təməlini qoyduq. Azərbaycanda yeni proqram, bərpa olunan enerji növlərinin inkişafı proqramı çərçivəsində Göyçay, Ağdaş və Balakən rayonlarında bu stansiyalar artıq tikilməyə başlamışdır. Bu yaxınlarda mən Balakəndə olarkən «Balakən-1» stansiyasının təməl daşını qoydum. Ancaq təkcə o rayonda 10 kiçik elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Artıq ölkəmizin bütün su resurslarının xəritəsi tərtib olunub. Bu xəritə əsasında bütün çaylarda, harada ki, imkan var, biz kiçik

həcmli su elektrik stansiyaları qurmalıyıq. Beləliklə, bu həm ekoloji cəhətdən çox gözəl layihə, həm də enerji təhlükəsizliyimizi təmin edən layihə olacaqdır. Təbii ki, ucuz enerjini istehsal etməklə biz daha çox qaza qənaət edəcək və onu ixrac edəcəyik.

Bu il Azərbaycanda günəş elektrik enerjisinin yaradılması işində birinci addımlar atılmışdır. Dünən Mərkəzi Seçki Komissiyasının yeni inzibati binasının açılışı zamanı mənə nümayiş etdirildi. İlk günəş batareyaları qurulubdur və Mərkəzi Seçki Komissiyasının binası tam şəkildə günəş enerjisi hesabına qidalandırılacaqdır. Mənim tərəfimdən göstəriş verildi ki, bu gözəl təşəbbüsü biz qısa müddətdə Azərbaycanda daha da geniş yayaq. Nəzərə alsaq ki, bu bizim strateji və uzunmüddətli siyasətimizdir. Əlbəttə ki, birinci mərhələdə yəqin ki, o batareyalar xaricdən gətirilməlidir. Ancaq istehsalı ölkəmizdə təşkil etməliyik ki, vəsait Azərbaycandan getməsin və yerli şirkətlər, yerli sahibkarlar bu işlərdən faydalansınlar. Ümid edirəm ki, sahibkarlar da məni eşidirlər, bu sahəyə dövlət çox böyük diqqət göstərir.

Biz alternativ enerji mənbələri olmadan da öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edirik və başqa ölkələrin də enerji təhlükəsizliyi işlərində iştirak edirik. Ancaq bu gün bərpa olunan enerji növlərinin yaradılmasına başlamalıyıq. Bu bizim həm iqtisadi gücümüzü artıracaq, həm də dünyada gedən proseslərə böyük töhfəmiz olacaqdır. Çünki iqlim dəyişikliyi məsələləri artıq dünyada çox böyük müzakirə mövzusuna çevrilibdir. Düzdür, Azərbaycan öz tərəfindən iqlim dəyişikliyinin dərinləşməsinə dünya iqlimi üçün problem yaradan ölkə deyil. Ancaq bu bizim töhfəmiz olacaqdır. Bu sahədə işlər görülməyə başlayıb və hesab edirəm ki, bu çox sürətlə inkişaf etməlidir. Nəzərə alsaq ki, dövlət büdcəsində də dövlət tərəfindən görüləcək işlərin sürətləndirilməsi üçün kifayət qədər vəsait var. Ancaq bununla bərabər, biz özəl sektoru da bu işlərə dəvət edirik.

Yəqin ki, yaxın zamanlarda gələn ilin dövlət büdcəsi ilə bağlı konkret işlər başlanacaqdır. Artıq ilin birinci yarısı arxada qaldı. Biz gələn ilin büdcəsi haqqında fikirləşməliyik. Bilirəm ki, Maliyyə Nazirliyində bu məsələlərlə bağlı işlər gedir. Azərbaycanın dövlət büdcəsi oturuşmuş büdcədir. Biz çalışmalıyıq ki, büdcəmizi maksimum dərəcədə vergilər, rüsumlar hesabına təmin edək. Çalışmalıyıq ki, Neft fondundan transfertləri çox da şişirtməyək.

Bayaq qeyd etdiyim kimi, bizim valyuta ehtiyatlarımız artır. İlin sonuna qədər daha da artacaqdır. Ancaq biz bu ehtiyatlardan çox qənaətlə istifadə etməliyik. Maliyyə resursları, kreditlər, investisiyalar şəklində ölkə iqtisadiyyatına qoymalıyıq ki, həmin layihələr də öz növbəsində milli gəlir gətirsin və bunun hesabına Azərbaycanın büdcəsi dolsun. Əgər biz çox böyük investisiyaları qoymasaydıq, beynəlxalq məsləhətçilərə qulaq assaydıq və ehtiyatları sadəcə olaraq yığsaydıq, bu gün Azərbaycan iqtisadiyyatı çox ağır vəziyyətə düşə bilərdi. Biz bu böhrandan məhz ona görə uğurla çıxdıq ki, qeyri-neft sektoru hesabına iş yerləri açıldı, yerli istehsal işə başladı, idxaldan asılılıq azaldı. Ərzaq məhsulları ilə özümüzü maksimum dərəcədə təmin edirik. Əgər kreditləri verməsəydik, infrastruktur layihələrini həyata keçirməsəydik, yolları çəkməsəydik, elektrik stansiyaları tikməsəydik, qazlaşdırma aparılmasaydı, onda bunların heç biri də olmazdı. Bizim indi bəlkə də 24 yox, 30, ya 28 milyard pulumuz olacaqdı, ancaq ölkədə proseslər mənfi istiqamətdə gedəcəkdi. Məhz o vaxt biz bax, bu «Holland sindromu» ilə üzləşə bilərdik. Amma biz öz yolumuzu seçdik, ehtiyatları da yığdıq, eyni zamanda, lazım olan sahələrə investisiyaları böyük həcmdə yönəldə bildik. Bu investisiyaları ölkəyə lazım olan sahələrə tətbiq etməklə böyük uğurlara nail ola bilmişik. Gələcəkdə dövlət investisiya proqramı geniş olmalıdır. Bu proqram 2009–2013-cü illəri əhatə edən Dövlət Proqramının tərkib hissəsidir. 2013-cü ilə qədər biz ölkə qarşısında duran əsas iqtisadi və

sosial məsələləri həll etməliyik. Qarşıya belə məqsəd qoyulubdur.

2011-ci ilin dövlət büdcəsi həmişə olduğu kimi, investisiyayönümlü olmalıdır, orada sosial məsələlər də öz həllini tapmalıdır. Deyə bilərəm ki, Azərbaycanda əsas investisiya layihələri – elektrik stansiyaları, yollar, digər infrastruktur layihələri, su anbarları – artıq ya başa çatıbdır, ya da başa çatmaq üzrədir. Biz bu il Tovuzçay su anbarının tikintisinə başlamalıyıq. Bu da çox nəhəng bir layihədir, həm elektrik enerjisinin verilməsi, həm də suların tənzimlənməsi layihəsidir. Əgər Tovuzçay su anbarı vaxtında tikilsəydi, bu daşqınlar, sellər bizə bu qədər əziyyət verməzdi. Çünki həmin su anbarı hesabına istənilən həcmdə suyun idarə olunmasına nail ola bilərik.

Bir də demək istəyirəm ki, altı ayın göstəriciləri arasında ən təsirli və mənim üçün ən əhəmiyyətlisi məhz qeyri-neft sektorunun artmasıdır. Qeyri-neft sektorunun 15,3 faiz artması bizim iqtisadi siyasətimizin nəticəsidir. Digər göstəricilər də, əlbəttə ki, çox vacibdir – inflyasiya, əhalinin pul gəlirləri, ÜDM, sənaye istehsalı, 15 faiz artan qeyri-neft sektorunun inkişafı görülən işlərin nəticəsidir. Əlbəttə ki, görülən işlərin nəticəsi bizi daha da ruhlandırır. Ölkədə görüləsi işlər də çoxdur. Elə etməliyik ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, ölkəmiz daha da güclənsin və öz mövqelərini daha da möhkəmləndirsin. Əsas məqsəd budur.

Gələn altı ayda görüləcək işlər bəllidir. Bütün nazirliklər, dövlət qurumları öz vəzifə borclarını yerinə yetirirlər. Əminəm ki, ilin sonuna qədər də bu müsbət tendensiyalar davam edəcəkdir. Sağ olun.

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM DORİS LOYTHARDA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–İsveçrə münasibətləri hərtərəfli inkişaf yolundadır. Əminəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, əməkdaşlığımızın dərinləşdirilməsi sahəsində addımlarımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveçrə xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2010-cu il*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Respublika günü münasibətilə Sizə və xalqınıza Azərbaycan xalqı adından və öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2010-cu il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SELLAPAN RAMANATANA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və öz adımdan təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Sinqapur münasibətlərinin inkişafı dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsi üçün imkanlar açacaqdır.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2010-cu il*

## PORTUQALİYANIN XARİCİ İŞLƏR NAZİRİ LUİS AMADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Portuqaliyanın Xarici İşlər naziri Luis Amadonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Portuqaliyanın Xarici İşlər nazirinin ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizlə bağlı səmərəli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı bu səfərin Azərbaycan–Portuqaliya əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsi baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev Luis Amadonun ölkəmizə səfərinin eyni zamanda, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının daha da genişləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Luis Amado Portuqaliya prezidentinin və Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq qeyd etdi ki, Portuqaliya Azərbaycana ikitərəfli münasibətlərdə, həm də Avropa İttifaqı ilə əməkdaşlıq sahəsində yaxşı tərəfdaş ola bilər.*

*Dövlətimizin başçısı Portuqaliya prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Portuqaliya prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*15 iyul 2010-cu il*

*İyulun 15-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Mavritaniya prezidenti Məhəmməd Uld Əbdüləzizi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Mavritaniya prezidentinə raport verdi.*

*Mavritaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Mavritaniya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Məhəmməd Uld Əbdüləzizə, Mavritaniya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*15 iyul 2010-cu il*

*İyulun 15-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensial imkanların olduğu vurğulandı, bu səfərin əlaqələrin gələcək inkişafı baxımından önəmi qeyd edildi.*

*Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ MAVRİTANİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*15 iyul 2010-cu il*

*İyulun 15-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Mavritaniya prezidenti Məhəmməd Uld Əbdüləzizin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Mən sizi bir daha ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Mavritaniya prezidentinin Azərbaycana bu, ilk rəsmi səfəridir. Əminəm ki, səfər əlaqələrimizin inkişafında mühüm rol oynayacaqdır. Səfər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər əlaqələrimizin gələcəyini müəyyən edəcəkdir.

Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk və hesab edirik ki, ikitərəfli formatda çox iş görmək olar. Bu gün biz bir neçə məsələ ətrafında sizinlə fikir mübadiləsi apardıq. Belə bir fikir var ki, biz bütün sahələrdə əlaqələrimizin sürətli inkişafına nail olmalıyıq. Bizim siyasi əlaqələrimiz müsbətdir. Əminəm ki, beynəlxalq təşkilatlarda bizim əməkdaşlığımız uğurla davam etdiriləcəkdir. Xüsusilə BMT-də və İslam Konfransı Təşkilatında bizim əməkdaşlığımızın böyük əhəmiyyəti vardır.

Siyasi və iqtisadi məsələlərin həllində qarşılıqlı maraqlar vardır. Bu gün biz iqtisadi sahədə müxtəlif aspektləri sizinlə müzakirə etdik. İnvestisiya layihələri, birgə fəaliyyət, ticarə-

tin genişlənməsi – bütün bu işlərdə biz çox sürətli inkişafa nail olmalıyıq. Mən hesab edirəm ki, sizin səfəriniz bizi münasibətlərimizin yeni mərhələsinə gətirəcəkdir. Çünki dövlət səviyyəli səfərlərin, əlbəttə ki, böyük əhəmiyyəti vardır. Ən önəmlisi ondan ibarət olmalıdır ki, səfərdən sonra real nəticələr, real layihələr olsun ki, biz bu layihələri uğurla icra edək.

Mən əminəm ki, sizin səfəriniz çox uğurlu keçəcək və əlaqələrimizin inkişafı üçün yeni imkanlar açılacaqdır.

**Məhəmməd Uld Əbdüləziz**: Bismillahir-rəhmanir-rəhim!

Zati aliləri, cənab Prezident!

Məni rəsmi səfərə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Dost ölkədə olmaqdan fərəh duyuram. Öz adımdan və məni müşayiət edən nümayəndə heyəti adından Sizə öz minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, bu səfərim iki ölkə arasındakı əlaqələrin inkişafına mühüm töhfə verəcək və iki xalq arasındakı əlaqələr inkişaf edəcəkdir.

Biz Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq etmək niyyətindəyik. Beynəlxalq təşkilatlar çərçivəsində, BMT, İslam Konfransı Təşkilatı çərçivəsində sizinlə əlaqələrimizin inkişafında maraqlıyıq.

İqtisadi əlaqələrin inkişaf etdirilməsi başlıca məsələdir. Bu əlaqələr ticarət, iqtisadiyyat və digər sahələri əhatə edir ki, bizim ölkəmizin bu istiqamətdə imkanları çoxdur. Sadəcə olaraq, bu imkanlardan səmərəli istifadə etmək lazımdır. Ölkəmizdə mədən ehtiyatları genişdir. Biz mədən ehtiyatlarının istismarında da məhz sizin təcrübədən istifadə etmək istərdik. Bilirik ki, ölkəniz böyük təcrübəyə malikdir və biz bu təcrübədən yararlanmaq niyyətindəyik. Qeyd etmək istərdim ki, ölkəmizdə qızıl, mis, dəmir və digər faydalı qazıntı ehtiyatları vardır. Mən heyvandarlıq sahəsində olan imkanlarımızı da qeyd etmək istərdim. Çünki bu sahədə də əməkdaşlıq imkanları mümkündür. Balıq ehtiyatlarına görə re-

gionda çox önəmli yer tutan ölkəmizdə balıq ovu böyük əhəmiyyət daşıyır və bu sahədə də əməkdaşlıq mümkündür.

Hesab edirəm ki, mənim bu səfərim çox əhəmiyyətli olacaq və məhz bunun nəticəsində də ölkələrimizin bir-birinə yaxınlaşması, iqtisadi sahədə əməkdaşlığın qaydasına düşməsi mümkün olacaqdır. Təbii ki, Azərbaycanın neft-qaz imkanları və bu sahədə olan təcrübəsi böyükdür. Biz məhz bu sahədə də Azərbaycanın təcrübəsindən və köməyindən yararlanmaq istərdik. Bütün bu məsələlər müxtəlif layihələrin həyata keçirilməsi ilə reallaşa bilər. Ümid edirəm ki, səfərimdən sonra bu sahədə müəyyən səmərəli addımlar atılacaq və səfər gələcəkdə yeni layihələrin həyata keçirilməsi, əlaqələrin inkişafı üçün bir ərəfə olacaqdır.

Təbii ki, hər iki ölkə arasında siyasi baxımdan iradənin mövcud olması iqtisadi əlaqələrin inkişafı üçün əsas yaradar, məhz bizim dostluq əlaqələrimizin inkişafına öz töhfəsini verər. Ölkələrimizin məsafə cəhətdən bir-birindən çox uzaq olmasına baxmayaraq, mənə elə gəlir ki, əlaqələri inkişaf etdirmək olar. Bizim niyyətimiz məhz bundan ibarətdir.

Cənab Prezident, biz məhz iqtisadi sahədə əlaqələrimizin inkişaf etdirilməsi ilə bağlı Sizinlə geniş fikir mübadiləsi apardıq. Mənə elə gəlir ki, məhz iki qardaş, dost xalqın mənafeyinə xidmət edən bu səfərim çox səmərəli olacaqdır.

Cənab Prezident, mən Sizi Mavritaniya İslam Respublikasına rəsmi səfərə dəvət edirəm. Təbii ki, burada iştirak edən nazirlərə, səfirlərə də öz minnətdarlığımı bildirirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*15 iyul 2010-cu il*

*İyulun 15-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Mavritaniya prezidenti Məhəmməd Uld Əbdüləziz Birgə Bəyannamə imzaladılar.*

*«Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Mavritaniya İslam Respublikası Ticarət, Ənənəvi Sənaye və Turizm Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Mavritaniyanın Xarici İşlər və Əməkdaşlıq naziri xanım Naha Mint Hamdi Uld Muknass imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş»i, «Azərbaycan və Mavritaniya hökumətləri arasında bitkilərin karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya Respublikası Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri İsmət Abasov və Mavritaniyanın Kəndlərin İnkişafı naziri Brahim Uld Mbarek Uld Məhəmməd Əl Moktar imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev, Mavritaniyanın İqtisadi Məsələlər və İnkişaf naziri Sidi Uld Tah imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev, Mavritaniyanın Xarici İşlər və Əməkdaşlıq naziri xanım Naha Mint Hamdi Uld Muknass imzaladılar.*

## OLİMPİYA VƏ İKİQAT DÜNYA ÇEMPİONU FƏRİD MANSUROVA

Hörmətli Fərid Mansurov!

Sizi – Azərbaycan güləş məktəbinin görkəmli nümayəndəsini böyük idmandan yola salarkən yarış meydanlarında göstərdiyiniz yüksək nailiyyətlər gözlərimiz önündə canlanır.

Siz beynəlxalq miqyasda tanınan və ölkəmizin idman tarixinə adı parlaq hərflərlə yazılan məşhur idman ustalarındansınız. Zəngin ənənələrə malik Azərbaycan güləş məktəbinin yetirməsi olaraq idman aləmində keçdiyiniz şərəfli yolu hər birimiz qürur və fərəh hissi ilə xatırlayırıq.

İlk qələbələrinizi müstəqil respublikamızın bayrağı altında Yunan-Roma güləşi üzrə gənclərdən ibarət milli yığma komandamızın tərkibində beynəlxalq miqyaslı yarışlarda qazanmısınız. 2004-cü il Afina Yay Olimpiadasının çempionu adına layiq görülməyiniz isə hamımızı ürəkdən sevindirmişdir. Həmin uğurların davamı kimi, sonrakı illər ərzində ikiqat dünya çempionu adını almağınız Sizin yüksək səviyyəli peşəkar idmançı olduğunuzu bir daha təsdiq etmişdir.

Ölkəmizdə idmanın inkişafı naminə verdiyiniz töhfələr dövlət tərəfindən yüksək qiymətləndirilmiş və Siz «Şöhrət» ordeni, «Tərəqqi» medalı, eləcə də Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdü ilə təltif edilmisiniz.

Sizə uzun ömür, cansağlığı və səadət arzulayıram. Ümidvaram ki, Azərbaycan Milli Olimpiya Komitəsinin üzvü və Yunan-Roma güləşi üzrə milli komandamızın baş məşqçisi kimi, bundan sonra gənc pəhləvanlar nəslinin yetişdirilməsi üçün öz zəngin təcrübə və bacarığınızı əsirgəməyəcəksiniz.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2010-cu il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Zahedan şəhərində baş vermiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2010-cu il*

## DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİNDƏ BAKININ ƏRAZİ İNKİŞAF PLANI İLƏ TANIŞLIQ

*16 iyul 2010-cu il*

*İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Bakının ərazi inkişaf planı ilə tanış olmuşdur.*

*Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Abbas Ələsgərov prezident İlham Əliyevə Bakı şəhərinin Baş planının (1986–2005-ci illər) icrası barədə məlumat verdi.*

*Bakı Dövlət Layihə İnstitutu tərəfindən 1:500 miqyasında hazırlanmış maket üzərində prezident İlham Əliyevə inşası başa çatmış və hazırda davam edən tikililər haqqında məlumat verildi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Bakının sahilboyu ərazilərində turizmin inkişafı üçün böyük imkanlar vardır. Bu məqsədlə dənizkənarı ərazilərdə kurort zonalarının salınması daha yaxşı olar. Dübəndi, Türkan və Zığ ərazilərində inkişafın layihələndirilməsi işlərinə başlanılmalıdır. Yeni tikililərdə problemlər kompleks şəkildə həllini tapmalıdır. Şəhərin mərkəzində sənaye müəssisələrinin inşasına icazə verilməməlidir.*

*Dövlətimizin başçısı Bakı şəhərinin mərkəzi hissəsinin yenidən qurulmasının planlaşdırma layihəsi və təklif olunan nəqliyyat sxemi ilə birlikdə istinad planı, Bakı şəhərinin Baş planının 2030-cu ilədək inkişaf konsepsiyasının əsas prinsipləri ilə tanış oldu, Sumqayıt və Xırdalan şəhərləri üzrə təkliflərin mütəxəssislər tərəfindən ayrı-ayrılıqda öyrənilməsinin və dəqiqləşdirilməsinin vacibliyini vurğuladı.*

*Prezident İlham Əliyev Bakı şəhərinin ərazi inkişaf planının icrasına dair tapşırıq və tövsiyələrini verdi.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–İndoneziya münasibətlərinin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

**QIRĞIZISTAN RESPUBLİKASININ KEÇİD DÖVRÜ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ROZA OTUNBAYEVAYA**

Hörmətli xanım Prezident!

Qırğızıstanın milli bayramı – Dövlət müstəqilliyi günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Qırğızıstan münasibətləri öz tarixi ənənələrinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Qırğızıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

## MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Malayziya münasibətlərinin inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Malayziya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və öz adımdan ürəkdən təbrik edirəm.

Xalqlarımız arasındakı dostluq və əməkdaşlıq əlaqələri bu gün öz ənənələrini davam etdirməkdədir. Əminəm ki, ölkənizdə sülhün qorunub saxlanmasına, sabitliyin təmin olunmasına yönəlmiş ümumi səylərin müsbət nəticələri əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Əfqanıstan xalqına sülh, sabitlik və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

**MACARISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB PAL ŞMİTƏ**

Hörmətli cənab Prezident!

Macarıstanın milli bayramı – Müqəddəs İştvan günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Macarıstan münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin möhkəmlənməsi, istər ikitərəfli qaydada, istərsə də Avropa strukturları çərçivəsində əməkdaşlığımızın dərinləşməsi prosesləri bundan sonra da ardıcıl şəkildə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Ukrayna xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Sevindirici haldır ki, Azərbaycan ilə Ukrayna arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətləri bu gün hərtərəfli və dinamik inkişaf edir. Əminəm ki, həm ikitərəfli, həm də regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın genişlənməsi və dərinləşməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafeyinə, regionda sülh, sabitlik və tərəqqi işinə xidmət edəcəkdir.

Hörmətli Viktor Fyodoroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Ukrayna xalqına firavanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

**MOLDOVA RESPUBLİKASI PREZİDENTİNİN VƏZİFƏSİNİ İCRA EDƏN ZATİ-ALİLƏRİ CƏNAB MİHAY GİMPUYA**

Hörmətli cənab Gimpu!

Moldova Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2010-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

*19 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Gürcüstana işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Gürcüstana işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Batumi Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Gürcüstan prezidenti Mixeil Saakaşvili və xanımı Sandra Elizabet Rulofs səmimiyyətlə qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Batumi*

*19 iyul 2010-cu il*

*İyulun 19-da Batumidə Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ikitərəfli və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Batumi*

*19 iyul 2010-cu il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Onun dəvətini qəbul edib Gürcüstana işgüzar səfərə gəldiyinə görə dövlətimizin başçısına minnətdarlıq edən Mixeil Saakaşvili bildirdi ki, ölkələrimiz arasında qarşıya qoyulan məqsədlərə nail olunub və bu səfər bütün sahələrdə əlaqələrin inkişafına imkan verəcəkdir.*

*Prezident İlham Əliyev onu Gürcüstana dəvət etdiyinə görə Mixeil Saakaşviliyə təşəkkür etdi.*

*Dövlətimizin başçısı dedi ki, bu səfər bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq baxımından mühüm əhəmiyyət kəsb edir.*

*Azərbaycan prezidenti vurğuladı ki, səfər çərçivəsində aparılan danışıqlar gələcək əməkdaşlığın inkişafına təkan verəcək, ikitərəfli münasibətlərin və hökumətlərarası komissiyanın fəaliyyətinə töhfə olacaqdır.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*19 iyul 2010-cu il*

*İyulun 19-da Batumidə geniş tərkibdə görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin birgə mətbuat konfransı keçirilmişdir.*

*Dövlət başçıları bəyanatlarla çıxış etdilər.*

### Gürcüstan prezidenti Mixeil Saakaşvilinin bəyanatı

Biz Azərbaycanın dövlət başçısını, qardaşımızı burada salamlamaq istəyirik. Bizim qurduğumuz uzunmüddətli əməkdaşlıq artıq Bakı və Batumi şəhərləri arasında da öz müsbət nəticəsini vermişdir. Bakıdan gəlmiş iş adamları Batumidə işləyir və Batuminin iş adamları Bakıda fəaliyyət göstərirlər. Batumi limanından çıxan gəmilər artıq yola düşmüşdür. Bu da Bakı ilə Tbilisi arasındakı əməkdaşlığın nəticəsidir. Bütün bunlar bizim qarşıya qoyduğumuz ümumi əməkdaşlıq proqramının bir hissəsidir.

Hazırda Bakıda çox müsbət dəyişikliklər baş verir və biz bu dəyişiklikləri görməkdən çox şadıq. Batumidə də inkişaf prosesləri gedir. Bu gün biz danışıqlar apardıq və Batumidə Azərbaycan Dövlət Neft Şirkətinin ofisini açacağıq. Bu açılış tarixi bir binada baş verəcəkdir. Azərbaycan prezidenti İlham Əliyevin razılığı ilə biz lazımi infrastruktur yaratmışıq və Batumidə bu ofisin uğurla fəaliyyət göstərəcəyinə əminik.

Cənab Prezident, biz Sizin bu səfərinizdən çox məmnunuq, məhz bu münasibətlə Sizə öz təbriklərimizi çatdırırıq. Bizim dostluğumuz uzunmüddətli bir dostluqdur, böyük

tarixi vardır və bir çox sınaqlardan keçmişdir. Gürcüstan heç zaman yaddan çıxarmayacaq ki, enerji infrastrukturumuz partladılanda, gürcü xalqı qışın soyuğunda çətin şəraitdə qalanda Azərbaycan bizim ehtiyaclarımızı təmin etmək üçün köməyə gəldi. Mən tam əminəm ki, Gürcüstan xalqı Azərbaycanın bu yardımını heç vaxt yaddan çıxarmayacaqdır. Çünki bu kömək Gürcüstanın tarixində ən ağır bir vaxtda göstərilmişdir. O vaxt Azərbaycan çox mühüm bir qərarı qəbul etdi və həmin ağır vaxtlarda Gürcüstanın köməyinə gəldi. Bu, təkcə strateji tərəfdaşlığın nəticəsi deyil, bu, qardaşlıq rəmzidir. Hətta biz konfederativ münasibətlər qurmuşuq.

Bu gün biz xüsusi vurğuladıq ki, Bakı–Tbilisi–Qars dəmir yolunun tam istismara verilməsi mütləqdir. Hesab edirik ki, Azərbaycanın da müvafiq qurumu – Dövlət Dəmiryol İdarəsi bu işdə iştirak edə bilər. Gürcüstanın təbii qaza olan tələbatının 70 faizi məhz Azərbaycan qazı hesabına təmin edilir. Bilirsiniz ki, sovet vaxtından qalmış avtomobil yolları da bundan sonra təmir ediləcəkdir. Beləliklə, biz bütün daşınma yollarını lazımi formaya gətirəcəyik ki, Çindən gələn yolun mümkün qədər qısa məsafədən – Azərbaycandan və Gürcüstandan keçərək Avropaya çıxışını təmin edək.

Ölkələrimiz arasında heç bir problem yoxdur. Bizim münasibətlərimiz son illər ən yüksək səviyyəyə çatmışdır və biz bunu davam etdirməliyik. Təbii ki, bu münasibətlərin əsasını məhz Heydər Əliyev qoymuşdur. Biz bütün səylərimizlə çalışacağıq ki, əsrlər boyu xalqlarımızı bir-birinə bağlayan münasibətlər bundan sonra da inkişaf etsin.

Mən Sizi Gürcüstanda bir daha salamlayıram, Sizə «Xoş gəlmisiniz!» deyirəm. Siz Gürcüstanı yaxşı tanıyırsınız, burada özünüzü öz evinizdəki kimi hiss edin.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli cənab Prezident, əziz dostum! İlk növbədə məni Gürcüstana dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Mən yenidən Batumidə olmağımdan çox məmnunam. Burada gördüyüm dəyişikliklər, inkişaf məni bir dost kimi çox sevindirir. Bu bilavasitə Sizin prezident kimi fəaliyyətinizin nəticəsidir. Batumi gündən-günə gözəlləşir, abadlaşır, müasir binalar, mehmanxanalar tikilir, gözəl infrastruktur yaradılır. Mən 2 il bundan əvvəl Batumidə olmuşam və müqayisə aparmaq üçün indi məndə kifayət qədər imkanlar vardır. Gördüklərim məni çox sevindirir. Çünki sizin uğurunuz bizim də uğurumuzdur. Sizin fəaliyyətiniz nəticəsində Gürcüstan xarici sərmayələr üçün çox cəlbedici ölkəyə çevrilibdir. Gürcüstana milyardlarla vəsait yatırılır və xarici şirkətlər tərəfindən göstərilən etimad çox böyük əhəmiyyətə malikdir. Bu onu göstərir ki, Gürcüstanın uğurlu və sabit inkişafına böyük inam vardır.

Bizim aramızda olan əlaqələr zəngin tarixə əsaslanır. Əsrlər boyu bizim xalqlarımız dostluq, qardaşlıq şəraitində yaşamışlar, bir-birinə kömək etmişlər və həmişə birlikdə olmuşlar. Bu tarixi yaddaş bugünkü gün üçün də çox vacibdir. Bu gün sürətlə inkişaf edən iki müstəqil dövlət – Gürcüstan və Azərbaycan öz aralarında bütün sahələrdə çox fəal əməkdaşlıq edirlər. Bizim əməkdaşlığımız çoxşaxəlidir, bütün sahələri əhatə edir və bayaq qeyd etdiyim kimi, möhkəm tarixi zəmin əsasında qurulubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, xalqlarımız arasında mövcud olan ənənəvi dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirək, yeni məna ilə zənginləşdirək və beləliklə, Gürcüstan–Azərbaycan strateji əməkdaşlığının imkanlarından maksimum şəkildə istifadə edək.

Bizi birləşdirən böyük, nəhəng, dünya miqyaslı layihələr vardır. Biz bunları birlikdə icra etmişik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri

bu gün nəinki Gürcüstanın və Azərbaycanın maraqlarını təmin edir, eyni zamanda, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə də öz töhfəsini verir. Bu layihələrin uğurlu icrası nəticəsində biz dəmiryol layihələrinə başladıq. Bu gün müzakirə etdiyimiz məsələlərdən biri də elektrik enerjisi sahəsindəki əməkdaşlıqdır. Biz başqa sahələrdə də əməkdaşlığa çox böyük maraqla və həvəslə baxırıq.

Bu gün bölgədə mövcud vəziyyət və ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olması diktə edir ki, biz irəliyə baxmalıyıq, yeni layihələri aşkar etməliyik, onları icra etməliyik və beləliklə, Gürcüstanla Azərbaycan arasında əlaqələri daha da möhkəmləndirməliyik.

Mən bir daha demək istəyirəm ki, qardaş Gürcüstan torpağında olmağımdan çox məmnunam. Əminəm ki, Sizin rəhbərliyinizlə Gürcüstan bundan sonra da uğurla inkişaf etməyə davam edəcək və Sizin qoyduğunuz bütün vəzifələr uğurla icra ediləcəkdir. Sağ olun.

* * *

*Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l *(«Rustavi-2» televiziya kanalının müxbiri):* Bir qədər əvvəl sizin təkbətək və geniş tərkibdə görüşləriniz oldu. Siz konkret olaraq hansısa bir razılaşma əldə etdinizmi?**

**M i x e i l  S a a k a ş v i l i:** Biz burada nəqliyyat dəhlizinin inkişafına zəmin yaradacaq dəmir yolu haqqında danışdıq və bildirdik ki, Çindən başlayıb Mərkəzi Asiyadan keçməklə Avropaya çıxışı daha da yaxşı şəkildə təmin edə bilərik. Biz burada əlaqələndirmə məsələsini qaldırdıq. Bunların hamısı iqtisadiyyatımızın inkişafına, ölkələrimizə sərmayələrin qoyulmasına xidmət edəcəkdir.

Biz dəmiryol xətti layihəsinin həyata keçirilməsində birgə işləyirik. Bu dəmir yolu bizim ölkələrin ərazisindən keçməklə

Çindən Londona qədər uzana bilər. Bu hətta Transsibir magistral xəttindən də uzun bir xətt ola bilər. Biz bunu həyata keçirəcəyik.

2012-ci ildə Bakıdan Batumiyə qədər avtomobil yolu layihəsinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu, Azərbaycandan Gürcüstan sərhədinə qədər dördzolaqlı avtomagistral yol olacaq və bundan sonra da davam edəcəkdir. Bu o deməkdir ki, Tbilisinin yanında yerləşən Rustavi şəhərindən çıxış daha da asanlaşacaqdır. Bu şəhərdən o şəhərə getmək üçün sadəcə 18 dəqiqə lazım olacaqdır. Bu avtomobil yolu ilə Azərbaycan sərhədinə çıxış daha da asanlaşacaq, hətta bu yoldan istifadə etməklə İstanbula da getmək mümkün olacaqdır. Bu avtomobil yolunun inşası nəticəsində dincəlmək, istirahət məqsədi ilə Batumiyə gələn azərbaycanlıların sayı da artacaqdır.

Azərbaycan şirkətlərindən biri Batumi şəhərində yüksək keyfiyyətli mehmanxana tikməyi qərara almışdır. Bu o deməkdir ki, mehmanxananın tikintisi zamanı yerli vətəndaşlarımızın bir çoxu işlə təmin olunacaq, şəhərimiz daha da gözəlləşəcəkdir. Yəni şəhərimizin gözəlləşdirilməsində bizim qonşularımız da iştirak edəcəklər.

Biz Azərbaycandakı bu uğurları görürük və bu dəyişiklikləri müşahidə edirik. Bütün bunları əldə etmək o qədər də asan deyildir. Hamı bunu başa düşür ki, Azərbaycan çox mühüm strateji rola malikdir. Biz fərəh hissi keçiririk ki, Azərbaycan artıq qüdrətli bir ölkədir, onun nüfuzu get-gedə daha da artır.

**İlham Əliyev:** Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bizim dəmiryol sahəsində planlarımız reallaşır, energetika sahəsində birgə başladığımız və uğurla icra etdiyimiz layihələr bu gün artıq regional müstəvidən çıxıbdır. Gürcüstan–Azərbaycan strateji dostluğu və müttəfiqliyi artıq dünya miqyasında çox mühüm amilə çevrilibdir. Bizim əlaqələrimizin möhkəmlənməsi, yeni məsələlərin həlli nəticəsində bölgədə daha da proqnozlaşdırıla bilən vəziyyət yara-

na bilər. Bu əlaqələr xalqlar arasında olan əlaqələrdir. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, tarix boyu gürcü və Azərbaycan xalqları dostluq, mehribanlıq şəraitində yaşamışlar, bir-birilərinə böyük rəğbətlə yanaşırlar. Xalqlar arasındakı münasibətlər də ikitərəfli münasibətlərə öz töhfəsini verir.

Biz iqtisadi, sənaye, siyasi məsələləri çox ciddi şəkildə müzakirə edirik. Amma bununla bərabər, humanitar sahədə əməkdaşlıq da böyük məna daşıyır. Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar bizim ölkələrimiz arasında körpü rolunu oynayır. Onlar bizim ölkələrimizin dəyərli vətəndaşlarıdırlar, öz vətənlərinə böyük məhəbbətlə yanaşırlar və öz vətənpərvərlik borcunu şərəflə yerinə yetirirlər. Bu əlaqələrin dərin tarixi kökləri vardır. Biz bugünkü reallıqlardan, imkanlardan səmərəli şəkildə istifadə edirik. Elə etməliyik ki, bundan sonrakı nəsillər də bu fikir və duyğularla yaşasınlar ki, Gürcüstan və Azərbaycan əbədi dostluq və qardaşlıq şəraitində yaşasın.

**S u a l (*Azərbaycan Televiziyasının müxbiri*): Mənim sualım Gürcüstan prezidentinədir. Cənab Prezident, Siz Azərbaycanın ölkənizə investisiya qoyuluşunu Gürcüstan iqtisadiyyatının inkişafına verdiyi töhfəni necə qiymətləndirirsiniz?**

**M i x e i l S a a k a ş v i l i:** Bizim üçün ən ağır vaxtlarda Azərbaycanın göstərdiyi yardım həlledici idi. Bu, yalnız yardım deyildi, bu çox uğurlu bir yardım idi. Bu bizim ikitərəfli əməkdaşlığımızı gücləndirdi. ARDNŞ-in Gürcüstandakı fəaliyyəti, bizim limanlarımızda apardığı işlər çox vacibdir. Dəmiryol layihəsi də bizim üçün çox mühümdür. Bütün bunlar Azərbaycan şirkətləri ilə birgə həyata keçirilən məsələlərdir. Bildiyiniz kimi, burada turizm infrastrukturunda da Azərbaycan şirkəti işləyir. Bu da bizim üçün vacibdir. Bütün bunlar təkcə siyasi səviyyədə deyil, ayrı-ayrı insanlar, fərdlər arasında əlaqələrin, humanitar sahədə bizim işbirliyimizin, maraqlarımızın bir göstəricisidir. Bütün bunlar bir-birinə təbii yolla bağlı olan məsələlərdir. Bu da bizim

daha da dərin inteqrasiyamıza xidmət edir. Biz Azərbaycanın həyata keçirdiyi strateji siyasətin praqmatik, düzgün nəticələrini görürük. Bunun nəticəsində biz praktiki olaraq, hər gün yaxşı nəticələr əldə edirik. Bu nəticələr hətta hökumətlərin maraqlarından da kənara çıxır. Çünki biz bir-birimizə dostcasına, mehribancasına yanaşırıq. Çalışırıq ki, bizi maraqlandıran məsələləri birgə həyata keçirək. Bütün bunların arxasında bizim birgə ideyalarımız durur. Bütün bunlar bu tarixi prosesin bir elementidir.

## Səfər başa çatdı

*İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Batumi Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Batumi Aeroportunda Gürcüstan prezidenti Mixeil Saakaşvili və xanımı Sandra Elizabet Rulofs yola saldılar.*

* * *

*Həmin gün axşam dövlətimizin başçısı Vətənə qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevi Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20--də Ukraynanın Xarici İşlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cənab Konstantin Qrişenko Ukrayna prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ukrayna prezidentinin bu yaxınlarda Azərbaycan prezidenti ilə keçirdiyi görüşü məmnunluqla xatırladığını bildirdi. Konstantin Qrişenko qeyd etdi ki, Ukrayna dövlətinin başçısı Azərbaycan ilə əlaqələrin inkişafına və ikitərəfli münasibətlərimizlə bağlı bütün məsələlərə böyük önəm verir və bu məsələləri daim diqqət mərkəzində saxlamağı tapşırır.*

*Dövlətimizin başçısı Azərbaycanın Ukrayna ilə münasibətlərə böyük əhəmiyyət verdiyini və bunun ölkəmiz üçün önəmli xarakter daşıdığını vurğuladı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərdə əldə olunan müsbət nəticələrin gələcək inkişaf üçün yaxşı əsas yaratdığını qeyd etdi, iqtisadi, sənaye, energetika və bütün digər sahələrdə əlaqələrimizin genişləndirilməsi üçün böyük potensialın olduğunu nəzərə çatdırdı. Hazırkı mərhələdə münasibətlərimizin daha effektiv və dinamik xarakter daşımasının vacib olduğunu bildirən prezident İlham Əliyev Ukraynanın Xarici İşlər nazirinin ölkəmizə səfərinin bu baxımdan önəmini vurğuladı.*

*Dövlətimizin başçısı Ukrayna prezidenti Viktor Yanukoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukraynanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BMT-nin TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ SUPAÇAY PANİTÇPAKDİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Supaçay Panitçpakdini qəbul etmişdir.*

*Supaçay Panitçpakdi BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Azərbaycan Diplomatik Akademiyası ilə birlikdə Bakıda təşkil etdikləri Avropa və MDB üzrə növbəti XIX regional kursların keçirilməsinə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, təmsil etdiyi təşkilatın Azərbaycan Diplomatik Akademiyası ilə əməkdaşlığından məmnun olduğunu dedi. Regionun əhəmiyyətinin artdığı bir dövrdə Azərbaycanın bu regionda ən aparıcı ölkəyə çevrildiyini vurğulayan qonaq əldə olunan nailiyyətlərlə bağlı dövlətimizin başçısını təbrik etdi.*

*Prezident İlham Əliyev Bakıda Avropa və MDB üzrə növbəti XIX regional kursların keçirilməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı bu tədbirdə maraqlı müzakirələrin aparılacağına və tədbirin səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu bildirdi.*

## RESPUBLİKA MEHMANXANASININ TƏMİRDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*20 iyul 2010-cu il*

*Respublika mehmanxanası əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. İyulun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Respublika mehmanxanasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə yaxından tanış olmuşlar.*

*Görülən işlər barədə dövlətimizin başçısına məlumat verilmişdir. Bildirilmişdir ki, yenidənqurma işlərini yerli və xarici mütəxəssislərdən ibarət inşaat briqadası həyata keçirmişdir. İnşaat işlərində 140-a yaxın fəhlə və mütəxəssis iştirak etmiş, təmir və yenidənqurma işləri ən müasir standartlara uyğun şəkildə aparılmışdır. Qonaqların rahatlığını təmin etmək məqsədi ilə mehmanxanada müxtəlif idman qurğuları da quraşdırılmışdır.*

*12 mərtəbəli mehmanxanada 30 nömrəlik geniş və yaraşıqlı otaqlar ən müasir standartlara cavab verir. Mehmanxanada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans salonu da yaradılmışdır. Qonaqlara yüksək səviyyəli iaşə xidməti göstərmək üçün restoran və kafelər fəaliyyət göstərir.*

*Azərbaycan prezidenti və xanımı görülən işlərlə yaxından tanış oldular, mehmanxananın eyvanından şəhərin panoramını seyr etdilər.*

## DƏNİZKƏNARI MİLLİ PARKDA «PARK BULVAR» TİCARƏT VƏ İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*20 iyul 2010-cu il*

*İyulun 20-də paytaxtda Dənizkənarı Milli Parkda «Park Bulvar» ticarət və istirahət mərkəzinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri açılış mərasimində iştirak etmişlər.*

*Mehriban xanıma, qızları Leyla və Arzuya gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və Mərkəzlə yaxından tanış oldu.*

*Prezident İlham Əliyev və xanımı yay kafesindən Bakının dəniz mənzərəsini seyr etdilər. Dövlətimizin başçısına və xanımına Dənizkənarı Milli Parkda aparılan abadlıq və quruculuq işləri barədə məlumat verildi.*

*Dövlətimizin başçısı Mərkəzin dəniz mənzərəli VİP restoranlarında yaradılan şəraitlə də tanış oldu.*

*Məlumat verildi ki, Mərkəzdə gözəllik salonu, supermarket, 500 avtomobillik dayanacaq, dərzi, quru təmizləmə və digər xidmətlər təqdim olunur. «Park Bulvar» ticarət və istirahət mərkəzinin istifadəyə verilməsi ümumilikdə 700 yeni iş yerinin açılması deməkdir.*

*«Park Bulvar»ın maketi ilə tanış olan prezident İlham Əliyev yaradılan şəraitdən razı qaldığını bildirdi.*

## MASAZIR DUZ ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*21 iyul 2010-cu il*

*İyulun 21-də prezident İlham Əliyev Azərbaycan Duz İstehsalat Birliyinin Masazır gölü ətrafındakı duz zavodunun açılışında iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və müəssisə ilə yaxından tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif sənaye müəssisələrinin açılışlarında iştiraklarına dair fotoguşə yaradılmışdır.*

*Müəssisə ilə tanışlıq zamanı məlumat verildi ki, Azərbaycanın Səhiyyə Nazirliyinin və YUNİSEF-in duzun yodlaşdırılması yolu ilə yod çatışmazlığı xəstəliklərinin ləğv olunmasına dair həyata keçirdiyi proqrama uyğun olaraq 2007-ci ildə «Azersun Holdinq» Azərbaycanda ilk duz rafinasiyası zavodunun tikilməsi missiyasını üzərinə götürmüşdür. Bu layihə Azərbaycan İnvestisiya Şirkəti ilə birgə həyata keçirilmişdir.*

*Prezident İlham Əliyev zavodun idarəetmə otağına baxdı. Məlumat verildi ki, müəssisədə istehsal prosesinin 90 faizi avtomatlaşdırılmışdır. Bütün istehsal prosesinə operatorlar nəzarət edir.*

*Prezident İlham Əliyev xam duz anbarı ilə də tanış oldu. Qeyd edildi ki, zavodda ölkənin digər bölgələrindən gətirilən xammaldan istifadə olunması nəzərdə tutulmuşdur. Məlumat verildi ki, Azərbaycan əhalisinin illik yodlaşdırılmış duza olan tələbatı 50 min tona yaxındır.*

**A b d u l b a r i  G ö z ə l** *(«Azersun Holdinq» şirkətlər qrupunun prezidenti)*: Hörmətli cənab Prezident, bildiyiniz kimi, Azərbaycanda rafinə edilməmiş və yodlaşdırılmamış duzlardan istifadə etmək zob xəstəliyi və digər bir çox xəstəliklərin artmasına səbəb olurdu.

Ümummilli lider Heydər Əliyev tərəfindən 2001-ci il dekabrın 27-də «Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında» Qanun imzalandıqdan sonra bu sahəyə diqqət daha da artdı. Həmin ərəfədə YUNİSEF Azərbaycanın Səhiyyə Nazirliyi ilə birlikdə duzun bütövlükdə yodlaşdırılması yolu ilə yod çatışmazlığı probleminin ləğv olunması üçün çalışırdı. Ancaq məsələnin köklü həllinə nail olunması üçün belə bir duz rafinasiyası zavodunun inşası Azərbaycan üçün vacib hesab edilirdi. Bu, yod çatışmazlığı probleminin birdəfəlik həlli demək idi. Bu işin görülməsi Zati-alilərinizin qayğı və tövsiyəsi ilə həyata keçirildi. Beləliklə, 2007-ci ildə İqtisadi İnkişaf Nazirliyinə aid Azərbaycan İnvestisiya Şirkəti 25 faiz və «Azersun Holdinq» 75 faiz paya sahib olmaqla, Azərbaycanda ilk duz rafinasiyası zavodunun tikilməsi missiyasını öz üzərlərinə götürdülər.

Möhtərəm cənab Prezident, zavodun harada tikiləcəyi və xammalla haradan təmin olunacağı məqsədi ilə ölkə ərazisində müxtəlif duz mənbələri araşdırıldı. Nəticədə Səhiyyə Nazirliyinin nümayəndələri, Azərbaycanın qabaqcıl alimləri, YUNİSEF və istehlakçı dərnəklərin nümayəndələrinin iştirakı ilə «Azersun Holdinq»in Mədəniyyət Mərkəzində elmi konfrans keçirildi. Bu konfransda müxtəlif təhlillərin və müzakirələrin nəticələri göstərdi ki, Masazır gölü duz üçün ən əlverişli yerdir.

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu gün Azərbaycanın iqtisadi həyatında doğrudan da çox əlamətdar bir hadisədir. Demək olar ki, bu gün Azərbaycanda yeni sənaye sahəsinin təməli qoyulur. Artıq Azərbaycanda yüksək keyfiyyətə

malik olan duz istehsal olunacaqdır. Bu zavodun yaradılması Azərbaycanda aparılan iqtisadi siyasətin məntiqi nəticəsidir. Məqsədimiz ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı hərtərəfli şəkildə inkişaf etsin.

Bu zavodun yaradılması bir neçə məqsəd güdür. İlk növbədə Azərbaycanda yeni müasir istehsalat sahəsi yaradılıbdır. Ən müasir avadanlıq quraşdırılıbdır, texnoloji proses də dünya standartlarının üstündədir. Əlbəttə ki, görülən bütün bu işlər imkan verəcəkdir ki, bundan sonra Azərbaycanda duz emalı prosesi uzun illər ərzində dünya səviyyəsində aparılsın. Digər tərəfdən, zavodun yaradılması rəqabətqabiliyyətli məhsulun istehsalı deməkdir. Bu da bizim siyasətimizin istiqamətlərindən biridir. Biz istəyirik ki, Azərbaycanda istehsal olunan bütün məhsullar rəqabətqabiliyyətli olsun. Həm daxili tələbatı ödəsin, həm də Azərbaycanın ixrac potensialı gücləndirilsin.

Zavodda yeni iş yerlərinin açılması məsələsi həll olunur, bu da bizim siyasətimizin istiqamətlərindən biridir. Azərbaycanın bütün bölgələrində iş yerləri sürətlə açılır, insanlar işlə təmin olunurlar.

Bu bizə imkan verəcəkdir ki, yerli istehsalı daha da gücləndirək, idxaldan asılılığımızı azaldaq və beləliklə, Azərbaycanı daha da uğurla irəliyə aparaq.

İnsanların sağlamlığı üçün Azərbaycan dövləti çox şey edir. Həm səhiyyə sisteminin möhkəmləndirilməsi sahəsində, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində atılan addımlar, bununla bərabər, Azərbaycanda istehlak olunan bütün ərzaq məhsulları yüksək keyfiyyətə malik olmalıdır. Artıq Azərbaycanda bu işlər çox sürətlə təşkil olunur və biz keyfiyyətsiz mallara qarşı çox ciddi mübarizə aparırıq. Həm idxal nəticəsində gətirilən keyfiyyətsiz malların bazardan yığışdırılması, həm də daxildə istehsal olunan keyfiyyətsiz malların aşkarlanması və yığışdırılması prosesi sürətlə gedir. Bu nöqsanları buraxan sahibkarlar da ciddi şəkildə cəzalandırılmalıdırlar. Çünki insanların sağlamlığı əsas vəzifədir. Bir daha demək

istəyirəm ki, duz istehsalı zavodunun yaradılması Azərbaycanda aparılan iqtisadi islahatların məntiqi nəticəsidir.

Sevindirici haldır ki, bu zavodun yaradılmasında həm «Azersun» şirkəti, həm də Azərbaycan Dövlət İnvestisiya Şirkəti iştirak etmişdir. Biz Azərbaycan Dövlət İnvestisiya Şirkətini məhz o məqsədlə yaratdıq ki, yerli və xarici investorlarla bərabər, Azərbaycanın sənaye və iqtisadi inkişafı üçün lazım olan sahələrə investisiyaları cəlb etsin və o prosesi təşkil etsin.

«Azersun» şirkəti Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir. Bu şirkətin fəaliyyəti çox genişdir. Məni çox sevindirən odur ki, Azərbaycanda yerli istehsalın yaradılması işinə «Azersun» şirkəti böyük töhfəsini verir. Kənd təsərrüfatının inkişafı, sahibkarlığın inkişafı, qeyri-neft sektorunun inkişafı sahəsində bu şirkətin töhfəsi çox böyükdür. Mən ümid edirəm ki, gələcəkdə bu şirkət öz fəaliyyətini yeni sahələrdə davam etdirəcəkdir.

Bu zavodun yaradılması Azərbaycanda qeyri-neft sektorunun inkişafına böyük dəstək olacaqdır. Bu sahə bizim üçün ən prioritet sahələrdən biridir. Böyük məmnunluq hissi ilə deyə bilərəm ki, bu ilin altı ayında Azərbaycanda qeyri-neft sektorunun inkişafı 15,3 faiz təşkil etmişdir ki, bu da bu günə qədər görülmüş işlərin nəticəsidir.

Bir sözlə, zavodun açılışı çox müsbət bir haldır. Əminəm ki, zavodun fəaliyyəti uğurlu olacaqdır, bu zavod daxili tələbatı tam şəkildə təmin edəcəkdir. Biz gərək öz daxili bazarımızı qoruyaq və bunu etmək üçün yəqin ki, əlavə tədbirlər də görüləcəkdir. Artıq duzun idxalına heç bir ehtiyac qalmır, xüsusilə nəzərə alsaq ki, burada istehsal olunan duz ən yüksək standartlara cavab verir. Beləliklə, Azərbaycan həm daxili tələbatı ödəyəcək, həm də ki, bizim böyük ixrac potensialımız artacaqdır.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Sağ olun.

## MƏTBUAT ŞURASININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*22 iyul 2010-cu il*

*İyulun 22-də Azərbaycan prezidenti İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Birinci mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkədə kütləvi informasiya vasitələrinin inkişafına diqqət və qayğısını əks etdirən sənədlər və mətbuatla görüşlərinə dair fotolardan ibarət stend vardır.*

*Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşdü.*

**Əflatun Amaşov** (*Mətbuat Şurasının sədri*): Hörmətli cənab Prezident, Sizi Mətbuat Şurasının yeni inzibati binasında salamlamaqdan məmnunluq duyuruq. Sizin bu gün açılış mərasimimizdə iştirak etməyiniz təkcə Mətbuat Şurası üçün deyil, ölkə jurnalistikası, ümumilikdə media ictimaiyyəti üçün son dərəcə əlamətdar hadisədir. Sizə bir daha «Xoş gəlmisiniz!» deyirik.

Mətbuat Şurasının yeni inzibati binasının açılışı Azərbaycan milli mətbuatının 135 illik yubileyinə təsadüf edir. Müasir tələblərə cavab verən belə bir binaya hətta ən inkişaf etmiş ölkələrin mətbuat şuraları həsəd apara bilər. Biz bunu Azərbaycan jurnalistikasına Sizin bayram töhfəniz kimi qəbul edirik. Bu həm də ölkədə aparılan ardıcıl və məqsədyönlü media siyasətinin əyani nümunələrindəndir.

Bu siyasətin təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Azərbaycan jurnalistlərinin, bütövlükdə media ictimaiyyətinin onu daim ehtiramla xatırlamasının kökündə bir çox amillər dayanır. Müharibə vəziyyətində olan ölkədə 1998-ci ildə mətbuat üzərindəki senzura götürüldü. Bu addım o dövr üçün çox böyük cəsarət tələb edirdi. Növbəti addım media sahəsindəki qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı oldu. Qanunvericilik dünya standartlarına uyğun şəkildə təkmilləşdirildi. Mətbuata dövlət nəzarətini həyata keçirən Mətbuat və İnformasiya Nazirliyi ləğv edilərək mətbuatın özünütənzimləməsi mexanizminin tətbiqinə şərait yaradıldı. Azərbaycan MDB məkanında mətbuatın özünütənzimləmə funksiyasını rəsmiləşdirdi. Bu məkanda ilk Mətbuat Şurası yaradıldı. Qeyd etmək yerinə düşər ki, hələlik postsovet məkanında belə bir təkmil media institutu mövcud deyildir. 2007-ci ildə Bakıda beynəlxalq ekspertlərin iştirakı ilə keçirdiyimiz konfransda Azərbaycan Mətbuat Şurası MDB məkanı üçün vahid model kimi götürüldü. Qərara alındı ki, həmin ölkələrdə bu sayaq qurumlar yaradılarkən Azərbaycan Mətbuat Şurasının təcrübəsi əsas götürülsün.

Kütləvi informasiya vasitələri məhsulları üzərindən əlavə dəyər vergisinin aradan qaldırılmasını, gömrük rüsumunun götürülməsini, qəzetlərin «Azərbaycan» nəşriyyatına olan borclarının dövlət vəsaiti hesabına silinməsini və s. buna misal göstərmək olar.

Bildiyiniz kimi, Azərbaycanda müstəqil medianın dairəsi genişlənir. Lakin ölkə mediasının müstəqilliyinin əsas meyarı olan reklam bazarı hələ də yazılı mətbuatın üzünə qapalı kimi görünməkdədir. Bu gün illik reklam büdcəsi, təxminən 35–40 milyon manat olan Azərbaycanda yazılı medianın reklam gəlirləri 2 milyon manata çatmır. Əlbəttə, Siz prezident olaraq, reklamvericilərə birbaşa göstəriş verə bilməzsiniz. Amma dövlətimizin iqtisadi strukturları, nazirlikləri, komitələri, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları öz reklam və elanlarını müəyyən qədər mətbuatda yerləşdirə bilərlər. Bu sahədə də Sizin köməyinizə ehtiyacımız var.

Dünya Azərbaycan həqiqətləri barədə yetərincə məlumata malik deyildir. Çox təəssüf ki, bəzi xarici nəşrlər ölkəmizdə aparılan islahatları görmək istəmir, Dağlıq Qarabağ kimi problemimizə barmaqarası baxırlar. Biz jurnalistlər də burada öz məsuliyyətimizi hiss edirik. Ona görə də müasir texnologiyalar əsrində müxtəlif dilləri mükəmməl bilən istedadlı jurnalistlərin hazırlanmasına ciddi ehtiyac duyulur. Hesab edirik ki, bu prosesdə xaricdə təhsil əsas rol oynaya bilər.

Jurnalistlərin sosial durumlarının yaxşılaşdırılmasına da ehtiyac vardır. Bu sırada xüsusilə mənzil qayğıları daha aktualdır. Dəfələrlə jurnalistlər üçün güzəştli şərtlərlə mənzil tikintisi məsələsini gündəmə gətirsək də, hələlik nəticə əldə etməmişik. Ümid edirik ki, Sizin sayənizdə bu məsələyə hansısa Dövlət Proqramı çərçivəsində baxmaq mümkün olacaqdır.

Möhtərəm cənab Prezident, Sizin hakimiyyətiniz dövründə media ilə bağlı çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Bunların hər biri müstəsna əhəmiyyətə malikdir. 5 il bundan əvvəl milli mətbuat günü ərəfəsində Sizin sərəncamınızla «Əməkdar jurnalist» fəxri adı bərpa olundu. 140-a yaxın jurnalist müxtəlif dövlət təltiflərinə layiq görüldü. Media qurumlarına maddi yardımlar göstərildi. Biz jurnalistlər inanırıq ki, eyni sevincli anları bu bayram günündə də təkrar yaşayacağıq.

Hörmətli cənab Prezident, Sizə bir daha ölkə jurnalistlərinin dərin minnətdarlığını bildirir, Sizə möhkəm cansağlığı, ölkəmizin daha da inkişafı yolunda yeni-yeni nailiyyətlər arzulayırıq. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sağ olun, təşəkkür edirəm. İlk növbədə, mən sizi və Azərbaycanın bütün ictimaiyyətini milli mətbuatımızın 135 illik yubileyi münasibətilə təbrik etmək istəyirəm. Bizim mətbuatımızın böyük ənənələri var və bu ənənələr yaşayır.

Mən Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirirəm. Yarandığı gündən ölkəmizdə dövlət qurumları ilə media arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün çox müsbət rol oynamışdır. Jurnalistlərin hüquqlarının qorunması işində prinsipial mövqeyini həmişə bildirmiş, ölkədə söz azadlığının, demokratiyanın inkişafı istiqamətində çox böyük addımlar atmışdır. Siz öz çıxışınızda mətbuatla bağlı son illər ərzindəki tarixdən danışdınız. Bu doğrudan da çox gözəl tarixdir. Azərbaycan müstəqil ölkə kimi, 1991-ci ildə dünya xəritəsində yarandı. Bildiyimiz kimi, o vaxt Azərbaycanda müstəqil media yaranmaqda idi. Azərbaycanda azad mətbuat hələ sovet dövründə yaranmışdır və azad mətbuatın o vaxtkı fəaliyyəti çox böyük qiymətə layiqdir. Ancaq o vaxt – 1991-ci ildə azad mətbuatın fəaliyyəti üçün hələ ki, lazımi şərait yox idi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra çox qısa bir müddət ərzində media sahəsində böyük irəliləyiş müşahidə olundu. Bir neçə qəzet, kütləvi informasiya vasitələri, özəl televiziyalar yarandı. Qeyd etdiyiniz kimi, 1998-ci ildə senzuranın ləğvi doğrudan da böyük və tarixi bir addım idi. Ancaq o vaxt MDB məkanında Azərbaycan senzuranın ləğvini irəli sürən birinci ölkə idi. Ondan sonra söz azadlığının inkişafı istiqamətində ardıcıl şəkildə çox ciddi addımlar atılmışdır. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olundu, 2003-cü ildə Mətbuat Şurası yarandı.

Bütövlükdə, söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Azərbaycanda yüzlərlə media orqanı

fəaliyyət göstərir. Bizim vətəndaşlarımız 30-dan yuxarı gündəlik qəzeti, 100-ə yaxın həftəlik qəzeti, respublika əhəmiyyətli, yəni bütün ölkəyə verilişlər təqdim edən 8 telekanalı, 14 regional telekanalı, internet vasitəsilə dünyada gedən bütün prosesləri sərbəst şəkildə izləyirlər.

Azərbaycanda internet istifadəçilərinin sayı 40 faizdən yuxarıdır. Biz bütün məktəblərdə kompyuterləşmə proqramını tətbiq edirik, internetə qoşuruq. Yəni Azərbaycanda söz azadlığının inkişafı üçün bütün addımlar atılır. Lazım olan bütün qanunvericilik aktları qəbul edilibdir. Medianın inkişafına dövlət dəstəyinin gücləndirilməsi üçün ardıcıl tədbirlər görülür, dövlət konsepsiyası qəbul edilibdir. Maddi-texniki bazanın möhkəmləndirilməsi işində dövlət öz dəstəyini göstərir və bundan sonra da göstərəcəkdir.

Bizim iqtisadi imkanlarımız, əlbəttə ki, artır və bu bizə əlavə imkanlar yaradır. Ancaq mən tam əminəm ki, iqtisadi islahatlar siyasi islahatlar aparılmadan ölkəyə uzunmüddətli uğur gətirə bilməz. Qısamüddətli uğur gətirə bilər. Xüsusilə təbii sərvətlərlə zəngin olan ölkələrdə iqtisadi islahatların düzgün istiqamətdə aparılması sayəsində qısamüddətli uğurlar əldə oluna bilər. Biz uzunmüddətli inkişafımızı təmin etmək istəyiriksə, mütləq siyasi islahatlar iqtisadi islahatları dəstəkləməlidir, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmalıdır.

Bilirik ki, keçid dövrünü yaşayan ölkələr hansı çağırışlarla, hansı problemlərlə üzləşirlər. Azərbaycanda həmin problemlərin minimum səviyyəyə endirilməsi, risklərin azaldılması istiqamətində çox dəqiq, düşünülmüş, ancaq eyni zamanda, ardıcıl siyasət aparılmalıdır. Siyasi islahatlar iqtisadi islahatları qabaqlamamalıdır. Biz Azərbaycanda elə bir model yarada bildik ki, həm iqtisadi islahatlar, həm siyasi islahatlar paralel şəkildə aparılır və ölkəmizin hərtərəfli inkişafını təmin edir.

Azərbaycanın böyük və zəngin tarixi, zəngin milli mənəvi dəyərləri vardır. Bu dəyərlər bizim üçün əsasdır. Biz ümum-

bəşəri dəyərləri bölüşürük. Avropa dəyərləri üçün də çox vacibdir. Çünki Azərbaycanın tarixi və coğrafi vəziyyəti bu vəziyyətin yaranmasına gətirib çıxarıbdır.

Ancaq bizim üçün prioritet dəyərlər milli dəyərlərimizdir və bunun üzərində müasir dövlətin qurulması bizim məqsədimizdir. Mən hesab edirəm ki, biz bu məqsədə yaxınlaşırıq. Çünki cəmiyyətimizin inkişafı üçün bütün lazımi tədbirlər görülür. Milli mənəvi dəyərlər üzərində müasir, dünyəvi, dünyaya açıq olan dövlət qurmaq bizim əsas məqsədimizdir. Bunu etmək üçün iqtisadi imkanlar olmalıdır, iqtisadi müstəqillik olmalıdır, siyasi azadlıqlar olmalıdır. İndi Azərbaycan dünyada çox böyük və müsbət imicə malik olan ölkədir. Biz Avropa Şurasının, İslam Konfransı Təşkilatının üzvüyük. Nadir ölkələrdənik ki, hər iki təşkilatın üzvüyük və hər iki təşkilatda Azərbaycanın mövqeləri möhkəmlənir. Azərbaycan bu gün və gələcəkdə sivilizasiyalararası dialoqun inkişafı üçün çox mühüm rol oynayır və oynayacaqdır.

Mən hesab edirəm ki, media ilə bağlı qaldırdığınız məsələlər çox böyük əhəmiyyət kəsb edir. Reket jurnalistikasına qarşı biz hamımız birgə fəaliyyət göstərməliyik, mübarizə aparmalıyıq. Bu mübarizənin sivil qaydaları olmalıdır. Mən hesab edirəm ki, biz reket jurnalistikasına, necə deyərlər, onların üsulu ilə cavab verməməliyik. O neqativ hallara yol verən vətəndaşlar ictimai qınaq obyektinə çevrilməlidir. İctimaiyyətdə onlara qarşı ciddi reaksiya verilməlidir. Dövlətin üzərinə düşən vəzifəni də dövlət etməyə hazırdır. Ancaq bütün bu işlər qanun çərçivəsində olmalıdır. Mən ümid edirəm ki, yaxın zamanlarda bizim adət-ənənələrimizə zidd olan bu nöqsanlar aradan qaldırılacaqdır. Hesab edirəm ki, buna müəyyən qədər vaxt lazımdır. Çünki biz müstəqil ölkə kimi, cəmi 20 ilə yaxındır ki, yaşayırıq. Hələ ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də müəyyən qədər vaxt lazımdır.

Diffamasiya ilə bağlı məsələlərə gəldikdə, siz yaxşı bilirsiniz ki, hətta Avropanın inkişaf etmiş ölkələrində bu məsələ

ilə bağlı birmənalı mövqe yoxdur. Biz Avropa Şurası ilə münasibətlərimizdə dəfələrlə bu məsələ ətrafında fikir mübadiləsi aparmışıq. Qanunun qəbul olunmasının əleyhinə deyilik. Azərbaycanda söz azadlığına görə heç kim həbs olunmur, deyə bilərik ki, bu sahədə bir növ qeyri-rəsmi moratorium qeyd olunubdur. Ancaq biz istəyirik ki, bütün ölkələr öz fəaliyyətini bu kriteriyalara uyğun şəkildə göstərsinlər. Bəzi hallarda beynəlxalq təşkilatlar Azərbaycana xüsusi diqqət göstərirlər. Ola bilər ki, bəzi məsələlərlə bağlı bu xüsusi diqqət təqdirəlayiqdir. Amma bəzi hallarda bu ayrı-seçkilik başqa məna daşıyır və xüsusilə Avropa Şurası ilə bağlı bizim münasibətlərimizin inkişafı bunu göstərir. Mən bu məsələ ilə bilavasitə məşğul olan bir insan kimi və Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri kimi, bütün bu işləri yaxından bilirəm. Deyə bilərəm ki, 2001-ci ildən başlayaraq bu günə qədər Azərbaycana qarşı bəzi hallarda aparılan ədalətsiz mübarizə bizdə çox böyük hiddət doğurur. Ədalət ən böyük meyardır. Əlbəttə ki, Azərbaycan cəmiyyətində problemlər var. Biz bu problemləri bilirik. Azərbaycanın yerləşdiyi bölgədə, qonşuluqda yerləşən ölkələrdə problemlər bizim problemlərdən az deyil. Bəzi hallarda o məsələlərə göz yumulur, yaxud da ki, yanlış məlumat təqdim olunur. Azərbaycanda isə xırda məsələ ilə bağlı böyük hay-küy salınır. Sanki kimsə istəyir ki, Azərbaycanın nüfuzuna zərbə vursun. 2008-ci ildə Ermənistanda prezident seçkiləri zamanı ordunun iştirakı ilə 10-dan yuxarı insan öldürülmüşdür, yüzlərlə insan həbs olunmuşdur, prezidentliyə namizəd ev dustağı olmuşdur, millət vəkilləri, media nümayəndələri həbs edilmişlər. Bir neçə gün ondan sonra nə beynəlxalq mediada, nə Avropa Şurasında, nə də ki, başqa yerdə məlumat verilmədi. İndi də bu məsələ ilə bağlı vaxtaşırı kimsə məsələ qaldırır, amma bu mövzu geniş mənada bağlanıbdır.

Azərbaycanda isə müqayisəolunmaz dərəcədə bir xırda məsələ baş verən kimi, dərhal beynəlxalq media orqanlarına

çıxarılır. Azərbaycanı elə bil ki, antidemokratik ölkə kimi təqdim etməyə çalışırlar. Bu bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında, inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək. Ona görə diffamasiya ilə bağlı məsələlərə gəldikdə, mən hesab edirəm ki, bu məsələ öz həllini tapmalıdır və qanunvericilikdə müvafiq düzəlişlər edilməlidir. Amma çox istərdik ki, özlərini demokratiyanın beşiyi sayan inkişaf etmiş ölkələrdə də bu məsələ ilə bağlı addımlar atılsın.

Əfsuslar olsun ki, Azərbaycanda reklam bazarı hələ ki, o qədər də böyük deyil. Ancaq söylədiyiniz rəqəmlər, əlbəttə, göstərir ki, burada bölgü ədalətsiz aparılır. Əgər 40 milyonun ancaq 2 milyonu yazılı mediaya verilirsə, əlbəttə ki, bu, dözülməz haldır. Mən çalışacağam ki, bu məsələ ilə bağlı müəyyən addımlar atılsın. Dövlət tərəfindən müəyyən tövsiyələr veriləcəkdir.

O da həqiqətdir ki, yazılı media elektron media ilə rəqabət apara bilmir. Hətta inkişaf etmiş, böyük ənənələrə malik olan ölkələrdə və media tarixi böyük olan ölkələrdə də kütləvi informasiya vasitələrinin xüsusiyyətləri bunlardan ibarətdir. Ancaq mən bu məsələ ilə məşğul olacağam.

Jurnalist kadrların hazırlanması ilə bağlı qaldırdığınız məsələ çox vacibdir. Mən bunu xüsusilə vurğulamaq istəyirəm və hesab edirəm ki, müxtəlif proqramlar əsasında biz bu məsələ ilə daha da ciddi məşğul olmalıyıq. Bu gün bilirsiniz ki, Azərbaycan gənclərinin xaricdə oxuması ilə bağlı Dövlət Proqramı icra olunur. Bu proqram çərçivəsində hər il haradasa 10 milyon manata qədər vəsait ayrılır. Bu vəsait hesabına biz gənclərimizi xaricdə aparıcı ali məktəblərdə oxuduruq. Yəqin ki, o ixtisaslar siyahısına jurnalist peşəsini də əlavə etməliyik. Çünki doğrudan da buna böyük ehtiyac vardır.

Təkcə mediada deyil, ümumiyyətlə, hər sahədə peşəkarlığın artırılması bizim üçün ən prioritet məsələyə çevrilməlidir. Bu gün bütün sahələrdə – iqtisadiyyatda, ictimai sahədə, sənaye istehsalında, xidmət sektorunda bizdə peşəkar kadrlar çatışmır. Azərbaycanın uğurlu və sürətli inkişafı tələb edir ki, bu sahələrdə peşəkarlar işləsinlər. Ona görə peşəkarlıqla bağlı olan məsələlər ümumi xarakter daşıyır. İndi biz bu məsələ ilə çox ciddi məşğuluq. Hesab edirəm ki, peşəkarlıq artdıqca, jurnalistikada qeyd etdiyiniz bu reket məsələləri də aradan qaldırılacaqdır. Ondan sonra bizim milli adət-ənənələrimizə xas olmayan başqa məqamlar da aradan qaldırılacaqdır.

Biz söz azadlığını qoruyacağıq və müdafiə edəcəyik. Azərbaycan dövləti və Azərbaycan iqtidarı tənqidlərə də, hətta təhqirlərə də dözümlüdür. Mən prezident kimi, buna əhəmiyyət vermirəm. Ancaq söhbət ondan gedir ki, bizim cəmiyyətdə belə hallar çox pis qarşılanır. Mediada yalan informasiyanın verilməsi qəbuledilməzdir. Əvvəlki dövrlərdə bu çox geniş meydan tapmış bir yanaşma idi. Yalan informasiyanı ortaya atmaq, sensasiya yaratmaq, ondan sonra bu yalanın ətrafında müzakirələr aparmaq, elə bil ki, bunu reallığa çevirmək, ondan sonra bu yalanı xarici mediaya ötürmək və sonra bunu bir dəqiq xəbər kimi yenə qaytarmaq – bütün bunları biz bilirik. Mən hesab edirəm ki, bu siyasi mübarizə üsulu Azərbaycanın siyasi səhnəsindən getməlidir. Burada, əlbəttə ki, medianın rolu çox böyükdür. Yəni bu gün – internet dövründə hər bir yazını dünyada oxumaq olar və bir dəfə, iki dəfə, üç dəfə yalan yazılanda, dördüncü dəfə artıq o medianın hörməti də düşəcək, o orqana inam da azalacaqdır.

Mən istərdim ki, jurnalistlərin məsuliyyəti ilə bağlı mövqeyimi bildirim. Jurnalistlər çox məsuliyyətli və qərəzsiz olmalıdırlar. Hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki birinci növbədə, Azərbaycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyil,

vətənpərvər cəmiyyətdir. Dövlətə, dövlətçiliyə sadiq olan cəmiyyətdir. Cəmiyyəti süni şəkildə siyasiləşdirmək bizə uğur gətirə bilməz. Hər şey təbii olmalıdır, o cümlədən mediada da. Siyasi sifarişlərlə çıxan orqanlar nə qədər az olarsa, bizim mediamız da o qədər həm güclü, həm də ki, daha da müsbət nüfuza malik olacaqdır.

Bu məsələ ilə bağlı mən heç kimə heç bir göstəriş verə bilmərəm. Ancaq sadəcə olaraq öz fikirlərimi bildirmək istəyirəm və hesab edirəm ki, Mətbuat Şurası da bu istiqamətdə öz lazımi tədbirlərini görəcək ki, jurnalistlərin məsuliyyəti və müstəqil jurnalistikanın müstəqil orqanlarının gücləndirilməsi işində biz daha da böyük uğurlara nail olaq.

Mən bunu da bilirəm, bəzi hallarda xarici dairələrin təsiri altında çıxan orqanlar fəaliyyət göstərirlər. Onların sifarişi ilə yazılan məqalələr də dərc olunur. Bu məsələ ilə də bağlı məndə kifayət qədər məlumatlar var. Mən indi ad çəkmək istəmirəm, amma fikrimi bildirmək istəyirəm ki, bu, ümumiyyətlə, yolverilməzdir. Hansısa daxildən gələn siyasi sifariş əsasında yazılan məqalə, yaxud da ki, hansısa başqa reportaj qəbulolunmaz olsa da, bu bizə o qədər də böyük problem yaratmaz. Ancaq xarici dairələrin sifarişi ilə, göstərişi ilə və onların planları əsasında Azərbaycanda hansısa mövzu ətrafında rəy yaratmaq cəhdlərinə, ümumiyyətlə, son qoyulmalıdır. Burada mən sadəcə olaraq jurnalistləri vətənpərvərliyə çağırıram. Biz imkan verməməliyik ki, Azərbaycan hansısa qüvvələrin, xarici dairələrin qarşıdurma arenasına çevrilsin. Mən bunu bir neçə dəfə bildirmişəm. Prezident vəzifəsinə gələndən dərhal sonra bildirmişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan başqa ölkələrin maraqlarının toqquşması yeri olmayacaqdır. Biz buna nail ola bilmişik, baxmayaraq ki, belə cəhdlər var və istisna olunmur ki, gələcəkdə də olacaqdır. Elə etməliyik ki, Azərbaycan bundan sonra da onilliklər ərzində Azərbaycan xalqının iradəsi ilə idarə olunsun. Ona görə deyirəm ki, belə hallar var. Mən istərdim ki, belə hallar olmasın.

Jurnalistlərin məsuliyyəti ilə bağlı dediyim sözlərə əlavə olaraq jurnalistlərin hüquqları haqqında da bir neçə kəlmə demək istəyirəm. Bu məsələ ilə bağlı biz ciddi işləməliyik. Jurnalistlərin hüquqları tam şəkildə qorunmalıdır, müdafiə olunmalıdır. Jurnalistlərə qarşı hörmətsizlik, zorakılıq edilməməlidir. Düzdür, biz Azərbaycanda artıq belə hallarla rastlaşmırıq. Ancaq hesab edirəm ki, bu sözlərin mənası öz təsirini göstərəcəkdir.

Bununla bərabər, Azərbaycanda bütün kateqoriyadan olan insanların hüquqları qorunmalıdır. Bu istiqamətdə, əlbəttə ki, biz daha da böyük addımlar atmalıyıq. Mən onu da demək istəyirəm və tam əminəm ki, Azərbaycanda bütün vətəndaşlar – prezidentdən başlamış, adi vətəndaşa qədər – bərabərhüquqlu olmalıdır. Hansısa peşə sahibi olmaq o demək deyil ki, bu kiməsə immunitet yaradır, yaxud da ki, kimisə toxunulmaz edir. Jurnalist həmrəyliyi çox yaxşı şeydir və mən bunu bəyənirəm. Ancaq bəzi hallarda görürük ki, jurnalist həmrəyliyi qanunu da, qanunvericiliyi də kənara qoyur və sadəcə olaraq, jurnalistlərin hüquqlarının qorunması məsələləri ilə bağlı fikirlər ortaya qoyulur.

Jurnalistikada vətənpərvərlik mövzuları ilə bağlı daha da ciddi işlər aparılmalıdır. Xüsusilə, müharibə şəraitində olan ölkələrdə bu daha da böyük məna daşıyır. Ona görə gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işində medianın müstəsna xidmətləri vardır. Əlbəttə ki, burada dövlət dəstəyi və dövlət siyasəti çox mühümdür və bu siyasət məqsədyönlü şəkildə aparılır. Azərbaycanda vətənpərvərlik mövzuları çox geniş işıqlandırılır. Gənclərin tərbiyəsi ilə bağlı məsələlər, idman sahəsindəki uğurlarımız, ordu quruculuğu sahəsində aparılan işlər – bütün bunlar bir məqsədi güdür ki, biz Azərbaycan xalqında vətənpərvərlik ruhunu və duyğularını daha da artıraq, gücləndirək.

Medianın bu sahədəki fəaliyyəti əvəzolunmazdır. Məsələn, hansısa telereportajda, ya hansısa yazılı mətbuatda vətənpərvərlik ilə bağlı çox ciddi və mənalı mövzuların işıq-

landırıldığını görəndə, bu məni çox sevindirir. Hesab edirəm ki, biz bu istiqaməti daha da gücləndirməliyik. Mən məmnunluq hissi ilə deyə bilərəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan mediasında birmənalı mövqe vardır. Bu çox vacibdir. Bu, milli məsələdir, ümummilli məsələdir. Bu məsələdə siyasi maraqlar kənara qoyulmalıdır. Bu məsələdə iqtidar-müxalifət münasibətləri, ümumiyyətlə, olmamalıdır. Bu məsələ ilə bağlı heç kim spekulyasiya etməməlidir. Bu bizim ümummilli məsələmizdir, əsas problemimizdir.

Sadəcə olaraq, bu mövzu daim gündəlikdə olmalıdır. Mən Dağlıq Qarabağın azərbaycanlı icması ilə görüşümdə bu barədə öz fikirlərimi söylədim ki, biz heç vaxt sakitləşməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər biz daim Ermənistana qarşı bütün istiqamətlərdə, bütün yollarla, bütün formalarda hücum siyasətini aparmalıyıq.

Ona görə də ölkə daxilində bu mövzu daim işıqlandırılmalıdır. O ki qaldı xarici mətbuatla bağlı məsələlərdə, biz çalışmalıyıq ki, öz mövqeyimizi daha da dolğun şəkildə və daha da ağıllı şəkildə çatdıraq. Xüsusilə nəzərə alsaq ki, həqiqət bizim tərəfimizdədir – faktlar, materiallar, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının işğalı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması. Bu siyasəti törədənlər hərbi cinayətkarlardır. Vaxt gələcək onlar bu cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər. Ona görə mən hesab edirəm ki, biz bu istiqamətdə daha da ciddi işlər aparmalıyıq.

Bununla bərabər, qeyd etdiyim kimi, bütövlükdə bu məsələ ilə bağlı Azərbaycan mətbuatında vahid mövqe var, amma istisnalar da olur. Bu, əlbəttə ki, çox üzücü bir haldır. Azərbaycan cəmiyyətində, Azərbaycan mediasında bu məsələ ilə bağlı başqa fikir ola bilməz. Separatistlərə bəraət qazandırmaq, onlardan müsahibə götürmək, onları təbliğ etmək, azərbaycanlıları dəhşətli günahlarda suçlandırmaq –

bu bağışlanılmazdır. Gör bu adamlarda Azərbaycan xalqına nə qədər nifrət var ki, onlar Azərbaycan vətəndaşlarının, günahsız insanların qanını axıdanları Azərbaycan mətbuatında təbliğ edirlər. Bəli, təkcə Azərbaycan mətbuatında deyil. Əgər təkcə burada olsaydı, dərdyarı idi. Beynəlxalq arenada Azərbaycana mənfi münasibət bəsləyən dairələrə elə bil ki, bu, əlavə bir arqument verir, onların dəyirmanına su tökür və bundan istifadə olunur. Belə yazıların erməni mətbuatında çıxması, beynəlxalq mətbuatda çıxması – bütün bunlar Azərbaycana qarşı koordinasiya şəklində aparılan siyasətin bir tərkib hissəsidir. Yəni mən buna heç söz tapa bilmirəm. Bu məsələ ilə bağlı fikirləri sözlə ifadə etmək çətindir. Hesab edirəm ki, Azərbaycan mediasında belə hallara qarşı çox ciddi və operativ reaksiya verilməlidir. Bu məsələ ilə bağlı jurnalist həmrəyliyi olmamalıdır, vətəndaş həmrəyliyi olmalıdır.

Qaldırdığınız digər məsələlərlə bağlı, jurnalistlərin məişət şəraiti ilə bağlı məsələlərlə əlaqədar siz təklifləri verin. Mən çalışacağam operativ şəkildə bunu həll edim ki, Azərbaycan dövləti bu sahədə öz dəstəyini göstərsin.

Mən bir daha sizi bu gözəl gün, hadisə münasibətilə təbrik edirəm. Hesab edirəm, bugünkü bayram günü bir fürsətdir ki, biz görüşək, səmimi şəkildə danışaq. Mən də öz fikirlərimi sizə çatdırım ki, biz bundan sonra da belə əməkdaşlıq şəraitində öz işlərimizi davam etdirək.

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKA GİLAURİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Gürcüstanın Baş naziri Nika Gilaurini qəbul etmişdir.*

*Baş nazir Nika Gilauri Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyevin Gürcüstana son səfərinə toxunan Baş nazir bu səfər zamanı əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində qəbul edilən qərarların önəmini vurğuladı. O, ölkəmizə səfərinin əsas məqsədlərindən birinin həmin qərarların yerinə yetirilməsi ilə bağlı olduğunu qeyd etdi.*

*Batumidə danışıqların yekunları ilə bağlı hökumətə müvafiq tapşırıqlar verdiyini bildirən dövlətimizin başçısı Azərbaycan–Gürcüstan hökumətlərarası komissiyasının iclaslarında bu məsələlərin həllinin reallaşacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA**

Hörmətli cənab Prezident!

Duysburq şəhərində baş vermiş faciə barədə xəbər məni olduqca sarsıtdı.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 iyul 2010-cu il*

## DÖVLƏT BAYRAĞI MEYDANINDA TAMAMLAMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*26 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 26-da Dövlət Bayrağı Meydanında tamamlama işləri ilə yaxından tanış olmuşlar.*

*Dövlət başçısına həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, Dövlət Bayrağı Meydanında əsas dövlət rəmzlərimizdən olan Azərbaycanın nəhəng gerbi hazırlanmışdır. Bürüncdən düzəldilmiş gerbin üzəri qızılla işlənilmişdir. Həmin gerb meydanın, eləcə də paytaxtın bu hissəsinin görkəminin möhtəşəmliyini daha da artıracaq, onun görünüşünə əlavə çalarlar qatacaqdır.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya meydanda yaradılan zəngin muzey barədə də geniş məlumat verildi. Muzeyə baxış zamanı bildirildi ki, burada bayraq və digər dövlət rəmzləri ilə bağlı bir-birindən dəyərli eksponatlar toplanmışdır.*

*Prezident İlham Əliyevə meydanın ərazisinin genişləndirilməsi, abadlaşdırılması, landşaftının işlənməsi istiqamətində həyata keçiriləcək işlər və görüləcək digər tədbirlər barədə də məlumat verildi.*

*Dövlət Bayrağı Meydanında tamamlama işləri ilə yaxından tanış olan dövlət başçısı tapşırıq və tövsiyələrini verdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyul 2010-cu il*

## TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ ZƏFƏR ÇAĞLAYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 28-də Türkiyənin Xarici Ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Dövlət naziri Zəfər Çağlayanın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini bildirmişdir. Türkiyənin Xarici Ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayan Türkiyə prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırmışdır. O, Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan böyük inkişaf proseslərinin bu gün uğurla davam etməsindən məmnun olduğunu bildirmişdir. Xoş sözlərə görə qonağa təşəkkür edən dövlətimizin başçısı ölkəmizdə böyük inkişaf proseslərinin getdiyini vurğulayaraq bildirmişdir ki, Azərbaycanın uğuru Türkiyənin, Türkiyənin uğuru isə Azərbaycanın uğurudur. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirmişdir.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etmişdir.*

## SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Sosialist İnternasionalının Baş katibi Luis Ayalanı qəbul etmişdir.*

*Luis Ayala Azərbaycana ilk dəfə 2007-ci ildə səfər etdiyini vurğulayaraq budəfəki səfəri zamanı o vaxtdan ötən dövr ərzində Bakı şəhərində, ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu demişdir.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən prezident İlham Əliyev Sosialist İnternasionalı kimi mühüm təşkilatın rəhbərinin ölkəmizə səfərini yüksək qiymətləndirmiş və Azərbaycanın bu təşkilatla əməkdaşlığının bundan sonra da davam edəcəyinə əminliyini ifadə etmişdir.*

*Görüşdə Sosialist İnternasionalı təşkilatı ilə ölkəmiz arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

# QEYDLƏR

**1. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 5, 223, 226, 229, 244.

**2. Firəngiz Əlizadə,** F i r ə n g i z Ə l i a ğ a q ı z ı (d.1947) – pianoçu, bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə YUNESKO tərəfindən dünyanın artisti adlandırılmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 5.

**3. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir.

1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 30, 43, 47, 48, 57, 79, 132, 186, 200–201, 223, 224, 244, 301, 310, 313, 314, 334.

**4. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-

şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 6, 89.

**5. Liviya,** L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min $km^2$, əhalisi 6,5 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripoli şəhəridir. – 7.

**6. Müəmmər əl-Qəddafi** (1942–2011) – Liviyanın dövlət və siyasi xadimi, 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 7.

**7. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 8, 39, 41, 87, 101, 118, 135, 154, 205–206, 207, 209, 223, 225.

**8. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min $km^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 9.

**9. II Beatriks** (d.1938) – 1980–2013-cü illərdə Niderland Krallığının kraliçası olmuşdur. – 9.

**10. Serbiya,** S e r b i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 10–20.

**11. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 10–20.

**12. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 14, 289.

**13. Ramil Usubov,** R a m i l  İ d r i s  o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 14.

**14. Dağlıq Qarabağ Muxtar Vilayəti –** Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 17, 27, 35, 37, 40, 58, 60, 72, 73, 74, 104, 115, 120, 128, 135,

143, 160, 161, 179, 185, 190, 192, 196, 205, 209, 212–227, 266, 267, 268, 330.

**15. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 17, 27, 35, 41, 72, 143, 206, 215.

**16. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 19, 20, 40, 57, 58, 61, 139, 146, 151, 183, 213, 215, 286, 287, 312.

**17. Helsinki aktı** – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə

aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 20, 216.

**18. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 21.

**19. İordaniya,** İ o r d a n i y a  H a ş i m i l ə r  K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridır. – 22–29.

**20. II Abdullah,** A b d u l l a h  b i n  H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. – 22–29.

**21. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 109, 144, 206, 213.

**22. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəl-

manların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 27, 72, 73, 142, 144, 206, 213, 286, 287.

**23. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 30–48, 51, 102–123, 168, 336.

**24. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 30–48, 104, 105, 336.

**25. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min km$^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdiril-

di və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 35, 41, 42, 45, 128, 190.

**26. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 37, 43–48.

**27. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 37, 40, 135, 196, 205, 209.

**28. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 37, 101, 154.

**29. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 37, 88, 256.

**30. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 39, 41, 55, 88, 111, 115, 119, 133–135, 209, 256.

**31. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 39–41, 135, 184, 196–197, 209.

**32. Türkiyə Böyük Millət Məclisi** (TBMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. – 40.

**33. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 40.

**34. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 40, 41, 114, 150, 208, 292.

**35. Muttəki Mənuçehr** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 40.

**36. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon $km^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 40, 41.

**37. Luis İnasiu Lula da Silva** (d.1945) – 2003–2010-cu illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 41.

**38. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK

Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inki-

şaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçilmişdir.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 44, 62, 63, 68, 69, 81, 144, 170, 171, 172, 174, 175, 212, 223, 224, 225, 229, 231, 234, 235, 237, 315, 316.

**39. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 51, 103, 107–110, 336.

**40. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 300

milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 52,76.

**41. Pratibha Patil** (d.1934) – hind hüquqşünası, siyasətçi. 2007–2012-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 52, 76.

**42. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min $km^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridır. – 53.

**43. Ciorcio Napolitano** (d.1925) – İtaliyanın siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 53.

**44. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 9,8 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 54.

**45. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O, həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 54.

**46. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min $km^2$, əhalisi 3 milyon nəfərdir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. Paytaxtı Mahaçqala şəhəridir. – 55.

**47. Maqomedsalam Maqomedov** (d.1964) – Rusiyanın siyasi və dövlət xadimi. 2010–2013-cü illərdə Dağıstan Respublikasının Prezidenti olmuşdur. – 55.

**48. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 88,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 56, 228, 251.

**49. Hüsnü Mübarək,** Seyid Məhəmməd (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 56, 251.

**50. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 57.

**51. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 59, 60–61, 73, 109, 144, 206, 213, 325.

**52. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel ) idi. Azərbaycan hökuməti yeni suve-

ren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 66, 67–75.

**53. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası;

Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 70, 146, 225, 253, 255–257, 312, 320, 322.

**54. Avropa Parlamenti, Avroparlament** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Avroparlament daim işləyən orqandır. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 73, 109, 126, 144, 190, 206, 213, 215, 225.

**55. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv-dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 73, 185, 189, 190, 191, 195, 196.

**56 Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 77, 335.

**57. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 77,335.

**58. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,380 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisi, dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekin şəhəridir. – 78, 305, 307.

**59. «Total»** – məşhur fransız neft şirkəti. 1924-cü ildə təşkil edilmişdir. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 79.

**60. «Eni»** – İtaliya neft və qaz kampaniyası. Mənzil-qərargahı Romadadır. 1953-cü ildə İtaliya dövləti tərəfindən yaradılmışdır. XX əsrin 90-cı illərində, XXI əsrin əvvəllərində bir hissəsi özəlləşdirilmişdir. «Eni» dünyanın 90 ölkəsində fəaliyyət göstərir. – 79.

**61. «Türk petrolları»,** T ü r k i y ə p e t r o l l a r ı – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TPAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 79.

**62.** **«Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 79.

**63.** **«Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 81.

**64.** **Riçard Morninqstar** (d.1945) – ABŞ Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi (2009–2012), ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur (2012–2014) – 87.

**65.** **II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 89.

**66.** **Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 90, 283.

**67.** **Anibal Kavaku Silva** (d.1939) – Portuqaliyanın siyasi xadimi. 2006–2016-cı illərdə Portuqaliya Respublikasının prezidenti, 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 90.

**68.** **Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən

regional dövlətlərarası bank. 1991-ci ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 91.

**69. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 92–99, 153, 256.

**70. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. – 92–99,153.

**71. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u S e y i d o ğ l u (d.1955) – iqtisadçı. 2000–2001-ci illərdə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ildən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 97.

**72. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 97.

**73. Mahmud Kərimov,** M a h m u d K ə r i m o ğ l u (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 97.

**74. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 147,5 min km$^2$, əha-

lisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 100.

**75. Zillur Rəhman** (1929–2013) – Banqladeşin siyasi və dövlət xadimi. 2009–2013-cü illərdə Banqladeş Xalq Respublikasının Prezidenti olmuşdur. –100.

**76. Robert Qeyts** (d.1943) – Amerikanın hərbi və dövlət xadimi. 2006–2011-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. – 101.

**77. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 102, 123, 255, 257, 301, 310.

**78. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Drujba» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademi-

yasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 102, 123, 301, 310.

**79. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 102, 123, 255, 257, 301, 310.

**80. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 105.

**81. Makedoniya,** M a k e d o n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min $km^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 106,281.

**82. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 106, 281.

**83. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. –109.

**84. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası

Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 111, 119.

**85. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 112, 113, 115, 255, 257, 299, 311.

**86. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 114,150, 208,292.

**87. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 124.

**88. Naoto Kan** (d.1946) – Yaponiyanın dövlət və siyasi xadimi. 2010–2011-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 124.

**89. Filippin,** F i l i p p i n R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min $km^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Manila şəhəridir. – 125.

**90. III Beniqno Akino** (d.1960) – siyasətçi. 2010–2016-cı illərdə Filippin Respublikasının Prezidenti olmuşdur. – 125.

**91. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi** (Lətif Kərimov adına) – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, çoxsaylı çeşidləri qorunub saxlanılır. Bu gün muzeyin 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 132.

**92. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 132.

**93. Lüksemburq,** B ö y ü k  L ü k s e m b u r q  H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 576 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 136.

**94. Sloveniya,** S l o v e n i y a  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyana şəharidır. – 137.

**95. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniya Respublikasının Prezidenti olmuşdur. – 137.

**96. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 138.

**97. İvo Yosipoviç** (d.1957) – Xorvatiyanın siyasi xadimi, kompozitor, pedaqoq. 2010–2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 138.

**98. Avstriya,** A v s t r i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridır. – 140.

**99. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 140.

**100. İslam İnkişaf Bankı** (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. 1991-ci ildən Azərbaycan Respublikası İslam İnkişaf Bankının üzvüdür. – 141–149.

**101. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 146, 262.

**102. İpək yolu**, B ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından

eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 147.

**103. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon $km^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 152.

**104. Jan Mişel** (d.1957) – 2005–2010-cu illərdə Kanadanın general-qubernatoru olmuşdur. – 152.

**105. Malavi,** M a l a v i  R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 118,5 min $km^2$, əhalisi 16,7 milyon nəfərdir. Dövlət başçısı prezidentdir. Paytaxtı Lilonqve şəhəridir. – 155.

**106. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən

ermәni separatçıları tәrәfindәn işğal edilmişdir. – 160, 161, 214, 223.

**107. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cәnubi Qafqazın mәrkәzi vә qәrb hissәsindә dövlәt. Sahәsi 69,7 min km$^2$, әhalisi 3,7 milyon nәfәrdir. Dövlәt başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şәhәridir. – 168, 227, 301–310, 332.

**108. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şәrqi Avropada – Pribaltikada dövlәt. Sahәsi 65,3 min km$^2$, әhalisi 2,8 milyon nәfәrdir. İnzibati әrazisi 44 rayona bölünür vә respublika tabeçiliyinә 11 şәhәr daxildir. Dövlәt başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şәhәridir. – 180.

**109. Dalya Qribauskayte** (d.1956) – Litva siyasәtçisi. 2009-cu ildәn Litva Respublikasının Prezidentidir. – 180.

**110. Algirdas Brazauskas** (1932–2010) – Litva dövlәt vә siyasi xadimi, 1993–98-ci illәrdә Litva Respublikasının Prezidenti olmuşdur. – 180.

**111. Albaniya,** A l b a n i y a  R e s p u b l i k a s ı – Cәnubi Avropada, Balkan yarımadasında dövlәt. Sahәsi 28,7 min km$^2$, әhalisi 3 milyon nәfәrdir. İnzibati cәhәtdәn 26 retiyә (rayona) bölünür. Dövlәtin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Mәclisidir. Paytaxtı Tirana şәhәridir. – 181.

**112. Suriya,** S u r i y a  Ә r ә b  R e s p u b l i k a s ı – Asiyada dövlәt. Sahәsi 185,2 min km$^2$, әhalisi 17,7 milyon nәfәrdir. İnzibati әrazisi 10 mühafazaya (qubernatorluğa) vә Dәmәşq munisipalitetinә bölünür. Dövlәt başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dәmәşq şәhәridir. – 182.

**113. Bәşşar әl-Әsәd** (d.1965) – 2000-ci ildәn Suriya Әrәb Respublikasının Prezidentidir. – 182.

**114. Piter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə P.Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 185.

**115. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 186–193.

**116. Georgi Pırvanov** (d.1957) – Bolqarıstanın siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2002–2012-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 186–193.

**117. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 194, 298.

**118. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 195,224,333.

**119. Kristian Vulf** (d.1959) – alman siyasətçisi . 2010–2012-ci illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 195, 333.

**120. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 196–197.

**121. Monqolustan,** M o n q o l u s t a n  R e s p u b l i k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 198.

**122. Saxiaqiyn Elbeqdorj** (d.1963) – 2009-cu ildən Monqolustan Respublikasının Prezidentidir. 1998 və 2004–2006-cı illərdə Monqolustanda Baş nazir vəzifəsində çalışmışdır. – 198.

**123. Hillari Klinton** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 205–206, 225.

**124. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 210.

**125. *bp*,** «B r i t i ş h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 211.

**126. Toni Heyvord** (d.1957) – britaniyalı iş adamı. 1982-ci ildən *bp* şirkətində müxtəlif vəzifələrdə çalışmışdır. 2007–2010-cu illərdə *bp*-nin icraçı direktoru olmuşdur. – 211.

**127. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi

73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 216.

**128. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 221, 23, 330.

**129. Bakı Musiqi Akademiyası** (BMA) – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi vardır. Təhsil iki pilləlidir – bakalavr və magistratura. – 223.

**130. Fərhad Bədəlbəyli,** Fərhad Şəmsi oğlu (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 223–224.

**131. Qırğızıstan,** Qırğızıstan Respublikası – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200,0 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 247, 295.

**132. Belçika,** Belçika Krallığı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 248.

**133. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 248.

**134. Peru,** P e r u R e s p u b l i k a s ı – Cənubi Amerikanın qərbində dövlət. Sahəsi 1285,2 min km², əhalisi 32,2 milyon nəfərdir. İnzibati ərazisi 12 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Konqresdir. Paytaxtı Lima şəhəridir. – 249.

**135. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km², əhalisi 393 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 250.

**136. Məhəmməd Naşid** (d.1967) – 2008–2012-ci illərdə Maldiv Respublikasının Prezidenti olmuşdur. – 250.

**137. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km², əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 252.

**138. VI Məhəmməd,** b i n ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 252.

**139. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km², əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici ha-

kimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 280.

**140. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 km$^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 282.

**141. Sellapan Ramanatan** (1924–2016) – 1999–2011-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 282.

**142. Mavritaniya,** M a v r i t a n i y a İ s l a m R e s p u b- l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 284–290.

**143. Fərid Mansurov,** F ə r i d S a l m a n o ğ l u (d.1982) – Yunan-Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiadasında birinci yeri tutmuşdur. 2007, 2008-ci illərdə isə dünya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 291.

**144. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1 919,4 min km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridır. – 294.

**145. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziya Respublikasının Prezidenti olmuşdur. – 294.

**146. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 296.

**147. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 297.

**148. Həmid Kərzai** (d.1957) – 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 297.

**149. Azərbaycan Diplomatik Akademiyası** (ADA), Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə aparmalar üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 312.

**150. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva

Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 314.

**151. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın kiçik qızı, Heydər Əliyevin nəvəsi. Film prodüseri. – 314.

**152. Əflatun Amaşov,** Ə f l a t u n Ə h m ə d o ğ l u (d.1957) – jurnalist. Milli Məclisin üzvüdür. 2003-cü ildən Azərbaycan Respublikası Mətbuat Şurasının sədridir. – 319–331.

## Şəxsi adlar göstəricisi


**Abasov İsmət** –289
**Abbasov Əli** – 97
**II Abdullah** – 22–29
**Abdullayev Rövnəq** – 105
**Abutalıbov Hacıbala** – 102, 123, 257, 301, 310
**Ağayev Məcid** – 179
**Akçura Fikrət** – 139
**Alao Sufyan** – 182
**II Albert** – 248
**Amado Luis** – 283
**Amorizim** – 40
**Amaşov Əflatun** – 319–331
**Anri** *(hersoq)* – 136
**Ataşova Qənirə** –39
**Atatürk Mustafa Kamal** – 37, 43–48
**Ayala Luis** – 337
**Bağırov Hüseynqulu** – 97
**Beatriks** – 9
**Bədəlbəyli Fərhad** – 229–224
**Billah şah Tuanku** – 296
**III Beniqno Akino** – 125
**Bradtken Robert** – 135, 209
**Brazauskas Algirdas** – 180
**Bukikkio Mod** – 59
**Bülbül** – 224
**Daciç İvika** – 14
**Dinkiç Mladjen** – 15
**Davudoğlu Əhməd** – 40
**Çjou Syaoçuan** – 78
**Eldarov Ömər** – 43
**II Elizabet** – 89

**Elbeqdorj Saxiaydiyn** – 198
**Eyvazov Mahmud** – 179
**Əbiyev Səfər** – 156
**Əhmədinejad Mahmud** – 114, 150, 208, 292
**Əl-Əsəd Bəşşar** – 182
**Əl-Qəddafi Müəmmər** – 7
**Ələkbərov Füzuli** – 127, 129
**Əliyev Heydər** – 44, 62, 63, 68, 69, 81, 144, 170, 171, 172, 174, 175, 212, 223, 224, 225, 229, 231, 234, 235, 237, 315, 316
**Əliyeva Arzu** – 314
**Əliyeva Leyla** – 314
**Əliyeva Mehriban** – 5, 30, 43, 47, 48, 57, 79, 132, 186, 200–201, 223, 224, 244, 301, 310, 313, 314, 334
**Əliyev Natiq** – 105, 289, 290
**Əlizadə Firəngiz** – 5
**Ərdoğan Əminə** – 30, 43, 48
**Ərdoğan Rəcəb Tayyib** – 30–48, 104, 105, 335
**Əsədov Heydər** – 97
**Fasye Bernar** – 135, 209
**Fehmi Samih** – 228
**Filippo Jan Pol** – 204
**Fişer Hayntz** – 140
**Gilauri Nika** – 332
**Gimpu Mihay** – 300
**Gözəl Əbdülbari** – 316
**Gül Abdüllah** – 51, 103, 107–110, 336
**Güvənc Duyğu** – 38
**Geytin Əhməd** – 56
**Harris Devid** – 207
**Hacıbəyli Üzeyir bəy** – 67
**Heyvord Toni** – 211
**Həsənov Vüqar** – 260
**Hüseyni Məhəmməd** – 208

**Hyseyni Şəmsəddin** – 150
**Hüseynova Hicran** – 96
**İvanov George** – 106, 281
**Jan Mişel** – 152
**Kalin Valter** – 58
**Kamal Abdulla** – 224–225
**Kameron Devid** – 6
**XVI Karl Qustav** – 54
**Kasprşik Anji** – 135, 209
**Kaydanou Tina** – 8
**Kərimov Mahmud** – 97
**Kərzai Həmid** – 297
**Klinton Hillari** – 205–206, 225
**Kohout Van** – 21
**Komorovski Bronislav** – 210
**Qarayev Əbülfəs** – 132
**Qazıyeva Sona** – 234
**Qeyts Robert** – 101
**Qribauskayte Dalya** – 180
**Qruber Verner** – 91
**Qrişenko Konstantin** – 311
**Quliyev Ceyhun** – 41
**Quliyev Elçin** – 246
**Quliyev Fərman** – 164
**Lomat Zenon** – 97
**Lukaşenko Aleksandr** – 92–97, 153
**Lula da Silva** – 41
**Loythard Doris** – 280
**Maqomedov Maqomedsalam** – 55
**Mansurov Fərid** – 291
**Martınov Sergey** – 96
**Medvedev Dmitri** – 37, 88, 134, 256
**Mehdiyev Ramiz** – 102, 123, 301, 310
**VI Məhəmməd** – 252
**Məhəmməd Əli Əhməd** – 148
**Məmmədov Fazil** – 14

**Məmmədov Ziya** – 49, 50
**Məmmədyarov Elmar** – 14, 289
**Migiro Aşa** – 57
**Morninqstar Riçard** – 87
**Mustafayev Şahin** – 15, 97
**Muttəki Mənuçehr** – 40
**Mübarək Hüsnü** – 56, 251
**Müslümov Şirəli** – 179
**Napolitano Ciorcio** – 53
**Naşid Məhəmməd** – 250
**Nazarbayev Nursultan** – 107
**Naoto Kan** – 124
**Nvaze Kanayo** – 151
**Obama Barak** – 37, 101, 154
**Otunbayeva Roza** – 247, 295
**Özer Seçil** – 40
**Pan Gi Mun** – 57
**Panniçpakdi Supaçay** – 312
**Panteley Nikolay** – 97
**Patil Pratibha** – 52, 76
**Pirverdiyev Etibar** – 238
**Pırvanov Georgi** – 186–193
**Pırvanova Zorka** – 186
**Pənahov Məzahir** – 259
**Popov İqor** – 135, 209
**Provera Fiorello** – 126
**Putin Vladimir** – 111, 119
**Ramanatan Sellapan** – 282
**Rasizadə Artur** – 102, 123, 257, 301, 310
**Rəhimov Arzu** – 62
**Rəhmanov Zillur** – 100
**Rzayev Rövşən** – 225
**Rulofs Sandra** – 301, 310
**Saakaşvili Mixeil** – 301–310, 332
**Sarkozi Nikola** – 196–197
**Sarkisyan Serj** – 134

**Semnebi Piter** – 185
**Səfərov Bayram** – 222–23
**Silva Anibal** – 90
**Sirelli Jan-Fransua** – 184
**Spindeleqqer Mixael** – 140
**Şaumyan Stepan** – 161
**Şenel Fazil** – 105
**Şirəliyev Oqtay** – 253
**Şixəliyeva Gültəkin** – 174
**Şmitt Pal** – 194, 298
**Tadiç Boris** – 10–20
**Tinayeva Rəyasət** – 243–244
**Topali Jozefina** – 181
**Tyurk Danilo** – 137
**Uld Əbdüləziz Məhəmməd** – 284–290
**Uld Muknass Naha** – 289, 290
**Uld Tah Sidi** – 289
**Usubov Ramil** – 14
**Vaqif Molla Pənah** – 224, 226
**Va Mutarika Binqu** – 155
**Vəliyev Arif** – 96
**Vaşadze Qriqol** – 227
**Voytov İqor** – 97
**Vulf Kristian** – 195, 333
**Vuyanoviç Filipp** – 199
**Yanukoviç Viktor** – 112–113, 256, 299
**Yeremiç Vuk** – 14
**Yıldız Taner** – 105
**Yudhoyono Susilo** – 294
**Yosipoviç İvo** – 138
**Zərdari Asif** – 77, 335

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Ağdaş** | – 276 |
| **Albaniya** | – 181 |
| **Almaniya** | – 195, 224, 333 |
| **Amerika Birləşmiş Ştatları** | – 8, 39, 41, 87, 101, 118, 135, 154, 205– 206, 207, 209, 223, 225 |
| **Aralıq dənizi** | – 104, 119 |
| **Asiya** | – 107, 108, 109, 147 |
| **Avrasiya** | – 87 |
| **Avropa** | – 109, 147, 187, 189, 191, 192,193,312 |
| **Avstriya** | – 140 |
| **Balakən** | – 237–246,276 |
| **Balkan** | – 13,18 |
| **Banqladeş** | – 100 |
| **Batumi** | – 301–310 |
| **Belarus** | – 92–99, 153, 256 |
| **Belçika** | – 248 |
| **Bolqarıstan** | – 186–193 |
| **Böyük Britaniya** | – 6, 89 |
| **Braziliya** | – 40, 41 |
| **Cənubi Qafqaz** | – 8, 185, 211 |
| **Çexiya** | – 21 |
| **Çin** | – 78, 305, 307 |
| **Dağıstan** | – 55 |
| **Dağlıq Qarabağ** | – 17, 27, 35, 37, 40, 58, 60, 72, 73, 74, 104, 115, 120, 128, 135, 143, 160, 161, 179, 185, 190, 192, 196, 205, 209, 212–227, 266, 267, 268, 330. |
| **Danimarka** | – 168 |
| **Dəkkə** | – 100 |

**Duysburq** – 333
**Dübəndi** – 293
**Əfqanıstan** – 297
**Filippin** – 125
**Fransa** – 39, 41, 135, 184, 196–197, 209
**Gəncə** – 128
**Göyçay** – 276
**Gürcüstan** – 168, 227, 301–310, 332
**Hindistan** – 52, 76
**Xaçmaz** – 63
**Xankəndi** – 160, 161, 214, 223
**Xocalı** – 221, 223, 330
**Xəzər dənizi** – 6, 18
**Xorvatiya** – 138
**Xırdalan** – 293
**İndoneziya** – 294
**İordaniya** – 22–29
**İran** – 40, 41, 114, 150, 208, 292
**İstanbul** – 102–123
**İsveç** – 54
**İsveçrə** – 280
**İtaliya** – 53
**Kanada** – 152
**Kəlbəcər** – 216
**Kosovo** – 16, 19
**Qafqaz** – 13, 18, 88
**Qazaxıstan** – 107, 256
**Qırğızıstan** – 247, 295
**Qusar** – 128, 130
**Qara dəniz** – 18
**Laçın** – 216
**Lahor** – 77
**Lerik** – 169–179
**Lənkəran** – 633, 162–168
**Litva** – 180

**Liviya** – 7
**Lüksemburq** – 136
**Macarıstan** – 194, 298
**Madrid** – 38, 72, 116
**Makedoniya** – 106, 281
**Malavi** – 155
**Maldiv** – 250
**Malayziya** – 296
**Manqalor** – 52
**Masazır** – 315–318
**Mavritaniya** – 284–290
**Mərakeş** – 252
**Mərkəzi Asiya** – 307
**Misir** – 56, 228, 251
**Moldova** – 300
**Monqolustan** – 198
**Monteneqro** – 199
**Naxçıvan** – 35, 41, 42, 45, 128, 130
**Niderland** – 9
**Özbəkistan** – 168
**Pakistan** – 77, 335
**Peru** – 249
**Polşa** – 210
**Portuqaliya** – 90, 283
**Rusiya** – 39, 41, 55, 88, 111, 115, 119, 133–135, 209, 256
**Sankt-Peterburq** – 133–135
**Sevastopol** – 255
**Serbiya** – 10–20
**Sinqapur** – 282
**Sloveniya** – 137
**Sofiya** – 189
**Sumqayıt** – 293
**Sütəmirdov** *(kənd)* – 162, 166
**Suriya** – 182
**Şirvan** – 63

**Tehran** – 40
**Tbilisi** – 304
**Tripoli** – 7, 9
**Türkan** – 293
**Türkiyə** – 30–48, 51, 102–123, 168, 336
**Ukrayna** – 12, 113, 15, 255–257, 299, 311
**Yalta** – 256–257
**Yaponiya** – 124
**Yevlax** – 63
**Zaqatala** – 229–236
**I Zahedan** – 292
**Zıg** – 293
**Zonquldak** (*Türkiyədə vilayət*) – 51

# MÜNDƏRİCAT

«İNTİZAR» OPERASININ YENİ QURULUŞDA PREMYERASINA BAXIŞ

*11 may 2010-cu il.............................................................................. 5*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB DEVİD KAMERONA

*12 may 2010-cu il.............................................................................. 6*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

*12 may 2010-cu il.............................................................................. 7*

ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOU İLƏ GÖRÜŞ

*12 may 2010-cu il.............................................................................. 8*

NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

*13 may 2010-cu il.............................................................................. 9*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ BORİS TADİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 may 2010-cu il............................................................................ 10*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SERBİYA PREZİDENTİ BORİS TADİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*13 may 2010-cu il............................................................................ 11*

AZƏRBAYCAN VƏ SERBİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*13 may 2010-cu il............................................................................ 12*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 may 2010-cu il............................................................................... 14*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN
BƏYANATLARLA ÇIXIŞLARI

*13 may 2010-cu il............................................................................... 16*

ÇEXİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ,
XARİCİ İŞLƏR NAZİRİ YAN KOHOUTUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 may 2010-cu il............................................................................... 21*

İORDANİYA KRALI II ABDULLAHIN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*16 may 2010-cu il............................................................................... 22*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK
GÖRÜŞÜ

*16 may 2010-cu il............................................................................... 23*

AZƏRBAYCAN VƏ İORDANİYA RƏHBƏRLƏRİNİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*16 may 2010-cu il............................................................................... 24*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN
BƏYANATLARLA ÇIXIŞLARI

*16 may 2010-cu il............................................................................... 26*

TÜRKİYƏ RESPUBLİKASININ  BAŞ NAZİRİ RƏCƏB
TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ
SƏFƏRİ

*17 may 2010-cu il............................................................................... 30*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*17 may 2010-cu il*.......................................................................... *31*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*17 may 2010-cu il*.......................................................................... *32*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*17 may 2010-cu il*.......................................................................... *34*

BAKIDA TÜRKİYƏ RESPUBLİKASININ BANİSİ QAZİ MUSTAFA KAMAL ATATÜRKÜN ABİDƏSİNİN AÇILIŞI  MƏRASİMİ

*17 may 2010-cu il*.......................................................................... *43*

PAYTAXTIN MÜXTƏLİF YERLƏRİNDƏ İSTİFADƏYƏ VERİLMİŞ PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*20 may 2010-cu il*.......................................................................... *49*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*20 may 2010-cu il*.......................................................................... *51*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ

*22 may 2010-cu il*.......................................................................... *52*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*24 may 2010-cu il*.......................................................................... *53*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*24 may 2010-cu il............................................................................ 54*

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASI-
NIN PREZİDENTİ MAQOMEDSALAM MAQOMEDO-
VUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*24 may 2010-cu il............................................................................ 55*

MİSİRİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD ABUL
ĞEYTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*24 may 2010-cu il............................................................................ 56*

BMT BAŞ KATİBİNİN MÜAVİNİ XANIM AŞA ROUZ
MİGİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2010-cu il............................................................................ 57*

BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN
İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER
KALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*24 may 2010-cu il............................................................................ 58*

AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ XANIM
MOD DE BUR BUKİKKİONUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 may 2010-cu il............................................................................ 59*

AVROPA ŞURASINA ÜZV-DÖVLƏTLƏRİN GENDER
BƏRABƏRLİYİNƏ HƏSR OLUNMUŞ VII KONFRANSIN
İŞTİRAKÇILARINA

*24 may 2010-cu il............................................................................ 60*

DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN YENİ İNZİBATİ
BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 may 2010-cu il............................................................................ 62*

PAYTAXTDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2010-cu il*.......................................................................... *66*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL

*27 may 2010-cu il*.......................................................................... *67*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ

*29 may 2010-cu il*.......................................................................... *76*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*29 may 2010-cu il*.......................................................................... *77*

ÇİNİN MƏRKƏZİ BANKININ SƏDRİ ÇJOU SYAOÇUAN İLƏ GÖRÜŞ

*31 may 2010-cu il*.......................................................................... *78*

BAKIDA XVII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2010-cu il* .......................................................................... *79*

XVII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA NİTQ

*1 iyun 2010-cu il* .......................................................................... *80*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyun 2010-cu il* .......................................................................... *87*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*2 iyun 2010-cu il* ........................................................................................ *88*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN
KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*2 iyun 2010-cu il* ........................................................................................ *89*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*2 iyun 2010-cu il* ........................................................................................ *90*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ
DİREKTORLAR ŞURASININ ÜZVÜ VERNER
QRUBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*2 iyun 2010-cu il* ........................................................................................ *91*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ALEKSANDR LUKAŞENKONUN AZƏRBAYCANA
RƏSMİ SƏFƏRİ

*3 iyun 2010-cu il* ........................................................................................ *92*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
BELARUS PREZİDENTİ ALEKSANDR
LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*3 iyun 2010-cu il* ........................................................................................ *93*

AZƏRBAYCAN VƏ BELARUS PREZİDENTLƏRİNİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*3 iyun 2010-cu il* ........................................................................................ *94*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*3 iyun 2010-cu il* ........................................................................................ *96*

BELARUSUN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN
YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA
MƏRASİMİ

*4 iyun 2010-cu il* ........................................................................... *98*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*4 iyun 2010-cu il* ........................................................................... *99*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA

*4 iyun 2010-cu il* ........................................................................... *100*

ABŞ MÜDAFİƏ NAZİRİ ROBERT QEYTS İLƏ GÖRÜŞ

*6 iyun 2010-cu il* ........................................................................... *101*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*7 iyun 2010-cu il* ........................................................................... *102*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*7 iyun 2010-cu il* ........................................................................... *103*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB
TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*7 iyun 2010-cu il* ........................................................................... *104*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*7 iyun 2010-cu il* ........................................................................... *105*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ
GEORGE İVANOV İLƏ GÖRÜŞ

*7 iyun 2010-cu il* ........................................................................... *106*

ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN ÜÇÜNCÜ ZİRVƏ TOPLANTISI

*8 iyun 2010-cu il* ........................................................................... *107*

RUSİYANIN BAŞ NAZİRİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*8 iyun 2010-cu il* ........................................................................... *111*

UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*8 iyun 2010-cu il* ........................................................................... *112*

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞ

*8 iyun 2010-cu il* ........................................................................... *114*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏSİ

*8 iyun 2010-cu il* ........................................................................... *115*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB NAOTO KANA

*10 iyun 2010-cu il*........................................................................... *124*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ III BENİQNO AKİNOYA

*10 iyun 2010-cu il*........................................................................... *125*

AVROPA PARLAMENTİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ FİORELLO PROVERA İLƏ GÖRÜŞ

*10 iyun 2010-cu il*........................................................................... *126*

ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN İNZİBATİ BİNASININ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*10 iyun 2010-cu il*........................................................................... *127*

AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİNİN YENİ BİNASINDA APARILAN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ VƏ MUSİQİ MƏDƏNİYYƏTİ DÖVLƏT MUZEYİNİN ESKİZİ VƏ İNŞASI ÜÇÜN NƏZƏRDƏ TUTULAN YERLƏ TANIŞLIQ

*10 iyun 2010-cu il........................................................................... 132*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ

*17 iyun 2010-cu il........................................................................... 133*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*17 iyun 2010-cu il........................................................................... 134*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*17 iyun 2010-cu il........................................................................... 135*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*22 iyun 2010-cu il........................................................................... 136*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TYURKA

*22 iyun 2010-cu il........................................................................... 137*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ

*22 iyun 2010-cu il........................................................................... 138*

BMT-nin ÖLKƏMİZDƏ YENİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ FİKRƏT AKÇURA İLƏ GÖRÜŞ

*22 iyun 2010-cu il........................................................................... 139*

AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ
MİXAEL ŞPİNDELEQQERİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*23 iyun 2010-cu il........................................................................... 140*

BAKIDA İSLAM İNKİŞAF BANKI QRUPUNUN 35-ci
İLLİK TOPLANTISININ AÇILIŞI MƏRASİMİ

*23 iyun 2010-cu il........................................................................... 141*

İRANIN İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ
SEYİD ŞƏMSƏDDİN HÜSEYNİNİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyun 2010-cu il........................................................................... 150*

BMT-nin KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ
BEYNƏLXALQ FONDUNUN (İFAD) PREZİDENTİ
KANAYO NVANZE İLƏ GÖRÜŞ

*23 iyun 2010-cu il........................................................................... 151*

KANADANIN GENERAL-QUBERNATORU
ZATİ-ALİLƏRİ XANIM MİŞEL JANA

*24 iyun 2010-cu il........................................................................... 152*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*24 iyun 2010-cu il........................................................................... 153*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*24 iyun 2010-cu il ..........................................................................154*

MALAVİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB BİNQU VA MUTARİKAYA

*24 iyun 2010-cu il........................................................................... 155*

AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏ-RİNİN YARADILMASININ 92-ci İLDÖNÜMÜ MÜNA-SİBƏTİLƏ MÜDAFİƏ NAZİRLİYİNİN, DÖVLƏT SƏR-HƏD XİDMƏTİNİN VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ BİRLƏŞMƏ VƏ HİSSƏLƏ-RİNİN İRİMİQYASLI BİRGƏ ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMLƏRİ İLƏ TANIŞLIQ

*24 iyun 2010-cu il.......................................................................... 156*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LƏNKƏRAN RAYONUNA SƏFƏRİ

*25 iyun 2010-cu il.......................................................................... 162*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LERİK RAYONUNA SƏFƏRİ

*25 iyun 2010-cu il.......................................................................... 169*

LERİK RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏN-DƏLƏRİ İLƏ GÖRÜŞ

*25 iyun 2010-cu il.......................................................................... 172*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*29 iyun 2010-cu il.......................................................................... 180*

ALBANİYA PARLAMENTİNİN SƏDRİ JOZEFİNA TOPALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyun 2010-cu il.......................................................................... 181*

SURİYANIN NEFT VƏ MİNERAL EHTİYATLAR NAZİRİ, SURİYA–AZƏRBAYCAN HÖKUMƏT-LƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ SUFYAN ALAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyun 2010-cu il.......................................................................... 182*

BMT-nin SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KANDE YUMKELLANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyun 2010-cu il......................................................................... 183*

FRANSANIN GDF SUEZ ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ, «AVROQAZ»IN PREZİDENTİ JAN-FRANSUA SİRELLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyun 2010-cu il......................................................................... 184*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİ İLƏ GÖRÜŞ

*30 iyun 2010-cu il......................................................................... 185*

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*30 iyun 2010-cu il......................................................................... 186*

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENT-LƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*30 iyun 2010-cu il......................................................................... 187*

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENT-LƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*30 iyun 2010-cu il......................................................................... 188*

MACARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PAL ŞMİTƏ

*1 iyul 2010-cu il ......................................................................... 194*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİ-DENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA

*2 iyul 2010-cu il ......................................................................... 195*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*2 iyul 2010-cu il* ............................................................................. *196*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*2 iyul 2010-cu il* ............................................................................. *198*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*2 iyul 2010-cu il* ............................................................................. *199*

FƏVVARƏLƏR MEYDANINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 iyul 2010-cu il* ............................................................................. *200*

HEYDƏR ƏLİYEV VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ YOL QOVŞAĞININ İKİNCİ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyul 2010-cu il* ............................................................................. *202*

AVROPA YAYIMLARI BİRLİYİNİN PREZİDENTİ JAN POL FİLİPPO BAŞDA OLMAQLA BİRLİYİN İDARƏ HEYƏTİNİN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞ

*2 iyul 2010-cu il* ............................................................................. *204*

ABŞ-ın DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON İLƏ GÖRÜŞ

*4 iyul 2010-cu il* ............................................................................. *205*

AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD ALLAN HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyul 2010-cu il* ............................................................................. *207*

İRANIN MƏDƏNİYYƏT VƏ İSLAM MAARİFLƏN-
DİRİLMƏSİ NAZİRİ SEYİD MƏHƏMMƏD
HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyul 2010-cu il ........................................................................ 208*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ
NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*5 iyul 2010-cu il ........................................................................ 209*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ

*6 iyul 2010-cu il ........................................................................ 210*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU
TONİ HEYVORD İLƏ GÖRÜŞ

*6 iyul 2010-cu il ........................................................................ 211*

AZƏRBAYCAN RESPUBLİKASI DAĞLIQ QARABAĞ
BÖLGƏSİNİN AZƏRBAYCANLI İCMASININ MƏRKƏZİ
QƏRARGAHININ AÇILIŞI MƏRASİMİ

*6 iyul 2010-cu il ........................................................................ 212*

GÜRCÜSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR
NAZİRİ QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*7 iyul 2010-cu il ........................................................................ 227*

MİSİRİN NEFT NAZİRİ SAMİH FEHMİNİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyul 2010-cu il ........................................................................ 228*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ZAQATALA RAYONUNA SƏFƏRİ

*8 iyul 2010-cu il ........................................................................ 229*

ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 iyul 2010-cu il* ........................................................................ *232*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
BALAKƏN RAYONUNA SƏFƏRİ

*8 iyul 2010-cu il* ........................................................................ *237*

BALAKƏN RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 iyul 2010-cu il* ........................................................................ *241*

QIRĞIZISTAN RESPUBLİKASININ KEÇİD
DÖVRÜ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM
ROZA OTUNBAYEVAYA

*9 iyul 2010-cu il* ........................................................................ *247*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*9 iyul 2010-cu il* ........................................................................ *248*

PERU RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALAN QARSİYAYA

*9 iyul 2010-cu il* ........................................................................ *249*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ

*9 iyul 2010-cu il* ........................................................................ *250*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ
MÜBARƏKƏ

*9 iyul 2010-cu il* ........................................................................ *251*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*9 iyul 2010-cu il* ........................................................................ *252*

SƏHİYYƏ NAZİRLİYİNİN YENİ İNZİBATİ
BİNASI İLƏ TANIŞLIQ

*9 iyul 2010-cu il* ........................................................................... *253*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

*10 iyul 2010-cu il* ........................................................................... *255*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT
BAŞÇILARI İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ

*10 iyul 2010-cu il* ........................................................................... *256*

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ YENİ İNZİBATİ
BİNASININ AÇILIŞI MƏRASİMİ

*12 iyul 2010-cu il* ........................................................................... *258*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
NAZİRLƏR KABİNETİNİN 2010-cu İLİN BİRİNCİ
YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA
NİTQİ

*13 iyul 2010-cu il* ........................................................................... *261*

YEKUN NİTQİ ........................................................................... 269

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM DORİS LOYTHARDA

*14 iyul 2010-cu il* ........................................................................... *280*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA

*14 iyul 2010-cu il* ........................................................................... *281*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMANATANA

*14 iyul 2010-cu il* ........................................................................... *282*

PORTUQALİYANIN XARİCİ İŞLƏR NAZİRİ LUİS AMADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 iyul 2010-cu il ........................................................................ 283*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*15 iyul 2010-cu il ........................................................................ 284*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN TƏKBƏTƏK GÖRÜŞÜ

*15 iyul 2010-cu il ........................................................................ 285*

AZƏRBAYCAN VƏ MAVRİTANİYA PREZİDENT-LƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*15 iyul 2010-cu il ........................................................................ 286*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*15 iyul 2010-cu il ........................................................................ 289*

OLİMPİYA VƏ İKİQAT DÜNYA ÇEMPİONU FƏRİD MANSUROVA

*16 iyul 2010-cu il ........................................................................ 291*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*16 iyul 2010-cu il ........................................................................ 292*

DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİNDƏ BAKININ ƏRAZİ İNKİŞAF PLANI İLƏ TANIŞLIQ

*16 iyul 2010-cu il ........................................................................ 293*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*19 iyul 2010-cu il* ........................................................................ *294*

QIRĞIZISTAN RESPUBLİKASININ KEÇİD DÖVRÜ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ROZA OTUNBAYEVAYA

*19 iyul 2010-cu il* ........................................................................ *295*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

*19 iyul 2010-cu il* ........................................................................ *296*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*19 iyul 2010-cu il* ........................................................................ *297*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PAL ŞMİTƏ

*19 iyul 2010-cu il* ........................................................................ *298*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*19 iyul 2010-cu il* ........................................................................ *299*

MOLDOVA RESPUBLİKASI PREZİDENTİNİN VƏZİFƏSİNİ İCRA EDƏN ZATİ-ALİLƏRİ CƏNAB MİHAY GİMPUYA

*19 iyul 2010-cu il* ........................................................................ *300*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

*19 iyul 2010-cu il* ........................................................................ *301*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*19 iyul 2010-cu il* ........................................................................... *302*

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENT-LƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*19 iyul 2010-cu il* ........................................................................... *303*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRAN-SINDA BƏYANATLARLA ÇIXIŞLARI

*19 iyul 2010-cu il* ........................................................................... *304*

UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 iyul 2010-cu il* ........................................................................... *311*

BMT-nin TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ SUPAÇAY PANİTÇPAKDİ İLƏ GÖRÜŞ

*20 iyul 2010-cu il* ........................................................................... *312*

RESPUBLİKA MEHMANXANASININ TƏMİRDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*20 iyul 2010-cu il* ........................................................................... *313*

DƏNİZKƏNARI MİLLİ PARKDA «PARK BULVAR» TİCARƏT VƏ İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*20 iyul 2010-cu il* ........................................................................... *314*

MASAZIR DUZ ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*21 iyul 2010-cu il* ........................................................................... *315*

MƏTBUAT ŞURASININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*22 iyul 2010-cu il* ........................................................................ *319*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKA GİLAURİ İLƏ GÖRÜŞ

*23 iyul 2010-cu il* ........................................................................ *332*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA

*26 iyul 2010-cu il* ........................................................................ *333*

DÖVLƏT BAYRAĞI MEYDANINDA TAMAMLAMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*26 iyul 2010-cu il* ........................................................................ *334*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*28 iyul 2010-cu il* ........................................................................ *335*

TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ ZƏFƏR ÇAĞLAYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 iyul 2010-cu il* ........................................................................ *336*

SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALA İLƏ GÖRÜŞ

*29 iyul 2010-cu il* ........................................................................ *337*

QEYDLƏR ........................................................................ *338*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *371*

*Coğrafi adlar göstəricisi* ........................................................................ *376*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompyuter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.